YAŞAR KƏRİMOV

# ZƏFƏRƏ GEDƏN YOL

Bakı – 2022

*Bu kitab Azərbaycan Ordusunun uzun illər işğal altında olan ərazilərinin azad olunması zamanı apardığı uğurlu əməliyyatların təhlilinə, Qarabağ münaqişəsinin hərb yolu ilə həllinə və BMT-nin dörd məlum qətnaməsinin icrasına, Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıqlara, rəşadətə, şücaətə, Vətən müharibəsində bilavasitə iştirak edən müəllifin həmin günlərdə yaşadığı və xatirələrə dönən anlara, eləcə də ölkəmizə qarşı aparılan ikiüzlü siyasətin iflasına, Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi şanlı qələbəyə, qardaş və dost ölkələrin göstərdiyi mənəvi və siyasi dəstəyə, Azərbaycanın qələbəsindən sonra regionda yaranmış yeni vəziyyətə həsr olunur.*

**Yaşar Kərimov. "Zəfərə gedən yol".**
Bakı, 2022, "Şərq-Qərb", 184 səh.

*Bu kitabda I və II Qarabağ müharibələrinin iştirakçısı, peşəkar zabitlərin hazırlanmasında öz bilik və təcrübəsini əsirgəməyən, döyüş meydanında düşmənlə bilavasitə savaşan və zəfərin əldə olunmasında yaxından iştirak edən polkovnik Yaşar Şükür oğlu Kərimovun Vətən müharibəsi günlərində qeydə aldığı məqamlar öz əksini tapıb.*

*Əsər həmçinin Vətən torpaqlarını işğaldan azad etmənin, zəfərin əldə olunmasının sevincini bilavasitə döyüş meydanında yaşamış, düşmənin işğal müddətində törətdiyi vəhşilikləri, dağıntıları geniş oxucu kütləsinə çatdırmaq məqsədi daşıyır və gənc nəslə Vətəni, doğma torpaqları göz bəbəyi kimi sevməyi və qorumağı təlqin edir.*

*Kitabda yer alan materialların bəziləri dövrü mətbuatda çap olunub.*

**ISBN: 978-9952-548-39-6**

**© Yaşar Kərimov, 2022**

## Ön söz

Müasir dünya müharibələrə yox deyir, Azərbaycan xalqı da həmin istəklərə qoşulur. Çünki müasir, mədəni dünya inkişafı müharibələrdə deyil, dialoqda, inkişafda və s. görür. Amma bütün bunlar sülh və əmin-amanlıq şəraitində, dünyanın təhlükəsizliyinin təminində əsas rol oynamır. Dünyanın inkişaf etmiş ölkələri "milli maraqlarını qorumaq, onun uğrunda mübarizə aparmaq" adı altında əslində hegomonluğa, dünyaya hökm etməyə can atır.

Azərbaycan Respublikasının yerləşdiyi Cənubi Qafqaz bölgəsi daima dünyanın güc mərkəzlərinin diqqət mərkəzində olmuş, bu gün də bölgə uğrunda onların açıq və ya gizli mübarizəsi gedir. Belə olan halda ancaq Cənubi Qafqaz ölkələri və onun əhalisi əziyyət çəkir. Uzun illər bölgədə həllini tapmayan münaqişələrin yaratdığı fəsadlar inkişafa mənfi təsirini göstərməkdə davam edir. Psixoloji gərginlik, sərhədlərin və kommunikasiyaların bağlı qalması, Ermənistanın ölkəmizə qarşı düşmən kimi yanaşması ilk növbədə onun özünə daha çox ziyan vurdu, qazananlar isə bölgəni təsir dairəsində saxlayan mərkəzlər oldu.

Süni şəkildə yaradılan münaqişələr və onların öz maraqlarında idarə olunması, tərəflər arasında münaqişənin dialoq yolu ilə həllinə maneələr yaradılması və bilərəkdən uzadılması xalqımızın səbrini tarıma çəkdi. Münaqişənin həllinə ikili yanaşma, təcavüzkar ilə təcavüzə məruz qalanın eyni tutulması riyakarlıqdır və təəssüf ki, beynəlxalq hüququn işləməməsidir. Ona görə də müharibə qaçılmaz idi. Belə olan halda 30 il zülm çəkən, torpaqların işğaldan azad olunmasını səbirsizliklə gözləyən xalqımız dağıdıcı, arzuolunmaz, istənilməyən müharibəyə sevinməyə bilməzdi.

Xalqımızın birliyi və Ordumuzun gücü, vahid komandanlıq, əsgərlərimizin şücaəti və qəhrəmanlığı 44 gündə kifayət etdi ki, uzun illərin həsrətinə son qoyulsun. Qarabağ torpaqlarını işğaldan azad edib ədaləti təmin edək. Dünyanın gözü önündə düşməni döyüş meydanında məğlub edib, şanlı zəfər tarixini yazaq. Azərbaycan Ordusu dünyaya XXI əsr müharibələrinin yeni modelini nümayiş etdirməklə dastan yazdı. Bir daha gücünü, qüdrətini dünyaya nümayiş etdirdi. İndi dünyanın nüfuzlu elm mərkəzləri bizim 44 gündə tətbiq etdiyimiz döyüş taktikasını öyrənir, 30 ilə yaxın müddətdə dünyanın səssiz qaldığı, BMT-nin icra etməkdə çətinlik çəkdiyi dörd məlum qətnaməni biz özümüz yerinə yetirdik. Budur qalib xalqın və müzəffər ordunun gücü.



**Adı Hərb tarixinə əbədi olaraq yazılan Müzəffər Ali Baş Komandan**

## Vətən müharibəsi – Zəfər tariximiz

Sentyabrın 27-də Ermənistan silahlı birləşmələri böyük təxribat törətmək məqsədilə ərazilərimizə hücum etdi. Televiziyada Müdafiə Nazirliyinin rəsmi məlumatı yayımlandı: "Azərbaycan Ordusu bütün cəbhə boyu əks-hücum əməliyyatına başlayıb, düşmənə sarsıdıcı zərbələr endirir, şəhidlərimiz var...". Azərbaycan Ordusunun hissələri hücumların qarşısını qətiyyətlə aldı. Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatına başlanıldı. Bu əməliyyat Vətən müharibəsi kimi davam etdirildi və əməliyyat xalqımızın birliyinin rəmzi olaraq **"Dəmir yumruq"** adlandırıldı.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölkəmizdə hərbi vəziyyət və qismən səfərbərlik elan edildi.

Mən sentyabrın 28-də səfərbərlik planına uyğun olaraq yeni



formalaşan birliyin qərargahında vəzifəmin icrasına başladım. Bütün cəbhə boyu şiddətli döyüşlər davam edir, düşmən müqavimət göstərirdi. Azərbaycan Ordusu müdafiə xəttini yarmaq üçün qətiyyətlə döyüşürdü. Müdafiə Nazirliyinin cəbhədəki vəziyyətlə bağlı keçirdiyi brifinqdə Füzuli və Suqovuşan istiqamətində düşmən müdafiəsinin yarılması, düşmənin Murov yüksəkliyindən uzaqlaşdırılması haqqında məlumat verildi. Bu informasiya ictimaiyyətin də, döyüşənlərin də ruh yüksəkliyinə səbəb oldu. Bu, dönməz coşqu idi.

Xalq döyüşən orduya maddi və yüksək səviyyədə mənəvi dəstəyini əsirgəmirdi. Xalqın bu inamı, bu güvənci döyüşçülərin qələbə ruhunu kükrədirdi. Vətən müharibəsində döyüşən ordu ilə ictimaiyyətin şüarı eyni idi: Zəfər bizimdir!

Dünyanın marağı Azərbaycana, Azərbaycanın apardığı ədalətli müharibəyə yönəlmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi fikirlər həm də dünya ictimaiyyətinə ünvanlanmışdı: "Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır!". Xalq bu müqəddəs savaşın qələbə ilə nəticələnəcəyinə əmin idi: bu əminlik ordunun silahlanmasına ən müasir döyüş texnikalarının, pilotsuz uçuş aparatlarının, böyük dağıdıcı gücə malik uzaqvuran raket sistemlərinin daxil edilməsinin, ordunun şəxsi heyətinin döyüş və mənəvi psixoloji hazırlığının, yüksək vətənpərvərliyinin, dövlətə, dövlətçiliyə sədaqətinin əminliyi idi.

Ordu hissələrimiz döyüşə-döyüşə qələbələr qazanırdı. Oktyabrın 3-də Suqovuşan düşməndən azad edildi. Bu qələbə ordunun döyüş əzmini, qələbə ruhunu daha da kükrətdi. Düşmən ilk böyük məğlubiyyətə uğradıldı. Xalq bu qələbəni Böyük Qələbənin başlanğıcı bildi. Döyüşçülərimiz Cəbrayıl istiqamətində düşməni müdafiənin dərinliyinə sıxışdırırdı. Oktyabrın 4-də Cəbrayıl rayon mərkəzi işğaldan azad edildi. Xalq bu qələbəni də böyük çoşqu ilə qarşıladı. Azərbaycan və Türkiyə bayraqları ictimaiyyətin sevincinin carçısı oldu.

 

Səfərbərliklə formalaşan birliyin hazırlığını tamamlayaraq Füzuli istiqamətinə – cəbhə xəttinə yaxın, hər an döyüş tapşırığı yerinə yetirməyə hazır vəziyyətdə yerləşdik. Cəbhədə ağır zərbələr alan düşmən məğlubiyyətin acısını hiss etmişdi, əsgərləri də, zabitləri də silahı, sursatı, döyüş texnikasını atıb qaçırdı.

Cəbhə xətti Cəbrayılın Soltanlı və Xocavəndin Araköl yaşayış məntəqəsinin ətrafında yerləşən yüksəkliklərdən keçirdi. Ordumuz döyüşə-döyüşə irəliləyir, yeni yaşayış məntəqələrini, strateji yüksəklikləri işğaldan azad edirdi. Düşməndən azad olunan səngərlər, istehkamlar təsdiqləyirdi ki, düşmən çox ciddi müdafiə səddi yaradıbmış.

Gərgin döyüşlər zamanı elə bir vəziyyət yarandı ki, düşmən geri çəkiləndə növbəti səngərdə möhkəmlənə bilmədi, geri çəkilməyə məcbur oldu. Həmin səngərə baxış zamanı məlum oldu ki, düşmən oraya əvvəlcədən atıcı silahlar üçün patron, əl qumbaraları, su və ərzaq konservaları yerləşdirib.

Çətin fiziki coğrafi şəraitlərdə, dağlıq-meşəlik ərazidə tapşırıq yerinə yetirən əsgərlərimiz böyük qəhrəmanlıqlar göstərdilər. Döyüşçülərimiz hərbi nəzəriyyəyə əsasən, qəfillik və düşməni gözləmədiyi yerdən vurmaqla, keçilməz qayalıqlardan, meşələrdən, çiskinli, dumanlı havalarda da düşmənin içərisinə sızmağı bacardılar, mümkün olmayanı mümkün edə bildilər.

Suqovuşan, Cəbrayıl, Ağoğlan, Xudafərin, Zəngilan, Qubadlı, Şuşa işğaldan azad edildi. Döyüşdə məğlubiyyətini qəbul edən düşmən üçtərəfli razılaşmanın şərtlərinə əsasən, Ağdam, Kəlbəcər və Laçından çıxmaq məcburiyyətində qaldı.

İşğaldan azad olunan ərazilərdə ermənilivin nə olduğunu sözlə ifadə etmək çətindir: bir yanda dağılmış, xarabalığa çevrilmiş kəndlərimiz, düşmənin müdafiə üçün hazırladığı səngərlər, istehkamlar, işğal müddətində istifadə etdiyi yararlı əkin sahələri, meyvə bağları, o biri yanda isə şiddətli döyüşlərin getdiyini göstərən vurulmuş tankların, döyüş maşınlarının qalıqları, döyüş meydanında qalmış meyitlər və mərmi partlayışlarının yaratdığı çuxurlar.



Qarabağda ancaq yaşayış məntəqələri işğaldan azad edilmədi, onun gözəl təbiəti, dağları, meşələri, çayları da azad edildi.

Oktyabrın sonları günəşli bir gün idi. Qubadlının Xanlıq kəndi işğaldan azad edilmişdi, növbəti tapşırıqları dəqiqləşdirmək üçün Cəbrayıla – qərargaha dönürdük. Sanki uzaqda səmada qara bulud diqqəti çəkirdi. Biz irəlilədikcə gördük ki, o, bulud deyil, azad Qarabağ səmasında görünən quş karvanıdır. Təbiət də, bütün canlılar da erməni faşizminin zülmündən azad olmasına sevinirdi.

Düşmən 44 günün sonunda diz çökdü. Cənubi Qafqaz erməni faşizminin zülmündən qurtardı. Azərbaycanın dövlət sərhədləri bərpa edildi.

Dekabrın 10-da Bakıda Zəfər paradı keçirildi. Azadlıq meydanında vüqarla addımlayan Azərbaycan ordusunun rəşadətli əsgərləri görənlərə unudulmaz anlar yaşatdı.

"Azərbaycan Ordusu" qəzeti №5 (2513) 20.01.2021

## Xalqımızın ziyarətgahına çevrilən Ziyarət dağı

Uzun illərdən sonra xalqımızın Zəfər tarixinə qızıl hərflər ilə yazılan Vətən müharibəsi başladı. Bütün ölkə Ali Baş Komandanının bir sərəncamı ilə səfərbər oldu, cəbhədə düşmənlə savaşan ordunun dəstəyinə tələsdi. Xalqımız sevinc içində idi. Çox keçmədən cəbhədən sevindirici xəbərlər gəlməyə başladı. Düşmən müdafiəsi bir neçə istiqamətdən yarıldı və cəbhənin Füzuli istiqamətində Qaraxanbəyli, Qərvənd, Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edildi. Cəbhənin digər istiqamətində isə oktyabrın 3-də Suqovuşanın işğaldan azad edilməsi xəbəri alındı.

Uğurlu döyüşlər davam etdirildi. Oktyabrın 4-də Cəbrayıl rayon mərkəzi işğaldan azad edildikdən sonra Xocavənd rayonunun ərazisində Qarabağ dağ silsiləsinin cənub şərqində yerləşən Ziyarət dağına həmlə üçün yol açılmış oldu. Ziyarət dağının azad edilməsi cəbhənin bu istiqamətində döyüşən hərbi hissənin rəhbərliyinin qarşısında duran əsas tapşırıqlardan biri idi. Bölgədə Ziyarət dağı strateji mövqeyinə görə böyük əhəmiyyətə malikdir, 2478 m hündürlüyü olan Ziyarət dağından qərbə doğru uzanan Qarabağ dağ silsiləsi Laçın dəhlizinə və Şuşaya kimi gedib çıxır. Şimalda Ağoğlan, qərbdə 1500 m hündürlükdə 28 km məsafədə Şuşa şəhəri yerləşir. Ziyarət dağı ətraf ərazilərin azad edilməsi baxımından mühüm rol oynayırdı. O, sanki ətrafda yerləşən yaşayış məntəqələrinin, yolların nəzarətini özündə saxlayırdı. Dağı azad etmədən Araz boyu əraziləri, Laçın dəhlizini nəzarətə götürmək mümkün deyildi. Oradan Qarabağın ən hündür zirvəsinə, hündürlüyü 2725 m olan Böyük Kirs dağına, Şuşa şəhərinə dərə-təpədən, sıldırım qayalardan və çətin keçilən meşələrdən yollar uzanır. Azərbaycan Ordusunun bölmələri düşmənin gözləmədiyi istiqamətdən, çətin keçilən ərazilərdən müdafiənin dərinliyinə sızaraq Şuşanı 8 noyabrda düşmən işğalından azad etdi. Döyüşçülərin irəlilədiyi həmin cığırlar indi genişləndirilir, avtomobil yolu inşa edilir.



Düşmən də Ziyarət dağının əhəmiyyətini nəzərə alaraq onu əvvəlcədən müdafiəyə hazırlamışdı. Dağın zirvəsinə müasir kameralar yerləşdirmiş və müşahidə sistemi yaratmışdı. Düşmən həmin kameralardan istifadə etməklə dairəvi müşahidə ilə bütün ətraf əraziləri, yolları və yaşayış məntəqələrini nəzarətdə saxlaya bilirdi. Orada uzunmüddətli müdafiə üçün sığınacaqlar hazırlamış, çoxlu sayda sursat və ərzaq toplamışdı. Düşmən ərazi şəraitlərini nəzərə alaraq kamera müşahidə sistemini bir çox yerdə qurmuşdu. Görünür, kameraların görüntüləri bir mərkəzdə toplanaraq orada təhlil edilir və bölmələrimizin fəaliyyəti nəzarətdə saxlanırdı. Bununla kifayətlənməyən düşmən yaxınlıqda yerləşən meşələrdən və yollardan istifadə edərək bölmələrimizi pusquya salır, onların fəaliyyətini ləngidir və vaxt qazanmağa çalışırdı. Yeni ərazilər işğaldan azad edildikcə düşmənin müdafiə sistemi sürətlə dağılırdı. Lakin düşmən böyük itkilər versə də, cəbhədə məğlubiyyətin acısını yaşasa da müqavimət göstərməyə davam edirdi. Çünki ərazilərin əldə saxlanılmasında Ziyarət dağının rolunun böyük olmasını bilirdi.

Oktyabrın 16-sı idi, cəbhə xətti Ziyarət dağının ətrafında yerləşən yüksəkliklərdən keçirdi. Hərbi komandanlıq çətin, keçilməz ərazilərdən sızaraq düşmənin dərinliyinə irəliləmiş qrupların Ziyarət dağını azad etmədən orada möhkəmlənməsini, eləcə də onların təminatının çətin olacağını bilirdi. Yaxında yerləşən yaşayış məntəqələri Köhnə Tağlar və Ağcakənd bir növ düşmən üçün baza rolunu oynayırdı. Düşmənin burada aktiv fəaliyyəti aşkarlanmasa da, bölmələrimizin həmləsi cavabsız qalmırdı, artilleriya və minaatanlardan mövqelərimiz mütəmadi olaraq atəşə tutulurdu. Köhnə Tağlar kəndi burada xüsusi rol oynayırdı.

Günəşli gün idi, sanki təbiət də bizim haqq işimizə dəstək verirdi. Uzaqda Qubadlı və Laçın istiqamətində döyüşlər gedir, artilleriyanın, atəş və mərmi partlayışlarının səsi eşidilirdi. Düşmən qüvvələrini parçalamaq, onun bir hissəsini digər istiqamətə cəlb etmək məqsədilə Ziyarət dağına həmlə üçün əsl məqam yetişmişdi. Ətrafa sakitlik çökmüşdü, hamı diqqətlə əmr gözləyirdi. Birdən

komandirin "Hücum" komandası eşidildi. Ziyarət dağının əks yamacında Tuğ kəndinin yaxınlığında atəş mövqeyində yerləşən artilleriya batareyası və Ağcakənd istiqamətində yerləşən minaatan batareyası sakitliyi pozdu. Artilleriyanın atəşindən sonra düşmən mövqeləri toz-dumana büründü. Bu zaman xüsusi hazırlıqlı kəşfiyyat qrupları düşmən mövqelərinə doğru irəliləyir və orada möhkəmlənirdi. Artilleriya batareyası aldığı sərəncama uyğun olaraq müşahidə kameralarını məhv etmək üçün ərazini atəş altında saxlayırdı. Tüstü qumbaraları dağın zirvəsinə səpələnir müşahidə kameralarını kor edir, düşməni psixoloji təsir altında saxlayırdı. Uzaqdan baxanda sanki dağın zirvəsi dumana bürünmüşdü. Topların, minatanların atəş dəstəyi ilə bölmələr döyüş tapşırıqlarını yerinə yetirir, qısa sıçrayışlar ilə irəli atılır və yeni əlverişli mövqelərdə möhkəmlənirdi. Həmin döyüşlərin iştirakçısı olmaq və onun sevincini yaşamaq isə sözlə ifadə edilən deyil. Bir döyüş günü başa çatsa da, əldə olunan uğurlar ilə kifayətlənmək olmazdı, ancaq irəli getmək, düşmən üzərinə atılmaq və işğalda qalan digər torpaqları da azad etmək lazım idi. Köhnə Tağlar yaşayış məntəqəsinin ətraf yüksəkliklərində iki düşmən tankının müşahidə edildiyi haqqında məlumat daxil oldu. Nəticədə həmin tankların vurulmasına qərar verildi. Növbəti gün tank əleyhinə vasitənin heyəti ilə həmin istiqamətə yollandıq. Bu zaman cəbhənin bütün istiqamətlərində şiddətli döyüşlər gedirdi. Döyüşlərə cəlb olunan zərbə tipli pilotsuz uçuş aparatları "Bayraqdar TB-2"lər döyüş meydanında aşkarlanan düşmən tanklarını və zirehli döyüş maşınlarını məhv edirdi. Düşmən Vətən müharibəsində PUA-ların uğurlu tətbiqi nəticəsində tanklardan istifadə edə bilmədi, hətta onu döyüş meydanında qoyub qaçdı. Çünki "Bayraqdar"lar onların ölüm kabusuna çevrilmişdi. Ona görə də düşmən tanklarını qorumaq üçün gizlədirdi. Heyətlə Dolanlar kəndindən keçib Köhnə Tağlar kəndinin ətrafında müşahidə üçün əlverişli yüksəklikdə mövqe tutduq. Kəndi və ona yaxınlaşma yollarını nəzarətə götürdük. Bizdən düşmənə qədər olan məsafə 2500 m təşkil edirdi. Bir müddət müşahidə etdikdən sonra kəndin yuxarı hissəsində çay yatağında ərazi qırışlarından istifadə olunaraq gizlədilmiş KamAZ tipli yük avtomobilini, bir az aşağıda isə böyürtkən kolları arasında atəş mövqeyində iki minaatan aşkar etdik. İlk raket atəşi ilə KamAZı vurduq, onun kuzovunda olan sursatlar parlamağa başladı və məlum oldu ki, avtomobil sursat ilə doludur. İkinci raketi minaatanların atəş mövqeyinə buraxdıq. Raketin atəş mövqeyində partlayışından sonra minaatan heyətinin bir neçə nəfərinin yerdə meyiti qaldı, qalan şəxsi heyət qaçıb sığınacağa girdi. Bununla da şəxsi heyət üçün əvvəlcədən hazırlanmış örtülü sığınacağın yerini aşkar etdik və üçüncü raketlə oranı atəşə tutduq. Son atəşdən sonra güclü partlayış oldu və o, bir neçə saat davam etdi. Məlum oldu ki, orada həm də sursat anbarı var imiş. Bu müddətdə düşmən də bizim yerimizi aşkar etmişdi, orada qalmaq təhlükəli idi, çox keçmədi ki, düşmən mövqeyimizi minaatanlardan atəşə tutdu. Uzun müddət mövqelərində qalan düşmən artıq psixoloji cəhətdən yorulmuşdu və əsas qüvvələrdən ayrı düşmüşdü. Ziyarət dağına gələn bütün yollar nəzarətə götürülmüşdü, burada qalan yüz nəfərə qədər düşmən əsgəri mühasirəyə alınmışdı. Onlar cəbhədə nə baş verdiyindən məlumatsız idilər, öz komandirləri ilə əlaqə saxlaya bilmirdilər. Yaranmış vəziyyətlə bağlı Ermənistan tərəfi rəsmi olaraq ictimayətə məlumat vermişdi. Sonradan üçtərəfli müqavilənin şərtlərinə əsasən onlar Ermənistan tərəfinə təhvil verildi. İndi Ziyarət dağının zirvəsində Azərbaycan bayrağı dalğalanır. Düşmən Ziyarət dağında əvvəlcədən tunellər, yaşayış üçün sığınacaqlar, sursat və ərzaq anbarları hazırlamışdı. Bunlar Ziyarət dağı azad ediləndən sonra öz təsdiqini tapdı. Bu, düşmənin işğalçılıq siyasətinin bariz nümunəsidir. Azərbaycan əsgəri isə 44 günün sonunda düşmənə diz çökdürdü. Ziyarət dağına həmlə zamanı Laçın istiqamətində döyüşlərdə olan, sonralar döyüş xatirə-



lərini mənimlə bölüşən zabit yoldaşım, o günləri belə xatırlayırdı: "Ziyarət dağını müşahidə edəndə onun zirvəsində duman aydın görünürdü, lakin bu inandırıcı deyildi, çünki günəşli bir gün idi. Bir müddətdən sonra məlum oldu ki, Ziyarət dağına həmlə başlayıb". Qarabağın gözəl guşələrindən və strateji əhəmiyyətə malik olan Ziyarət dağı, onu azad edən döyüşçülərin yaddaşına əbədi olaraq həkk olundu. Vətən müharibəsinin zəfər tarixində mühüm rol oynadı, tarixi missiyasını özünə qaytardı və Azərbaycan xalqının Ziyarətgahına çevrildi.

"Azərbaycan Ordusu" qəzeti №10 (2518) 06.02.2021

**Xudafərin körpüləri işğaldan azad olundu**

Xalqımız tarix boyu çətin sınaqlardan keçmişdir. Buna baxmayaraq adət-ənənlərini, kimliyini, tarixi keçmişini qoruyub saxlamışdır. Hazırda tarixi abidələrin qorunması və gələcək nəsillərə ötürülməsi dövlət siyasətinin əsasını təşkil edir. Ermənilər tərəfindən işğal olunmuş ərazilərdə bir çox abidələr var idi, onlardan biri də Xudafərin körpüləridir. Şəddadilər hökmdarı dövründə inşa edilən Xudafərin Azərbaycanın memarlıq sənəti tarixinin bəzəyi sayılan möhtəşəm tarixi abidələrimizdəndir. Elm adamları və tarixçilər Xudafərin haqqında fərqli fikirlər söyləyirlər. Onlar türkün tarixi hünərinə şahidlik və ayrılıq rəmzi kimi də qiymətləndirilir. Lakin dəqiq məlum olan odur ki, Xudafərin körpüləri Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasından keçən dövlət sərhəddinin Araz çayı üzərində yerləşir. Ticarət yolu üzərində tikilmiş bu körpülər iqtisadi və mədəni sahədə əlaqələrin inkişafında Şərqlə Qərb arasında böyük rol oynamışdır.



1804-cü ildə başlayan və 1813-cü ilə kimi davam edən Rusiya ilə Qacarlar imperiyası arasında olan müharibə bölgənin tarixində



böyük dəyişikliklərə səbəb oldu. 1828-ci ildə imzalanmış "Türkmənçay" müqaviləsinin şərtlərinə əsasən, bu imperiyalar arasında sərhəd Araz çayından keçməklə qəbul olundu. O vaxtdan Araz çayı üzərində yerləşən bu tarixi körpülər xalqlarımız arasında könül bağları kimi tarixə keçdi. Yazılan əsərlər, şeirlər dillər əzbəri oldu. Xatirələrdə və könüllərdə yaşayan Xudafərin körpüləri cənublu şimallı vətəndaşlarımızın könül, ümid körpüsündən əlavə, həm də mübarizlik simvoluna çevrildi.

Mənfur düşmənin Azərbaycana qarşı apardığı müharibənin nəticəsində 1993-cü ildə Xudafərin körpüsü işğal olan ərzilərdə qaldı. Xudafərin körpüsü də işğal müddətində, bütün işğal olunan ərazilərdə olduğu kimi, dağılma və tarixə qovuşma təhlükəsi ilə üzləşdi. Ermənilərin işğal müddətində əsas məqsədi azərbaycanlılara aid tarixi abidələri dağıtmaq və ya özününküləşdirmək olmuşdu. Bu baxımdan körpülər bir az şanslı idi, ona görə ki, iki dövlətin sərhəddində yerləşirdi, ermənilər ona görə açıq şəkildə bu mənfur niyyətinə nail ola bilmirdi. Həm də azərbaycanlılar Naxçıvana quru yolu ilə İrandan keçməklə gedir, körpüləri görürdü və onun vəziyyətinə nəzarət etmək mümkün olurdu.

Əlbəttə, bu dözülməz idi. Belə bir tarixi abidənin işğalda qalması hər bir azərbaycanlını düşündürürdü. Burada əcdadlarımızın ruhu dolanır, bizi mübarizəyə səsləyirdi. Körpülərin işğaldan azad olunması Azərbaycan əsgəri üçün şərəf və namus məsələsi idi.

27 sentyabrda başlayan əks-hücum əməliyyatı ilə düşmənin müdafiəsi cəbhənin Füzuli istiqamətində yarıldı. O zaman düşmən ilk olaraq cəbhədə məğlubiyyətin acısını yaşadı. Lakin ermənilər işğal etdikləri torpaqları əldə saxlamaq üçün hücum ehtimalı olan istiqamətlərdə güclü müdafiə sistemi qurmuşdu. Aktiv döyüşlər nəticəsində düşmən müdafiəsinin zəif nöqtələri aşkarlandı hücum o istiqamətlərdə genişləndirildi. Çox keçmədi ki, cəbhədən sevindirici məlumatlar alındı, Cəbrayıl rayon mərkəzi və Arazboyu ərazidə yeləşən Şükürbəyli kəndi 4 oktyabr tarixində işğaldan azad edildi. Növbə Soltanlıya çatdı. Füzuli-Zəngilan avtomobil yolu Soltanlı kəndindən keçir və onu iki hissəyə bölürdü. Soltanlı bö-

yük kənddir, lakin işğal müddətində ermənilər tərəfindən dağıdılmış və xarabalığa çevrilmişdir. Kəndin xarabalıqları bölmələrin irəliləməsinə maneə törədirdi. Komandanlıq Soltanlını işğaldan azad etmədən Xudəfərini azad etmək mümkün olmadığını bilirdi. Kənd geniş ərazidə yerləşir, cənubundan Araz çayı, şimalından isə orta təpəliklər ilə əhatə olunub. Ərazi şəraitləri döyüşləri magistral yola bağlayır və həmin yol da kəndin ortasından keçir. Düşmən hiylə işlədir, bölmələrimizi yol boyu irəli buraxır, onlar kəndə yaxınlaşanda isə Göyərçin Veysəllinin şimalında yerləşən mövqelərindən minaatanlardan atəşə tuturdu. Üç gün şiddətli döyüşlər getdi, düşmən müqavimət göstərir, bölmələrimizin hücumunu dayandırmağa çalışırdı. Komandanlığa Soltanlı kəndinin işğaldan azad olunması ilə cəbhədə taktiki üstünlüyün əldə saxlanılacağı, bununla da bölmələrimizin qarşısında geniş imkanlar, Xudafərinə yaxınlaşmaq üçün əlverişli şəraitin yaranacağı məlum idi. Burada uzunmüddətli döyüşlər isə əlavə vaxt itkisi demək idi. Belə vəziyyətdə əlavə qüvvələr cəlb etmək və hücumu inkişaf etdirmək tələb olunurdu. Ona görə də oktyabrın 11-də hücumu inkişaf etdirməyə qərar verildi. Həmlə qrupları artilleriyanın və tankların atəş dəstəyi ilə yüngül zirehli yüksək manevrli "Pikap" avtomobilləri üzərində qurulmuş iriçaplı pulemyotlardan intensiv atəş aça-aça sürətlə düşmən mövqelərinə şığıyır və qısa zamanda düşməni məhv edirdi. Vəziyyət elə sürətlə dəyişirdi ki, düşmən çaşbaş qalır, döyüş meydanında silah-sursatı atıb qaçırdı. Döyüşdən sonra Soltanlı və onun ətrafında olan mövqelər düşmən meyitləri ilə dolu idi. Həmin gün Soltanlı düşməndən azad edildi. Cəbrayıl rayonunun inkişafında Soltanlı kəndinin böyük rolu var. Kənd sadə zəhmətsevər insanları, eləcə də ziyalıları və alimləri ilə tanınmışdı. Kənd məktəbi, inzibati binalar, yaşayış evləri demək olar ki, tamamilə dağıdılıb, ancaq yol kənarında yerləşən avtomobil dayanacağı və İkinci Dünya müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidənin zədələnmiş qalıqları qalıb. Yol kənarında yerləşən dayanacaq hələ işğaldan əvvəl kiçikölçülü müxtəlif rəngli keramik daşlar ilə bəzədilibmiş. Diqqətlə nəzər saldıqda aydın seçmək olur ki, milli ge-



yimli qızlar çiyinlərində su sənəyi və qaba yığılmış üzüm daşıyırlar. Elə Soltanlının ətraf ərazilərində üzüm bağlarının qalıqlarını da görmək mümkündür. Ümumilikdə isə o, daha çox kənardan milli xalçaya oxşayır. Diqqət çəkən odur ki, ermənilər möhkəm bünövrə üzərində tikilmiş həmin avtomobil dayanacağını və onun müxtəlif formada milli rəsmlər işlənilmiş divarlarını dağıda bilməmişlər. İndi həmin dayanacaqlar səbirsizliklə öz sakinlərini gözləyir. Bu boş qalmış dayanacaqların əsl gözəlliyi isə yerli sakinlərin öz evlərinə dönməsindən keçir.

Soltanlıdan 16 km irəlidə Xudafərin yerləşir. Düşmən ərazi qırışlarından istifadə edərək onun yaxınlığında səngərlər hazırlamışdı, lakin bu arada Soltanlı kimi maneə olacaq yaşayış məntəqəsi qalmamışdı. Soltanlıdan keçən avtomobil yolu isə Göyərçin Veysəlliyə aparır. Bu isə Xudafərindən 4 km şimalda yerləşir. Komandanlıq Xudafərinin şanlı Azərbaycan tarixində rolunu və İranla dövlət sərhəddinin bağlanmasını nəzərə alaraq, həmin istiqamətdə yerləşən düşməni təqib etməyə başladı və onun əlverişli mövqedə möhkəmlənməsinə imkan vermədi. Sürətli həmlələrə tab gətirməyən düşmən geri çəkildi, əlverişli mövqeləri bir-bir tərk etməyə məcbur oldu. Abidənin dağılma təhlükəsini və İranla dövlət sərhəddində yerləşməsini nəzərə alan Azərbaycan tərəfi Xudafərini azad etmək üçün ağır silahlar tətbiq etmədi, yalnız yüngül silahlar ilə silahlanmış xüsusi təyinatlılar tətbiq olundu. Budur, Xudafərin artıq öndə gedən xüsusi təyinatlıların görmə məsafəsindədir, onların sevincinin həddi-hüdudu yoxdur. Bir azdan xalqımız üçün xüsusi əhəmiyyət kəsb edən Xudafərin işğaldan azad olunacaq. Bu, oktyabrın 18-də Arazın o tayında cənubda yaşayan azərbaycanlıların gözləri önündə baş verirdi. Bunu görən azərbaycanlılar sevincindən ağlayır, diz çöküb torpağı öpür və Azərbaycan əsgərinin zəfərinə sevinir, onu alqışlayır və xoş sözlər deyirdi. Xudafərin işğaldan azad olundu. Xüsusi təyinatlıların komandiri canlı yayımda Azərbaycan Respublikasının prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanına məruzə etdi: "Cənab Ali Baş Komandan! Sizin əmrinizə əsasən, Xudafərin və onun ətraf əraziləri işğaldan

azad edildi! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!" Bundan sonra xalqımız sevincindən Azərbaycan və Türkiyə bayraqları ilə meydanlara axışdı, avtomobillər ilə şəhərdə əsgərlərə və Ali Baş Komandana dəstək şüarları səsləndirdi.

Xudafərinin işğaldan azad olunması xalqımızın qələbəyə inamını daha da möhkəmləndirdi, bizi zəfərə bir addım da yaxınlaşdırdı. Azərbaycan Ordusu cəbhədə Mincivan istiqamətində irəliləyərək İranla dövlət sərhədinin, eləcə də Zəngilanın işğaldan azad olunmasını təmin etdi. Ən əsası isə, xalqımız Azərbaycanı birləşdirən tarixi abidəyə qovuşdu.

## Hədəf Zəngilanı azad etməkdir

Zəngilan coğrafi mövqeyinə və təbii sərvətlərinə görə həmişə diqqət mərkəzində olan rayonlarımızdandır. O, Azərbaycan Respublikasının cənub-qərbində İranla və Ermənistanla dövlət sərhəddində yerləşir. Yeganə rayondur ki, ərazisindən 4 çay - Araz, Həkəri, Bəsitçay və Oxçuçay keçir. Füsunkar təbiətinə və iqliminə isə söz ola bilməz. Araz çayı boyu işğaldan azad olunan ərazilərdə İranla dövlət sərhəddində strategi əhəmiyyətə malik Mincivan qəsəbəsi Zəngilan rayonunda yerləşir. Zamanında Mincivandan dəmir yolu ilə yüklərin və sərnişinlərin daşınmasında istifadə olunmuşdu. 1993-cü ildə Zəngilan ermənilər tərəfindən işğal olunandan sonra Naxçıvan ilə dəmir yolu əlaqəsi kəsildi. Bir sözlə, Mincivan qərbdə Naxçıvana qapı rolunu oynayır. Vətən müharibəsində əldə olunan uğurlardan biri də imzalanmış üçtərəfli müqavilənin şərtlərinə əsasən, Zəngəzur üzərindən Naxçıvana dəhlizin açılmasıdır. İşğal illərində ermənilərin vandallığı Zəngilandan da yan keçməyib. 27 il davam edən işğal müddətində Zəngilan və onun ətraf rayonlarının sərvətləri talan edilib, tikililər dağıdılıb. Düşmənin Zəngilanı qaytarmaq niyyəti olmayıb, yalnız onu dağıtmaqla məşğul olub. Təəssüf ki, belə dözülməz vəziyyət dünyanın gözü qarşısında baş verib. Hələ o azmış kimi, düşmən yeni xülyalar uydurur, cəbhədə vəziyyəti gərginləşdirir və "yeni müharibələr, yeni



ərazilər" iddiası ilə yaşayırdı. Onun həyasızlığının qarşısını almaq və yerinə oturtmaq tələb olunurdu. Cəbhədə baş verən düşmən təxribatlarına cavab olaraq Azərbaycan Ordusu 27 sentyabr 2020-ci il tarixdə əks-hücum əməliyyatına başladı. Bununla da Vətən müharibəsi başladı. Çox keçmədi ki, düşmənin cəbhəsi əks-hücum əməliyyatı ilə bir neçə istiqamətdən yarıldı. Müharibənin ilk günlərindən cəbhənin Füzuli və Murovdağ istiqamətindən yarılması düşmənin cənubdan və şimaldan məhv edilməsinə hesablanmışdı. Bu, demək olar ki, "Turan" taktikasının tətbiqi idi. Bu zaman əsas məqsəd düşməni aypara şəklində dövrələmək, cinahlardan sıxışdırmaqla onu məhv etmək idi. Hərb tarixində bu taktikanı tətbiq etməklə əcdadlarımız döyüşlərdə uğur qazanmışlar. Ancaq işğalda olan ərazilərin çətin coğrafi relyefi həmin taktikanın tətbiqini müəyyən qədər çətinləşdirirdi. Düşmən müdafiəsinin zəif yerlərini müəyyən edib, hücumu oradan inkişaf etdirmək tələb olunurdu. Döyüşlərin uğuru bir neçə amildən asılı idi. Onlardan biri də havada üstünlüyün ələ keçirilməsidir. İstifadə edilməyən AN təyyarələri pilotsuz varianta gətirilərək cəbhəboyu istiqamətdə uçuşu həyata keçirildi. Bununla da düşmənin HHM vasitələrinin yerləri aşkar edilərək zərbə tipli kamikadze pilotsuz uçuş aparatlarının zərbələri ilə onlar məhv edildi. Düşmən hələ onu qabaqda nə gözlədiyini heç təsəvvürünə belə gətirə bilmirdi. O, uzun illərdi müdafiəyə hazırlaşmışdı. Ərazinin yaratdığı üstünlükləri qiymətləndirərək müdafiəni dərinliyə eşelonlaşdırıb səngərlər hazırlamış, onu istehkam qurğuları ilə gücləndimişdi. Düşmənin müdafiə rayonları açıq və örtülü sığınacaqlar, əlaqə yolları, yeraltı keçidlər və tunellər, müşahidə qurğuları, kamera müşahidə sistemləri ilə təchiz olunmuşdu. Bunu keçilməz "Ohanyan" səddi adlandırmışdılar. İndi həmin səddən heç nə qalmayıb, o artıq tarixə qovuşub. Hələ Azərbaycan Ordusu 2016-cı ilin aprelində həmin səddi 45 dəqiqə ərzində yarmış və işğalçının özü haqda uydurduğu "qalib ordu" imicini darmadağın etmişdi. İndi məğlubiyyətin acısını yaşayan Ermənistan rəhbərliyi, eləcə də tanınmış hərbi ekspertlər ermənilərin Azərbaycan Ordusunun imkanlarını düzgün qiymətləndirmə-

diklərini, "qalib ordu" imicinin onlarda xəstə insan təxəyyülü yaratdığını, yaranmış fürsətlərdən düzgün nəticə çıxarmadıqlarını açıq şəkildə etiraf etməyə başlamışlar. Məğlubiyyət düşmən üçün nə qədər acı olsa da o, dünyanin gözü önündə döyüş meydanında əsgərlərimizin igidliyi, şəhidlərimizin qanı bahasına qazanılıb. Düşmən nə qədər çalışsa da , ona aid olmayan torpaqları əsl sahiblərindən kənarda saxlaya bilməzdi. Cəbhədə müdafiə yarıldıqdan sonra da düşmən müqavimət göstərirdi. Bölmələrimizi artilleriyanın və minaatanların atəş təsir altında saxlayırdı, xüsusilə tanklara və zirehli döyüş texnikalarına qarşı tank əleyhinə vasitələri tətbiq edirdi. Cəbhədə bütün istiqamətlərdə gərgin döyüşlər gedir və düşmənin zəif tərəfləri aşkarlanmağa cəhd göstərilirdi. Çox keçmədi ki, cəbhənin cənub istiqamətində belə uğura nail olmaq mümkün oldu. Sentyabrın 27-də başlayan əks-hücum əməliyyatından bir neçə gün sonra düşməni müdafiənin dərinliyinə sıxışdırmaq mümkün oldu. Düşmənin növbəti müdafiə hədlərində möhkəmlənməsinə imkan verilmədi. Belə vəziyyət düşmən üçün arzuolunmaz idi. Qısa zamanda Cəbrayıl rayonunun Arazboyu əraziləri və yaşayış məntəqələri işğaldan azad olundu. Düşmənə sarsıdıcı zərbə isə 18 oktyabrda xalqımız üçün tarixi əhəmiyyətə malik olan Xudafərinin azad olunması ilə vuruldu. Döyüş meydanında ardıcıl məğlubiyyət yaşayan düşmən məkrli niyyətindən əl çəkmir, bütün vasitə ilə hücumun qarşısını almağa, cəbhəyə ehtiyat qüvvələr cəlb etməyə çalışırdı. Lakin o buna müvəffəq ola bilmədi, çünki havada üstünlük Azərbaycan Ordusunda idi. Vətən müharibəsində diqqəti özünə cəlb edən kəşfiyyat və zərbə tipli pilotsuz uçuş aparatları, "Bayraqdar TB-2" və "Harop" düşmənə zərbələr endirməkdə davam edirdi. Döyüş meydanında tab gətirə bilməyən və hava zərbələrindən aciz qalan düşmən çıxış yolunu silah-sursatını qoyub qaçmaqda və gizlənməkdə görürdü. Döyüşlərdə PUA-ların fəaliyyəti Raket və Artilleriya Qoşunlarının fəaliyyəti ilə uzlaşdırılaraq düşmənə zərbələr endirilirdi. Bu, hərb tarixində bir yenilik idi. PUA-lar Vətən müharibəsində geniş tətbiq edildi və döyüşlərin gedişinə daha çox həlledici təsir göstərdi.



Düşmən ehtiyatları hələ cəmləşmə rayonlarında və hərəkət marşrutlarında olan zaman PUA-ların və artilleriyanın atəşləri ilə döyüş tətbiqindən əvvəl məhv edildi. Döyüş meydanında aciz qalan düşmən əlavə qüvvənin və təminatın gəlmədiyini görüb sürətlə geri çəkilmək məcburiyyətində qaldı. Xudafərin azad olunandan sonra növbə Zəngilana və onun strateji əhəmiyyətə malik olan Mincivan qəsəbəsinə çatmışdı. Xüsusi təyinatlı bölmələrin səyi və artilleriyanın atəş dəstəyi nəticəsində Zəngilan 20 oktyabr tarixdə, Mincivan isə bir gün sonra – 21 oktyabrda işğaldan azad edildi. Yeraltı qızıl və qara mərmər yataqlarına, yerüstü münbit torpaqlarına, əsrarəngiz təbiətinə görə yaxın keçmişdə adlandırıldığı kimi həqiqətən işğaldan azad edilən qızıl Zəngilan idi. Bu zaman ordumuzun əsgərləri ilə yanaşı, sərhədçilərin də rolunu xüsusi qeyd etmək lazımdır. İndi Mincivan qəsəbəsindən azərbaycanlılarda keçmişin xoş xatirələri, ermənilərdən isə qəsəbənin talanmış və dağıdılmış evlərinin xarabalıqları qalıb. Döyüşlər bu istiqamətdə elə sürətlə getmişdi ki, isti yeməklər belə masa üzərində qalmışdı. Lakin düşmən tam olaraq ərazini tərk etməmişdi, evlərin damında, zirzəmilərində, meşələrdə gizlənmişdi. Mincivan və Zəngilan işğaldan azad olunandan sonra düşmənin bir çox məkrli planları üzə çıxdı. Zəngilanın ərazisindən keçən çayların üzərində çoxlu sayda körpülər var. Düşmən bölmələrimizin fəaliyyətini ləngitmək və vaxt qazanmaq üçün həmin körpüləri əvvəlcədən partlayışa hazırlamışdı. Düşmən buna nail ola bilmədi, çünki bölmələrimizin sürətli hücumu buna imkan vermədi. Həmin körpülər azad olunduqdan sonra istehkamçılar onları yoxlayan zaman Ağalı yaşayış məntəqəsində Həkəri çayı üzərində yerləşən körpüdən və Racdərədə yeraltı keçiddən çoxlu sayda partlayıcı maddə aşkarlandı. Zəngilan rayon mərkəzində evlərə baxış zamanı orada gizlənmiş erməni terrorçuları aşkar edildi. Zəngilanın qarşısında Ermənistan ərazisində Mehri və Qafan şəhərləri yerləşir. Sərhədboyu ərazidə yaşayan ermənilər Zəngilanın əkinə yararlı sahələrini, otlaq sahələrini, meşələrini özlərinin dolanışıqları üçün istifadə etmişlər. Uzun illər belə davam edən vəziyyət onlar üçün sanki dəyişə bil-

məz hal almışdı, lakin Vətən müharibəsi onların yanlış düşüncələrini məhv etdi. Cəbhənin cənub istiqamətində əldə olunan uğurlar düşmən qüvvələrini parçalamağa məcbur etdi. Bu isə imkan verdi ki, alınmaz hesab olunan Şuşanı işğaldan azad edək. Düşmən Şuşanın azad olunması ilə tamamilə diz çökdü və üçtərəfli müqaviləni imzalamağa məcbur oldu. Hərbi birləşmələrini ərazilərimizdən çıxarmağa öhdəçilik götürdü. İmzalanmış üçtərəfli müqavilədən sonra düşmən Zəngilan və Qubadlı istiqamətində bizim ərazidən keçən Gorus-Qafan yolunun, sərhədə yaxın olan yaşayış məntəqələrinin ətrafındakı yüksəkliklərdə yerləşirdi və oradan çıxmaq istəmirdi. Uzun danışıqlardan sonra dekabrın 17-dən etibarən oradan çıxmaq məcburiyyətində qaldı. Hazırda Qafan-Gorus yolunun 21 km hissəsi Azərbaycan ərazisindən keçir. Azərbaycan tərəfi xoş məram nümayiş etdirərək ermənilərin həmin yoldan istifadəsinə icazə verib. Lakin ermənilər yol kənarında yerləşən "Azərbaycana xoş gəlmisiniz" banerindən çox narahatdır. Azərbaycanlılara qarşı formalaşan düşmənçilik və revanş hissləri erməniləri bir millət olaraq məhvə aparır. Budur, Azərbaycan əsgərinin uğuru, igid övladlarımızın qəhrəmanlığı. Biz gələcək nəsillər qarşısında üzərimizə düşəni qismən də olsa yerinə yetirə bildik, Zəngilanı işğaldan azad etdik. Bütün döyüşçülərə ömür boyu onun sevincini yaşamaq nəsib oldu. Əlbəttə, Zəngilan payız fəslində işğaldan azad olunub. Düzdür, hər fəslin öz gözəlliyi var. Ermənilər Zəngilanı nə qədər dağıtsalar da, oranın maddi-mənəvi sərvətlərini nə qədər talan etsələr də onun füsunkar təbiəti insanı özünə valeh edir. Zəngilanda olduğum zaman Mincivan, Bartaz, Sobu, Racdərə ilə tanış oldum, onun ərazisindən keçən çayların şırıltısını dinlədim. Bir an Zəngilandan 27 il ayrı düşmüş vətən həsrəti ilə yaşayan soydaşlarımızı, dostlarımızı düşündüm. Zəngilandan son dəfə dekabrın 8-də ayrıldım. Ayrılmazdan əvvəl isə nar və xurma toplayıb özümlə götürdüm. Bakıya qayıdanda Zəngilanlı dostlara hədiyyə etdim. Düşünürəm ki, az da olsa onların sevincinə və Vətən həsrətinə şərik ola bildim. İndi Zəngilana yeni həyat qayıdır, ilk olaraq Ağalı yaşayış məntəqəsinin bərpasına start verilib. Burada ağıllı kənd layihəsinin həyata keçirilməsi planlaşdırılır. 2021-ci ilin sonuna kimi Ağalı-1, Ağalı-2 və Ağalı-3 kəndlərinə 1000 nəfər yerləşəçək və onların yaşayışı üçün bütün infrastruktur yaradılacaq. Zəngilanın ərazisindən keçən avtomobil və dəmir yolu bütün türk dünyasını birləşdirməklə yanaşı, Zəngilanda tikilin hava limanı oranın əhəmiyyətini daha da artıracaq. Zəngilanda həyat tezliklə canlanacaq. Zəngilan Şərqi Zəngəzurun mərkəzinə və dünyanın Ağıllı infrastruktur mərkəzinə çeviriləcək.



## Vətən müharibəsi günlərinin poetik məqamları

### Ey vətən oğlu

Hünərlə başladın, zəfərə çatdın!
Alqış olsun sənə, ey vətən oğlu!
Zəfər ruhumuzu, göyə uçaltdın
Alqış olsun sənə, ey vətən oğlu!

Azadlıq meydanı, sülh yaddaşımız!
Bir oldu, doğmalaşdı bütöv xalqımız!
Siz oldunuz, qürurla qarşıladığımız!
Alqış olsun sənə, ey vətən oğlu!

### Topçu Yaşar

Mərd doğuldun, cəsur bir zabit oldun,
Yoxdur tayın sənin, ey topçu Yaşar!
Vətənçün yaşayan bir oğul oldun,
Halal əməllisən, ey topçu Yaşar!

Qayğıkeş, tələbkar komandirsən sən,
Əsgərin qayğıkeş qardaşısan sən,
Döyüş sənətinin ustadısan sən,
Elminlə, işinlə, ey topçu Yaşar!

Xidmətində pillə-pillə ucaldın,
Hər təlimdə bir təcrübə qazandın,
Təkəbbürü birdəfəlik sən atdın
Sadədən sadəsən, ey topçu Yaşar!

Haqq danışdın, doğru sözdən dönmədin,
Yalan nədir, böhtan nədir, bilmədin,
Qılınc çəkib haqlı fikri kəsmədin,
Haqqa üz tutansan, ey topçu Yaşar!

Zabit kimi dinclik nədir, bilmədin,
Döyüşlərdə qorxu nədir, bilmədin,
Torpaq üçün alovlandın, sönmədin,
Nur saçır əməlin, ey topçu Yaşar!

Sən hayqırıb silahına sarıldın,
Düşmənin başına alov yağdırdın,
Zəfər bayrağını göyə qaldırdın,
Polad iradənlə, ey topçu Yaşar!

Sərrast atəşlərlə yağını vurdun,
Düşmənin önündə nər kimi durdun,
Yolu azmışların qulağın burdun,
Yaxşıca dərs verdin, ey topçu qardaş!

İki müharibə – sənin qismətin,
Cavanlarçün məktəb oldu xidmətin,
Zəfərə yol açdı bu şücaətin,
Özün zirvə oldun, ey topçu Yaşar!

**Eldar Dərya, Bakı şəhəri, 12.12.2020.**



**Uğurlu Hadrut əməliyyatı**

Cəbrayıl şəhər mərkəzi oktyabrın 4-də işğaldan azad olunandan sonra döyüşlərin hansı istiqamətə genişlənəcəyi düşmən üçün sirr olaraq qalırdı. Lakin düşmən ehtimal edirdi ki, Azərbaycan Ordusu Füzuli istiqamətinə yönələcək. Qüvvələrimiz isə iki istiqamətdə fəaliyyət göstərdi, Arazboyu İran-Azərbaycan dövlət sərhədini bağlamaq, digər istiqamətdə isə Qarabağın cənub qapısı hesab olunan və düşmənin gözləmədiyi Hadruta yönəldi. Məhz nəyə görə Hadrut seçildi? Hadrut hər tərəfdən yüksək dağlar, cənubdan Şişdağ silsiləsi və Ərgünəş dağı, qərbdən Ziyarət və şimaldan Böyük Kirs ilə əhatə olunub. Əlavə olaraq, Hadrutda həm də yaşayış var idi. Orada yaşayan əhalinin sayı təxmini 1500 nəfər olması ehtimal olunurdu. İlk növbədə Cəbrayıldan sonra Hadruta yönələn qüvvələr döyüşlə Şişdağ silsiləsini və Hadrutun cənub və qərb ətrafında yerləşən yüksəklikləri ələ keçirdi. Həmin yüksəkliklərdən Hadrut vizual olaraq görünürdü və Hadrutun ələ keçirilməsi an məsələsi idi. Düşmən real vəziyyətlə barışmaq əvəzinə mətbuatda yanlış məlumat yayaraq Hadrutun erməni tərəfində olduğunu və Hadrut yolunun üzərində yerləşən və separatçıların saxta bayrağının rənginə boyanmış daşın görüntülərini yaymaqla mülki əhalini aldadır və onları sakitliyə çağırırdı. Azərbaycan Ordusunun məqsədi mülki əhaliyə zərər vurmadan Hadrutu ələ keçirmək idi. Hadruta daxil olmaq və Azərbaycan bayrağını orada dalğalandırmağın, eləcə də düşmənin dezinformasiyasına son qoymağın vaxtı çatmışdı. Oktyabrın 9-u günəşli bir gün idi, ətrafa sakitlik çökmüşdü, lakin hamı çox həyəcanlı görünürdü. Hadrutda yaşayan əhali əsasən kənd təsərrüfatı və heyvandarlıqla məşğul olurdu. Qışa yem tədarük edilmişdi və yaşayış evlərinin həyətində böyük ot tayaları açıq şəkildə müşahidə olunurdu. Hadrutu azad etmək üçün hərbi komandanlıq xüsusi əməliyyat hazırlamışdı. Plana əsasən mülki əhaliyə ziyan vurmadan Hadrut az itkilər ilə azad olunmalı idi. Lakin Hadrutda hərbi hissə və orada kifayət qədər düşmənin canlı qüvvəsi və döyüş texnikası yerləşirdi. Plana əsa-

sən bir neçə xüsusi təyinatlı qrup artilleriyanın atəş dəstəyi ilə Hadruta daxil olub əvvəlcədən planlaşdırılmış hədəfləri məhv etməli, seçilmiş evlərin həyətində yerləşən böyük ot tayalarına eyni vaxtda od vurmalı, bununla da mülki əhali arasında çaşqınlıq yaratmalı idi. Bu əvvəlcədən təyin olunmuş vaxtda başlamalı, əsas qüvvələr isə bu zaman Hadruta gələn yolun üzərində pusqu qurmaq üçün irəliləməli idi. Bütün bunları gizli həyata keçirməyə ərazinin dağlıq və meşəlik olması imkan verirdi. Əməliyyat düşünüldüyü kimi icra olundu. Qruplar səhər tezdən hərəkətə başladı və saat 12.00 radələrində Hadrutun müxtəlif yerlərində əvvəlcədən nəzərdə tutulmuş mövqelərə çıxdı. Hadrutun daxilində şiddətli döyüşlər getdi, təyin olunmuş evlərin həyətində olan ot tayalarına eyni vaxtda od vuruldu. Nə baş verdiyini anlamayan əhali onsuz da çaşqınlıq və psixoloji sarsıntı içində idi.





Təşvişə düşən mülki əhali Hadrutu sürətlə tərk etməyə başladı. Əsas qüvvələr isə əvvəlcədən Cəbrayıl və Xankəndi istiqamətindən Hadruta gələn yol üzərində artıq pusqu qurmuşdu. Hadrutu tərk edən maşınlar ilə oraya dəstəyə gələn qüvvələr yolda qarşılaşır, dar yolda hərəkəti mümkünsüz edirdi. Hərbçilər mülki əhalini sakitləşdirməyə çalışsalar da artıq çox gec idi. Hadrutda və onun şimal ətrafında yerləşən düşmən, eləcə də köməyə gələn qüvvələr məhv edildi. Hadrut düşməndən təmizləndi və həmin gün orada Azərbaycan bayrağı qaldırıldı. Azərbaycan Ordusu ermənilərdən fərqli olaraq mülki əhalini hədəfə almadı, əksinə, şərait yaratdı ki, oranı tərk etsinlər. Çünki Azərbaycan dövləti beynəlxalq öhtəçi-



liklərinə hörmətlə yanaşır və mülki əhali ilə müharibə dövrünün qanunlarına uyğun olaraq davrandı. Düşünülmüş və unikal icra olunan Hadrut əməliyyatı qısa zamanda uğurla başa çatdı. Hadrutda döyüşçülərimiz tərəfindən Azərbaycan bayrağı qaldırıldı və Ali Baş komandana məruzə edildi. Həmin video görüntülər yayımlandı və erməni təxribatına son qoyuldu. Uğurlu Hadrut əməliyyatı ilə düşmənə sarsıdıcı zərbə vuruldu, onun onurğa sütunu qırıldı. Düşmən bunu heç zaman gözləmirdi, hələ uzun illər keçsə də belə bu uğursuzluqla barışmaq onlar üçün çox çətin olacaq. Çünki gözəl təbiəti, havası, suyu və meşələri insanı valeh edir. Hadrut Şuşaya uzanan yolun başlanğıcı oldu, Şuşa əməliyyatı Hadrutdan başladı. Hadrutdan sonra yol Tuğa, oradan da çətin keçilən ərazilərdən Şuşaya kimi uzandı. Hadrutun Vətən müharibəsində strateji əhəmiyyəti bununla bağlıdır. İndi düşmən etiraf edir ki, 1992-ci ildə Şuşanı işğal edən zaman onlar Şuşaya Şuşakənddən 2020-ci ildə Azərbaycan Ordusu isə Şuşanı azad etmək üçün Hadrutdan gəlib.

## Şuşa həsrətinə son qoyuldu

Şuşa döyüşləri müasir döyüş taktikasını alt-üst etdi, dünyanın inkişaf etmiş ölkələrini, onların hərbi elm mərkəzlərini heyrətləndirdi. Dünyanın diqqətini Azərbaycana, onun 44 gün davam edən Vətən müharibəsinə cəlb edə bildi. Azərbaycan Ordusu Şuşanı işğaldan azad etmək üçün dağlıq ərazidə aşağıdan-yuxarıya doğru döyüşməli oldu. Azərbaycan əsgəri düşmənin təsəvvür edə bilmədiyi yerlərdən, gözləmədiyi istiqamətlərdən keçərək, Şuşaya daxil oldu. Azərbaycan Ordusunun seçdiyi döyüş taktikası çox sadə, lakin düşmən üçün gözlənilməz idi. Şuşa döyüşlərinə hazırlıq zamanı komandanlıq incə detallara kimi hər şeyi nəzərə almışdı, səhvə yol vermək olmazdı, əks-halda əməliyyat pozula bilərdi. Şəhərə daxil olan döyüşçülər düşmənlə əlbəyaxa döyüşdü, bucaqların və tapançaların tətbiqi ilə onları məhv etdi. Bu, həm də düşməndə vahimə, qorxu, çaşqınlıq yaratdı. İlk baxışdan düşmən buna inanmaq istəmirdi və onlara inandırıcı görünmürdü, lakin xüsu-

si təyinatlılar artıq Şuşaya daxil olmuşdu. Əməliyyatın bəzi məqamları hələ də sirr olaraq qalmaqdadır, lakin döyüşdə iştirak edənlərin və düşmənin bəzi epizodik açıqlamalarından bir çox məsələlərə aydınlıq gətirmək olur. Şuşanın azad olunması əməliyyatının düzgün planlaşdırılması, döyüşçülərin igidliyi, mərdliyi və şücaəti nəticəsində uğur əldə olundu. Şuşanın təməli 1752-ci ildə Qarabağ hökmdarı Pənahəli xan tərəfindən qoyulub və ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahabad adlandırırdılar. Şuşa Azərbaycan şəhəridir, tikinti üslubu Azərbaycan memarlığına aiddir. Azərbaycan xalqının bir çox tanınmış şairləri və bəstakarları, rejissorları və dövlət adamları Şuşa doğumludur. XVIII əsrdə Şuşa şəhəri Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilmişdi. XIX əsrin sonu və XX əsrin əvvəlləri Şuşa Qafqazın musiqi mərkəzi olmuşdur. Lakin mənfur düşmən Şuşanı işğal etməklə azərbaycanlıların tarixi izlərini silmək məqsədilə 600-ə yaxın tarixi memarlıq abidəsi, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə yeksan etmişdi. Şuşa şəhərinin yerləşdiyi ərazi coğrafi məkan olaraq xüsusi seçilib. Hər tərəfdən sıldırım qayalar ilə əhatə olunub, şəhərə avtomobil yolu ilə giriş və çıxış ancaq bir istiqamətdən mümkündür. Qayalar üzərində yerləşən Şuşa şəhərini hərbi nöqtey-nəzərdən həm də Şuşa qalası adlandırırlar. Şuşaya el arasında alınmaz qala da deyirlər, o, 1400 m yüksəklikdə qayalar üzərində yerləşir. Şuşaya ancaq bir yol gedir, qalan tərəfi çətin keçilən sıldırım qayalardan və yüksəkliklərdən ibarətdir. Həmin qayalıqları keçdikdən sonra düzən bir ərazi başlayır, bura isə Şuşanın ətrafında yerləşən "Cıdır" düzüdür. Düşmən 1992-ci ilin 8 mayında Şuşanı havadarlarının dəstəyi ilə işğal etdi. Alınmaz qala Şuşa asanlıqla düşmənin əlinə keçdi, o, hakimiyyət uğrunda gedən oyunların, çəkişmələrin və xəyanətin qurbanı oldu. Şuşanın işğalı 28 il davam etdi. Ermənilər Şuşanın işğalını informasiya müharibəsində bizə qarşı psixoloji silah kimi istifadə etdilər. Şuşa işğalda qaldığı müddətdə ermənilər tarixi abidələri, azərbaycanlılara aid



olan maddi irsi dağıtdı, Şuşanı özününküləşdirməyə çalışdı, həm də onlara imkan verdi ki, şəhəri hərtərəfli müdafiəyə hazırlaya bilsin. Şuşa işğaldan azad olunandan sonra şəhərin çox hissəsinin dağıdıldığı məlum oldu. Lakin Qarabağın işğalında əli olan və Ermənistanda hakimiyyəti uzun illər zorla zəbt edən erməni qatilləri özlərinə Şuşanın arxitekturasına uyğun olmayan villalar tikmişlər. Qondarma Qarabağın parlamentini Şuşaya köçürmək istəmiş və ona bina tikməyə çalışmışlar. Dünya tərəfindən tanınmayan Qarabağda saxta seçkilər keçirib, andiçmə mərasimini də Şuşada keçirməklə bizə meydan oxumağa çalışmışlar. Düşmən işğal müddətində ilk dəfə idi ki, separatçı rejimin rəhbərinin "inaqurasiyasını" Şuşanın Mədəniyyət Evində keçirmişdi və Ermənistanın baş naziri qanunsuz olaraq orada iştirak etmişdi. Baş nazir Qarabağa tez-tez qanunsuz səfərlər edir, Şuşaya gəlib "Cıdır" düzündə rəqs edir, spirtli içki qəbul edir, şənlənir, dünyanın gözü önündə güc nümayiş etdirir, heysiyyətimizə toxunur, "Qarabağ Ermənistandır, nöqtə" deməklə bizə meydan oxumağa çalışırdı. Demək istəyirdi ki, "biz qalibik, torpaq bizimdir, onu qaytarmaq niyyətimiz yoxdur, bacarırsız döyüşək". Lakin xalqımızın belə vəziyyətlə heç bir zaman barışmayacağını ölkəmizin başçısı ən mötəbər təşkilatların yüksək kürsülərindən dəfələrlə səsləndirmişdi. Cənab prezident Rusiya Federasiyasında Valday klubunda çıxışı zamanı "Qarabağ Azərbaycandır, nida" deməklə düşmənə layiqli cavab vermişdi. O, qarşı tərəfə ünvanlanmış çox ciddi bir mesaj idi. Azərbaycan xalqını və mədəniyyətini dünyada tanıtmış dahilər yetişdirən, Azərbaycanın mədəniyyət beşiyi hesab olunan Qarabağın işğalda qalması bizim üçün mənəvi yük idi.

Tarixdən gələn bu missiya döyüşçülərimizin qarşısında həm də mənəvi bir yük qoymuşdu, ona görə də Şuşada həm də tarixdən gələn mənəvi ruh qalib gəldi. Mənəvi yükü qaldırmaqla Şuşanı işğaldan azad etmək, gələcək nəsillər, türk dünyası qarşısında başıuca gəzmək, onun qürurunu, sevincini yaşamaq, dünyanın ikili standartlarına, bizə olan haqsızlığına və ədalətsizliyinə son qoymaq tələb olunurdu. Bu, o qədər də asan deyildi.









Düşmən işğal etdiyi əraziləri hər baxımdan müdafiəyə hazırlamışdı. Təkcə Şuşada yerləşən hərbçilər, yığılan silah və sursat ilə bir neçə il döyüşmək mümkün idi. Düşmən Şuşanı dayanıqlı müdafiəyə hazırlamışdı və özünə də çox əmin idi. Qüvvələrini daha çox şəhərə giriş olan istiqamətə yerləşdirmişdi. Vətən müharibəsi zamanı həm də əlverişli hava şəraiti, sanki döyüş tapşırıqlarının yerinə yetirilməsində döyüşçülərimizə dəstək oldu. Çünki Qarabağı bütövlükdə erməni zülmündən xilas etmək lazım idi. Vətən müharibəsində iştirakım zamanı Cəbrayıl, Xocavənd, Zəngilan, Qubadlı və Laçının ərazisində düşmənin dağıtdığı, viran qoyduğu yaşayış məntəqələrini, qəbristanlıqları, tarixi abidələri, qırılmış meşələri, ona aid olmayan nə varsa hamısını yer üzündən silmək istəyini öz gözlərimlə görmüşəm. Ancaq bundan sonra erməniliyin nə olduğunu anlamaq mümkündür, təbiətdən belə qisas almaqdan çəkinməmişlər, çünki onlar bu torpaqlarda yaşamamışlar, XIX əsrin əvvəllərində köçürülmüşlər. Xalqımız gec-tez ədalətin zəfər çalacağına inanırdı, Vətən müharibəsində də elə belə oldu, ədalət kimin tərəfində idi, o, da dünyanın gözü önündə qazandı.



Tarixdə müxtəlif döyüşlər baş verib, lakin hər döyüş özünəməxsus taktikası ilə hərb tarixinə keçib. Əlbəttə, Şuşa döyüşlərinin də özünəməxsus xüsusiyyətləri var. 27 sentyabrda başlayan Vətən müharibəsi cəbhədə uğurla davam edir, yaşayış məntəqələri, strateji yüksəkliklər, yollar işğaldan azad edilir, düşmən müdafiənin dərinliyinə sıxışdırılırdı. Hələ oktyabrın 4-də Azərbaycan Ordusunun dəqiq raket zərbəsi ilə Şuşada müharibədən cəmi bir neçə ay əvvəl "inaqurasiya" mərasimi keçirilən mədəniyyət evi darmadağın edildi. Həmin vaxt orada cəmləşən erməni hərbçiləri məhv edildi. Oktyabrın 10-da Xocavənd rayonunun Hadrut qəsəbəsi bacarıqlı döyüş taktikası ilə işğaldan azad olundu və bir neçə gündən sonra cəbhə xətti artıq Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu və Xocavənd rayonunun Edişə, Edilli yaşayış məntəqələrindən keçirdi. Bütün istiqamətlərdə cəbhəddə şiddətli döyüşlər gedir, erməni silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının ərazilərini atəşə tutmaqda davam edirdi. Döyüş əməliyyatları aparılan ərazidən xeyli aralıda yerləşən Gəncəyə və Mingəçevirə endirilən raket zərbələri nəticəsində xeyli sayda dinc sakin həlak olmuş və yaralanmış, mülki infrastruktura ciddi ziyan dəymişdi. Hadrut qəsəbəsi və onun ətraf yaşayış məntəqələri işğaldan azad olunandan sonra hərbi komandanlıq artıq Şuşa barədə düşünürdü və çox keçmədi ki, buna qərar verildi.

Azərbaycan tərəfi Şuşanı və onun ətraf ərazilərini işğaldan azadetmə əməliyyatına fərqli yanaşma ortaya qoydu. İlk növbədə bunu çətinləşdirən şəhərin azad olunmasında ağır artilleriyanı və aviasiyanı tətbiq etməməsi idi. Şəhərin erməni vandallarının dağıntılarından qalan hissəsini qorumaq tələb olunurdu. Onsuz da şəhərin çox hissəsi, azərbaycanlılara aid tarixi abidələr, muzeylər, məscidlər, teatr binaları, bulaqlar, hamamlar, məktəblər qədim tikililər, bir sözlə, şəhər erməni vandallarının işğalında qaldığı müddətdə dağıdılmışdı. Şəhərin azad olunması əməliyyatına ağır

artilleriya, aviasiya cəlb olunmasada, şəhərin ətrafında yerləşən düşmən mövqeləri artilleriya və aviasiyanın zərbələri ilə məhv edildi. Həmin günlərdə havanın buludlu olması PUA-ların da tətbiqini çətinləşdirmişdi.

Azərbaycan xalqı, Azərbaycan Ordusu Şuşa həsrəti ilə alovlanıb yanırdı. Şuşanın işğaldan azad olunmasını özünün müqəddəs missiyası hesab edirdi. Düşmən Azərbaycan əsgərinin iradəsi, cəsarəti, mərdliyi və tətbiq etdiyi döyüş taktikası qarşısında duruş gətirə bilmədi. Çünki Şuşa bizi özünə səsləyirdi, illərdi həsrətlə yolumuzu gözləyirdi. Onun azad olunması əməliyyatının hər dəqiqəsinin öz hökmü var. Hərb tarixinə mürəkkəb ərazi şəraitlərində, aviasiyanın və ağır artilleriyanın tətbiq olunmadan uğurla icra olunan əməliyyat kimi daxil oldu. Şuşanı ilk dəfə görənlər Qartal yuvasına bənzədir. Qartallar yuvalarını uca zirvələrdə, əlçatmaz yerlərdə və qayalarda qururlar ki, təhlükəsiz şəraitdə nəsil artırsınlar, çoxalsınlar. Ermənilərin Qarabağı işğal etməsi, kəndlərimizi, şəhərlərimizi dağıtması, təbiətə qarşı apardığı terror, meşələri qırması və talan etməsi, Azərbaycan xalqına qarşı törədilən bəşəri cinayətdir, əslində Azərbaycan xalqına, onun mədəniyyətinə, təbiətinə qarşı törədilən soyqırımdır. Dünya buna nə qədər sussa da, görməzdən gəlsə də, Azərbaycan əsgəri Qarabağı azad etməklə ermənilərin iç üzünü bütün dünyaya göstərdi. Şuşanın azad olunması buna ən bariz nümunədir. Şuşa əməliyyatı çox dəqiq və incəliklə işlənildi, uğurla başa çatdı və hərb tarixinə düşdü. Əməliyyatda iştirak edən hər kəs öz üzərinə düşəni yüksək səviyyədə, peşəkarlıqla icra etdi. Əməliyyatın müvəffəqiyyətlə başa çatmasının əsas səbəblərindən biri düşməni gözləmədiyi yerdə və vaxtda vurmaq, həmçinin onu vaxt və yer baxımından qabaqlamaq olmuşdu. Digər tərəfdən, düşmənə qarşı aldatma tədbirləri uğurla icra olundu. Düşmən ərazi şəraitlərini nəzərə alaraq döyüşlərin yollara bağlı olacağını düşünürdü. Elə ona görə də düşmən əsas qüvvələrini həmin istiqamətlərdə cəmləşdirmişdi. Şuşa əməliyyatına cəlb olunan qüvvələrin bir hissəsi düşmənlə açıq döyüşə girir və onu özünə cəlb etməklə qüvvələrin digər hissəsinin xüsusi təyinatlıların gizli



şəkildə Şuşaya yaxınlaşması və şəhərə daxil olmaları üçün əlverişli şərait yaratmışdı. Şuşa əməliyyatına cəlb olunan qüvvələr, xüsusi təyinatlılar başda olmaqla bütün qoşun növləri mümkün olmayanı edə bildi. Mühəndis qoşunları qısa zamanda iki gün ərzində Şuşakənd istiqamətinə yol çəkdi. Əməliyyata cəlb olunan qüvvələr həmin istiqamətdə manevr edə bildilər və bu, düşmən üçün gözlənilməz oldu. Artilleriya bölmələri ağır topları həmin istiqamətə yerdəyişmə həyata keçirərək oradan atəş dəstəyi imkanı əldə etdi. Belə vəziyyət düşməndə şok effekti yaratdı, Şuşanın qısa zamanda işğaldan azad olunmasını təmin etdi. Sonra isə düşmənin təslim olmaqdan başqa yolu qalmadı, o, üçtərəfli müqaviləni imzalamağa məcbur oldu. Əks-halda Xankəndi, Xocalı, Əskəran, Ağdərə və Ağdam istiqamətində yerləşən qoşun qruplaşması mühasirəyə düşmüşdü, həmin qruplaşma darmadağın ediləcəkdi. Şuşanın azad olunması ilə düşmən mənəvi baxımdan çökdü.

Şuşa döyüşlərində iştirak etmək üçün xüsusi təyinatlı qüvvələrin dəstələrindən bir neçə qruplaşma yaradıldı. Hər qruplaşmaya Şuşaya irəliləmək üçün ayrıca istiqamət və tapşırıq verildi. Bu zaman qruplar Şuşaya irəliləmək üçün ən azı 30 km məsafə qət etməli oldu. Bu, elə də qısa məsafə deyildi, çünki irəliləmə yolları asfalt və hamar deyildi. İndiyə kimi insan ayağı dəyməmiş sıx meşələrdən, dağlardan və qayalardan keçirdi, nə qədər çətin olsa da bizi zəfərə aparan şərəf, ləyaqət və namus yolu idi. Şuşa istiqamətində tapşırıq alan bölmələr gecikmədən fəaliyyətə başladılar. Bu zaman cəbhənin cənub-qərb istiqamətində əldə olunan uğuru inkişaf etdirməklə, Arazboyu ərazidə yerləşən Azərbaycan-İran, eləcə də Ermənistan-Azərbaycan dövlət sərhəddini bərpa etmək üçün hücum dərinliyə inkişaf etdirildi. Əlavə olaraq bir neçə istiqamətdə kompleks tədbirlər həyata keçirildi. Nəticədə ard-arda Xudafərin, Mincivan, Ağdaban, Zəngilan və Qubadlı işğaldan azd edildi. Laçın dəhlizi istiqamətində döyüşlər intensivləşdi, dəhlizin yaxın ətrafında yerləşən yaşayış məntəqələri və yüksəkliklər ələ keçirildi. Laçın dəhlizi artıq Azərbaycan əsgərinin vizual müşahidə məsafəsi və artilleriyanın atəş təsiri daxilində idi. Düşməndə elə tə-

səvvür yarandı ki, Azərbaycan Laçın dəhlizini ələ keçirəndən sonra o həmin yol ilə Şuşaya irəliləyəcək. Cəbhənin digər istiqamətində Xocavənd və Qırmızıbazar yaşayış məntəqəsi və ətraf yüksəkliklər uğrunda şiddətli döyüşlər gedirdi. Çünki Şuşaya və Xankəndinə bu istiqamətdən yol daha yaxındır və asfalt örtüklüdür. Əlavə olaraq, cəbhənin Ağdərə-Tərtər istiqamətində ağır döyüşlər gedir, düşmən hər gün Tərtər şəhərini ağır artilleriyadan atəşə tuturdu. Lakin Tərtərin mərd insanları Birinci Qarabağ müharibəsində olduğu kimi böyük əzm, iradə nümayiş etdirir, düşmənə boyun əymir, savaşan ordu, əsgərlərlə birlik nümayiş etdirirdi. Ağdam istiqamətinə ehtiyat qüvvələr cəmləşdirib Xankəndinə və Şuşaya ən qısa yoldan cəbhə açmanın mümkünlüyü nümayiş etdirilir və düşmənin bu istiqamətdə yerləşən qruplaşması təsir altında saxlanırdı. Vətən müharibəsinin ilk günlərindən havada üstünlüyü ələ keçirən Azərbaycan tərəfi kəşfiyyat və zərbə tipli pilotsuz uçuş aparatlarını tətbiq etməklə müasir dövrün döyüş modelini yazmaqda davam edirdi. Düşmənin illərdir yaratdığı müdafiə, əlavə olaraq təchiz etdiyi kamera müşahidə sistemi pozulmuşdu, əlverişli ərazilər ələ keçirilmişdi. Düşmən ehtimal etdiyi nəticəni əldə edə bilmirdi, çünki ordumuz, ənənəvi silahların tətbiqi ilə aparılan döyüş taktikasını dəyişmişdi. Düşmənin bizim əks-hücum əməliyyatını Xankəndinə və Şuşaya ən qısa yoldan Ağdam, Ağdərə və Füzuli istiqamətlərindən keçirəcəyimizi ehtimal edirdi, ona görə də həmin istiqamətləri uzun illərdi müdafiəyə hazırlamışdı, Vətən müharibəsinin gedişi də onu bir daha təsdiqlədi. Hərbi komandanlıq isə bunun əksinə olaraq ən uzun yolu seçdi, düşməni cinahlardan və arxadan vurmaqla müdafiəsini darmadağın etdi və nəticədə 44 günün sonunda düşmən məğlub oldu. Ağdam və Ağdərə istiqamətində aktiv müdafiə döyüşləri aparmaqla onu atəş altında saxladı, Füzuli istiqamətində cəbhə yarılandan sonra onu zəif istiqamətlərindən dərinliyə inkişaf etdirdi. Qeyd etmək lazımdır ki, Füzuli şəhəri 16 oktyabrda işğaldan azad olunsa da, düşmənlə təmas xəttində yerləşən Aşağı Seyidəhmədli kəndi 21 oktyabrda azad olundu. Bəzən insanlar çaşqınlıq içində idi, cəbhədə nə baş verdiyini



anlamağa çalışırdılar. Əslində uzun müddət müdafiəyə hazırlanmış və möhkəmləndirilmiş rayonlara hücumu genişləndirməyin heç bir anlamı yox idi. Çoxlu itkilər və əlavə qüvvələr oraya cəlb etməklə belə rayonlarda uzun müddət döyüşmək, vaxt itirmək, ancaq düşmənin işinə yarıya bilərdi. Lakin kəndin ətrafında olan yüksəkliklər ələ keçirildi və kəndin bütün giriş və çıxışları nəzarətə götürüldü. Vaxt itirmədən hücum istiqaməti dəyişdirildi və nəticədə Aşağı Seyidəhmədli kəndi düşmənin ehtimal etdiyi kimi qarşı tərəfdən deyil, arxa tərəfdən həmlə ilə Vətən müharibəsinin 24 günü işğaldan azad edildi. Kənd işğaldan azad olunandan sonra Şükürbəylidən arxa tərəfdən gedən yol boyu ağır döyüşlərin izləri görünürdü. Əraziyə baxış zamanı düşmənin müdafiə rayonunu kamera müşahidə sistemi ilə təchiz etməsi, yeraltı sığınacaqlar, betondan uzunmüddətli atəş qurğuları, su çəni kimi görüntü yaradan, amma içərisində kəskin nişançı üçün hazırlanmış müşahidə qülləsi, sığınacaqlararası yeraltı əlaqə yolları və s. aşkar görünürdü. Müdafiənin dərinliyinə eşelonlaşdırılmış bir neçə torpaq sədd hazırlanmışdı. Düşmən müdafiə rayonunda həmin sədlərin arxası ilə müşahidə olunmadan sərbəst hərəkət edə bilirdi. Yol boyu irəlidə təpədə erməni sığınacağı görünür, lakin oraya gedən avtomobil yolu yoxdur, çünki oraya yeraltı tunellər çəkilib. Düşmən postların arasını tikanlı məftillər ilə bağlayıb, ətrafını isə minalayıb, elə ehtimal edirdi ki, döyüşlər burada gedəcək. Hələ bu azmış kimi müxtəlif yerlərdə bunkerlər və sığınacaqlar hazırlamışdı. Baxmayaraq ki, düşmən 2016-cı ilin aprelində məğlubiyyətlə üzləşdi, lakin ondan düzgün nəticə çıxarmadı, Qarabağ probleminin sülh yolu ilə həllinə razılaşmaq əvəzinə, hərb yolunu seçdi. Aprel döyüşlərindən sonra cəbhə xəttində mühəndis işlərini gücləndirdi, Vətən müharibəsi başlayana qədər cəbhədə çox iş gördü. Müdafiəni dərinliyə bir neçə həddə eşelonlaşdırdı, döyüş postlarına kamera müşahidə sistemi quraşdırdı. 2016-cı ilin aprelində qısa müddətdə yarılan "Ohanyan" xətti Vətən müharibəsində tamamilə ələ keçirildi, indi həmin səngərlər, istehkamlar, bunkerlər bizdədir. Biz Vətən müharibəsində ermənilərə elə zərbə vurduq ki, hələ

uzun müddət onu unutmayacaqlar, “Dəmir yumruğu” üzərlərində hiss edəcəklər. Ələ keçirilmiş müdafiə xəttini gələcək nəsillərə çatdırmaq üçün qorumaq və bəzi yerlərdə muzey təşkil etmək lazımdır. Belə nümunələr dünya praktikasında mövcuddur, bu, ermənilərin Azərbaycana qarşı 30 ilə yaxın davam edən işğalçılıq siyasətini nümayiş etdirmənin və şanlı zəfərimizi yaşatmanın bir yoludur.

Xocalı faciəsinin törədilməsində və Azərbaycan torpaqlarının işğalında iştirak etmiş, uzun müddət Ermənistan ordusunda rəhbər vəzifələrdə çalışmış və aprel döyüşlərindən sonra müdafiə naziri vəzifəsindən istefaya göndərilmiş qatil Seyran Ohanyan da Vətən müharibəsi günlərində Şuşanın müdafiəçiləri sırasında olmuşdu, görəndə ki, xüsusi təyinatlılar artıq Şuşaya daxil olub, o zaman qorxaqcasına oradan qaçıb, əks halda məhv ediləcəkdi.

Düşmən ehtiyat qüvvələr cəlb edir, yaşayış məntəqələrini raketlərdən və artilleriyadan atəşinə tutur, hücumçu aviasiyasını tətbiq etməyə çalışırdı. Belə hal 26 oktyabrda Zəngilan və Qubadlı istiqamətində baş vermişdi. Düşmən iki ədəd SU-25 döyüş təyyarəsini tətbiq etməyə çalışmış, lakin HHM bölmələrinin ayıqlığı sayəsində hər ikisi də məhv edilmişdi. Cəbhədə baş verən ağır döyüşlər zamanı xüsusi təyinatlılar hər keçən gün müdafiənin uzaq dərinliyinə – Şuşaya doğru irəliləyirdi. Azərbaycan Ordusu Şuşaya Məştağlar, Çanaqçı və Sığnaq yaşayış məntəqələri istiqamətindən irəlilədi. Bu istiqamətlər sıx meşəlik və dağlıqdır. İrəliləmək ancaq cığırlar ilə mümkündür. Xüsusi təyinatlılar həmin cığırlar ilə irəli gedirdi və hər tərəf düşmən idi, bəzən onlara məsafə o qədər yaxın olurdu ki, adi danışıq səslərini eşitmək olurdu. İlk tapşırıq Şuşaya doğru irəliləmək və Sığnaq yaşayış məntəqəsinə çatmaq idi. Oraya çatandan sonra isə Daşaltı yaşayış məntəqəsini ələ keçirmək idi. Daşaltının sağında və solunda hakim yüksəkliklər yerləşir. Həmin yüksəkliklər meşəlikdir və çox hissəsi isə qayalıqdır. Bu zaman paralel olaraq xüsusi təyinatlılardan ibarət digər qruplaşma da Şuşa istiqamətində tapşırıqlarının icrasına başlamışdı. Daşaltıya hücum noyabrın 4-də başladı və həmin gün də ələ



keçirildi. Çox şiddətli döyüşlər getdi, şəhidlərimiz və yaralılarımız bahasına Daşaltı işğaldan azad olundu. Lakin əsas məqsəd Şuşanı azad etmək idi. Bundan sonda döyüşçülərin tanımadığı və çətin relyefə malik olan ərazidə xüsusi təyinatlıların hədəflərinə çatmalarına şərait yaratmaq üzrə növbəti tapşırıqlar dəqiqləşdirildi. Düşmən noyabrın 5-də iki istiqamətdən: Şuşadan və Laçın istiqamətindən gələn yoldan Daşaltıya əks-həmlə etdi. Xüsusi təyinatlılar Laçın istiqamətindən gələn yolu bağlayıb düşmənin əks-həmləsini dəf etdilər. Xankəndi-Şuşa istiqamətindən Daşaltıya yol və dağ silsiləsi boyu gələn düşmən ilə beş saata yaxın şiddətli döyüş getdi. Daşaltı müdafiə olundu və Xankəndi yolunun ələ keçirilməsinə növbəti tapşırıq verildi. Daşaltından digər istiqamətdə yerləşən xüsusi təyinatlı bölmələr Çanaqçı yaşayış məntəqəsində və onun ətrafında yerləşmişdi. Azərbaycan Ordusunun, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin və digər güc strukturlarının xüsusi təyinatlılarından təşkil olunan 300 nəfərə yaxın şəxsi heyət gecə vaxtı və dumanlı havadan istifadə edərək Çanaqçıdan 13 km məsafə irəliləyərək Laçın-Xankəndi yolunu bağladı. Bu zaman qruplar ara məsafələrini gözləməklə gizli yollar və cığırlar ilə irəlilədi. Özləri ilə ancaq yüngül atıcı silahlar, sursat, tank əleyhinə vasitələr (SPIEK və TƏİRK “Kornet”) götürmüşdülər. Plana əsasən, Şuşaya əsas qüvvələr Daşaltıdan, digər qüvvələr isə arxa tərəfdən daxil olmalı idi. İrəliləyən qruplar dərənin yamacı ilə hərəkət edirdi, bu zaman düşmən aşağıda dərədə yerləşirdi, məsafə yaxın olduğundan onların səsi belə eşidilirdi. Bölmələr təyin olunan yerə çatanda hələ Laçın-Xankəndi yolu fəaliyyət göstərirdi. Xüsusi təyinatlılar yolun ətrafında yerləşən yüksəkliklərdə və daha əlverişli yerlərdə gizli olaraq mövqe tutur, bir neçə gün oradan müşahidə aparır və hər keçən gün Şuşaya daha da yaxınlaşırdılar. Təminat çox çətin idi, ərzağı, sursatı atlar ilə daşıyırdılar. Qruplar noyabrın 4-də təyin olunmuş yerlərə düşmənin gözləmədiyi istiqamətlərə Şuşanın ətrafında yerləşdilər. Buna baxmayaraq düşmən bəzi istiqamətlərdə qrupların yerini aşkar etmişdi və onların mövqelərini əsasən minaatanlardan atəşə tuturdu. Bir neçə qrup hələ Şuşaya

girmədən itkilər verdi. Həmin qruplar düşmənin atəş nöqtələrini susdurmaq üçün uzaqvuran artilleriyanın atəşini çağırır və artilleriyanın atəş dəstəyi ilə irəliləyə bilirdilər. Həmin vaxt hava dumanlı olduğundan PUA-lar fəaliyyət göstərə bilmirdi, yalnız artilleriya dəstəkləyə bilirdi. Düşmən qüvvələrinin əsas hissəsini Laçın-Şuşa yolunda cəmləşdirmişdi, o istiqamətdə yerləşən qruplar daha çox atəşə məruz qalırdı, ona görə də onlar da çox artilleriya atəşi tələb edirdi. Noyabrın 5-də gecə çox qatı duman çökdü, yaxını belə görmək olmurdu. Laçın-Şuşa yolunda çoxlu yaralılar var idi, onlara yardım və təxliyə etmək mümkün olmurdu. Sanitar təlimatçılar və həkimlər onları ancaq meşədə ağacların arasına uzadıb yardım edə bilirdilər. Bütün istiqamətlərdən Şuşaya daxil olmaq üçün əmr verilmişdi. Qruplar noyabrın 5-dən 6-na keçən gecə qayalıqlardan dırmanaraq Şuşaya girmək üçün kəndirləri hazırlamışdılar. Qruplar tapşırıqlarına uyğun olaraq Laçın istiqamətindən gələn yolu bağlayıb düşmənin təminatının qarşısını alır, döyüşü öz üzərinə cəlb etməklə digərlərinin şəhərə girişini təmin etdilər. Bütün bunlar gizli və təyin olunmuş vaxtda həyata keçirilməli idi, əks halda tapşırığın yerinə yetirilməsində gecikmə, bütün əməliyyatın pozulması ilə nəticələnə bilərdi. Cəbhənin digər istiqamətlərində gedən şiddətli döyüşlər də düşmənin diqqətini buralardan yayındırmışdı, heç təsəvvür edə bilmirdilər ki, xüsusi təyinatlılar artıq Şuşanın bir addımlığında şəhərə girməyə əmr gözləyir. Döyüşlərə cəlb olunan bütün qruplar noyabrın 6-da təyin olunan mövqelərinə çatıb orada yerləşmişdi. Elə həmin gün də Şuşaya həmlə başladı.

Əvvəlcədən Şuşaya daxil olan xüsusi təyinatlılar öz işlərini görmüşdü. Düşmən panikaya düşmüşdü, şəhərdə yerləşən tanklar və döyüş maşınları çox yaxın məsafədən döyüşə girmişdi. Düşmən döyüşçülərimizin üzərinə tanklar, piyadanın döyüş maşınları və zirehli transportyorlar ilə hücum edirdi. Xüsusi təyinatlılar yüngül silahlar ilə silahlanmışdı, demək olar ki, sursatları bitmişdi. Şuşanın ətrafında yerləşən əlavə qüvvələr noyabrın 7-də döyüşən hərbi hissələrin çox kritik vəziyyətdə köməyə gəldi. Bu zaman



düşmən tankları xüsusi təyinatlılar ilə yaxın məsafədə döyüşürdü. Özləri ilə gətirdikləri qumbaraatan ilə düşmənin iki tankını məhv etdilər. Həmin gün Şuşa qalasının müdafiəsi təşkil olundu və düşmənin əks-həmləsini dəf etməyə hazırlaşdılar. O gecə düşmən iki dəfə əks-həmlə etdi, lakin hər dəfə böyük itki verərək geri çəkildi. Şuşa şəhər icra hakimiyyətinin binasına noyabrın 7-də dövlət bayrağımız sancıldı. 28 ildən sonra ilk dəfə olaraq Şuşada azan səslənir və dövlət himnimiz oxunur. Bu zaman meşədə və şəhərdə yaralılar var idi, Şuşa yolu açılmalı idi ki, onlar təxliyə edilsin. Dayanıqlı müdafiə təşkil olunandan və şəhərin müdafiəsi möhkəmləndiriləndən sonra Ali Baş Komandan noyabrın 8-də Şuşanın işğaldan azad olunmasını Azərbaycan xalqına elan etdi. Döyüş günləri zamanı çox xoş hava keçirdi, lakin Şuşa azad ediləndən sonra güclü yağış yağdı. Bu yağış Şuşadan ermənilərin çirkin izlərini yudu, faşist ideologiyasını təmizlədi, şəhərə yeni ruh gətirdi. Vətən müharibəsi günlərində davam edən əlverişli hava şəraiti ədalətin zəfər çalmasında Azərbaycan əsgərinin yanında olmasının göstəricisi idi. Şuşa düşmənə diz çökdürdü, onu darmadağın etdi. İndi ermənilər bir-birini ittiham edir, onlar hələ də baş verənlərə inana bilmir. Noyabrın 10-da üçtərəfli razılaşmaya imza atmaq məcburiyyətində qaldı. Döyüşlərdən sonra Azərbaycan tərəfi Şuşa və onun ətraf ərazilərindən düşmənə 1000 yaxın meyit təhvil verdi. Bu, döyüşlərin nə qədər gərgin və ağır keçməsinin göstəricisidir. Şuşanın azad olunması ermənilərə verilən ibrət dərsidir, yaxın tarixlərində aldıqları ən ağır zərbədir.

Fransadan könüllü olaraq Qarabağa gəlmiş erməni döyüşçünün "Yerevan today" kanalına danışdığı döyüş xatirələrindən. "Ən böyük qorxumuz dron və PUA-lar idi. PUA-nın səsini eşitdinsə artıq ölmüsən. Onlardan qaçış mümkünsüzdür. Vızıltı eşitdinsə demək artıq nişangahdasan və nə etsən də, hara qaçsan da ölümündən qurtuluşun yoxdur. Bizim üçün digər qorxunc, vahiməli qüvvə xüsusi təyinatlı dəstənin döyüşçüləri idi. Onlar ən çox gecələr, dumanlı və çiskinli havalarda gəlirdilər. Əsgərlər səngərlərin qarşısına kartof çipsisi tökürdülər ki, onlar gələndə xışıltıdan bil-

sinlər. Onların gəlişi sanki ölüm mələyinin gəlişi kimi idi. Üç-dörd nəfərlə gəlib, səngərdəki silahlanmış 20-30 erməni əsgərini öldürərək, gəldikləri kimi də yoxa çıxırdılar. Biz onları gecələr ova çıxmış ac canavara bənzədirdik. Bir az real çıxmasa da bəzən düşünürdük ki, onlar ümumiyyətlə insan deyillər. Bəlkə də ya zombi, ya da robot idilər. Üstümüzə gələndə pulemyotla vururduq, yıxılırdılar, bir az yerdə eşələnib sonra yenə qalxıb üstümüzə şığıyırdılar. Hətta özüm dəfələrlə şahid olmuşam ki, bu gün öldürdüyümüz əsgər sabah diriləraək yenə üstümüzə gəlirdi. Deyirlər ki, 1500 erməni əsgəri 5-6 Azərbaycan əsgərinin qarşısından qaçdı. Bəli, qaçırdıq. Çünki qaçmasaydın ölümün mütləq idi. Yenə deyirəm, onlar insan deyildilər, nəsə ölümsüz bir şeydilər. Öldürmək olmurdu, vurduqca yıxılıb, yenidən qalxırdılar. Şuşa döyüşləri daha dəhşətli idi. Biz onları yoldan gözləyirdik, amma bir də ayıldıq ki, onlar artıq canavar sürüyə girən kimi içimizə giriblər, həm də yalın əllə. Çox dəhşətli bir döyüş idi. Erməni əsgərlərini, dişlərilə parçalayırdılar. Xankəndinə gətirilən meyitlərin əksəriyyətinin boyunlarındakı şah damarları dişlə qoparılmışdı. İnsan bunu edə bilərmi? Əlbəttəki yox. Bunu ancaq zombilər edə bilər. Deyirlər ki, Qarabağı azad etmək üçün yenidən müharibə edəcəyik. Bu zombiləri görən əsgər, ya zabit bir daha Qarabağda döyüşmək istəməz." Əlbəttə, Vətən müharibəsində döyüşçülərimizin icra etdikləri döyüş tapşırıqları və onların fiziki hazırlığı o qədər yüksək səviyyədə idi ki, onların fəaliyyəti düşmən üçün filmlərdə olan səhnəni canlandırır, həm də onlara aid olmayan torpaqlarda cəhənnəm yaşadırdı. Uşaqları, hamilə qadınları, yaşlıları öldürən və Xocalı faciəsini törədən erməni qatillərinə hələ bu da azdır, çünki onlara kimsə yerini göstərməli idi, ermənilərdə elə bir düşüncə yaranıb ki, bütün dünya onlara borcludur.

Vətən müharibəsi başa çatandan sonra düşmənin termal kamera ilə çəkilmiş video görüntülərindən aydın görünür ki, döyüşçülərimiz dumanlı və çiskinli havada çətin relyefə malik qayalıq ərazilərdən irəliləyərək, bəzi hallarda kəndirlər vasitəsilə dırmanaraq, qarla örtülmüş yüksəkliklərdən keçərək düşmənin gözləmədiyi istiqamətdən Şuşaya daxil olurlar. Belə dumanlı havalarda xüsusi təyinatlıların dəstəklənməsi üçün TB-2 "Bayraqdar"lar fəaliyyət göstərə bilmirdi. Bir tərəfdən onların gizli irəliləmələri üçün belə hava şəraiti əlverişli idi, digər tərəfdən isə dəstəkləyən qüvvələrin fəaliyyəti üçün çətinlik yaranmışdı. Şəhərə ilk daxil olan döyüşçünün xatirələrindən: "Şəhərə düşmənin gözləmədiyi istiqamətdən qayalıqlardan kəndirlər vasitəsilə dırmanaraq yüksəkliyə çıxdıq. Ora qarla örtülmüşdü və hava çox soyuq idi. Düşmənin bu istiqamətdə çox az qüvvəsi yerləşirdi. Gizli olaraq onlara yaxınlaşdıq və əlbəyaxa döyüşə girdik, onları bıçaqla məhv etdik, o qədər bıçaq vurdum ki, heç yadımda deyil, bəlkə də qırxdan çox bıçaq zərbəsi vurmuşdum. Düşmən təşviş içində idi, onları vahimə bürümüşdü, nə baş verdiyini anlamırdılar. Biz gizlicə əks-tərəfə geri çəkildik, artıq istəyimizə nail olmuşduq, hətta düşmən bir-biri ilə atışırdı, düşünürdü ki, biz onların formasında da ola bilərik, artıq bir-birinə inanmırdılar. Çox yorulmuşduq, buraya gələnə qədər özümüzlə gətirdiyimiz sursat da tükənmək üzrə idi. Ona görə düşməndən sursat ələ keçirib onlardan istifadə edirdik. Düşmənin əsas qüvvələri şəhərin giriş tərəfində cəmləşmişdi, çünki onlar şəhərə həmləni oradan gözləyirdilər, bunları əvvəlcədən müəyyən etmişdik və şəhərdə olan zirehli texnikaların yerləri və hərəkət istiqamətləri bizə məlum idi. Həmin istiqamətlərdə binaların girişində mövqe tutub texnikaları özündən irəli buraxıb, sonra onları arxadan qumbaraatanlar və tank əleyhinə idarə olunan raketlər ilə məhv edirdik. Köməyə gələn düşmən pusquya düşür, güclü atəşlə qarşılaşır, təşvişə düşən düşmən nə baş verdiyini anlamadan döyüş meydanından qaçırdı, küçələr boyu düşmən meyitləri qalmışdı. Şuşaya ilk həmlə zamanı düşmənin mövqelərinə silah tətbiq edilmədən gizli yaxınlaşıb, mövqedə olan düşmən əlbəyaxa döyüşlə məhv edilmişdi. Mövqedə olan yaralılar və ölmüş ermənilər Xankəndinə təxliyə edildi. Meyitlərə və yaralılara baxış zamanı onların daha çox bıçaq və tapança yarası aldıqları məlum oldu. Şuşada olan ermənilərin bir çoxunun boyun hissəsindən arterial damarı parçalanmış və qan itirməsindən ölmüşdü. Düşmən böyük

itki verəndən və şəhərin çox hissəsi ələ keçiriləndən sonra onlara məlumat çatmışdı, onlar artıq təşviş və qorxu içərisində idi. Düşmən qısa zamanda Şuşada yerləşən qüvvələrini səfərbər edib itirilmiş mövqelərini geri qaytarmaq üçün əks-həmlələr etmişdi və bu cəhdlər də hər dəfə uğursuz olmuşdu. Xankəndində yerləşən əlavə qüvvələri cəlb edərək 6 noyabr tarixdə yanacaqdoldurma məntəqəsinin yanından tankların və artilleriyanın dəstəyi ilə Xankəndi-Şuşa istiqamətində əks-həmlə keçirməyə cəhd etmişdir. Düşmənin yanacaqdoldurma məntəqəsinin yanında cəmləşən qruplaşmasına Raket və artilleriya qoşunları dəqiq atəş zərbələri endirmiş, o, xeyli itki vermiş, qalıqları isə oranı Xankəndi istiqamətinə və ətraf meşələrə doğru tərk etməyə məcbur olmuşdu. Bununla barışmayan düşmən Xankəndində yerləşən silahlı polis və yerli bankın mühafizə dəstəsini, pulların daşınmasında istifadə olunan zirehli inkasator avtomobillərini cəlb etməklə, könüllülər ilə birgə noyabrın 7-də üçüncü dəfə Şuşanı qaytarmaq üçün əks-həmləyə cəhd etdi. Həmin zirehli avtomobillər ilə Şuşanın girişinə kimi irəliləyə bildi, döyüşçülərimizin sərras atəşi və qumbaraatanlar ilə zirehli avtomobillər məhv edildi. Düşmənin əks-həmləsinin qarşısı qətiyyətlə alındı, qüvvəsinin tükəndiyini görən düşmənin geri çəkilib Xankəndinin ətrafında müdafiə tutmaqdan başqa yolu qalmadı. İki gündə üç dəfə əks-həmləyə cəhd edib Şuşanı qaytara bilməyən və Şuşa döyüşlərində 1000-ə yaxın itki və daha çox yaralı verən düşmən Şuşanın işğaldan azad olunması ilə barışmaq məcburiyyətində qaldı. Maraqlı tərəfi ondadır ki, Xocalı faciəsinin qatilləri və Azərbaycan torpaqlarının işğalında baş rolda olmuş erməni cəlladlarının bir çoxu Şuşanın müdafiəsində könüllü olaraq iştirak edirdi. Onların bir çoxu vəziyyətin ciddiliyini görəndə döyüş meyadnından qaçdı, amma ədalət məhkəməsindən qaça bilməyəcəklər, bütün etdikləri cinayətkar əməllərinə görə gec-tez cavab verməli olacaqlar.

8 noyabr 2020-ci il Şuşada Azərbaycan Respublikasının üçrəngli bayrağı qürurla dalğalanır. Məscidin minarəsinə çıxan Azərbaycan əsgəri oraya Azərbaycan bayrağını taxdı, 28 ildən sonra ilk dəfə Şuşada azan səsləndi, əsgərlərimiz dua etdi. 28 il davam edən işğal həsrətinə son qoyuldu. Azərbaycan Respublikasının Prezidenti dövlətimizin qurucusu ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdikdən sonra xalqımızın müqəddəs məkanına- Şəhidlər xiyabanına gəldi və oradan xalqa müraciət etdi. Ali Baş Komandan Şuşanın işğaldan azad olunmasını xalqımıza Şəhidlər xiyabanından çatdırdı. 8 noyabr 2020-ci il şanlı tariximizə "Zəfər günü" kimi daxil oldu. Şuşanı azad etmək üçün gecə və gündüz çətin ərazilərdən keçməli olduq. İndi həmin ərazilərdən Şuşaya geniş zolaqlı magistral yol çəkilir və zəfər yolu adlanır. Şuşanın işğaldan azad olunması ilə yanaşı, eyni vaxda 23 yaşayış məntəqəsi işğaldan azad olundu. Ağdamda, Ağdərədə yerləşən 30 mindən çox böyük hərbi qruplaşmanın mühasirəyə düşəcəyini və bütün resurslarının tükəndiyini görən düşmən məcbur olub üçtərəfli müqaviləni imzaladı və kapitulyasiya şərtlərini qəbul etdi. Zəfər xalqımızın, ordumuzun iradəsi, əsgərlərimizin igidliyi və şücaəti, şəhidlərin qanı bahasına əldə olunub. Bu şanlı zəfər tarix boyu yaşadılacaq, şəhidlərin xatirəsi daima uca tutulacaq.

Düşmən illərdi gedən informasiya müharibəsində özü haqqında yaratdığı qəhrəmanlıq obrazını yaşatmaq və daxili auditoriyaya hesablanmış açıqlamaları ilə Şuşa məğlubiyyətini unutdurmağa çalışır. Lakin düşmənin saxta imici Şuşanın azad olunması ilə necə darmadağın oldusa, Vətən müharibəsindən sonra revanş almaq xülyası ilə davam edən təbliğat Qarabağda qalan ermənilərin tamamilə məhvinə səbəb olacaq.

Hələ bundan sonra çox zaman tələb olunacaq erməni xalqının toparlanmasına, daşnak, faşist ideologiyasından imtina etməsinə, qonşular ilə mehriban və dostluq şəraitində yaşamasına, Cənubu Qafqazda sülhün bərqərar olmasına. İndi erməni ictimaiyyəti seçim qarşısındadır: ya ölüm, ya da olum. Qarabağın tacı Şuşadır, o da bizdədir. İndi musiqiçilər Bayatı Şiraz təsnifini əminliklə oxuya bilər, çünki həmin musiqi sədaları azad Şuşaya onun Cıdır düzünə yayılır "Havalansın xanın səsi, Qarabağın şikəstəsi". Qədirbilən xalqımız Şuşaya qayıdandan sonra həmin muğam sədaları tezliklə bütün dünyaya səs salacaq. Şəhər əvvəlki görkəmindən də

yaxşı olacaq, dünyanın mədəniyyət mərkəzinə çevriləcək. Çünki sən bizim qürur yerimiz, and yerimiz, müqəddəs məkanımızsan, Şuşa. Şuşanın İsa bulağının saf suyu, təmiz havası, Topxana meşəsi, neçə-neçə tarixi yerlər,.. saymaqla bitmir. Şuşanın taleyinə yazılmış gözəl günlər və xoş xatirələr hələ qabaqdadır. Sənə ancaq yaratmaq və yaşatmaq yaraşır, Azərbaycan! Şuşanı abadlaşdıraq, gözəlləşdirək, əvvəlkindən də gözəl edək ki, Azərbaycan yaşasın.

Şuşa işğaldan azad olunandan sonra o, Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. İndi Şuşa ancaq Azərbaycanın deyil, bütün türk dünyasının qürur mənbəyinə çevrilmişdir.

### Tərtər Vətən müharibəsinin mübarizlik simvoludur

Tərtər rayonu yerləşdiyi coğrafi mövqeyinə görə ermənilərin daima diqqət mərkəzində olub. I Qarabağ müharibəsi və ölkədə yaranan daxili gərginlik zamanı Tərtəri işğal etməyə çalışıb. Həllini tapmayan və uzun müddət davam edən münaqişənin həlli istiqamətində üstünlük əldə edib yeni tələblər irəli sürmək üçün ermənilərin Tərtəri işğal planları olub. Tərtər rayonu Goranboy və Yevlax rayonları ilə sərhəddir. Həmin rayonların ərazisindən Azərbaycanın Qərb istiqamətinə nəqliyyat çıxışını təmin edən dəmir və avtomobil yolları, eləcə də neft qaz kəmərləri keçir. Ermənilər həmişə Tərtərdə zəif yerlər axtarıb həmin nəqliyyat dəhlizini, neft və qaz kəmərlərini ələ keçirmək istəmişlər, lakin buna heç bir zaman müvəffəq ola bilməmişlər. Çünki Tərtərin mərd, igid oğulları düşmənlə sona kimi vuruşmuşlar və Tərtəri müdafiə etmişlər. Bununla da Azərbaycan xalqının mərdliyini, igidliyini bütün dünyaya göstərmişlər.

Qarabağa çox yaxın olan Tərtər erməni təcavüzündən kifayət qədər əziyyət çəkib. Hazırda Ağdərə rayonundan rayonun tabeliyinə verilmiş yaşayış məntəqələri işğal altındadır. Rayonun bir neçə kəndi cəbhədə yerləşdiyindən Tərtər ətrafında tez-tez döyüşlər gedir. Müharibə dövründə Tərtər rayonundan 307 nəfər şəhid olub. Son 5 il ərzində 15 nəfər tərtərli ermənilərin basdırdığı mi-



nalara düşüb.

Ermənilər I Qarabağ müharibəsi dövründə cəbhənin Goranboy və Tərtər istiqamətinə perspektivli ərazi kimi yanaşıblar. Onlar istər 1992-ci ildə, istərsə də 1994-cü ildə əsas diqqəti cəbhənin bu istiqamətinə yönəldiblər. O dövrdə Tərtər istiqamətində döyüşlərdə iştirak etmiş zabitlərin sözlərinə görə, 1994-cü ilin yanvar ayında ermənilərin hərbi qüvvə və texnikasının demək olar 45–50 faizi və 10 min nəfərə yaxın şəxsi heyəti məhz cəbhənin bu istiqamətində cəmləşdirilmişdi. 2010-cu il iyunun 19-da Tərtərin Çaylı kəndi istiqamətində Azərbaycan ordusunun əsgəri Mübariz İbrahimov çoxlu sayda erməni əsgərini məhv edərək şəhid olub. Mübariz İbrahimov bu igidliyinə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. İndiki dövrdə belə Ermənistanda Mübariz İbrahimov haqqında danışmağa qadağa qoyulub. Bundan sonra erməni ordusunun əsgərləri bir neçə dəfə Tərtər istiqamətindən cəbhə xəttini yararaq Azərbaycan ərazisinə daxil olmağa çalışsalar da, onların bu cəhdlərinin qarşısı qətiyyətlə alınıb və düşmən ordusu itki verərək geri çəkilib.




Hələ 2016-cı ildə Dördgünlük müharibə nəticəsində Tərtərin Talış və Seysulan kəndləri ətrafındakı strateji yüksəkliklər işğaldan azad edildi. Bu o zaman böyük qələbələrin ilk müjdəsi, həm də düşmənə döyüş meydanında üzbəüz döyüşdə vurulan böyük zərbə idi. Elə o vaxtdan düşmən aldığı zərbədən sarsıldı, Azərbaycan Ordusunun gücünü hiss etdi, döyüşlərin dayandırılması üçün yalvarmağa başladı. İndi məlum olur ki, hələ o zaman haki-

miyyətdə olan cinayətkar Sarkisyan iki həftə müddətində işğalçı qoşunların Qarabağdan çıxarmasına söz veribmiş. Lakin verdiyi sözə sahib çıxa bilməyən Sarkisyan 2018-ci ilin yazında siyasi səhnədən güc yolu ilə getməli oldu. Yeni hakimiyyətə gələn qüvvələr ilk baxışdan münaqişənin həllinə müsbət reaksiya versə də, bir müddətdən sonra hakimiyyətdə möhkəmləndikdən sonra dedikləri ilə əməlləri arasında kəskin uçurum yarandı. Milliyətçi, şovinist və avantürist mövqe nümayiş etdirən Paşinyan sanki siyasətdə naşı rəhbər libasına girmişdi. Demək olar ki, ikili oynamağa başlamışdı, belə mövqeyi ilə bütün bölgəni təhlükəyə atmışdı. Xalqın ona olan etimadı hər keçən gün azalırdı, çünki iqtisadi vəziyyət ürəkaçan deyildi, əlavə olaraq pandemiya vəziyyəti daha da çətinləşdirmişdi, ermənilər taleyin ümidinə buraxılmışdı. Ölkədaxili çətinliklərdən əhalinin diqqətini yayındırmaq üçün 2020-ci ilin iyulunda havadarlarının dəstəyilə Qarabağdan uzaqda Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz bölgəsində təxribata əl atdı. Döyüş postlarını gündüz vaxtı gözlənilmədən artilleriyadan atəşə tutdu. Həmin gün hərbi qulluqçularımız şəhid oldu və yaralandı. Bir anda cəbhədə vəziyyət gərginləşdi, ermənilər döyüş mövqeyini ələ keçirib, Tovuzdan keçən Bakı-Tiflis avtomobil, Bakı-Tiflis-Qars dəmir yolunu, eləcə də Bakı-Tiflis Ceyhan neft boru və TANAP qaz kəmərini ələ keçirmək istəyirdi. Bu, Ermənistan ilə yanaşı, həm Rusiyanın, həm də Fransanın maraqlarına uyğun idi. Ermənilər heç bir zaman təkbaşına belə bir addım ata bilməzdilər. Həmin ərəfədə qardaş Türkiyə Aralıq dənizində və Liviyada milli maraqlarını qorumaq üçün Fransa və Rusiya ilə qarşı-qarşıya gəlmişdi. Fransanın illərdi Afrikanın bir çox ölkələrinin almazını, qızılını təkbaşına aparıb və indi də Türkiyənin Osmanlının çöküşündən sonra Afrikaya dönüşünü qəbul edə bilmirdi. Rusiyanın dəstəklədiyi Həftar qüvvələrinə qarşı Liviyanın hökumət qüvvələrinin əldə etdiyi uğur və Rusiyanın HHM vasitələrinə ("Panser"lərə) vurulan zərbə hərbi sənaye kompleksinə vurulan ən ağır zərbə idi. Çünki Rusiyanın silahları dünyanın gözündə zəif düşmüşdü, indi ölkələr Rusiyadan silah almağa tələs-



mirlər. Hərbi ekspertlər buna görə hərbi toqquşmaların ya Suriyada, ya da Qarabağda başvermə ehtimalını söyləyirdilər, deyilən kimi də oldu. Ermənilər həmin təxribatla Azərbaycanı onun maraqlarına cavab verməyən müharibəyə cəlb etməklə dünyanın qınağına çəkmək istəyirdi. Azərbaycan ermənilərin cəbhədə cavabını layiqincə verdi, onu yerinə otuzdurdu, lakin Ermənistan ərazisinə girmədi. Dünyaya bəyan etdi ki, heç kimin torpaqlarında gözü yoxdur, bizim hədəfimiz Qarabağı işğaldan azad etməkdir. Düşmən beynəlxalq gücləri də arxasına alıb Azərbaycanın qərbə çıxışı rolunu oynayan layihələrə, xüsusilə də Türkiyə ilə olan əlaqələrin kəsilməsinə çalışırdı. O zaman bunları görməmək mükün deyildi. Lakin ermənilər bununla da kifayətlənmədi. 2020-ci ilin avqust ayının 23-də cəbhənin Goranboy istiqamətində düşmənin diversiya-təxribat qrupunun başçısı baş leytenant Qurgen Alaverdiyan ələ keçirildi. O, dindirilən zaman məqsədlərinin Azərbaycan Ordusunun döyüş postuna hücum etmək və daha çox mülki insan öldürmək olduğunu etiraf etmişdir. Belə çirkin və düşünülmüş planlarından əl çəkməyən düşmən cəbhədə vəziyyəti gərginləşdirməyə davam etmişdi. Bir ay sonra sentyabrın 27-də istirahət günü bütün cəbhə boyu ordumuzun döyüş mövqelərini və cəbhə xəttinə yaxın yerləşən yaşayış məntəqələrini atəşə tutdu. Ordumuz əks-hücum əməliyyatına başladı. Tərtər istiqamətində də şiddətli döyüşlər getmişdi. Düşmən Ağdərə və onun ətraf yüksəkliklərindən Tərtər şəhərini uzaqvuran artilleriyadan atəşə tutdu. Vətən müharibəsində elə bir gün olmadı ki, Tərtər şəhəri artilleriyadan atəşə tutulmasın. Atəşə tutulan obyektlər arasında hərbi obyektlər olmamışdır. Yaşayış binaları, məktəblər, xəstəxanalar, özəl sektora aid müəssisələr və infrastruktur obyektləri düşmən atəşə tutmaqla təşviş yaratmaq və əhalini yaşayış yerindən kütləvi köçə məcbur etmək idi. Buna baxmayaraq cəbhənin Tərtər istiqamətində yerləşən birləşmələrin səyi nəticəsində düşmənin müdafiəsi yarıldı və oktyabrın 3-də Suqovuşan və Talış kəndləri tamamilə işğaldan azad edildi. Tərtər şəhərinin cəbhənin bu istiqamətində yerləşən düşmən artilleriyasının atış mənzilindən uzaqlaşması şəhərin atəşə tutulmasını

qismən azaltsa da digər istiqamətdən – Ağdərədən atəşə tutulması davam etmişdi. Sutkanın istənilən vaxtı artilleriya atəşinə məruz qalan Tərtər əhalisi şəhəri tərk etmədi. Əksinə, cəbhədə döyüşən əsgərlərə dəstək nümayiş etdirdi. Bu, Vətən müharibəsi günlərində Tərtərin düşmən həmlələrinə və onun artilleriya zərbələrinə qarşı məğrur duruşunun simvoluna çevrilmişdi. İllər keçdikcə bu cür duruş sərgiləyən Tərtərin rolu Qarabağın azad olunmasında daha çox anılacaq. Tərtərin ərazisində yerləşən Sərsəng su anbarı uzun illər düşmən tərəfindən xalqımıza qarşı informasiya müharibəsinin tərkib hissəsi kimi istifadə olunmuşdu. Düşmən qış aylarında anbarın suyunu bilərəkdən boşaldır, yay aylarında isə əhalinin suya olan tələbatının qarşılandığı bir vaxtda gecə suyu açıb buraxırdı. Nəticədə evləri və əkin sahələrini su basır, əhaliyə maddi ziyan dəyirdi. Daha çox isə beynəlxalq hüquqa zidd olaraq Azərbaycana qarşı su müharibəsi aparılırdı. Suqovuşanın işğaldan azad olunması ilə bu bölgədə yaşayan əhalinin suya olan tələbatı qarşılandı, suvarma kanalları su ilə dolduruldu və tələbata uyğun olaraq tənzimlənməyə başlandı. Yenidən dinc sakinləri hədəfə alan düşmən ağır artilleriyadan şəhərin mərkəzinə top mərmisi atıb. Mərmilərdən bir neçəsi beşmərtəbəli yaşayış binasına, fərdi yaşayış evlərinə düşüb. Nəticədə mülki evlərə ziyan dəyib. Düşmən Tərtəri mütəmadi olaraq atəş altında saxlayıb. Sentyabrın 27-dən oktyabrın 29-a qədər Tərtər şəhərinə 15 500-ə yaxın mərmi düşüb. Bir günə 2280 ədəd mərmi düşdüyü olub. Bunu Tərtər Rayon İcra Hakimiyyətinin başçısı diplomatik korpusun nümayəndələrinin Tərtər rayonuna səfəri zamanı yerli və xarici mətbuata açıqlamasında deyib. Onun sözlərinə görə, mərmilərin düşməsi nəticəsində 17 nəfər dinc sakin həlak olub: "Onlardan 1-i uşaq, 1-i isə qadındır. 61 nəfər yaralımız var. Yaralıların 51-i artıq öz evlərinə buraxılıb, 10 nəfər isə respublikanın müxtəlif şəhərlərində müalicə alırlar. İndiyə qədər 133 ev tamamilə dağılıb, 873 ev qismən ziyan çəkib, 14 məktəb, 3 xəstəxana, 18 inzibati bina, 65 ictimai yaşayış binasına (biri tamamilə dağıdılıb) ziyan dəyib. Ümumilikdə 1200-ə yaxın insan ermənilərin Tərtərə hücumundan ziyan çəkib". Hazırda



Ağdərə rayonundan Tərtərə birləşdirilən yaşayış məntəqələrinin çox hissəsi işğal altındadır. Tərtərin bir neçə kəndi Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazidə qaldığından erməni silahlıları tərəfindən həmin kəndlərdən tez-tez atəş açılır. Vətən müharibəsində Tərtər rayonuna ümumilikdə 30.000 mərmi, onlardan 16.000 isə ancaq şəhərin özünə atılıb. Bu, erməni vəhşiliyinin və barbarlığının bariz nümunəsi deyil, bəs nədir?!

## Strateji əhəmiyyətli Murovdağ silsiləsinin Vətən müharibəsində rolu

Murov, Kiçik Qafqaz dağlarında 10 km enində və 70 km uzunluğunda ərazini əhatə edən dağ silsiləsidir. Dağ silsiləsi Azərbaycanla Ermənistan arasında cəbhə xəttini təşkil etmişdi. Kiçik Qafqazın Murov silsiləsində yerləşən Ömər aşırımı Azərbaycanın Kəlbəcər rayonunu Göygöllə birləşdirən mühüm dağ keçididir. Aşırımın hündürlüyü 3395 m təşkil edir. Hələ birinci Qarabağ müharibəsi zamanı bu ərazilərdə şiddətli döyüşlər getmişdi. Aşırım Qarabağ müharibəsinin ən qanlı döyüşlərindən biri olan Ömər aşırımı uğrunda döyüşə şahidlik etmişdir. Kəlbəcər rayonu ilə Gəncə arasında olan avtomobil yolu Ömər aşırımından keçir. Ona görə də hansı tərəf Ömər aşırımına nəzarət edirsə, o da ətraf ərazilərə üstünlüyə sahib olur. Silsilənin şimal-şərqində əsrarəngiz Göygöl, Maralgöl yerləşir. Dağ silsiləsinin ən hündür zirvəsi 3724 m olan Camışdağdır. 27 sentyabr 2020-ci ildə Azərbaycan Ordusunun uğurlu əməliyyatı nəticəsində Vətən müharibəsinin ilk günündə Murov zirvəsi işğaldan azad edilmişdir. Silsilənin düşmən olan hissəsində Kəlbəcər rayonu yerləşir. Rayon təbii sərvətləri, qızıl yatağı, təbii suları, meşələri ilə zəngin bir rayondur. Düşmən Kəlbəcər rayonundan Qarabağa ikinci yol çəkmiş, Qarabağın təbii sərvətlərini talamış və hərbi baxımdan manevr imkanlarını yaxşılaşdırmışdı. Vətən müharibəsində Azərbaycan Ordusunun əsas məqsədi strateji yüksəklikləri ələ keçirmək və Ermənistandan Qarabağa gələn təminat yollarını bağlamaq idi. Qarabağa Ermə-

nistandan iki istiqamətdən: Laçından və Kəlbəcərdən giriş var. Bölmələrimiz Murov dağında döyüşlərə xüsusi olaraq hazırlanmışdı. Qruplar cəbhə xəttini bir neçə istiqamətdən sızıb, özlərilə götürdükləri yüngül silahlar ilə həmlə edib düşmənin döyüş postlarını ələ keçirdilər. Yüksək dağ şəraitində bölmələrimizin kiçik qruplar şəklində fəaliyyəti hakim yüksəklikləri ələ keçirməyə imkan verdi və düşmənə həmin ərazilərin müdafiəsinə sonradan əlavə qüvvə cəlb etməyə məcbur etdi. Çətin ərazi şəraitlərində hücum dərinliyə inkişaf etdirilmədi, aktiv müdafiə döyüşlərilə düşmən atəş altında saxlandı. Cəbhənin Murov istiqamətində əsas məqsəd düşmən qüvvələrini parçalamaq, təminat yollarını nəzarətə götürmək, Ermənistandan Qarabağa silah-sursatın daşınmasının və şəxsi heyətin cəlb olunmasının qarşısını almaq idi. Vətən müharibəsinin gedişi onu göstərir ki, həmin məqsədlərə nail olunub. Bu, asan olmadı. Murovda Azərbaycan Ordusu itkilər verdi. Lakin ələ keçidiyi mövqelərdə möhkəmləndi və düşmənin bir neçə əks-həmləsinin qarşısını aldı, mövqeləri sona kimi qorudu. Vətən müharibəsində düşmənin 44 günün sonunda diz çökməsini yaxınlaşdırdı. Düşmən üçtərəfli razılaşmanın şərtlərinə əsasən Kəlbəcərdən çıxdı. Murov döyüşləri Kəlbəcərin döyüşsüz qaytarılmasında böyük rol oynadı. Hazırda Azərbaycan Ordusunun bölmələri Kəlbəcərdə yerləşir və düşmənin dağıtdığı və viran qoyduğu yaşayış məntəqələrinin minalardan təmizlənməsini həyata keçirir. Bölmələrimizin təminatı Ömər aşırımı vasitəsilə həyata keçirilir. Qışda əlverişsiz hava şəraiti hərəkəti çətinləşdirir. Kəlbəcər ilə Gəncə arasında fasiləsiz işləyən yolun tikintisi nəzərdə tutulur. Həmin yolda tunelin tikintisi planlaşdırılır. Göygöl-Ömər aşırımı-Kəlbəcər yolunun tikintisi istiqamətində artıq fəaliyyətə başlanıb. Hətta eni 9 metr (yol çiyinləri ilə birlikdə 11 metr) olacaq yolun Ömər aşırımına qədər olan hissəsində genişləndirmə və yatağın bərkidilməsi işləri başa çatıb. Yaxın vaxtlarda isə Ömər aşırımından Murovun Kəlbəcər üzrə yerləşən "Yol evi"nədək olan 5 kilometrlik hissənin işlənməsinə başlanacaq.

Ümumi uzunluğu 102 kilometr təşkil edən Göygöl-Ömər aşırımı-Kəlbəcər-İstisu avtomobil yolu 3 zolaqlı olacaq. Yolun 3 zolaqdan ibarət olması çətin relyefə malik dağlıq ərazilərdə yük avtomobillərinin minik maşınlarına mane olmaması məqsədi daşıyır. Bundan başqa, Kəlbəcər rayonundan Laçın rayonuna da dairəvi avtomobil yolunun tikintisi planlaşdırılır.

Əsaslı şəkildə yenidən qurulan Murov yolunda tunelin olub-olmayacağına gəlincə, hələ rəsmən təsdiqlənməmiş layihədə bu tipli keçidin tikintisi nəzərdə tutulub. Belə ki, yenicə hazırlanmış layihəyə əsasən Murov yolunda ümumi uzunluğu 5-6 kilometr olan tunel tikilməsi planlaşdırılıb. Hazırda həmin tunaelin reallaşması üçün işlər gedir, 400 m hissəsi açılıb.

Tərtər-Ağdərə-Kəlbəcər yolunun açılıb-açılmayacağı Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanmış üçtərəfli bəyanatda nəzərdə tutulan şərtlərin icrası ilə bağlı veriləcək siyasi qərarlardan asılıdır. Ağdərə yolu açılsa belə, Murovda nəzərdə tutulan tunelin tikilməsi mütləqdir, düşmənin riyakarlığı və xisləti bunu labüd edir.

Yekun olaraq hər kəs bu qənaətdədir ki, Murovdan 20 metr eni olan yol çəkilsə belə, bu, Kəlbəcərin yol problemini həll etməyəcək. Çünki sərt iqlim şəraiti və 3600 metr yüksəkliyə qədər qalxan dolama yollar xüsusilə yük daşıyan maşınların rahat və təhlükəsiz hərəkətini xeyli dərəcədə məhdudlaşdırır. Bu gerçəkliyi hazırda Murov yolunun tikintisi ilə məşğul olan mütəxəssislər də anlayır və bildirirlər ki, Murovdan Kəlbəcərə yol çəkmək Ağdama, yaxud Zəngilana yol çəkmək qədər asan və perspektivli deyil. Odur ki, mümkün qədər Ağdərədən Kəlbəcərə gedən yolun daimi və təminatlı şəkildə açılmasına nail olmaq lazımdır.

Əks halda, Murov yolunu genişləndirib asfalt örtük çəkmək, yaxud Daşkəsəndən sərt ərazilər vasitəsilə Kəlbəcərə yeni yol çəkmək həm təhlükəsizlik, həm də iqtisadi və siyasi baxımdan çox zərərlidir. Kəlbəcərə gediş-gəliş təkcə Murov yolu ilə mümkün olacaqsa, onda zəngin təbii ehtiyatalara və füsunkar təbiətə malik bu rayon yalnız heyvandarlıqla məşğul olanlar üçün 3-4 aylıq yaylaq yeri rolunu oynayacaq".

Yaxın gələcəkdə Qarabağda yaşayan ermənilərin Azərbaycanın bütün şərtlərini qəbul etməkdən başqa çıxış yolu qalmır. Bu hamının xeyrinə olan vəziyyətdir, əks halda Azərbaycan Ordusunun "Dəmir yumruğ"u ilə üzləşməli olacaqlar. Murovdağ silsiləsi indi sərt təbiəti ilə hamını sınağa çəkməkdə davam edir. Oranın havası tez-tez dəyişir, ona görə də istənilən vəziyyətə hazır olmaq lazımdır. Təbiətin canlanması ilə Kəlbəcərə yeni həyat qayıdır. Tikinti və abadlıq işləri sürətləndirilib. Kəlbəcərin müdafiəsi istiqamətində yeni hərbi hissələrin tikintisi və infrastrukturun yaradılması davam etdirilir. Bu yay pilot lahiyə olaraq Kənd Təsərrüfatı Nazirliyi tərəfindən kəlbəcərlilərə aid qoyun sürüləri yaylağa çıxarılmış və arıçılıqla məşğul olanlara şərait yaradılmışdır. Qısa zamanda Kəlbəcərliləri öz yurd-yuvasına qaytarmaq və bütün infrastrukturu bərpa etmək lazımdır.

## Vətən müharibəsində düşmənin başına raket və mərmi yağdı

Raket və artilleriya qoşunlarının birləşmə və hissələrinin atəşlə zərərvurma vasitələri Vətən müharibəsində susmadı, ümumi qələbənin əldə olunmasına öz töhfəsini verdi. Düşmənin cəbhədə atəşkəsi pozması ilə yaşayış məntəqələrimizi və döyüş mövqelərimizi atəşə tutmasına ilk növbədə artilleriya bölmələri cavab verdi. Cəbhə boyu düşmənə əks-hücum planına əsasən, bütün obyektlərə və hədəflərə atəş zərbələri endirildi. Müharibənin ilk günlərində düşmənə sarsıdıcı zərbələr endiriləndən sonra onun müdafiəsini üç istiqamətdən yarmaq mümkün oldu. Artilleriya havada üstünlüyün əldə olunmasında, HHM vasitələrini məhv etməklə xüsusi rol oynadı. Düşmən artilleriyasına qarşı mübarizə aparmaqla atəş üstünlüyü təmin edildi və əks-hücum əməliyyatının sonuna kimi saxlanıldı.

Artilleriyanın qarşısında asan tapşırıqlar durmurdu, bunu isə çətinləşdirən müxtəlif amillər var idi. Ərazi relyefi, düşmənin uzunmüddətli müdafiəyə hazırlaşması, minalanmış sahələrin mövcudluğu və s. Müharibənin ilk anlarından düşmənlə təmas xəttinin



yarılması zamanı dəstəkləyən artilleriyanın atəşinin intensivliyi o həddə çatmışdı ki, sanki dolu yağırdı. Çünki başqa cür ola da bilməzdi, ona görə ki, uzunmüddətli müdafiəni yarmanın əsas şərtlərindən biri orada yerləşən düşməni məhv etmək və istehkamları dağıtmaqdır. Həmlə edən bölmələri dəstəkləmək və onlara irəliləmək üçün yol açmaq o qədər də asan olmadı. Düşmənin müqavimətini qırmaq üçün bəzi məqamlarda həmlə edən bölmələr düşmənin səngərlərinə girir, əlbəyaxa və süngü ilə döyüşürdü. Belə hallar həmlə edən bölmələrin artilleriya ilə fasiləsiz dəstəklənməsini çətinləşdirirdi. Müharibənin ilk beş günü düşmən artilleriyası ilə qarşılıqlı mübarizə şəraitində keçmişdir. Bu üstünlüyü Azərbaycan Ordusunun artilleriyası dözüm, vətən sevgisi, yüksək döyüş hazırlığı və ən əsası isə haqq işini dəstəkləməsi və apardığı mübarizə əzmilə qazanmışdır. Gecə və gündüz, istənilən hava və ərazi şəraitlərində irəliləyən motoatıcı və tank qoşunlarını, həmlə qruplarını və xüsusi təyinatlı qüvvələri dəstəkləmək, vaxtında yerdəyişmələr etmək, atəşi tələb olunan istiqamətdə cəmləşdirmək, eləcə də mühəndis qoşunları ilə qarşılıqlı fəaliyyətdə düşmənin gözləmədiyi istiqamətlərə qısa zamanda yol çəkilərək atəş mövqeləri tutub oradan dəstəkləməsi atəşin effektivliyini və əməliyyatların uğurunu təmin etmişdir.

Raket və artilleriya qoşunları Vətən müharibəsində düşmənin 500-ə qədər müxtəlif növ hədəflərini dəqiq atəşlə məhv etdi və ya atəş zərbələri endirdi. Düşmən uzun illərdi işğal edilmiş əraziləri müdafiəyə hazırlayırdı və məlum idi ki, o istehkam qurğuları ilə gücləndirilib. Vətən müharibəsində əsas tapşırıqlardan biri ilk günlərdə düşmənin müdafiəsini bir neçə istiqamətdə yarmaq oldu. Bu tapşırığın yerinə yetirilməsində artilleriyanın üzərinə böyük iş düşürdü. Düşmənin müdafiəsinə həmlə edən bölmələri atəşlə dəstəkləmək və onların irəliləməsi üçün yol açmaq lazım idi. Bu, hər yerdə elə də asan olmadı. Bölmələrimiz və həmlə qrupları düşmən müdafiəsinin dərinliyinə irəlilədikcə müxtəlif maneələr və ağlasığmaz sürprizlər ilə üşləşirdi. İndi hərbi qənimətlər parkında düşmənin müdafiədə hazırladığı səngərlər, yeraltı sığınacaqlar,

əlaqə yolları, tunellər, bunkerlər, torpaq sədlər, tanklara qarşı xəndəklər, kirpilər, tanklara, piyadalara qarşı qurulmuş mina sahələri və məftil əngəllərinin elementlərinin müdafiənin dərinliyinə eşelonlaşdırılmış, bir-birini ardıcıl olaraq bağlayan ondan çox maneələr sistemi nümayiş etdirilir. Həmin maneələrin dərinliyi bir neçə kilometr təşkil edir və onlar müdafiənin dərinliyinə doğru bir-birini tamamlayaraq uzanırdı. Bölmələr maneənin birini rəf edir, digəri ilə üzləşir, psixoloji olaraq yorulur, hücum tempi aşağı düşür, irəliləmə çətinləşir, hələ nəzərə almaq lazımdır ki, düşmən həmin maneələrin hər birini atəş vasitələri ilə dəstəkləyirdi. Azərbaycan Ordusu Vətən müharibəsində həmin döyüş səhnələrilə üzləşməli oldu. Bu nə qədər çətin və arzuolunmaz olsa da, ordumuzun şəxsi heyətinin peşəkarlığı, döyüş hazırlığı səviyyəsinin yüksək olması və torpaqları işğaldan azadetmə istəyi hər şeyə üstün gəldi. Hərbi komandanlıq döyüşən bölmələrə müraciətində "Azərbaycan xalqı Sizdən qələbə gözləyir" deməklə onları növbəti döyüş gününə ruhlandırır, döyüşən orduya xalqın dəstəyini nümayiş etdirirdi. Düşmənin müdafiəsini yarmaq, onu dərinliyə və cinahlara genişləndirmək tapşırığı cəbhənin cənub istiqamətində uğurlu alındı. Birlik və birləşmənin artilleriyası atəşini yarma sahəsinə cəmləşdirərək düşmənin canlı qüvvə və atəş vasitələrini məhv etdi. Düşmən nə qədər müqavimət göstərsə də hazırladığı səngərlər özünə məzar oldu. Müdafiənin zəif yerlərindən əlavə qüvvələr cəlb etməklə hücum dərinliyə inkişaf etdirildi. Üstün qüvvələrin hücumlarına tab gətirməyən düşmən döyüş meydanında silah, sursat, texnikanı, təchizatını qoyub qaçdı. Bu zaman artilleriya düşmənin dərinlikdən irəliləyən ehtiyatlarına zərər vurur, onun cəbhə xəttinə irəliləməsinin qarşısını alırdı. Raket və artilleriya qoşunlarının birləşmə və hissələri düşmənin dərinlikdə yerləşən ehtiyatlarına, dəstəkləyən artilleriyasına, tanklarına, hava hücumundan müdafiə vasitələrinə, tank əleyhinə vasitələrinə, idarəetmə məntəqələrinə, sursat anbarlarına və infrastruktur obyektlərinə sutkanın istənilən vaxtı zərbələr endirə bildi. Artilleriya bölmələrinin döyüş hazırlığının yüksək olması, şəxsi heyətin peşəkarlığı Vətən müharibəsində istənilən tapşırığın yerinə yetirməsini təmin etdi. Artilleriya bölmələri dərinlikdə fəaliyyət göstərən xüsusi təyinatlıların, eləcə də hücumda döyüş tapşırıqlarını yerinə yetirən motoatıcı və tank bölmələrinin atəş dəstəyini vaxtında və dəqiq yerinə yetirdi. Vətən müharibəsinin elə bir günü olmadı ki, düşmənə raket və artilleriya qoşunlarının bölmələri ilə zərər vurulmasın. Döyüş meydanında düşmənin bütün fəaliyyəti nəzarətdə saxlandı, aşkar edilməsi ilə məhv edildi. Müharibə başlayan andan düşmən bunu öz üzərində hiss etdi. Çünki artilleriya və digər zərərvurma vasitələri düşmənin döyüş meydanında fəaliyyətini məhdudlaşdırdı, nəticədə o heç bir tapşırığı planlı şəkildə icra edə bilmədi, psixoloji olaraq çökdü, verilən tapşırıqları yerlərdə kiçik komandirlər yaranmış şəraitə uyğun olaraq öz bildikləri kimi icra etmək məcburiyyətində qaldılar. Bunu sonradan döyüşlərdə iştirak edənlərin özləri təsdiqlədi.



XXI əsrin müasir müharibələrini aparan Azərbaycan tərəfi müxtəlif zərərvurma vasitələrini tətbiq etməklə düşmənin hədəf və obyektlərinə dəqiq və vaxtında atəş zərbələri endirməklə ona diz çökdürdü. Vətən müharibəsi hərb tarixinə PUA-ların geniş tətbiq edildiyi müharibə kimi keçdi. Gələcək müharibələrin yeni modelini nümayiş etdirdi. Həmin modelin içərisində raket və artilleriya qoşunları öz yerini qorumaqla yanaşı, ümumi işə töhfəsini verdi. Yeni döyüş taktikasının modeli formalaşdı. Bir sözlə, Vətən müharibəsində düşmənin başına raket və mərmi yağdı, aldığı zərbələrdən hələ çətin ki, bir neçə il özünə gələ bilsin. Lakin bu bizi arxayınlaşdırmamalıdır, çünki biz bunu düşmənin nümunəsində gördük. O, çox məkrli, hiyləgər, eləcə də şərait yarananda arxadan zərbə vurmağa, havadarlarının dəstəyinə güvənib öz çirkin məqsədlərinə can atandır. Düşmənin məğlub olmasının əsas səbəblərindən biri də onun uzun illərdi özündə "qalib ordu" imici formalaşdırması və həmin saxta imiclə də yaşaması oldu. Nəticədə döyüş meydanında artilleriya atəşlərinin, raket zərbələrinin təsirindən diz çökdü, məğlubiyyətini etiraf etdi, lakin hələ də bununla barışmaq istəməyənlər var, revanş hissləri ilə yaşayırlar. Çünki işğal etdikləri əraziləri dağıtmış, daşını, kəsəyini belə talamışlar.

Dünyanın heç bir yerində, heç bir müharibədə belə böyük dağıntı, talan nümunəsi yoxdur. İndi işğaldan azad olunmuş ərazilərə hökümət nümayəndələrinin, mətbuat işçilərinin, ictimai fəalların, qeyri hökümət təşkilatlarının, müxtəlif partiyaların, eləcə də ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların, xarici ölkə səfirlərinin, dünyanın müxtəlif ölkələrinin tanınmış blogerlərinin səfərləri təşkil edilir. İşğaldan azad olunan ərazilərə gedənlər gördüklərindən heyrətləndiklərini gizlədə bilmirlər. İndi Ağdamı Qafqazın Xirosiması adlandırırlar. Ağdam tamamilə dağıdılıb, ölü şəhərdi. Əlbəttə, buraya atom bombası atılmayıb, ermənilər tərəfindən işğal müddətində dağıdılıb. Rusiyanın nümayəndə heyəti tərkibində 30 aprel 2021-ci il tarixdə işğaldan azad olunan ərazilərə səfər edən "Milli müdafiə" jurnalının həmtəsisçisi İqor Korotçenko Ağdam şəhərini görəndən sonra öz təəssüratlarını mətbuat nümayəndələrilə bölüşüb: "Ermənilər Ağdamda atom bombası deyil, azərbaycanlılara qarşı nifrət bombası partladıblar".

XXI əsrdə sivilizasiyanın inkişaf etdiyi və mədəni dünyada yaşadığımız bir dövrdə nə qədər acı olsa da, bu həqiqətdir. Təəssüf ki, XXI əsrdə Azərbaycan xalqı uzun illərdi dünyanın gözü önündə ermənilərin belə vəhşilikləri ilə üzləşdi, amma buna ölkə rəhbərinin uzaqgörənliyi, xalqımızın birliyi, qardaş və dost ölkələrin dəstəyi ilə son qoyuldu. Azərbaycan Respublikasının Silahlı Qüvvələri Vətən müharibəsində peşəkarlıq, əzmkarlıq, rəşadət göstərdi, dünyaya müasir döyüş taktikası nümayiş etdirdi. Raket və artilleriya qoşunları arsenalında olan raket və mərmiləri tətbiq etməklə bizi hər gün zəfərə yaxınlaşdırdı. Yüksək dəqiqliyə və dağıdıcı gücə malik raketləri: LORA və Polenezləri tətbiq etməklə düşmənə sarsıdıcı zərbə vurdu. Separatçı Araik Arutunyanın Şuşada qondarma and içmə mərasimi keçirilən mədəniyyət evinə Vətən müharibəsi zamanı LORA ilə endirilən raket zərbəsindən düşmən böyük itki verdi. Zərbə zamanı Ermənistandan gətirilən polislər ilə toplantı keçirilirdi. Orada olan heyətdən çoxlu sayda itkin düşənlər var. Üçtərəfli razılaşmadan sonra ermənilər Rusiya sülhməramlıları ilə birgə itkin düşənlərin axtarışını təşkil etmişlər və



Şuşada dağıntılara baxış keçirmişlər. Lakin axtarış nəticəsiz qalmışdı, ermənilər hələ də yüksək rütbəli polis məmurlarını axtarırlar. Şuşa azad olunandan sonra düşmən Xankəndi istiqamətindən bir neçə dəfə əks-həmlə keçirməyə cəhd etdi. Lakin uzaqvuran artilleriya dəqiq atəş zərbələri ilə Xankəndinin çıxışında yerləşən yanacaqdoldurma məntəqəsinə cəmləşən düşməni darmadağın etdi. Xocavənd rayonu ərazisində yerləşən Ziyarət dağına həmlə zamanı kapitan Zaur Quliyevin komandirlik etdiyi artilleriya batareyası hamını heyrətləndirdi. Tuğ kəndinin yaxınlığında atəş mövqeyində yerləşən dörd ədəd M-46 topundan ibarət batareyanı taqımlar ilə ayrı istiqamətlər üzrə tətbiq etdi. 2016-cı ildə aprel döyüşləri zamanı qazandığı döyüş təcrübəsi Vətən müharibəsində ona çox kömək oldu. O, soyuqqanlı, peşəkar və işini bilən zabitdir, vəzifələrinin öhtəsindən layiqincə gəldi. Müxtəlif istiqamətlərdə fəaliyyət göstərən xüsusi təyinatlılara və atəş tələb edən istənilən bölmələri fasiləsiz olaraq dəstəkləyə bildi. Hamı elə bildi ki, artilleriya batareyası ancaq onların fəaliyyətini dəstəkləyir. Reallıqda isə bir atəş taqımı Şuşa istiqamətində olan xüsusi təyinatlıları, digər atəş taqımı isə Ziyarət dağı istiqamətində fəaliyyət göstərən motoatıcıları dəstəkləyirdi. Artilleriyanın atəş dəstəyini hiss edən döyüşçülər inamla irəliləyir, düşmənə sarsıdıcı zərbələr endirir və torpaqlarımızı işğaldan sürətlə azad edirdilər. Vətən müharibəsinin zəfər tarixində belə döyüş nümunələri çoxdu. Raket və artilleriya qoşunlarının birləşmə və hissələri Vətən müharibəsində şəhidlər verdi. Şəhidlərimizin qanı və canı bahasına torpaqlarımız azad edildi. İndi onların əziz xatirəsi xalqımız tərəfindən uca tutulur və əbədi olaraq yaşadılacaq. Vətən müharibəsində iştirak edən və qəhrəmanlıq nümunələri göstərən hərbi qulluqçular dövlətimiz tərəfindən müxtəlif orden və medallar ilə mükafatlandırılıb. Əlbəttə, təltif olunanlar arasında artilleriya zabitləri də çoxluq təşkil edir. Bu, Vətən uğrunda vuruşan və canından keçən hərbçilərə dövlətimiz tərəfindən verilən ən böyük dəyərdi. Amma unutmayaq ki, Vətən yolunda şərəflə, vicdanla, namusla vuruşmaq, könülləri fəth etmək və xalqın sevgisini, hörmətini qazanmaq ha-

mıya qismət olmur. Vətənin ağır günlərində hamı çətin sınaqdan keçdi. Torpaq, xalq, namus yolunda və vətənimizin azadlığı uğrunda şərəflə vuruşmaq və həmin hissləri yaşamaq isə əvəzolunmazdır. Müzəffər xalqın qarşısında başı uca olmaqdır.

### Xüsusi təyinatlıların tarixi missiyası

Xüsusi təyinatlılar bütün orduların ən hazırlıqlı bölməsidir. Onların qarşısında duran missiya ən çətin tapşırıqları yerinə yetirməkdir. Mürəkkəb və çətin hazırlıqdan və sınaqlardan keçən xüsusi təyinatlılar zamanı çatanda öz sözlərini deyirlər. Vətən müharibəsinə qədər ölkəmizin və xalqımızın üzləşdiyi ən ağır yük, həllini tapmayan "Qarabağ" münaqişəsi xüsusi təyinatlıların qarşıda duran missiyasını açıq şəkildə göstərirdi. Onlar bunu bilir və üzləşdikləri çətinliklərə baxmayaraq daima yüksək səviyyədə hazırlaşırdılar. Hələ 2016-cı ilin aprel döyüşlərində düşmənə sarsıdıcı zərbələr endirən xüsusi təyinatlılar nəyə qadir olduqlarını o zaman göstərmişdilər. 2017-ci ildə Silahlı Qüvvələr səviyyəsində keçirilən Hərbi Oyunda Xüsusi Təyinatlı Qüvvələrin qərargahında vasitəçi qismində iştirakım zamanı xüsusi təyinatlı qüvvələrin hazırlıq səviyəsi və görülən işlər barədə tanış olmuşdum. Silahlı Qüvvələrin Hərbi Akademiyasında təhsil alan xüsusi təyinatlı qüvvələrin təmsilçilərinə olan yanaşmam mənim həmişə diqqətimdə və nəzərimdə olmuşdu. Həmin qüvvələrin hazırlığını həmişə özümə doğma bilmişəm və onların ölkəmiz qarşısında missiyasını dərk etmişəm. Biliyimi və bacarığımı onların hazırlanmasında əsirgəməmişəm. Bu gün özümü çox xoşbəxt hiss edirəm, çünki onların uğurlarında kiçik də olsa mənimdə əməyim var, həmçinin onlarla bərabər çiyin-çiyinə Vətən müharibəsində iştirak etmişəm. Xüsusi təyinatlı qüvvələrin qarşısında duran vəzifəni qısa zamanda icra etmələri üçün digər istiqamətlərdə düşmən qüvvələrinə qarşı döyüşmüşəm. Düşmənə qüvvələrini qruplaşdırmağa, xüsusi təyinatlı qüvvələrin icra etdiyi tapşırıq istiqamətinə qüvvələri cəlb etməyə imkan verilməyib və düşmənin qüvvələri parçalanıb. Xüsusi təyinatlı qüvvələr müəllimlərinin tapşırıqlarını yüksək səviyyədə icra edərək əbədi olaraq yüksək qiymət aldılar, bununla yanaşı, dünyaya da bir ədalət dərsi keçiblər, eləcə də XXI əsr müharibələrinin yeni modelini və inkişaf istiqamətlərini müəyyən ediblər.



Əsas məqsəddən uzaqlaşmadan 44 gün davam edən Vətən müharibəsində xüsusi təyinatlıların "Zəfər" missiyasını nəzərdən keçirək. Onlar müharibənin ilk günlərindən cəbhənin müxtəlif istiqamətlərindən döyüşlərə başladılar. Hakim yüksəkliklərin, təminat yollarının, düşmən müdafiəsinin dayanıqlığını təmin edən mühüm dayaq məntəqələrinin ələ keçirilməsində, düşmənin müdafiə mövqelərinin yarılmasında iştirak etdilər. Düşmən cəbhənin cənub istiqamətində müdafiənin yarılması ilə dərinliyə sıxışdırıldı, hücumu Cəbrayıl yaşayış məntəqəsi istiqamətinə genişləndirildi. Motoatıcı və tank bölmələri ilə qarşılıqlı fəaliyyətdə ermənilərin 9-cu alayının bölmələrini darmadağın edib, hücumu dərinliyə inkişaf etdirdi, dəstəyə gələn düşmən ehtiyatlarını Cəbrayıl yaşayış məntəqəsinin cənub-qərb ətrafında məhv etdi və oktyabrın 4-də şəhəri işğaldan azad etdi. Bu istiqamətdə gedən döyüşlərin əsas hissəsini öz üzərinə götürməklə digər qoşun birləşmələri ilə qarşılıqlı fəaliyyətdə hücum tempini sürətləndirdi. Düşmənin fəaliyyətlərini bütün istiqamətlərdə qabaqlamaqla ona əlverişli hədlərdə möhkəmlənməyə imkan vermədi, mütəşəkkil fəaliyyətini, idarəetmə və təminatını pozdu, düşməni təşvişə saldı. Sonradan hücumu düşmənin gözləmədiyi istiqamətə – Cəbrayıldan Hadruta yönəltdi.

Çox keçmədi ki, oktyabrın 7-də Hadrutun ətrafında yerləşən Şişdağ silsiləsini, Ərgünəş dağını ələ keçirib, Hadrutu nəzarətə götürdü. Düşmənin Hadrutda sayca üstün qüvvələri yerləşirdi. Buna baxmayaraq xüsusi təyinatlıların qarşısında əsas missiya Şuşanı azad etmək tapşırığı dururdu. Nəyin bahasına olusa olsun Hadrut azad edilməli idi. Düşmənin mövqeləri dəqiqliklə öyrənilir və Hadrutda yerləşən hərbi hissənin şəxsi heyətini məhv etmək üçün xüsusi təyinatlı qruplar düşmənlə təmasa girmədən gizli şəhərə daxil olmağa və məhv etməyə qərar verilir, digər qruplar isə şəhərə dəstəyə gələn düşmənin yol üzərində pusqu quraraq məhvet-

mə tapşırığı alır. Əməliyyata start verilir, qruplar ərazinin çətin relyefindən və meşəliklərdən istifadə edərək tapşırıqlarının icrası üçün irəliləyir və bu zaman qruplardan biri hərbi hissəni mühafizə edən düşmən tərəfindən aşkar edilir və qrup məcburən döyüşə girir. Bu zaman qrup 11 nəfəri məhv edib, sürətlə şəhərə daxil olur və döyüş başlayır. Şəhərdə şiddətli döyüşlər gedir və artilleriyanın da dəstəyilə düşmənin 1000-dən çox şəxsi heyəti və onlarla tankı, PDM-i məhv edildi. Hadrut düşməndən təmizləndi, əməliyyat oktyabrın 9-da uğurla başa çatdı, düşmənin onurğa sütunu sındırıldı, o, döyüş meydanında böyük şok yaşadı. Daha sonra Tuğ kəndinə istiqamət alan xüsusi təyinatlılar müxtəliq qruplar tərkibində Şuşa istiqamətinə çətin keçilən ərazilərdən, meşələrdən, təpələrdən keçərək əsas tapşırıq üçün irəlilədi. Bu yol düşmənlə təmasa girmədən bir neçə gün davam etdi, bu zaman Quru Qoşun birləşmələri isə düşmənin diqqətini iki istiqamətə: Xocavənd, Qırmızıbazar, Xankəndi və Laçın, Xankəndi istiqamətinə cəlb etməklə onun əsas qüvvələrini bu istiqamətə yığmağa məcbur etdi. Düşmən artıq strateji baxımdan tələyə düşmüşdü, bu, xüsusi təyinatlılara gizli olaraq hədəfə doğru irəliləməyə imkan verirdi. Noyabrın ilk günlərində xüsusi təyinatlılar təyin olunmuş istiqamətlərdə Şuşanın ətrafında olan hakim yüksəkliklərə və yaşayış məntəqələrinə çıxdılar. Əməliyyat planına əsasən Quru Qoşun birləşmələri noyabrın 4-də aldadıcı manevrlər həyata keçirərək düşmənlə iki istiqamətdə Daşaltı və Şuşakənd istiqamətində döyüşə girərək əsas qüvvələri özünə cəlb edə bildi. Xüsusi təyinatlıların bir qrupuna Ermənistandan gələn dəstəyin və yardımın qarşısını almaq üçün Laçın-Xankəndi yolunu, Daşaltıda yerləşən düşmən qruplaşmasını məhv edən bölmələrə isə irəliləyərək Xankəndindən Şuşaya gələn yolu nəzarətə götürülmək tapşırığı verildi. Bu zaman üç qrup Muxtarkənd istiqamətində irəliləyərək müxtəlif yerlərdən qayalıqlarla dırmanaraq düşmənin arxasına sızıb noyabrın 5-də həbsxana istiqamətindən Şuşaya daxil oldular. Xüsusi təyinatlılar Şuşaya daxil olmazdan əvvəl müasir texnologiyanın imkanlarından istifadə edərək planşetlərə Şuşa şəhərinin 3D formatda yüklənmiş planına əsasən şəhəri sektorlara bölüb, öz aralarında fəaliyyətlərini koordinasiya edərək hərəkət etdilər. Onlar Şuşa döyüşləri haqqında xatirələrində qeyd edirlər ki, həmin günlərdə onlarla bərabər Şuşanın təbiəti də döyüşürdü, havanın buludlu və dumanlı olması, eləcə də düşmənin əks-həmləsini dəf edən zaman qala divarları onların köməyinə gəlirdi. Bu vaxta qədər döyüşlərdə tank əleyhinə vasitələri artıq tətbiq etmişdilər. Ona görə də məcbur olub tankları və zirehli texnikaları şəhərə buraxır və piyadaları isə məhv edirdilər. Bunu hiss edən düşmən aktivləşir və tanklardan Şuşanın qala divarları istiqamətində mövqe tutan xüsusi təyinatlıları atəşə tuturdu. Orada mövqe tutan döyüşçülərimiz həmin anları belə xatırlayırlar. Sanki həmin qala divarlarını əcdadlarımız bu günlər üçün tikiblər, indi onların ruhları şaddır, ona görə ki, həmin divarlar bizi çox qorudu. Yüngül silahlar ilə silahlanmış xüsusi təyinatlılar tanklara qarşı mübarizə aparır şüşə butulkalara yanacaq doldurub onu tankların açıq lüklərindən içərisinə atır, ekipaj tankı tərk edən zaman onları məhv edir və müvəqqəti olsa da təminat gələnə qədər vaxt qazanırdılar. Bir çox hallarda isə düşmənlə əlbəyaxa, süngü-bıçaqla döyüşürdülər. Noyabrın 7-də təminat qrupu Şuşaya çatdı və onlar özlərilə tank əleyhinə vasitə "Kornet" gətirmişdi. Qısa zamanda düşmənin 4 tankı və PDM-ləri məhv edildi. Düşmənin qüvvələri panika içərisində Xankəndi istiqamətində geri çəkilir və beləliklə, düşmənin həmləsinin qarşısı alındı. Şəhər erməni tör-töküntülərindən təmizlənməyə başlandı və düşmən noyabrın 7-də axşam saatlarında son dəfə əks-həmləyə cəhd etdi və onun qarşısı uğurla alındı, Şəhər icra hakimiyyətinin binası üzərində Azərbaycan bayrağı qaldırıldı, 28 ildən sonra ilk dəfə Şuşada azan oxundu. Vətən müharibəsində Müdafiə nazirliyinin xüsusi təyinatlıları ilə yanaşı, Daxili İşlər nazirliyinin Daxili Qoşunlarının, Dövlət Təhlükəsizlik xidmətinin, Dövlət Sərhəd xidmətinin, Xarici kəşfiyyatın, Əlahiddə Ümumqoşun Ordunun və Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları çiyin-çiyinə mənfur düşmənə qarşı vuruşdu. Bununla da 28 il davam edən işğala son qoyuldu, xüsusi təyinatlıların səyi, şücaəti, rəşadəti və əfsanəvi döyüş əzmi ilə

Azərbaycan xalqının qüruru, namusu qaytarıldı. Xüsusi təyinatlılar Azərbaycanın göz bəbəyi, mədəniyyət beşiyi olan Şuşanı azad etməklə şanlı Zəfər tarixini yazdı və tarixi missiyasını zəfərlə tamamladı.

## Məzlumların xilaskarı, zalımların düşməni "Bayraqdar TB2"

8 sentyabr 2012-ci il axşam saatları idi, xəbərlər proqramını izləyirdim. Türkiyə mətbuatı İraqla sərhəddə dağlıq ərazidə yerləşən Dağlıca bölgəsinə PKK terrorçularının hücumu nəticəsində hərbçilərin şəhid olması barədə məlumat verdi. Qardaş ölkənin acısı o zaman bizi çox üzdü, duyğulu anlar yaşadıq. Hər kəsi bir məsələ düşündürürdü, qardaşlarımıza necə kömək ola bilərik. Azərbaycan xalqı da 1988-ci ildən başlayaraq erməni işğalı, terroru və zülmü ilə üzləşib. Bunun bir yolu var, bir yerdə olmaq və düşmənə qarşı birgə mübarizə aparmaq. Hər tərəfdən qorunan və texniki müşahidə kameraları ilə təchiz olunan, eləcə də hücumları dəf etməyə hazır olan döyüş postuna terrorçuların belə asanlıqla sızması və qəfil basqın etməsi hamını düşündürürdü. Hücumdan sonra Türkiyə hökumətinə daha çox terrorçulara dəstək verən və onların arxasında duran ölkələr və qüvvələr maraqlı idi. Sonradan məlum oldu ki, hücumu həyata keçirən terrorçular termal kameraların aşkar edə bilmədiyi xüsusi geyimlər ilə təmin olunublar və dumanlı havadan istifadə edərək mövqeyə siza biliblər. Bu azmış kimi hətta hava kəşfiyyatı ilə əldə olunan görüntülər terrorçular ilə paylaşılıb. Bu açıq şəkildə Türkiyə dövlətinə, qardaşlarımıza qarşı olan düşmənçilik idi. Türkiyəyə qarşı bu xainlik Qərbdən, onun inkişafını istəməyən dairələrdən gəlirdi. Türkiyə Silahlı Qüvvələrinin silah, sursat, texnika və ləvazımatlar ilə təminatı, o zaman Qərbdən daha çox asılı idi. Terrorçulara qarşı mübarizə aparmaq üçün isə müasir vasitələr tələb olunurdu. Türkiyə onu NATO-ya üzv və müttəfiq ölkələrdən pul ilə almaq isdəsə belə, vermirdilər. Satdıqları isə texniki imkanlarına görə müasir nümunələrindən çox geri qalırdı. Nasazlıq yarandıqda təmir etmək istəmirdilər, ehtiyat hissələri vermirdilər, beləliklə terrora qarşı mübarizədə Türkiyənin imkanlarını bilərəkdən zəiflədir və asılı vəziyyətə salırdılar. Türkiyə hökuməti artıq seçim qarşısında idi, açıq şəkildə dünyaya bəyan edirdi "öz göbəyimizi özümüz kəsəcəyik". Müdafiə sənayesini inkişaf etdirməkdən və xarici ölkələrdən asılılığı aradan qaldırmaqdan başqa yolumuz qalmadı, çünki bu, Türkiyənin təhlükəsizlik və milli məsələsidir. Lakin müdafiə sənayesinin inkişafı üçün hazırlıqlı kadrlar, peşəkar mühəndislər, istehsal müəssisələri və ən əsası isə milli iradə tələb olunurdu. Qardaş ölkə bütün xarici və daxili təzyiqlərə baxmayaraq nə qədər çətin olsa da qısa zamanda böyük yol qət edə bildi. Bu çətin məsələnin öhdəsindən bu gün də alnının haqqı ilə gəlir. İndi bütün dünya Türkiyənin Müdafiə sənayesinin inkişafından, onun istehsal etdiyi müasir vasitələrdən danışır. Hər keçən gün Türkiyə istehsalı olan hərbi sənaye məhsullarının tətbiqi hərb tarixinə bir ilk olaraq daxil olur. Belə inkişaf yolunu keçən sahələrdən biri də "Baykar makina" istehsalat birliyidir. 2005-ci ildə 26 yaşında olan Səlçuq Bayraqdar ilk dəfə olaraq istehsal etdiyi mini PUA-nı əl vasitəsilə havaya uçurtdu. O vaxtdan 16 il keçir. Geriyə baxanda əldə olunan uğurlara ancaq sevinmək olar. Biz işin son nəticəsini görürük, o, bizə asan görünə bilər. Lakin əzmkar kollektivin gecə-gündüz demədən çalışması, mexanizm və avadanlıqların, eləcə də PUA-nın son uçuş sınaqlarına hazırlanması üzrə çəkilmiş filmə baxandan sonra hər şey məlum olur. Belə filmlərdən biri də "Akıncı"dır. Filmə baxandan sonra heyrətlənməmək, sevinməmək və həyəcanlanmamaq olmur. Çünki "Türkiyənin sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir".

Türkiyə uzun illər PKK-ya qarşı mübarizə aparır, şəhidlər verir, dost və müttəfiq ölkələrdən kifayət qədər dəstək görmürdü. Belə vəziyyət onu çox narahat edirdi. Bundan başqa, Türkiyə Silahlı Qüvvələrinin silah və sursat təchizatı xarici ölkələrdən asılı idi və terrora qarşı effektiv mübarizəyə imkan vermirdi. Türkiyənin güclənməsini istəməyən ölkələr müasir silah və sursatları müxtəlif bəhanələr uyduraraq ona vermirdilər və ya satmaqdan imtina edirdilər. İkili standartlar və ədalətsizliklə üzləşən Türkiyənin

Müdafiə sənayesini inkişaf etdirməkdən başqa yolu qalmırdı. Xaricdə doktorluq təhsilini yarımçıq qoyub Türkiyəyə qayıdan Səlçuk Bayraqdar PUA texnologiyası üzrə yeni modellərin yaradılmasına start verdi. Onun rəhbərliyi ilə beş nəfərdən ibarət mühəndis qrupu yaradıldı və müasir PUA-nın istehsalı üçün işə başlandı. Görülən işlərin nəticəsində 2014-cü ildə müasir tələblərə cavab verən “Bayraqdar TB2” Türkiyə Silahlı Qüvvələrinin istifadəsinə verildi. Terrora qarşı mübarizədə yeni imkanlar yarandı və mübarizə daha da ciddi xarakter aldı. Bununla barışmayan Qərbin ikiüzlü qüvvələri xaricdən və daxildən hərəkətə keçdi.

Türkiyənin cənub sərhədlərində: İraqda və Suriyada baş verən qarışıqlıqdan istifadə edən PKK Qərbdən aldıqları dəstəklə aktivləşdi. Türkiyənin böyük şəhərlərində terror aktları törədildi. Suriyanın və İraqın ərazilərinin bir hissəsini ələ keçirən İŞİD Türkiyənin cənub sərhədlərindən onun milli maraqlarına böyük təhlükə idi. Türkiyə artıq Suriya ərazisini ələ keçirən İŞİD ilə sərhəd olmuşdu. Suriyanın ərazisində fəaliyyət göstərən İŞİD, PKK, YPG, PYD terror təşkilatları hamısı Qərbin layihəsidir, onlar Türkiyəni inkişafdan saxlamaq, ərazisini bölmək və gələcəkdə onun idarə olunmasını əldə saxlamaq üçün yaradılıb. Həmin terror təşkilatlarına ABŞ başda olmaqla Qərb ölkələri tərəfindən min tonlarla silah, sursat, ağır texnika verilmişdi. Türkiyənin cənubunda terrorçuları silahlandırmaqla, əsas məqsəd oyuncaq terror dövləti yaratmaq və Türkiyəni təhdid etmək idi. Türkiyənin sərhədboyu ərazidə yerləşən yaşayış məntəqələrini ələ keçirən PKK-nın uzantısı olan Suriya qolu PYD, YPG ələ keçirdiyi ərazilərdən mülki insanları köçə məcbur edir, etnik təmizləmə həyata keçirirdi. Suriyadan terrorçuların hücumlarından qaçan əhali Türkiyəyə sığınmaq məcburiyyətində qalırdı. 2017-ci ilə qədər Suriyadan və İraqdan Türkiyəyə 5 mln.-a yaxın qaçqın gəlmişdi. Suriyanın şimalından Türkiyənin ərazisi mütəmadi olaraq atəşə tutulur, yaşayış məntəqələrində raket və mərmi partlayır, dinc əhali həlak olurdu. Hələ bu azmış kimi, terrorçular Suriyadan qaçan vətəndaşlara qarışıb Türkiyəyə keçir, terror hücumları həyata keçirirdi.












Türkiyə Qərbin ona qarşı oynadığı oyunu görürdü, Reyhanlıda, Hatayda və s. yerlərdə təhlükəsizliyi təmin etmək tələb olunurdu. Qərbin bütün etirazlarına, iqtisadi və hərbi sanksiyalar ilə hədələrinə baxmayaraq Türkiyə terroru öz yuvasında boğmaqda qətiyyətli idi və belə vəziyyətə seyirçi qala bilməzdi. Türkiyə Silahlı Qüvvələri Azad Suriya Ordusu ilə birgə 24 avqust 2016 – 29 mart 2017-ci il tarixlərində "Fərat qalxanı", 19 yanvar – 24 mart 2018-ci il tarixlərində "Zeytun budağı", 9-17 oktyabr 2019-cu il tarixlərində isə "Sülh çeşməsi" əməliyyatlarını həyata keçirdi. Türkiyə həmin əməliyyatlarda böyük uğur əldə etdi, yüz minlərlə suriyalı evinə: Əlbaba, Cerablusa, Afrinə döndü. Türkiyə məzlumları dəstəkləməklə onların ümid yeri oldu. Həmin əməliyyatlarda PUA-lar aktiv rol aldı, sınaq təcrübəsindən keçirildi və daha da təkmilləşdirildi. Türkiyənin əldə etdiyi uğurları qəbul etmək istəməyən Qərb ölkələri ilə yanaşı, Suriyada davam edən vətəndaş müharibəsində hökumət qüvvələrini dəstəkləyən Rusiya və İran da hərəkətə keçdi. Suriyanın hökumət qüvvələri ölkənin müxtəlif bölgələrindən razılaşma əsasında gəlib İdlibdə yerləşən müxalifət qüvvələrinə qarşı bilərəkdən hücuma keçdi. Bu zaman İdlibdə 5 mln.-a yaxın mülki vətəndaş yaşayırdı. Suriyanın hökumət qüvvələrinin əsas məqsədi onları köçə məcbur etmək və İdlibi, müxalifətin son qalasını ələ keçirmək idi. Cəbhədə irəliləyən hökumət qüvvələri strategi M4 və M5 yolunu qısa zamanda ələ keçirərək, İdlibi havadan bombalayır və ağır artilleriyadan atəşə tuturdu. Uşaq, qoca, qadın demədən öldürür, təşviş yaradaraq onsuz da 5 mln. qaçqına qucağını açan Türkiyəni daha da çətin vəziyyətə salmaq istəyirdi. Vəziyyətin mürəkkəbliyini görən Türkiyə məsələni diplomatik yolla həll etmək istəsə də hökumət qüvvələri Sərakib şəhərini ələ keçirməklə vəziyyəti daha da gərginləşdirdi. 27 fevral 2020-ci ildə Rusiyanin dəstəklədiyi Suriyanın hökumət qüvvələrinin Suriyanın İdlib bölgəsində Türkiyə Silahlı Qüvvələrinə bağlı tabora endirdiyi hava zərbəsi nəticəsində 34 türk əsgəri şəhid oldu. Bu, Türkiyənin Suriyada gedən daxili silahlı münaqişədə verdiyi ən böyük itkidir. Artıq ox yaydan çıxmışdı, Türkiyə şəhidlərin və məzlumların qisasını almalı idi. 28 fevral 6 mart tarixlərində Türkiyə Silahlı Qüvvələri "Bahar qalxanı" əməliyyatına başladı və hərb tarixində ilk dəfə PUA-lar sürü halında tətbiq edildi. Suriya hava sahəsini bağlı elan etsə də Türkiyə onu asanlıqla yardı, "Bayraqdar TB2"-lərin tətbiqilə HHM vasitələrini, xüsusilə də Rusiya istehsalı olan "Pantsir S1"-ləri məhv etdi. Əməliyyat zamanı Suriyanın 136 tankı, artilleriya batareyaları, idarəetmə məntəqələri, sursat anbarları məhv edildi. Suriyanın yüksək rütbəli zabitləri və generalları həlak oldu. Havada üstünlüyü ələ keçirən Türkiyə Silahlı Qüvvələri Suriya Milli Ordusu ilə birgə hökumət qüvvələrini İdlibdə darmadağın etdi, dünya Türkiyənin müasir PUA-larının gücü ilə tanış oldu. Türkiyənin ətrafında münaqişə ocaqları və gərginlik yaradan ölkələr durmaq bilmir, nəyin bahasına olursa olsun Türkiyəni dayandırmaq istəyirdilər. Lakin onlar çox yanılırdılar, çünki Türkiyə əmin əllərdən, Türk xalqının dəstəyini alan xarizmatik lider Rəcəb Təyyub Ərdoğan və onun komandası tərəfindən idarə olunur. Onlar Türkiyəyə qarşı oynanılan oyunları bir-bir pozdular və həmin proses hələ də davam edir.

Türkiyə və Liviyanın Milli Barışıq hökuməti 2019-cu ilin noyabrında Aralıq dənizində sərhədlərin tanınması, müasir iqtisadi zonanın müəyyən edilməsi üzrə müqavilə imzaladı. Türkiyənin güclənməsini istəməyən qüvvələr indi də Liviyada Həftarı hərəkətə keçirmişdi. Həftar qüvvələri BMT-nin dəstəklədiyi Milli Barışıq hökumətinə qarşı paytaxt Tripoliyə 4 aprel 2019-cu ildə hücuma keçdi. Döyüşlər bir neçə ay davam etsə də Həftar qüvvələri Tripolinin ətraf məhlələrinə qədər irəlilədi. Milli Barışıq hökuməti Türkiyədən hərbi yardım istəmək məcburiyyətində qaldı, çünki Tripoli onların son qalası idi. Türkiyə Liviya xalqının səsinə biganə qalmadı, razılaşmaya əsasən Liviyaya əsgər göndərdi, orduya təlim keçdi və müasir PUA-lar verdi. Milli Barışıq hökuməti Həftar qüvvələrinə qarşı əks-hücuma keçdi və Həftar qüvvələrini paytaxt Tripolidən uzaqlaşdırdı. Həftarın muzdlu ordusu dağıldı, pul qarşılığında vuruşan Birləşmiş Ərəb Əmirliyinin maliyyələşdirdiyi və Fransanın, Səudiyyə Ərəbistanının, Misirin dəstəklədiyi Sudan-

lı Cəncəvid milisləri və Rusiyanın "Vaqner" qrupları ağır zərbələr aldı və döyüş meydanından qaçdı. Həftara böyük zərbə vuruldu, Əl-Vatiya aerodromu ələ keçirildi, o, bir çox yaşayış məntəqəsindən geri çəkilməli oldu. "Bayraqdar TB2" yenə iş başında idi, Liviyada tarix yazmağa davam edirdi. Rusiya istehsalı olan 10-a yaxın "Pantsir S1"-i məhv etdi. Növbə artıq Azərbaycana-30 ilə yaxın işğalda qalan Qarabağın azad olunmasına gəlib çatdı. Böyük güclərin həll etmək istəmədiyi Qarabağ münaqişəsinin həllinə qardaş Türkiyə bütün istiqamətlərdə hərbi, siyasi, və mənəvi sahədə dəstək oldu. Vətən müharibəsində düşmən 366 tank itirdi, onlardan 284-ü məhv edildi, 82 ədəd isə qənimət olaraq götürüldü. Tankların 134-ü "Bayraqdar TB2" ilə məhv edildi. Düşmənin tankları, zirehli döyüş texnikaları, artilleriyası və canlı qüvvəsi döyüş meydanında PUA-ların zərbələri qarşısında aciz qaldı. İndi Qarabağda gedən döyüşlər zamanı PUA zərbələrindən qaçan düşmənin videogörüntüləri onların necə qorxduqlarını, təşviş içində hara gəldi qaçdıqlarını göstərir. Dünyanın gözü önündə döyüş meydanında aciz və zəif görünən düşmən ancaq sağ qalmağı düşündü və çıxış yolunu qaçmaqda gördü. Döyüşlər zamanı düşmənin on minə yaxın hərbçisi fərarilik etdi. Vətən müharibəsi 44 günün sonunda zəfərlə başa çatdı. Səlçuq Bayraqdarın əsəri olan PUA-lar Vətən müharibəsində düşmənə tarixində almadığı zərbəni vurdu. Onun hərbi və iqtisadi gücünü sarsıtdı. Hələ çətin ki, ermənilər yaxın illərdə özünə gələ və PUA-nın zərbələrini unuda bilsin. Vətən müharibəsində "Bayraqdar TB2" xüsusi rol oynadı. Səlçuq Bayraqar 2005-ci ildə əl ilə havaya uçurulan ilk mini PUA-nın və 2014-cü ildə uğurlu sınaq testlərindən keçən "Akıncı S1", 22 aprel 2021-ci il tarixdə MAM-T (mini ağıllı muhimmat) ilə atış keçirdi və 30 km məsafədən hədəfi dəqiq vurdu. "Akıncı S1" sınaq testlərilə Türkiyənin havaçılıq tarixinin rekordlarını qırmaqda davam edir. 25 saat 46 dəqiqə havada qalan "Akıncı S1" 11594 m yüksəldi və 7507 km məsafə qət etdi. Bu, İstanbuldan havalanan PUA-nın qərbə İslandiyaya, şərqə isə Əfqanıstana qədər uça bilməsi deməkdir. Səlçuq Bayraqdar həmçinin "Bayraqdar



TB4" yeni nəsil qırıcı PUA-ların 2023-cü ildə ilk sınaq uçuşunun keçiriləcəyinin müjdəsini verdi. İndi Səlçuq Bayraqdar sayəsində Türkiyə dünyada PUA texnologiyasına malik olan üç ölkədən biridir. Gəlin Səlçuq Bayraqdarı yaxından tanıyaq. O, 1979-cu ildə İstanbulda mühəndis ailəsinə anadan olub. Atası Özdəmir Bayraqdar aerokosmik sənaye robot idarəetmə sistemləri pilotsuz uçuş aparatlarının istehsalı üzrə ixtisaslaşan "Makina Baykar" şirkətinin qurucusudur. Orta təhsilini İstanbulda Robert kollecində alıb və 1997-ci ilədə oranı bitirib. Səlçuq Bayraqdar həmin il İstanbul texniki universitetinin elektron və rabitə bölməsində bakalavr pilləsi üzrə ali təhsil almağa başlayıb. 2002-2004-cü illərdə Pensilvaniya universitetində pilotsuz təyyarələr üzrə magistr pilləsini tamamlayıb. Xaricdə davam etdirdiyi doktorluq təhsilini yarımçıq qoyaraq 2007-ci ildə Türkiyəyə qayıdıb və ailəsinə məxsus "Baykar Makina" şirkətinin texniki meneceri olub. O, Türkiyədə 2005-ci ildə ilk mini PUA-nın yaradıcısıdır və PUA texnologiyasının inkişafı ilə tanınır. Özünün dediyi kimi, bu yol onlara o qədər də asan olmayıb, ən çətin anlarda ana vəsiyyəti onlara güc verib, dayaq olub. Türkiyə uzun illərdir PKK-ya qarşı mübarizə aparır və şəhidlər verirdi. Şəhid analarının və ailələrinin məğrur duruşuna və acısına etinasız qala bilməyən Canan xanım oğullarına vəsiyyət edir: "Oğullarım, bu inkişaf etdirdiyimiz texnologiyanı bütün maneələrə, intriqalara və yorucu siyasətə baxmayaraq tamamlayıb, Türk ordusunun şərəfli mənsublarının istifadəsinə vermədiyiniz müddətdə Sizi bacarıqsız kimi tanıyacağımı və süd haqqım olduğunu bilmənizi niyaz edirəm". Lakin onlar bu gün xoşbəxtdir, çünki istehsal etdikləri müasir PUA-lar bütün dünyaya səs salıb. Məzlumların xilaskarına və zalımların qorxusuna çevrilib. Bu gün Canan xanımın ruhu şaddır, anaların duaları, məzlumların sevinci bunu təsdiqləyir.

Azərbaycan xalqı və Ali Baş Komandan Səlcuk Bayraqdarın yaradıcısı olduğu "Bayraqdar TB2"-nin Vətən müharibəsində oynadığı rolu yüksək qiymətləndirərək, Bayraqdarlar ailəsini mükafatlandırmışdı. Prezident İlham Əliyev 1 aprel 2021-ci il tarixdə

Bakıda səfərdə olan Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Səlçuq Bayraqdarı Vətən müharibəsində zəfərdən sonra təsis olunan "Qarabağ" ordeni ilə təltif etdi. Səlçuq Bayraqdar Tviter hesabında yazırdı: "Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən "Qarabağ" ordeninə layiq görüldüyüm üçün böyük şərəf və qürur duyuram. Bir millət - iki dövlətin birgə gələcəyi üçün işləri davam etdirəcəyik". 15 iyun 2021-ci il tarixdə xalqımız üçün böyük önəm daşıyan tarixi bir gündə -"Qurtuluş" bayramında Azərbaycana rəsmi səfərə gələn Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşada qarşılandı. Nümayəndə heyətinin tərkibində "Baykar" şirkətinin Baş direktoru olan Haluk Bayraqdar da Şuşaya gəlmişdi. Ali Baş Komandan Haluk Bayraqdara "Qarabağ" ordenini Şuşada təqdim etdi. Haluk Bayraqdar öz tvitter hesabında paylaşım edərək bunları yazıb: "Can Azərbaycanın işğaldan azad etdiyi Qarabağın ürəyi Şuşanı görmək nəsib oldu. Cənab Prezident İlham Əliyev tərəfindən layiq görüldüyüm "Qarabağ" ordenini Azərbaycanın Milli Qurtuluş Günündə cumhur başkanımız R.T. Ərdoğanın hüzurunda aldım. Qürur duydum!". Vətən müharibəsində "Bayraqdar TB2" PUA-larının rolu əvəzolunmazdır, düşmənin tanklarını, artilleriyasını, canlı qüvvə və atəş vasitələrini, eləcə də idarəetmə məntəqələrini, sursat anbarlarını dəqiq zərbələri ilə məhvetmə görüntüləri dünyanın aparıcı televiziya kanallarında və mətbuat orqanlarında yayımlanır və özündən söz etdirir. Suriyada, Liviyada döyüşlər zamanı əldə olunan uğurlarını Qarabağda da təkrarlayan PUA-lar daha da məşhurlaşdı. Türkiyənin "Baykar" şirkəti istehsal etdiyi yeni nəsil PUA-lar ilə dünya ölkələrinin hələ də diqqət mərkəzindədir. Vətən müharibəsindən sonra PUA-lara maraq daha da artıb və bir çox ölkə həmin PUA-lardan almaq istəyir. Çinin tanınmış elm adamı Sonq Yiçanq 18 may 2021-ci il tarixdə Çinin Mərkəzi televiziya kanalında yayımlanan verlişlərindən birində Səlçuq Bayraqdarı "Apple" şirkətinin qurucusu Steve Jobsla müqayisə etmişdir. PUA sahəsində dünyada bir dahi ortaya çıxdı, bu, Səlçuq Bayraqdardı. O, Türkiyədə PUA-ların yaradıcısıdır. Bayraqdarın PUA sahəsində əldə etdiyi uğurlar, Steve Jobun



ağıllı telefon texnologiyasında əldə etdiyi uğurlar qədər önəmlidir. Sonq Yiçanq xüsusi olaraq qeyd edir ki, "Jobs Apple ilə telefon sahəsində dünya bazarına girdi və ağıllı telefon texnologiyasında birinci oldu, indi Səlçuq Bayraqdar PUA sahəsində dünyada birincidir". Qarabağın işğaldan azad olunmasında yaradıcısı olduğu PUA-ların əzici gücü ilə və hər zaman mənəvi dəstəyi ilə Azərbaycan xalqının yanında olan Səlçuq Bayraqdarın uğurlarına biz də sevinirik. Ona gələcək fəaliyyətində uğurlar arzulayır, Azərbaycana göstərdiyi dəstəyə görə dərin minnətdarlığımızı bildiririk. Qoy əbədi olaraq bilinsin ki, biz qardaşımızla, onun uğurları ilə fəxr edirik. Qədirbilən Azərbaycan xalqı tarix boyu onun Vətən müharibəsində istifadə olunan PUA-larının oynadığı rolu unutmayacaq. Həmin PUA-lar 90 ədəd tank və 500-dən çox müxtəlif hədəfləri məhv etmişdir. Səlçuq Bayraqdar və onun yaratdığı "Bayraqdar TB2" PUA-ları xalqımızın şanlı zəfər dolu tarixinə qızıl hərflərlə, xalqımızın qəlbinə və yaddaşına isə əbədi olaraq yazıldı.

## Silahlı Qüvvələrin Hərbi Akademiyası Vətən müharibəsi günlərində

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 20 fevral 1999-cu ildə yaradılıb. Yarandığı ilk gündən Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün yüksək hazırlıqlı peşəkar kadrlar hazırlamışdır. Hərbi Akademiyanın yaradılmasında qardaş Türkiyənin dəstəyi və rolu danılmazdır. Cənubi Qafqaz ölkələri arasında ilk dəfə Azərbaycanda yaradılan və fəaliyyət göstərən yeganə tədris ocağıdır. Bu gün xoşbəxtəm ona görə ki, Hərbi Akademiyanın yaradılmasında yaxından iştirak etmişəm. 1998-2000-ci illərdə Hərbi Akademiyanın tədris şöbə rəisinin baş köməkçisi vəzifəsində xidmət etmişəm. Hərbi Akademiya iyirmi ildən çox fəaliyyəti dövründə həm peşəkar kadr heyətinin, elmi işçilərin hazırlanmasında və beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsində böyük rol oynamışdır. Zaman keçdikcə Hərbi

Akademiyanın məzunları Azərbaycan Ordusunun formalaşmasında və inkişafında yaxından iştirak etmişlər. Ölkəmizin ən ağır günlərində bilik və bacarıqlarını əsirgəmədən birlik və birləşmələri idarə edərək Hərbi Akademiyanın adını uca tutmuşlar. Hərbi Akademiyanın məzunları ən ali adlara "Azərbaycanın Milli Qəhrəman"ı və "Vətən Müharibəsi Qəhrəman"ı adına layiq görülmüşlər, eləcə də ən yüksək orden və medallar ilə təltif olunmuşlar. Hərbi Akedemiyanın məzunları Vətən müharibəsində canlarından keçərək şəhidlik zirvəsinə yüksəlmişlər. Uzun illərdi davam edən Azərbaycan-Ermənistan Qarabağ münaqişəsində Hərbi Akademiyanın şəxsi heyəti kənarda qala bilməzdi. Hərbi Akademiyanın hərbi qulluqçuları müharibənin ilk günündən Vətənin müdafiəsinə qalxdı və düşmənə qarşı keçirilən əks-hücum əməliyyatında iştirak etmək üçün müraciət etdi. Həmin andan etibarən hamı səfərbər oldu, cəbhədə vuruşan hərbçilərə dəstək olmaq üçün cəbhəyə can atdı. Ali Baş Komandanın sərəncamı ilə ölkədə qismən səfərbərlik elan olundu. Hərbi Akademiyanın hərbi qulluqçularının bir hissəsi səfərbərlik planına uyğun olaraq yaranan birliyin qərargahında və onun tabeliyində olan birləşmələrin tərkibində müvafiq vəzifələrə təyinat aldı. 28 sentyabr 2020-ci ildən etibarən səfərbərliklə yaranan birlik və birləşmələrin formalaşdığı məntəqələrə yolla düşdülər. Hərbi Akademiyada tədris prossesi Vətən müharibəsi günlərində demək olar ki, dayandı. Səfərbərliklə formalaşan ilk birləşmə oktyabrın 4-də Cəbrayıl rayon mərkəzi işğaldan azad olunandan sonra həmin istiqamətdən döyüşlərə qatıldı. Digər zabitlər isə yuxarı komandanlığın qəbul etdiyi qərarlara müvafiq olaraq döyüşən birlik və birləşmələrin, zərurət yarandıqda komplektləşdirilməsi üçün vəzifələrə təyinat alır, cəbhəyə yollanır və düşmənə qarşı döyüşlərdə iştirak edirdilər. Həmin proses döyüş gedən müddətə qədər davam etdi. Hərbi Akademiyanın döyüşlərdə iştirak edən zabitləri vəzifələrini peşəkarlıqla icra etdilər, azğın düşmənə qarşı amansız vuruşdular, işğalçıları torpaqlarımızdan qovdular. Vətən müharibəsində iştirakları ilə Zəfər tarixinin yazılmasında yaxından iştirak etdilər. Müxtəlif orden və medallar



ilə təltif olundular.

**general-leytenant Piriyev Heydər Kamal oğlu**

Füzuli və Xocavənd istiqamətində əməliyyatlara cəlb olunan qoşun qruplaşmasına və həmin rayonların ərazisinin və yaşayış məntəqələrinin işğaldan azad olunmasına rəhbərlik edib. "Azərbaycan Bayrağı" ordeni, "Füzulinin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

**polkovnik Kərimov Yaşar Şükür oğlu.**

Birliyin artilleriyasının qərargah rəisi. Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Zəngilan, Qubadlı, Laçın rayonlarının yaşayış məntəqələrinin və Xocavənd rayonu ərazisində yerləşən strateji əhəmiyyətli Ziyarət dağının işğaldan azad olunmasında, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan və Qubadlı istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində iştirak edib. "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medalları ilə təltif olunub. Birinci Qarabağ müharibəsinin iştirakçısıdır və müharibə veteranıdır.

**polkovnik Hüseynov Ənvər Hamlet oğlu**

Birliyin əməliyyat şöbə rəisinin müavini. Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Zəngilan və Qubadlı rayonlarının yaşayış məntəqələrinin azad edilməsində, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan və Qubadlı istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində iştirak edib. "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" 1-ci dərəcəli medalları ilə təltif olunub. Birinci Qarabağ müharibəsinin iştirakçısıdır və müharibə veteranıdır.

**polkovnik Məhərrəmov İlkin Teymur oğlu**

Birliyin mühəndis təminatı şöbə rəisinin baş köməkçisi. Vətən müharibəsində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Xocavənd rayonlarının yaşayış məntəqələrinin və ərazisinin işğaldan azad edilməsində iştirak edib. 26-27 oktyabr Zəngilan rayonu Qoturbulaq (Ağalı-2) kəndində yerləşən körpüdə mina aşkar edib və iki gün müddətində körpüdən 550 (beş yüz əlli) kq trotil və partlatma vasitələri zərərsizləşdirilib. "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə"və "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medalları ilə təltif olunub.

**polkovnik Niftalıyev Teymur Ağasəlim oğlu**

Birliyin rabitə rəisi. Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Zəngilan, Qubadlı, Laçın rayolarının yaşayış məntəqələrinin və ərazisinin işğaldan azad edilməsində, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan və Qubadlı istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində iştirak edib. "Hərbi xidmətlərə görə", "Zəngilan azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

**polkovnik Abdullayev Ramil Sahib oğlu**

Birliyin kimya xidməti rəisi. Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Zəngilan və Qubadlı rayonlarının yaşayış məntəqələrinin və ərazisinin işğaldan azad edilməsində, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan və Qubadlı istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində, 2020-ci ilin dekabr ayı ərzində düşmənin hissə və bölmələrinin Qubadlı rayonunun Qazıdərə, Cicimli, Çardaxlı, Fərcan kəndlərindən, Zəngilan rayonunun Rəzdərə, Kolluqışlaq, Şayıflı, İsgəndərbəyli, Sobu, Bartaz, Aşağı Yeməzli, Məşədi İsmayıllı, yüks. 854,7 Ağbüs d., Saldaş, Sarılıxəştab, Laçın rayonunun Zabux kəndlərindən çıxarılmasında iştirak edib. "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**polkovnik Səfərov Yaşar Rafiq oğlu**

Birləşmə komandiri. Vətən müharibəsində Xocavənd, Zəngilan, Qubadlı və Laçın rayonlarının yaşayış məntəqələrinin və ərazisinin, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan və Qubadlı istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində iştirak edib. "Vətən uğrunda" medalı ilə təltif olunub.

**polkovnik Seyidov Mirsamir Mirabbas oğlu**

Birləşmə komandirinin maddi-texniki təminat üzrə müavini. Vətən müharibəsində Qubadlı və Laçın rayonlarının ərazisinin və yaşayış məntəqələrinin işğaldan azad olunmasında iştirak edib. "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

**polkovnik Hacıyev Nəbi Təvəkkül oğlu**

Birləşmə komandirinin şəxsi heyətlə iş üzrə müavini. Vətən müharibəsində Xocavənd və Xocalı rayonlarının ərazisinin və yaşayış məntəqələrinin, eləcə də üçtərəfli razılaşmanın şərtlərinə əsasən Laçın rayonunun azad olunmasında və Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın rayon hissəsinin möhkəmləndirilməsində iştirak edib. "Şücaətə görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

**polkovnik Həşimov Rauf Sabir oğlu**

Birliyin artilleriya şöbəsinin rəisi. Vətən müharibəsində Xocavənd rayonunun yaşayış məntəqələrinin işğaldan azad olunmasında, eləcə də üçtərəfli razılaşmaya əsasən Laçın rayonunun təhvil alınmasında və Azərbaycan-Ermənistan dövlət sərhəddinin Laçın rayonu istiqamətində möhkəmləndirilməsində iştirak edib. "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

**polkovnik Kərimov Rövşən Aftandil oğlu**
Birləşmə komandirinin şəxsi heyətlə iş üzrə müavini. Qubadlı və Zəngilan rayonlarının yaşayış məntəqələrinin işğaldan azad olunmasında və Azərbaycan-Ermənistan dövlət sərhəddinin Qubadlı istiqamətində bərpa olunmasında və möhkələndirilməsində iştirak edib. "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

**polkovnik Hüseynov Mahir Oruc oğlu**
Birləşmənin əməliyyat bölmə rəisi. Vətən müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə və Şuşanın müdafiəsinin möhkəmləndirilməsində iştirak edib. "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

**polkovnik-leytenant Qasımov Rafael Səlim oğlu**
Birləşmənin əməliyyat bölmə rəisi. Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının yaşayış məntəqələrinin və ərazisinin işğaldan azad olunmasında, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində iştirak edib. "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

**polkovnik-leytenant Orucov Ramin Vaqif oğlu**
Birləşmə komandirinin müavini. Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının yaşayış məntəqələrinin işğaldan azad olunmasında, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhəddinin Zəngilan istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində iştirak edib. "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.






**polkovnik Yaşar Kərimov və polkovnik-leytenant Vasif Xəlilov**



polkovnik Rauf Həşimov və döyüş yoldaşları



Polkovnik-leytenant Rafael Qasımov, mayor Sərxan Məmmədov və döyüş yoldaşları





polkovnik Ramil Abdullayev və polkovnik İlkin Məhərrəmov



polkovnik İlkin Məhərrəmov, polkovnik Gündüz Vəliyev və polkovnik-leytenant Vüqar Abbasov



polkovnik Teymur Niftalıyev



polkovnik-leytenant Anar Mikayılov





**polkovnik-leytenant Nadir Kərimov**

**polkovnik-leytenant Xəlilov Vasif Nüsrət oğlu**

Birləşmənin artilleriya rəisi. Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Zəngilan, rayonlarının yaşayış məntəqələrinin və Xocavənd rayonu ərazisində yerləşən strateji əhəmiyyətli Ziyarət dağının işğaldan azad olunmasında, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində iştirak edib. "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

**polkovnik Vəliyev Gündüz İslam oğlu**

Birləşmənin kəşfiyyat rəisi. Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Zəngilan, rayonlarının yaşayış məntəqələrinin və Xocavənd rayonu ərazisində yerləşən strateji əhəmiyyətli Ziyarət dağının işğaldan azad olunmasında, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində iştirak edib. "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.



**polkovnik-leytenant Abbasov Vüqar Malik oğlu**

Birliyin kəşfiyyat rəisi. Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Zəngilan, Qubadlı və Laçın rayonlarının yaşayış məntəqələrinin işğaldan azad olunmasında, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan və Qubadlı istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində iştirak edib. Müharibənin ilk günlərində Cəbrayıl rayonu Havıslı yaşayış məntəqəsinin azad olunması zamanı döyüşlərdə yaralanıb. "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.

**polkovnik-leytenant Seyfəlov Yaşar Şıxəli oğlu**

Birləşmənin qərargah rəisi-komandir müavini. Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının yaşayış məntəqələrinin işğaldan azad olunmasında, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhəddinin Zəngilan istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində iştirak edib. "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

**polkovnik-leytenant Məmmədov Elsevər Təvəkkül oğlu**

Tabor komandiri. Cəbrayıl rayonunu ərazisinin, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhəddinin Zəngilan istiqamətində bərpa olunmasında və möhkəmləndirilməsində iştirak edib. "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunub.

**polkovnik-leytenant Mikayılov Anar Tahir oğlu**
Birliyin rabitə mərkəzinin rəisi. Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan və Laçın istiqamətində dayanıqlı rabitəni, eləcə də birliyin qərargahının müdafiəsini təşkil edib. "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.

**tibb xidməti polkovnik-leytenantı Kərimov Nadir Lənkəran oğlu**
Birliyin tibb xidməti rəisi. Vətən müharibəsində birliyin əməliyyatlara cəlb olunan Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan, Qubadlı və Laçın istiqamətlərində yerləşən birləşmə və taborlarının şəxsi heyətinə ilk tibbi yardımın göstərilməsi və təxliyyəsi istiqamətində fəaliyyət göstərmişdir. Qubadlının Xanlıq yaşayış məntəqəsində səyyar tibb qrupunda yaralı və xəstələrin təxliyəsində yaxından iştirak etmişdir. "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" 1-ci dərəcəli medalları ilə təltif olunub.

**polkovnik-leytenant Babayev Yavər Qafar oğlu**
Birləşmə komandirinin hüquq işləri üzrə köməkçisi. Vətən müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə və Şuşanın müdafiəsinin möhkəmləndirilməsində iştirak edib. "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.

**polkovnik-leytenant Səfərov Elmar Cəfər oğlu**
Tabor komandirinin maddi-texniki təminat üzrə müavini. Xocavənd, Zəngilan və Cəbrayıl rayonlarının ərazisinin və digər yaşayış məntəqələrinin işğaldan azad olunmasında iştirak edib. "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.



**mayor Musayev Elvir Lətif oğlu**
Birləşmənin kadrlar bölmə rəisi. Xocavənd və Zəngilan rayonlarının ərazisinin işğaldan azad olunmasında iştirak edib. "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.

**mayor Hüseynov Mehrac Kamal oğlu**
Birləşmənin artilleriya divizionunun batareya komandiri. Xocavənd və Zəngilan rayonlarının ərazisinin və digər yaşayış məntəqələrinin işğaldan azad olunmasında iştirak edib. "Hərbi xidmətdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Zəngilan azad olunmasına görə" medalları ilə təltif olunub

**kapitan Cəbrayılov Azər Rafiq oğlu**
Vətən müharibəsində Müdafi Nazirliyinin mətbuat xidmətində informasiyaların tərcümə olunmasında iştirak edib.

**baş leytenant Əhmədov Səbuhi Tahir oğlu**
İşğaldan azad olunan ərazilərdə "N" saylı hərbi hissənin tərkibində radiokəşfiyyat məlumatlarının toplanmasında və təhlilində iştirak edib.

**polkovnik Quliyev Bəbir Şərqi oğlu** – səfərbərliklə formalaşan və əməliyyat ehtiyatını təşkil edən birləşmənin komandiri.

**polkovnik-leytenant Xəlilov Hidayət Elman oğlu** – səfərbərliklə formalaşan və əməliyyat ehtiyatını təşkil edən birləşmənin əməliyyat bölmə rəisinin köməkçisi.

**polkovnik-leytenant Məmmədov Tariyel Rafiq oğlu** – səfərbərliklə formalaşan və əməliyyat ehtiyatını təşkil edən birləşmənin rabitə rəisi.

**baş gizir Məmmədov Əsgər Nurəddin oğlu** – səfərbərliklə formalaşan və əməliyyat ehtiyatını təşkil edən birləşmənin məxfi hissə rəisi.

Səfərbərliklə yaradılan birləşmənin qısa zamanda formalaşmasında və döyüş tapşırıqlarının icrasına hazır olmasında yaxından iştirak etmişlər. Əməliyyat ehtiyatını təşkil edən birləşmə üçtərəfli razılaşma imzalandığına görə aktiv döyüş əməliyyatlarında iştirak etməyib.

Hərbi Akademiyanın aşağıda adları göstərilən professor müəllim heyəti ehtiyatda olan polkovnik Babayev Siyavuş Məmməd oğlu, ehtiyatda olan polkovnik Əliyev Nizami İsmayıl oğlu və ehtiyatda olan polkovnik-leytenant Səfərov Telman Ağacəfər oğlu Vətən müharibəsi zamanı mərkəzi komanda məntəqəsində təyin olunmuş istiqamətlər üzrə əməliyyat şəraitinin xəritəyə işlənilməsində və hesabat sənədlərinin hazırlanmasında bilavasitə iştirak etmişlər.

Ehtiyatda olan polkovnik Sultanov Cabir Həbib oğlu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarına ezam olunaraq bu istiqamətlərdə döyüşən birləşmələrin şəxsi heyətinə GPS və topoqrafik xəritələrdən istifadə etməklə düzbucaqlı və coğrafi koordinatların müəyyən edilməsində köməklik göstərmişdir.

Polkovnik Əzizov Fehruz İsrafil oğlu və ehtiyatda olan polkovnik-leytenant Hədisov Etibar Feyzullah oğlu, Vətən müharibəsi günlərində hərbi obyektlərin mühafizəsinə cəlb olunan heyətə rəhbərlik etmişlər.

Hərbi Akademiyada təhsil aldığı müddətdə Vətən müharibəsində iştirak etmiş məzunlar:

polkovnik-leytenant Yunisov Vaqif Rəcəb oğlu
polkovnik-leytenant Qulamov Yaşar Höcətulla oğlu
polkovnik-leytenant Abdullayev Həsən Ağasəf oğlu
mayor Kərimov Nail Elsevər oğlu
mayor Şadmanov Əkrəm Yunus oğlu
mayor İbrahimov Tapdıq Niftulla oğlu
mayor Həmzəyev Səbuhi İbrahim oğlu



mayor Qarayev Asəf Ənvər oğlu
mayor Süleymanov Amil Mustafa oğlu
kapitan İsmayılov Nicat İlyas oğlu
kapitan Nəcəfov Samir Vətən oğlu
kapitan Rzayev Turxan Qurban oğlu
kapitan Əliyev Famil Firuddin oğlu
kapitan Zəkiyev Röyal Zəki oğlu
kapitan Hüseynov Rasim Fazil oğlu
kapitan Məmmədov Rəşad Arif oğlu

Hərbi Akademiyada təhsil aldığı müddətdə Vətən müharibəsi günlərində Hərbi obyektlərin mühafizəsinə cəlb olunan məzunlar:

polkovnik-leytenant Qafarov Xalid Qəhrəman oğlu
polkovnik-leytenant Hüseynov Yaşar Qənbər oğlu
polkovnik-leytenant Adilov İltimas Qasım oğlu
polkovnik-leytenant Pirəliyev Asif Akif oğlu
mayor Xəlilov Ramil Xəlil oğlu
kapitan Babayev İbrahim Telman oğlu
kapitan Rzayev Xəzər Səttar oğlu

## Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Vətən müharibəsində rolu

Qoca Şərqin qapısı Naxçıvan, tarix boyu yadelli işğalçılara qarşı mübarizə aparıb və daima mübarizədən üzüağ çıxıb. Naxçıvan əhalisi Naxçıvana gözdikənlərin qarşısında mərd dayanıb, Vətən müharibəsi günlərində də mərd dayandı, Qarabağda gedən prosesləri diqqətlə izlədi və istənilən inkişaf ssenarisinə hazır oldu. Hələ XX əsrin sonlarında ölkəmizə qarşı erməni təcavüzü başlayanda ermənilər Naxçıvana da göz dikmişdilər. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan ilə hələ o zaman quru əlaqəsi Ermənistan üzərindən keçirdi. Avtomobil yolu ilə gediş-gəliş tamamilə dayandırılmışdı. 1991-ci ilin payızında soyuq silahla silahlanmış ermənilər Mehri stansiyasında Naxçıvan-Bakı

qatarına hücum edərək maşinistləri döyüb, təhqir etdilər və bildirdilər ki, bir də gəlməsinlər, yoxsa öldürəcəklər. Bu, Naxçıvandan Bakıya gələn sonuncu qatar oldu və o vaxtdan Naxçıvan blokadaya düşdü.

Uzun illərdi blokada şəraitində yaşayan Naxçıvan düşmənə boyun əymədi, təcavüzkar Ermənistana qarşı dik durmağı bacardı. Mənfur düşmənin bütün hücumlarını dəf etdi, öz sərhədlərini göz bəbəyi kimi qorudu. Çünki Naxçıvanın çətin günlərində ona Ulu öndər Heydər Əliyev rəhbərlik edirdi. Ulu öndər Naxçıvanı böyük bəlalardan xilas etdi, onu düşdüyü blokada şəraitindən çıxarmaq üçün qardaş Türkiyə ilə 11 km məsafədə olan dövlət sərhəddinin Araz çayı üzərində qısa zamanda körpü saldı. O zaman körpüyə "Ümid" adı verildi. Həmin ümid işığında Naxçıvan inkişaf etdi, qurub yaratdı. Naxçıvanın strateji əhəmiyyətini, yerləşdiyi coğrafi mövqeyini nəzərə alsaq, demək olar ki, Naxçıvansız Azərbaycan yoxdur. Hələ 1991-ci il sentyabrın 7-də Naxçıvanda müdafiə komitəsi yaradıldı. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edildi. Zaman keçdikcə ordu quruculuğu prosesinə önəm verildi, Naxçıvanda yerləşən briqadanın əsasında Ordu Korpusu formalaşdı, Naxçıvanın etibarlı müdafiəsi təşkil olundu. 2013-cü ildə Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu yaradıldı. Demək olar ki, həmin ordu Cənubi Qafqazda ən güclü hərbi qruplaşmadır. Əlahiddə Ümumqoşun Ordu 2018-ci ilin may ayının 20-27 tarixlərində apardığı uğurlu Günnüt əməliyyatı ilə gücünü düşmənə göstərməklə yanaşı, hərb tarixinə uğurlu əməliyyatın təşkilatçısı və icraçısı kimi daxil oldu. Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi, "Ağbulaq" yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı azad olunub, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan ordusunun nəzarəti altına keçib. Əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verib.

Vətən müharibəsi zamanı azad olunan yüksəkliklərdən düşmənin



bu istiqamətdə olan bütün fəaliyyətlərini izləmək mümkün oldu.

Naxçıvan Əlahiddə Ümümqoşun Ordu Vətən müharibəsində tabelikdə olan birləşmələrin qruplaşmasını və yerdəyişməsini həyata keçirərək düşmənin Naxçıvan istiqamətində yerləşən qruplaşmasını Qarabağa göndərməyə imkan vermədi. Düşməni daima təzyiq altında saxladı, belə cəhdlər olduqda isə aktiv fəaliyyətlər ilə həmin istiqamətlərdə bölmələrin açıq nümayişi ilə düşməndə hər an müxtəlif istiqamətlərdən yeni cəbhənin açılması qorxusunu yaratdı.

Əlbəttə, Vətənimizin ən ağır günlərində Qarabağda döyüşlər gedən bir vaxtda Əlahiddə Ümumqoşun Ordunun birləşmələri kənarda qala bilməzdi. Naxçıvanın etibarlı müdafiəsilə yanaşı, Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı birləşməsinin bir hissəsinin və digər qoşun növlərindən bir qrupun döyüşlərdə iştirakına qərar verildi.

Uzun illər bu günü gözləyən döyüşçülər bu ana qədər çox həyəcan keçirir və döyüşlərdən kənardaqalma qorxusu ilə yaşayırdılar. Lakin biləndə ki, döyüşlərdə iştiraka qərar verilib, sevinclərinin həddi-hüdudu yox idi. Vətən qarşısında vətəndaşlıq borcunu, hərbi andın tələblərini yerinə yetirmək üçün şans yaranmışdı.

Qarabağda oktyabrın əvvəllərindən döyüşlərə qatılan Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları döyüşən ordunun gücünə güc qatdı, hücumu sürətləndirməyə və dərinliyə inkişaf etdirməyə dəstək oldular. Verilən tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirərək Ali Baş Komandanın, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin, Əlahiddə Ümumqoşun Ordu komandanının və xalqımızın ümidlərini doğrultdular. Vətən torpaqlarının azadlığı uğrunda qan tökdülər, şəhidlər vedilər, yağı düşməni torpaqlarımızdan qovdular, şəhidlərimizin qisasını aldılar. Düşmənin diz çökməsinə və kapitulyasiya aktına imza atmağa öz töhfələrini verdilər. Ermənistan 30 il bundan əvvəl bağladığı kommunikasiya xətlərini "Zəngəzur dəhlizi"ni açmaqla öhdəçilik götürməyə məcbur etdilər. Füzulidən başlayaraq Şuşaya qədər şanlı döyüş yolu keçdilər. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun

adını uca tutdular. Zəfər paradında iştirakları ilə Azadlıq meydanında vüqarla addımladılar. Elə ona görə də qədirbilən xalqımız haqlı olaraq onlarla fəxr edir.

### Vətən müharibəsinə qardaş dəstəyi

**"Bir millət, iki dövlət"** şüarı ilə dillərdə əzbər olan, dini, dili, amalı bir, qardaş ölkələr **Türkiyə-Azərbaycan!** Dünyada bir-birinə bu qədər yaxın olan ikinci bir dövlətlər yoxdur. Tarix boyu da belə olmuşdur, bundan sonra da belə olacaq. Türk dünyasına qarşı aparılan siyasi oyunlar nəticəsində bizi nə qədər ayırmağa, bir-birimizdən uzaq tutmağa çalışsalar da tarixi kökləri, dini, mədəniyyəti eyni olan xalqları ayırmaq mümkün deyil. Hələ 1918-ci ilin sentyabrın 15-də Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu Bakını erməni-bolşevik qüvvələrindən təmizləməsi bunun bariz nümunəsidir. Xalqımız hələ o zaman göstərilən qardaş dəstəyini, eləcə də Türkiyənin ağır günlərində azərbaycanlıların Çanaqqala savaşında iştirakı, Azərbaycan hökumətinin Türkiyəyə göstərdiyi yardım tarixdə əvəzolunmaz nümunələrdir. Bu gün Azərbaycan torpağıda ikinci bir ölkəyə aid olan şəhidlər xiyabanı yoxdur. Bu ancaq qanı və canı bir olan qardaş Türkiyəyə aiddir. Qardaşının çətin günündə yardıma gələnlər, vətən torpaqları üçün canından keçənlər, bizimlə birgə düşmənə qarşı çiyin-çiyinə vuruşanlar şəhidlik zirvəsinə yüksəlmişlər. Azərbaycanın müxtəlif bölgələrində Türk şəhidliyi mövcuddur, onlardan bir də Azərbaycanın azadlığı uğrunda canlarından keçənlərin dəfn olunduğu yerdə Bakıda – "Şəhidlər xiyabanı"nın yanında "Türk şəhidliyi" yerləşir.

Vətən müharibəsi bizim düşmənlərimizlə yanaşı, dostlarımızı da üzə çıxardı. Müharibənin ilk anından mənəvi dəstək olan ölkələrdən biri də qardaş Pakistan oldu. Pakistan, Azərbaycanın haqq mübarizəsində onun yanında olduğunu dünyaya göstərdi. O, Ermənistanı işğalçı dövlət olduğuna görə tanımamışdır. Azərbaycan xalqı heç bir zaman Vətən müharibəsi günlərində Əfqanıstanın, İsrailin, Ukraynanın bizə verdiyi mənəvi dəstəyi unutmayacaq.



Azərbaycanı hədələyənlərin, zor və güc nümayiş etdirənlərin tarixdə bir adı var: işğalçı. Azərbaycan xalqı isə onları yaxşı tanıyır, müxtəlif zamanlarda istiqaməti dəyişdirirlər. Külək gah şimaldan, gah cənubdan, bir çox hallarda isə uzaq qərbdən əsməyə başlayır. Ey gənclik, unutma, sənin yolun Türkün birliyindən, gələcəyin isə yaranacaq Türk Dövlətləri təşkilatından keçir.

Azərbaycan torpaqları uzun müddət dünyanın gözü önündə işğalda qaldı. Beynəlxalq təşkilatlar, Qarabağ münaqişəsinin həlli ilə bağlı yaradılan "Minsk qrupu" vəzifəsini icra etmədi, əksinə, vaxt uzatmaqla məşğul oldu. İşğalçı tərəf daha da azğınlaşdı və bizə meydan oxumağa başladı. Azərbaycan Ermənistanı cəzalandırmaq və yerində oturtmaq üçün xalqımızın qətiyyətli iradəsinə söykənərək əks-hücum əməliyyatına başladı. Müharibə başlayan andan Azərbaycanın haqq işinə Türkiyədən dəstək yağdı. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan müharibənin ilk dəqiqələrindən bütün dünyaya bəyan etdi: "Azərbaycan tək deyil, biz sona kimi Azərbaycanın yanındayıq". Azərbaycana qarşı təzyiqlərin qarşısını aldı, mənəvi və siyasi güc verdi. Türkiyə hökümətinin nazirləri, millət vəkilləri, iş adamları, qeyri-hökümət təşkilatları, sıravi vətəndaşlar, bir sözlə, 83 mln. Türkiyənin qəlbi bizimlə vurdu. Türkiyə mətbuatı Azərbaycanın haqq işini, Qarabağda gedən savaşı real və ədalətli olaraq dünyaya çatdırdı. Ermənilərin törətdikləri vəhşilikləri, yaşayış məntəqələrinə endirilən raket zərbələrini, dağıntıları canlı olaraq göstərdi. Ermənistanın uşaq qatili olduğunu dünya bir daha gördü. Türkiyənin hər yerində Azərbaycan bayrağı asıldı, iri şəhərlərdə körpülər, qüllələr, mədəniyyət mərkəzləri Azərbaycan bayrağı ilə işıqlandırıldı. Türk xalqı güclü mənəvi dəstək verdi, unudulmaz tarixi anlar yaşandı. 44 gün davam edən Vətən müharibəsində qazanılan "Zəfər" son əsrlərdə Türk dünyasının şanlı tarixində əldə olunan ən möhtəşəm uğurlardandır. Bu zəfər Türk dünyasını qürurlandırdı, gücləndirdi. Türkiyə Hərbi sənayesinin uğurlarını, müasir silahlarını və imkanlarını qardaşlarından əsirgəmədi. İlk növbədə erməniləri, sonra isə onların yanında olan havadarlarını qorxuya salan və bütün dünyanı

heyrətləndirən Qarabağ fatehi “Bayraqdar TB2”, nə yaxşı sən varsan. Biz Qarabağ zəfəri ilə qürur duyuruq, bu həm də sənin zəfərindir Türkiyə. Qoy ulu tanrı bizim qardaşlığımızı, zəfərimizi daima etsin. Göstərdikləri qardaş dəstəyinə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, Xarici İşlər naziri Mövlud Çavuşoğluna, Milli Müdafiə naziri Hulusi Akara, Baş Qərargah rəisi ordu generalı Yaşar Gülərə, qoşun növü komandanlarına və bütün Türkiyə xalqına öz minnətdarlığımızı bildiririk.

## Vətən müharibəsinin xronologiyası

Ermənistan Silahlı Qüvvələri tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Mirzənağılı, Qazaxlar, Əhmədalılar, Alxanlı, Şükürbəyli kəndləri və Horadiz şəhəri, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi 27 sentyabr 2020-ci il saat 06:00 radələrində iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğuları vasitəsilə intensiv atəşə tutulmuşdur. Bunun nəticəsində Azərbaycanın mülki əhalisi arasında həlak olan və yaralananlar olub və mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib. Cəbhədə yaranmış vəziyyəti qiymətləndirən Azərbaycan tərəfi əks-hücum əməliyyatına qərar qəbul edib və beləliklə də Vətən müharibəsi başlayıb.

Eyni gündə Azərbaycan Silahlı Qüvvələrinə aid şəxsi heyət və tank bölmələrinin, raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikası, o cümlədən 12 ədəd "OSA" zenit-raket kompleksi aşkar edilərək məhv edilmişdir. Bundan əlavə, Azərbaycan Hərbi Hava Qüvvələri cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri vurmuş, ekipaj üzvləri isə sağ qalmışdır.






Aparılan hərbi əməliyyatlar zamanı Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edilmiş, o cümlədən qarşı tərəfin Ağdərə rayonu istiqamətində və Murovdağı silsiləsindəki hündürlüklərdə yerləşən postları darmadağın edilərək bir sıra hakim yüksəkliklər (Camışdağ və Ömər aşırımı) nəzarətə götürülmüşdür. Azərbaycan Silahlı Qüvvələrinin uğurlu əməliyyatı nəticəsində Murovdağ silsiləsindəki Murov zirvəsi işğaldan azad edilmişdir.

Ermənistan silahlı birləşmələrinin dinc Azərbaycan əhalisini hədəfə alması səbəbindən növbəti dəfə toplarla açılmış atəş nəticəsində Naftalan rayonu, Qaşaltı kənd sakini Qurbanov Elbrus İsa oğlu və onun 4 ailə üzvü həlak olmuşdur. Azərbaycan mediasının verdiyi məlumata görə, Azərbaycan Ordusuna məxsus kamikadze tipli uçan pilotsuz aparat Ermənistanın işğal etdiyi ərazilərdə yerləşdirdiyi S-300 zenit-raket sistemini məhv etmişdir. Ermənistan ordusuna məxsus silah-sursat anbarı məhv edilmiş və bölgədə güclü partlayış baş vermişdir.

*28 sentyabr 2020-ci il*

Azərbaycan Silahlı Qüvvələrinin uğurlu əməliyyatı nəticəsində Murovdağ zirvəsi işğaldan azad edilmiş, mühüm əhəmiyyətə malik Basarkeçər-Ağdərə M11 avtomobil yolu Azərbaycanın nəzarətinə keçmişdir.

Saat 01:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi tərəfindən təmas xəttinin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu qoşunlarının dəqiq zərbələri nəticəsində erməni hərbi texnikasının məhv edildiyini əks etdirən video yayımlanıb. Bundan dərhal sonra nazirlik Ermənistan Müdafiə Nazirliyinin, Azərbaycan Ordusundakı itki sayı ilə bağlı yaydığı məlumatın əsassız olduğunu və həqiqəti əks etdirmədiyini bildirərək erməni iddialarının çoxunu rədd etmişdir. Nazirlik, həmçinin bu iddiaların Azərbaycan Ordusunun uğurları qarşısında erməni əhalisi arasında hökm sürən təşviş və ordularındakı yaranmış xaosu bir qədər azaltmaq məqsədi güddüyü ifadələrini irəli sürmüşdür. Saat 09:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi Tərtərin Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəkliyin azad edildiyini bildirmişdir.

Ermənistan silahlı birləşmələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri Ağdam rayonu, Evoğlu kəndini, saat 11 radələrində Tərtər şəhəri intensiv atəşə tutması nəticəsində Heydər Əliyev prospektində yerləşən rayon Məhkəməsinin inzibati binasının yanına düşmüş mərmi qəlpələrindən həmin vaxt ərazidən keçən təcili tibbi yardım maşının sürücüsü və maşında olan hərbi polisin əməkdaşı, həmçinin ərazidə olan digər Tərtər şəhər sakini yaralanmışdır. Təxminən saat 13:10-da Azərbaycan Müdafiə Nazirliyi iki erməni tankının Azərbaycan PUA-ları tərəfindən məhv edildiyi görüntülərini yayımlamışdır.

Saat 20 radələrində düşmən tərəfindən atılan mərmilərdən biri Tərtər Rayon Polis Şöbəsinin inzibati binasının həyətinə düşüb. Mərmi qəlpələri inzibati binanın dəhlizlərinə qədər daxil olmuş, insan tələfatı, xəsarət alan olmasa da, binaya ciddi maddi ziyan dəymişdir.



İşğal altındakı Azərbaycan torpaqlarına gedən mühüm strateji yollardan biri, Azərbaycan Ordusunun nəzarəti altında olan Basarkeçər-Ağdərə yolu da daxil olmaqla bütün döyüş ərazilərində Azersky peyki vasitəsilə monitorinqlər aparılmağa başlamışdır. Təxminən saat 20:40 radələrində, Ermənistan Respublikası Müdafiə Nazirliyinin Vazgen Sarkisyan adına "Hərbi Universitetinin Komandanlıq və Kadrlar Fakültəsinin rəhbəri Arçrun Ovannisyan Azərbaycan qüvvələrinin Suqovuşan-Talış istiqamətində Araz vadisində yeni genişmiqyaslı hücum əməliyyatı başlatdığını" bildirmişdir. Bir müddət sonra, Mihran Poqosyan, Xocavənd yaxınlığında Azərbaycan Ordusuna məxsus təyyarənin düşürülməsi haqqında məlumat vermiş, lakin Azərbaycan Müdafiə Nazirliyi Mətbuat Xidmətinin bu fikirləri yalan məlumat və dezinformasiya adlandırmışdır. Saat 21 radələrində təmas xəttində baş tutan bombardman nəticəsində Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahın Kəşfiyyat İdarəsinin rəisi, general-mayor Arakel Martikyan, həmçinin Ermənistan ordusunun daha iki yüksək rütbəli zabiti, Xüsusi Təyinatlı Briqadanın komandiri polkovnik-leytenant Vardanyan Lernik Aregi və polkovnik Nikolay Mikaeloviç Aykyan ölmüşdür.

*29 sentyabr 2020-ci il*

Sentyabrın 28-dən 29-na keçən gecə intensiv toqquşmalar bütün cəbhə boyu davam etmiş, erməni qüvvələri dəfələrlə əks-hücuma cəhd göstərsə də Azərbaycan Ordusu tərəfindən müvəffəqiyyətlə dəf edilmişdir. Müdafiə Nazirliyindən verilən məlumata görə, sentyabrın 29-da səhər saat 07.30-dan etibarən Ermənistanın Basarkeçər rayonu ərazisindən Azərbaycanın Daşkəsən rayonunun ərazisi artilleriya atəşinə tutulmuş, Azərbaycan Ordusu tərəfindən adekvat tədbirlər görülmüşdür.

Qarşıdurmalar 29 sentyabrda Ermənistan-Azərbaycan dövlət sərhədindəki Basarkeçər rayonundan Daşkəsən rayonunun atəşə tutulması ilə davam etmişdir.

Həmin gün axşam saatlarında Ermənistan ordusu cəbhənin Tər-

tər istiqamətində yaşayış məntəqələrini atəşə tutmağa davam etməsi nəticəsində bir nəfər mülki şəxs vəfat etmişdir.

Səhər saat 07:00-08:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankının məhv edildiyi məlumatını yayımlamışdır.

Təxminən saat 10:15-də Azərbaycan Müdafiə Nazirliyi iki erməni tankının Azərbaycan PUA-ları tərəfindən məhv edildiyi görüntülərini yayımlayıb. Azərbaycan Ordusunun atəş zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Xocavənd rayonu ərazisində yerləşdirilən 3-cü "Martuni" motoatıcı alayı darmadağın edilmişdir.[1]Həmçinin Azərbaycan Ordusunun gördüyü tədbirləri nəticəsində müvəqqəti işğal altında olan Cəbrayıl rayonu istiqamətində yerləşdirilən Ermənistan ordusunun 18-ci motoatıcı diviziyasının artilleriya rəisi polkovnik Karen Babayan məhv etmişdir. Təxminən saat 11-ə olan məlumata əsasən, Azərbaycan Ordusu Xocavənd rayonu istiqamətindəki Ermənistan silahlı qüvvələri bölmələrinin "Uraqan" yaylım atəş sistemini sıradan çıxartmışdır.

Təxminən saat 12 radələrinə olan məlumata görə Eçmiədzin rayonunda dislokasiya olunan və işğal edilmiş ərazilərdə gedən döyüşlərə cəlb edilmiş Ermənistan ordusunun 61-ci əlahiddə mühəndis alayının zabiti Spartak Köçəryan öldürülmüşdür. Bir qədər sonra keçmiş Ağdərə rayonunun işğal altında olan Köyarx kəndi yaxınlığındakı yüksəklik ətrafında gedən döyüşlərdə Ermənistan ordusunun daha bir tankının məhv edildiyi bildirilmişdir. Həmçinin Xocavənd rayonunun Hadrut yaşayış məntəqəsi istiqamətində yerləşən Ermənistan ordusunun 1-ci alayının, 3-cü taborunun komanda-müşahidə məntəqəsi dəqiq atəşlə darmadağın edilmişdir. Füzuli rayonunun işğal altında olan Aşağı Veysəlli kəndi istiqamətindən Azərbaycan Ordusunun üzbəüz mövqelərinə basqın etməyə cəhd göstərən Ermənistan ordusunun hərəkətinin qarşısının alındığını və düşmənin geri çəkilməyə məcbur edildiyini bildirib. Bundan əlavə geri çəkilərkən məhv edilmiş erməni əsgərlərinin meyitləri döyüş meydanında qalmışdır. Saat 13 radələrinə olan



məlumata görə Azərbaycan Ordusunun keçirdiyi döyüş əməliyyatı nəticəsində Ermənistan ordusunun 18-ci motoatıcı diviziyasının 9-cu alayının komandiri polkovnik Artyom Poqosyan ağır yaralanmışdır. Saat 12 radələrindən başlayaraq ermənilər kütləvi şəkildə Xankəndi şəhərini tərk etməyə başlayıb. Azərbaycan Müdafiə Nazirliyi Mətbuat Xidmətindən verilən məlumata görə, "Azərbaycan Ordusunun genişmiqyaslı döyüş əməliyyatı nəticəsində Suqovuşandakı Ermənistan ordusunun alayı tamamilə demoralizə olunub, ölümqabağı əzabları başlayıb. Şəxsi heyət təşviş içindədir. Dəstək məqsədilə yeni gələn ehtiyat qüvvələri də daxil olmaqla bir çoxları döyüşə girməkdən imtina edir və döyüş əməliyyatı rayonunu tərk edirlər. Saat 13 radələrində Ermənistan ordusunun dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Ağdam rayonunun Qaradağlı kəndində tibb məntəqəsinə düşmüş top mərmisinin qəlpələrindən kənd sakini həlak olmuş, məntəqənin binası dağılmış, ərazidəki sakinlər təxliyə edilmişdir. Saat 16:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan Ordusunun artilleriya bölmələrinin düşmənə sarsıdıcı zərbələr endirdiyini əks etdirən video yayımlamışdır. Bundan 1 saat sonra, Qarabağda yerləşən Ermənistan Silahlı Qüvvələrinin 18-ci motoatıcı diviziyasının 9-cu mexanikləşdirilmiş piyada alayının artilleriya rəisi polkovnik Artem Poqosyan məhv edilmişdir. Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin yenidən törətdiyi genişmiqyaslı təxribatlar nəticəsində düşmənin yaşayış məntəqələrinə istiqamətlənmiş atəş zərbələrindən biri Füzuli rayonunun Babı kəndinin yaxınlığında yerləşən qəbiristanlığa düşmüş, ərazidəki dövlət mühafizəsinə götürülmüş ölkə əhəmiyyətli tarix-memarlıq abidəsi olan Şeyx Babı türbəsinə ciddi ziyan dəymişdir. Verilən məlumata görə, tarixi abidənin fasadı zədələnmiş və nəticədə türbə qəzalı vəziyyətə düşmüşdür.

Həmin gün Ermənistan Müdafiə Nazirliyi Gəncə Beynəlxalq Hava Limanından qalxan və Türkiyəyə məxsus olan F-16 qırıcı təyyarələrinin Ermənistan ordusuna məxsus Su-25 təyyarəsini vurması və pilotun həlak olması barədə məlumat yaymışdır. Lakin

Azərbaycan və Türkiyə tərəfi bu xəbəri yalanlamış və erməni hərbi təbliğat maşınının növbəti fantaziyası olduğunu açıqlamışdır. Azərbaycan Müdafiə Nazirliyinin saat 23 radələrinə olan məlumatına əsasən, Azərbaycan Ordusunun artilleriya zərbələri nəticəsində Tərtər rayonunun Həsənqaya yaşayış məntəqəsi yaxınlığında yerləşən Ermənistan silahlı qüvvələrinin 5-ci motoatıcı alayının 1-ci taboru və Talış istiqamətində yerləşən 6-cı motoatıcı alayının 1-ci taborunun mövqeləri dağıdılmışdır.

***30 sentyabr 2020-ci il***

Sentyabrın 29-dan 30-na keçən gecə, saat 00:20 radələrində Azərbaycan Ordusunun İsrail istehsalı Harop dağıdıcı dronu vasitəsilə dəqiq zərbəsi nəticəsində yüksək rütbəli erməni zabitlərinin toplaşdığı bunker dağıdılıb. Bunkerdə Ermənistan silahlı qüvvələrinin bir generalı, bir neçə polkovniki və digər yüksək rütbəlilərinin olduğu bildirilib.

Saat 01:00 radələrində sosial şəbəkələrdə İran ərazisindən Ermənistana aparılan silah-sursat, hərbi texnika yüklü maşınların yandırılmasına aid görüntülər yayılıb. Nəqliyyat vasitələrinin Cənubi azərbaycanlılar tərəfindən Azərbaycana dəstək məqsədilə yandırıldığı və görüntülərinin paylaşıldığı iddia olunmuşdur.

Təxminən saat 01:10-da Azərbaycan Müdafiə Nazirliyi, Cəbrayıl rayonu ərazisindəki tanklar da daxil olmaqla, bir neçə erməni hərbi texnikasının məhv edildiyini göstərən görüntülər yayımlayıb.

Səhər saat 08.00-dan etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutmuşdur. Atəş nəticəsində dövlət qurumlarının inzibati binalarının yaxınlığına top mərmisinin düşməsi nəticəsində 7 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilmiş, o cümlədən mülki infrastruktur obyektlərə külli miqdarda ziyan vurulmuşdur.

Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taboru ağır itkilərə məruz qaldığından köməyə gələn ehtiyat qüvvələr



Azərbaycan Ordusu tərəfindən məhv edilib.

Saat 10:20 radələrində Azərbaycan Müdafiə Nazirliyi cəbhənin Ağdərə-Tərtər istiqamətində mühasirəyə alınan erməni qüvvələrinin artilleriya vasitələri ilə məhv edilməsi və ərazinin təmizlənməsi əməliyyatı keçirilməsi barədə məlumat yayımlamışdır. Bir neçə dəqiqə sonra Ermənistan silahlı qüvvələrinin artilleriya bölmələri Goranboy rayonunun Aşağı Ağcakənd kəndini atəşə tutmağa başlamışdır.

Saat 11:40 radələrində Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan Ordusunun bölmələrinin düşmən mövqelərinə artilleriya zərbələri endirdiyini göstərən video yayımlamışdır. Həmçinin, Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taborunun şəxsi heyəti ağır itkilərə məruz qalaraq müdafiə mövqelərini özbaşına tərk edərək qaçması barədə məlumat verilmişdir. Köməyə gələn Ermənistan ordusunun ehtiyat qüvvələri Azərbaycan Ordusu tərəfindən aşkar olunaraq dəqiq atəş zərbəsi ilə məhv edilmişdir.

Saat 12:40 radələrində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının 41-ci əlahiddə alayının komanda məntəqəsinə atəş zərbəsi endirilmişdir. Saat 13 radələrinə olan məlumata əsasən, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, sentyabrın 29-da Ermənistan ərazisindən havaya qalxmış iki "Su-25" tipli təyyarəsi dağa dəyərək partlamış və məhv olmuşdur.

Saat 13:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi səhər saatlarında məhv edilən düşmən hərbi texnikalarının videogörüntülərini yayımlamışdır.Yayımlanan digər bir videoda Azərbaycan Ordusunun mövqelərini atəşə tutan Ermənistan ordusu toplarının dəqiq atəşlə məhv edildiyi görüntülər öz əksini tapmışdır. Ermənistan Səhiyyə naziri Arsen Torosyan, 2 təcili yardım helikopteri, təcili yardım maşınları, yüzlərlə tibb işçisi ilə Qarabağ istiqamətində hərbi əməliyyatlar nəticəsində yaralanmış əsgərlərin təxliyyəsi üçün vacib missiya həyata keçirdiyini bildirmişdir.

Saat 15:10 radələrində Müdafiə Nazirliyi Azərbaycan Ordusu-

nun bölmələri tərəfindən Tonaşendə düşmənin iki tankının məhv edildiyi görüntüləri yayımlamışdır. Saat 15 radələrinə olan digər məlumata görə isə Azərbaycan Ordusunun bölmələri Ermənistan silahlı qüvvələrinin Füzuli istiqamətində yerləşən 4-cü taborunu ağır artilleriya atəşinə məruz qoymuşdur.[1] Həmçinin Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının 5-ci dağatıcı alayının Ağdərə yaşayış məntəqəsində yerləşən qərargahına zərbə endirilmişdir. Döyüşlərdə Ermənistan silahlı qüvvələri "Toçka-U" taktiki raket kompleksini tətbiq etsə də, hərbi texnikanın köhnə və keyfiyyətsiz olması səbəbindən atılan raketlər partlamayıb.

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, cəbhənin müxtəlif istiqamətlərində Ermənistan Silahlı Qüvvələrinin 1 ədəd "Uraqan" yaylım atəşli reaktiv sistemi, 2 ədəd "9K33 Osa" zenit-raket kompleksi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd piyadanın döyüş maşını, 4 ədəd D-20 haubitsa-topu, 16 ədəd tank və şəxsi heyətlə 2 ədəd yük maşını məhv edilmişdir. Saat 16 radələrində Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Füzuli rayonu, Horadiz şəhərində yerləşən yanacaqdoldurma məntəqələrinin birinin yaxınlığına düşmüş top mərmisinin qəlpələrindən bir nəfər həlak olmuş, 3 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, məntəqəyə ciddi ziyan dəymişdir.

Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun darmadağın edilən 6-cı dağ atıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilmişdir. Azərbaycan Ordusunun bölmələrinin axşam saatlarında keçirdiyi döyüş əməliyyatları nəticəsində Ermənistan ordusunun 8 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilmişdir.





Saat 01:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi qarşı tərəfin müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonlarının Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən məhv edildiyi xəbərini yayıb. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin bölmələri səhər saatlarından etibarən Tərtər şəhərini yenidən artilleriya atəşinə tutmuşdur. Saat 09:00 radələrində Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx olduğu əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Tərtər şəhər avtovağzalına düşmüş top mərmisinin qəlpələrindən bir nəfər mülki şəxs həlak olmuş, avtovağzala ciddi ziyan dəymişdir.

Saat 11:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun artilleriya qurğularının məhv edilməsinin videogörüntülərini yayımlamışdır. Ötən gün səhər saatlarından etibarən Ermənistan hərbi birləşmələrinin növbəti dəfə ağır artilleriyadan Tərtər şəhərini intensiv atəşə tutması nəticəsində yaralanan 7 mülki vətəndaşdan ikisi vəfat etmişdir və onlar rayonun Dəmirçilər kəndinin sakinləri idi.

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, həyata keçirilən əməliyyatlar nəticəsində Ermənistan ordusu ağır itkilər verərək, geri çəkilməyə məcbur olmuşdur. Səhər saatlarında Ermənistanın Gorus rayonu ərazisindən Azərbaycanın Cəbrayıl-Füzuli cəbhə xətti ərazisi raket zərbələri ilə atəşə tutulmuşdur. Günorta saatlarında yayılan rəsmi məlumata görə, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy, Tərtər və Ağdam rayonlarının cəbhəboyu kəndləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə tutulmuşdur. Suqovuşanda yerləşən 6-cı dağatıcı alayın komandiri və onun müavini Azərbaycan Ordusunun bölmələrinin artilleriya atəşinə məruz qalması və ağır yaralı olaraq sıradan çıxarılması nəticəsində hərbi hissə komandirinin yerinə 2016-cı il aprel döyüşləri zamanı döyüş meydanını özbaşına tərk etdiyi üçün ciddi şəkil-

də cəzalandırılan, 10-cu dağatıcı diviziyanın komandir müavini Gevorq Manqalaryan təyin edilmişdir.

Saat 13 radələrində Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Ağdam rayonunun, Hacıməmmədli kəndində yaşadıqları evə düşmüş top mərmisinin qəlpələrindən evin sakini və oğlu həlak olmuş, yaşadıqları evə külli miqdarda ziyan dəymişdir. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Azərbaycan Ordusu tərəfindən işğal altında olan Hadrut yaşayış məntəqəsindəki Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının qərargahına, onun tabeliyində olan 1-ci motoatıcı alayının infrastrukturuna və Xocavənddəki 3-cü motoatıcı alayın qərargahına atəş zərbələri endirilmişdir.

Saat 15:40 radələrində Ermənistan tərəfi Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus 3 təyyarə, 2 helikopter və 6 PUA-nın vurulması ilə bağlı məlumat yayımlamışdır. Bir neçə dəqiqə sonra isə Azərbaycan tərəfi bugünkü döyüşlərdə döyüş təyyarəsi və helikopterlərin tətbiq olunmadığını bildirərək, yayılmış məlumatın dezinformasiya olduğunu açıqlamışdır.

Saat 16:35 radələrində Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan Ordusunun bölmələrinin Ermənistan ordusunun hava hücumundan müdafiə vasitələrini və yaylım atəşli reaktiv sistemlərini məhv etdiyini göstərən video yayımlamışdır. Xocavənd ərazisindəki toqquşmaları işıqlandıran "Le Monde" qəzetinin iki fransız jurnalisti Azərbaycan Ordusunun açdığı atəş nəticəsində yaralanmışdır.

Saat 17:50 radələrində Ermənistan ordusunun bölmələri Füzuli rayonunun Horadiz şəhərinin mülki obyektlərini artilleriya atəşinə tutmuşdur. Saat 23:00 radələrində isə Ermənistan tərəfi Azərbaycan Ordusunun Nərimanlı və Böyük Məzrə kəndlərini atəşə tutması barədə məlumat yayımlamışdır. İran mediasının verdiyi məlumata əsasən, Ermənistan ordusunun atdığı raketlər Cənubi Azərbaycanın Pərvizxanlı kəndinə düşmüş, bir mülki şəxs yaralanmış, altı ev və bəzi nəqliyyat vasitələri zərər görmüşdür.





Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Ağdərə istiqamətində Suqovuşan ətrafındakı hakim yüksəkliklər Azərbaycan Ordusunun nəzarəti altına keçmişdir. Saat 00:00-dan 07:00-dək Ermənistan ordusunun 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edilmişdir. Azərbaycan Müdafiə Nazirliyinin Ermənistan tərəfinə yaşayış məntəqələrimizi atəşə tutmamaları barədə dəfələrlə xəbərdarlığına baxmayaraq, Ağdam rayonunun Xındırıstan, Əlibəyli, Əhmədağalı və Səfərli kəndləri düşmən tərəfindən intensiv artilleriya atəşinə tutulmuşdur. Ermənistan ordusunun cəbhənin Tərtər istiqamətində yaşayış məntəqələrini atəşə tutmağa davam etməsi nəticəsində rayonun Bala Kəngərli kənd sakinləri xəsarət almışdır. Saat 11:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun qüvvə və vasitələrinin məhv edilməsinin videogörüntülərini yayımlamışdır. Ermənistan ordusu Ermənistan ərazisindən Şəmkir rayonunun Sabirkənd, işğal olunmuş ərazilərdən isə Ağdam rayonunun Quzanlı yaşayış məntəqələrini raket atəşinə tutmuşdur. Həmçinin Bərdə rayonunun Əmirli və Tovuz rayonunun Ağdam kəndi raket atəşi zərbələrinə məruz qalmışdır. Saat 13:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi düşmənin yüksək dağ zirvəsində yaratdığı dayaq məntəqəsinə silah-sursat çatdıran təminat vasitələri və döyüş texnikalarının məhv edilməsini göstərən video yayımlamışdır. Nazirlikdən verilən məlumata görə, Ermənistan ərazisindən Şəmkir rayonunun Sabirkənd yaşayış məntəqəsinə atılan 10-a yaxın raket "Toçka-U" taktiki raket kompleksindən buraxılmışdır. Saat 14:00 radələrində Ermənistan tərəfi Azərbaycan Ordusunun Xankəndi şəhərini bombaladığını açıqlamışdır. Təxminən bir saat sonra Azərbaycan tərəfi düşmənin qüvvə və vasitələrinin məhv edilməsinin növbəti videogörüntülərini yayımlamışdır.

Ermənistan silahlı qüvvələri Tərtər şəhərini, rayonun Şıxarx qəsəbəsini və Bərdə rayonunun Soğanverdilər kəndini intensiv artilleriya atəşinə tutmuşdur. Saat 17:50 radələrində Azərbaycan

Müdafiə Nazirliyi Ermənistan ordusunun səhra idarəetmə məntəqəsi, üzərindəki Ermənistan bayrağı və qondarma rejimin asılan əsgi parçasının göyə sovurulması, eləcə də tanklarının məhv edilməsinin videogörüntülərini yayımlamışdır.

*03 oktyabr 2020-ci il*

Saat 08:23 radələrində Ermənistan tərəfi Dağlıq Qarabağ ərazisinin şimal və cənub qismində şiddətli döyüşlərin getdiyini bildirmişdir. Qondarma Dağlıq Qarabağ Respublikasının prezidenti Arayik Harutyunyan həmin ərazilərə baş çəkmişdir. Saat 10:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi gecə ərzində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan ordusunun döyüş aktivliyinin qarşısının alınması və ona sarsıdıcı zərbələr endirilməsini özündə əks etdirən videogörüntüləri yayımlamışdır. Gecə ərzində Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləbad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboyun Tap Qaraqoyunlu kəndi intensiv artilleriya atəşinə tutulmuşdur. Ermənistan ordusunun Tərtərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində daha iki mülki vətəndaş xəsarət almışdır. Saat 16:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun ağır itkilər verdiyini özündə əks etdirən videogörüntülər yayımlamışdır. Saat 19 radələrində Ermənistan silahlı qüvvələrinin Beyləqan şəhərinin müxtəlif istiqamətlərində dinc əhalinin yaşayış evlərini növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində yaşadıqları evə çoxsaylı top mərmilərinin düşməsi nəticəsində dağıntılar altında qalaraq həlak olmuş, eyni zamanda şəhərin müxtəlif yerlərinə düşmüş top mərmilərinin qəlpələrindən müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilmiş, çoxsaylı yaşayış evlərinə külli miqdarda ziyan dəymişdir.

***Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Azərbaycan Ordusunun Madagizin işğaldan azad etdiyini və həmin ərazilərdə Azərbaycan bayrağının qaldırıldığını açıqlamışdır.*** Həmçinin İlham Əliyevin verdiyi qərara əsasən, Madagizin tarixi adı olan Suqovuşan adı bərpa edilmişdir. Azərbaycan Ordusu həmin gün ərzində, həmçinin Tərtər rayonunun Talış, Cəbrayılın Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzulinin isə Aşağı Əbdürrəhmanlı kəndini tamamilə işğaldan azad etmişdir. Azərbaycan Müdafiə Nazirliyi verdiyi məlumata əsasən, Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborunun 4 tankı məhv edilmiş, 3 tankı isə qənimət götürülmüşdür. Həmçinin Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilmişdir.

*04 oktyabr 2020-ci il*

Saat 09:00 radələrində Ermənistan ordusu Tərtər şəhərinə və Horadiz yaşayış məntəqəsinə raket zərbələri endirmişdir. Ermənistan ordusu Xankəndi şəhərindən şimalda Ballıcada yerləşən hərbi hissədən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini və yaşayış məntəqələrini intensiv atəşə tutmuşdur. Saat 10:50 radələrində Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Ermənistan silahlı qüvvələri Gəncə şəhərini atəşə tutmuşdur. Saat 11:40 radələrində şəhərə daha dörd yeni raket atılmışdır. Bir neçə dəqiqədən sonra Ermənistan tərəfi Azərbaycan Ordusunun Xankəndi şəhərini bombardman etdiyini açıqlamışdır. Müdafiə naziri düşmənin Gəncə şəhərini atəşə tutmasına reaksiya olaraq bildirib ki, "Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir". Ermənistan tərəfi Gəncə şəhərindəki hərbi obyektlərin və Gəncə Beynəlxalq Hava Limanının vurulması ilə bağlı məlumat yayımlamışdır. Azərbaycan Müdafiə Nazirliyi isə yayılmış xəbərin təxribat xarakteri daşıdığını və yalan olduğunu bildirmiş, düşmən tərəfindən açılan atəş nəticəsində dinc sakinlərə,

mülki infrastruktura və qədim tarixi tikililərə ziyan dəydiyini açıqlamışdır. Ermənistan ərazisindən Gəncənin atəşə tutulması nəticəsində 1 mülki şəxs həlak olub, 32 nəfər isə yaralanıb. Verilən məlumata görə, yaralanan mülki şəxslərdən biri 1943-cü il təvəllüdlü erməni əsilli Karina Qriqoryandır. Saat 13:45 radələrində Hikmət Hacıyevin verdiyi məlumata əsasən, cəbhəni ziyarət edən Qondarma Dağlıq Qarabağ Respublikasının prezidenti Araik Arutunyanın yeri Azərbaycan Ordusu tərəfindən aşkar edilmiş və hal-hazırda ağır yaralıdır. Saat 15 radələrində Azərbaycan Müdafiə Nazirliyi düşmənin zirehli texnikaları, atəş-dəstək və təminat vasitələrinin məhv edildiyini özündə nümayiş etdirən videogörüntü yayımlamışdır. Saat 16 radələrində Ermənistan ordusu Ağcabədi rayonunun Sarıcalı, Ağdam rayonunun Baharlı, Çıraqlı, Üçoğlan və Bərdə rayonunun Şahvəlilər yaşayış məntəqələri intensiv artilleriya atəşinə tutub. ***İlham Əliyev özünün "Twitter" səhifəsində Azərbaycan Ordusunun Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini işğaldan tam azad etdiyini açıqlamışdır.*** Saat 15 radələrində Ermənistan silahlı qüvvələrinin Ağcabədi rayonunun müxtəlif istiqamətlərində dinc əhalinin yaşayış evlərini növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində yeməkxanada olan zaman oraya top mərmilərinin düşməsi nəticəsində Taynaq kənd sakini dağıntılar altında qalaraq həlak olmuş, çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəymişdir.

Saat 18:00 radələrində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan bayrağı sancıldığı xəbəri verilmişdir. Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatı, döyüş və avtomobil texnikası qənimət götürülüb. İlham Əliyev xalqa müraciətində Cəbrayıl rayonunun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Decal, Mahmudlu, Cəfərabad və Horovlu kəndlərinin işğaldan tam azad edildiyini açıqladı. Saat 22:00 radələrində Ermənistan silahlı qüvvələri Mingəçevir şəhərinə raket hücumu edib. Mingəçevir şəhərinə Ermənistan tərəfindən dörd ədəd "Toçka-U" ortamənzilli



ballistik raket buraxılmışdır. Bir neçə dəqiqə sonra Azərbaycan Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələri tərəfindən Mingəçevir şəhəri ərazisinə raket zərbələri, Tərtər şəhərinin ərazisinə isə artilleriya zərbələrinin endirilməsi və yaralıların olduğu barədə məlumat yaymışdır.




Mingəçevir şəhərinə atılmış 3 raketdən 2-si partlamayıb. 3-cü raketin fərdi yaşayış evinə atılması nəticəsində 5 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, eyni zamanda evə külli miqdarda ziyan dəymişdir. Azərbaycan tərəfi Ermənistanın əsas məqsədinin Mingəçevir su anbarının vurulması olduğunu bildirsə də, qarşı tərəf isə bu fikirləri rədd etmişdir. Saat 23:00 radələrində isə Xızı və Abşeron bölgəsinə iki ədəd 300 km məsafəli ortamənzilli raket atıldığını bildirmişdir. Ermənistan ordusu ağır artilleriyadan istifadə etməklə Tərtəri atəşə tutmağa davam etməsi nəticəsində 2 şəhər sakini yaralanmışdır.

*05 oktyabr 2020-ci il*

Səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunlarının Radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışını qeydə almışdır. Ermənistan tərəfi Azərbaycan Ordusu tərəfindən Xankəndi şəhərinə 16 raket zərbəsinin endirildiyini açıqlamışdır. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Beyləqan, Bərdə və Tərtər şəhərləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. Saat 11:40 radələrində Füzuli rayonunun Horadiz şəhəri, Ağcabədi rayonunun kəndləri, Tərtər şəhəri və rayonun kəndləri, Goranboy və Göygöl rayonlarının əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə məruz qalmışdır. Təxminən 1 saat sonra Ermənistanın Berd rayonu ərazisindən Gəncə şəhəri raket zərbələri ilə atəşə tutulmuşdur. Hikmət Hacıyev özünün "Twitter" səhifəsində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə, Bərdə və Beyləqan şəhərlərinin sıx məskunlaşmış ərazilərini raket və mərmi atəşinə tutduğunu açıqlamışdır. Ermənistan tərəfi gecə ərzində şiddətli döyüşlərin getdiyini bildirmiş və Azərbaycan Ordusunun cənub istiqamətində hücuma keçdiyini açıqlamışdır. Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Bərdə şəhərinin mərkəzi küçələrinə və mərkəzi xəstəxananın yaxınlığına düşmüş raket mərmisinin qəlpələrindən bir nəfər mülki şəxs həlak olmuş, 3 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. [Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, Gəncə şəhərinə atılmış raketlərin Gəncə Beynəlxalq Hava limanının, 34 saylı orta məktəbin, Şah İsmayıl Xətai küçəsində yerləşən mebel fabrikinin yaxınlığına, "Yevlax avtovağzalı" kimi adlandırılan əraziyə və Mərkəzi bazara atılması nəticəsində 3 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, mülki infrastruktura külli miqdarda ziyan dəymişdir. Eyni zamanda, Beyləqan şəhərinə atılmış 2 ədəd raket mərmisindən 1 ədədi uşaq bağçasının həyatinə, digəri isə şəhər ərazisindəki boş sahəyə düşmüşdür.



Saat 16:40 radələrində Ermənistan silahlı qüvvələri Ağcabədi şəhərini atəşə tutmuş, mülki şəxslər arasında yaralıların olması haqqında məlumat verilmişdir. Həmçinin düşmən ordusu Beyləqan şəhərini atəşə tutmuşdur. Saat 5 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin 63-cü tank taborunun daha 3 ədəd tankının məhv edilməsi barədə məlumat yayımlamışdır. Azərbaycan Ordusu tərəfindən Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdərə istiqamətində 62-ci artilleriya alayının 2 ədəd, 41-ci artilleriya alayının 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, Ermənistan ordusu tərəfindən Ağcabədi rayonuna 3 raket atılmış, atılmış raketlərdən birinin evə düşməsi nəticəsində şəhər sakinləri müxtəlif bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, eyni zamanda evə külli miqdarda ziyan dəymişdir. Saat 20:00 radələrində Ermənistanın silahlı qüvvələri Gəncə şəhərini növbəti dəfə atəşə tutmuşdur. Erməni silahlı qüvvələrinin Ağdam rayonunu müxtəlif istiqamətlərdə intensiv atəşə tutması nəticəsində bir nəfər mülki şəxs həlak olmuş, rayonun Üçoğlan kənd sakini müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Bundan başqa, düşmənin Goranboy rayonunun yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması səbəbindən yaşadığı evə top mərmisinin düşməsi nəticəsində Qızılhacılı kənd sakinləri həlak olmuş, eyni zamanda top mərmisinin düşdüyü başqa bir yaşayış evinin sakinləri, boş sahəyə düşmüş top mərmisinin qəlpələrindən müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişlər. Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Azərbaycan Ordusunun Cəbrayıl rayonunun Şıxalıağalı, Sarıcallı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi işğaldan tam azad etdiyini açıqlamışdır. Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Ermənistan ordusuna məxsus 2 ədəd

BM-21 "Qrad" sıradan çıxarılıb. Bundan əlavə, 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri də Azərbaycan Ordusunun sərrast atəşi ilə məhv edilmişdir.

***06 oktyabr 2020-ci il***

Ermənistan Parlamentinin birinci vitse-spikeri Vahe Enfiacyan özünün "Facebook" səhifəsində "Dəhşət" ləqəbli polkovnik-leytenant Artur Qalstyanın öldüyünü bildirmişdir. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Azərbaycan Ordusunun dəqiq atəş zərbəsi nəticəsində Ballıca məntəqəsində yerləşən mərkəzi silah-sursat anbarı məhv edilmişdir. Müdafiə Nazirliyinin mətbuat xidmətinin açıqlamasında bildirib ki, Azərbaycan Ordusu gecə boyu Cəbrayıl-Füzuli istiqaməti də daxil olmaqla, cəbhə boyu bütün istiqamətlərdə tam üstünlük nümayiş etdirərək, düşmənə ağır zərbələr endirmişdir. Saat 12 radələrində Ermənistan silahlı qüvvələrinin Ağdam rayonuna atdığı mərmi məktəb binasında dağıntılar törətmiş, növbədə olan yanğınsöndürmə avtomobilinə ziyan dəymişdir. Avtomobilin sürücüsü Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin əməkdaşı partlayış dalğasının təsirindən xəsarət almış və xəstəxanaya yerləşdirilmişdir. Saat 16:30 radələrində Ermənistan tərəfi Azərbaycan Ordusunun cənub istiqamətində yenidən hücuma keçdiyi barədə məlumat yayımlamışdır. Yarım saat sonra düşmən tərəf Azərbaycan Silahlı Qüvvələrinin Xankəndi şəhərini bombardman etdiyini açıqlamışdır. Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündə xarici muzdlulardan, o cümlədən İraq və Suriya ərazisindən gətirilmiş kürd terrorçu qruplaşma üzvlərindən fəal istifadə etdiyini sübut edən radiodanışıqları ələ keçirilmişdir. Həmçinin verilən məlumata görə, aparılan əməliyyatlar nəticəsində daha iki əcnəbi muzdlu-terrorçu məhv edilmişdir. Saat 19 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin Yevlax, Goranboy və Beyləqan rayonlarının ərazilərini atəşə tutması barədə məlumat yayımlamışdır.



Müdafiə Naziri xüsusi xidməti müşavirədə düşmən tərəfindən "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat tədbir görüləcəyini bildirmişdir. Saat 21 radələrində Ermənistan silahlı qüvvələrinin Tərtər rayonunu müxtəlif istiqamətlərdən intensiv atəşə tutması nəticəsində rayonun Qaynaq kənd sakini həlak olmuş, həmin kəndin digər sakini və Köçərli kənd sakini müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Həmçinin həmin radələrdə Ermənistan silahlı qüvvələri regionun ən böyük strateji layihəsi, Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tbilisi-Ceyhan neft kəmərini hədəfə almaqla kəmərin Yevlax rayon ərazisindən keçən hissəsinə raket zərbələri endirsə də, Azərbaycan Ordusunun qətiyyətli tədbirləri nəticəsində həmin terror cəhdinin qarşısı alınmışdır. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, gün ərzində düşmənə endirilən artilleriya zərbələri nəticəsində 5-ci alayın müdafiə sahəsində komanda müşahidə məntəqəsi sıradan çıxarılmışdır. Artilleriya zərbəsi ilə düşmənin müdafiə sahəsində 1 ədəd tankı və 3 topu məhv edilmişdir.

***07 oktyabr 2020-ci il***

Azərbaycan Müdafiə Nazirliyi gecə boyu cəbhənin bütün istiqamətlərində şiddətli döyüşlərin getdiyini açıqlamışdır. Saat 10 radələrində Azərbaycan tərəfinin verdiyi məlumata görə, Azərbaycan Ordusu Cəbrayıl rayonu istiqamətində tam üstünlüyü ələ keçirtmişdir. Həmçinin işğaldan azad olunmuş Şükürbəyli kəndindən yeni videogörüntülər yayımlanmışdır. Saat 10:20 radələrində Ermənistan silahlı qüvvələri Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndlərini atəşə tutmuşdur. Saat 12 radələrində Azərbaycan Müdafiə Nazirliyi düşmən texnikalarının məhv edilməsinin növbəti videogörüntüsünü yayımlamışdır. Günorta saatlarında Azərbaycan Müdafiə Nazirliyi cəbhənin müxtəlif istiqamətlərində düşmənin dayaq nöqtələrinin ələ keçirildiyini açıqlamışdır. Ermənistan silahlı qüvvələrinin mülki əhalini hədəfə

almaqla ağır artilleriyadan Ağdam rayonunu müxtəlif istiqamətlərdən atəşə tutması nəticəsində rayonun Xındırıstan kəndi ərazisində yaşadığı evə mərmi düşməsi nəticəsində kənd sakini həlak olmuş, eyni zamanda evə külli miqdarda ziyan dəymişdir. Saat 15 radələrində Ermənistan silahlı qüvvələri Tərtər və Füzuli rayonlarının yaşayış məntəqələrini atəşə tutmuşdur.

Saat 10 radələrində Ermənistana məxsus pilotsuz uçuş aparatı Ermənistan-Azərbaycan dövlət sərhədinin Ağstafa rayonu sahəsində uçuş keçirməyə cəhd göstərərkən məhv edilmişdir. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Azərbaycan Ordusunun atəşi nəticəsində düşmənin 10-dək tankı, 6 ədəd D-20 topu, 1 ədəd "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilmişdir. Günorta saatlarında Ermənistan tərəfi Azərbaycan Ordusunun Xankəndi şəhərini bombardman etdiyini açıqlamışdır. Azərbaycan xüsusi xidmət orqanlarına yaxın mənbələr Xankəndidə dinc sakinlərin qalmadığını bildirib. Dağlıq Qarabağdan minlərlə qaçqın Ermənistana axışıb. Onların yolunda ilk yaşayış məntəqəsi sərhədyanı erməni şəhəri Gorusdur. Qarabağdan çıxan qaçqınları Gorus meriyasına gətirirlər, oradan onları ya qohumları götürür, ya da mehmanxanalara paylayırlar. Oktyabrın 7-dən Dağlıq Qarabağın paytaxtında erməni hərbçiləri formasında rusdilli insanlara rast gəlinməyə başlayıb.

***08 oktyabr 2020-ci il***

Ermənistan tərəfi gecə boyu şiddətli döyüşlərin getdiyini açıqlamışdır. Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutmuşdur. Saat 7 radələrində Ermənistan silahlı qüvvələri aydın görünən və fərqləndirilən obyektləri, o cümlədən mülki əhalini hədəfə almaqla Goranboy rayonunun Şahməmmədli kəndini ağır artileriyadan atəşə tutması nəticəsində kənd sakini yaşadığı evdə həlak olmuş, evə isə maddi ziyan dəymişdir. Azərbaycan



Respublikası Baş Prokurorluğundan verilən məlumata əsasən, saat 4 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə raket zərbələri endirilmişdir. Saat 8 radələrində Ermənistan silahlı qüvvələri Bərdə və Ağcabədi rayonlarının kəndlərini atəşə tutmuşdur. Səhər saatlarından başlayaraq düşmən ordusunun Goranboy rayonunu müxtəlif istiqamətlərdən atəşə tutması nəticəsində rayonun Aşağı Ağcakənd qəsəbəsi ərazisinə top mərmilərinin düşməsi səbəbindən orada yerləşən Xocalı Rayon Polis Şöbəsinin inzibati binasına, o cümlədən qəsəbə ərazisində çoxsaylı mülki infrastruktur obyektlərə və yaşayış evlərinə, Qaraçinar tam orta kənd məktəbinə külli miqdarda ziyan dəymişdir. Həmin radələrdə Ermənistan ordusunun Ağdam rayonunu müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutması nəticəsində rayonun Böyükbəyli kənd sakinləri avtomaşınla yol gedərkən Alıbəyli kəndi ərazisində mərmi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir.

Ermənistana məxsus pilotsuz uçuş aparatı Oğuz rayonunun Xaçmaz kəndi sahəsində uçuş keçirməyə cəhd göstərərkən məhv edilmişdir. Saat 11:30 radələrində Ermənistan silahlı qüvvələri Bərdə şəhərini atəşə tutmuşdur. Ermənistan mətbuatının verdiyi məlumata əsasən, Azərbaycan Ordusunun Qarabağın azadlığı uğrunda apardığı əks-hücum əməliyyatı nəticəsində seperatçıların liderlərindən biri olan Yervand Qaciyan məhv edilmişdir. Saat 12:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi gecə döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissəsinin qərargahı, infrastrukturu və silah-sursat anbarlarına endirilən artilleriya zərbələrinin videogörüntüsünü yayımlamışdır. Azərbaycan Ordusu tərəfindən Ermənistanın milli qəhrəmanı Vartan Markaryanın adını daşıyan Ermənistan ordusunun 8-ci əlahiddə motoatıcı briqadasının döyüş bayrağı ələ keçirilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğundan verilən məlumata əsasən, saat 11 radələrində Bərdə şəhərinin mərkəzində yerləşən "Qədim Bərdə" restoranına raketin düşməsi nəticəsində həmin vaxt orada olan 2 nəfər şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləş-

dirilmiş, eyni zamanda Bərdə şəhər 5 nömrəli tam orta məktəbin yaxınlığına düşmüş raketlər 5 nəfər şəxsin yaralanmasına səbəb olmuş, o cümlədən məktəbin binasına, çoxsaylı nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Həmçinin bildirilib ki, Ermənistan silahlı qüvvələri Bərdə rayonu ərazisinə "Toçka-U" taktiki raket kompleksindən atəş açmışdır. Günorta saatlarında Hikmət Hacıyev erməni silahlı qüvvələrinin Gəncə, Bərdə, Tərtər və digər şəhərlərə Smerç reaktiv yaylım atəş sistemi vasitəsilə raket zərbələri endirdiyini açıqlamışdır. Azərbaycan Ordusunun Şuşa şəhərini bombalaması nəticəsində şəhərin simvolu sayılan Qazançetsots kafedralının günbəzinə ciddi ziyan dəymişdir. Azərbaycan Müdafiə Nazirliyi isə kilsənin zərər çəkməsinin Azərbaycan Ordusunun döyüş fəaliyyəti ilə heç bir əlaqəsi olmadığını açıqlamışdır. Gündüz saatlarında yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikası və hərbi kolonu artilleriya atəşi ilə məhv edilmişdir. Saat 19 radələrində Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutmuşdur. Saat 8 radələrində Azərbaycan Müdafiə Nazirliyi düşmənin zirehli texnikasının məhv edildiyi videogörüntüləri yayımlamışdır.

***09 oktyabr 2020-ci il***

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, gecə ərzində gərgin döyüşlər ordumuzun üstünlüyü ilə davam etmişdir. Həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılmışdır. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanmış, alayın artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilmişdir. Dünən gün ərzində və gecə ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli



sayda avtomobil texnikası dəqiq atəşlə məhv edilmiş və sıradan çıxarılmışdır. Cəbhənin istiqamətlərindən birində həyata keçirilən əməliyyat nəticəsində Ermənistan Silahlı Qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilmişdir. Azərbaycan Müdafiə Nazirliyi səhər saatlarında Cəbrayıl rayonuna Azərbaycan bayrağının sancıldığını əks etdirən videogörüntülər yayımlamışdır.

Saat 9 radələrində Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunu müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutması nəticəsində rayonun Qarabağ kənd sakinləri yaşadıqları evlərə mərmi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, o cümlədən onların yaşadıqları evlərə külli miqdarda ziyan dəymişdir. Saat 11 radələrində Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə tutmuşdur. Saat 14 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ordumuzun mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun xeyli sayda hərbi texnikasını məhv etdiyini özündə əks etdirən videogörüntüləri yayımlamışdır. Həmin radələrdə Ermənistan silahlı qüvvələri Bərdə və Ağdam rayonlarının ərazilərini intensiv atəşə tutmuşdur. Həmçinin düşmən Mingəçevir və Ağcabədi rayonlarının ərazilərinə artilleriya zərbələri endirmişdir. Azərbaycan Ordusunun bölmələrinin keçirdiyi döyüş əməliyyatları nəticəsində Ermənistan ordusunun xeyli sayda BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilmişdir. Saat 16:30 radələrində Ermənistan ərazisindən Mingəçevir istiqamətdə atılan ballistik hədəf Azərbaycan HHM sistemləri tərəfindən aşkar edilərək 20 kilometrdən artıq hündürlükdə məhv edilmişdir. Ermənistan tərəfi Azərbaycan Ordusunun Xankəndi şəhərini yenidən bombardman etdiyini açıqlamışdır. Hikmət Hacıyev bildirmişdir ki, bu günlərdə Ermənistan tərəfindən Beyləqan şəhərində məscidə, Gəncə şəhərində İmamzadə kompleksinə raket atılmışdır. Prezident İlham Əliyev xalqa müraciətində Xocavənd rayonunun Sor kəndi və Hadrut qəsəbəsinin, Tərtər rayonunun Çaylı kəndi, Cəbrayıl rayonunun Qışlaq, Qaracallı, Əfəndilər,

Süleymanlı, Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır. 27 sentyabr tarixindən bu günə qədər Ermənistan ordusuna məxsus 16 komanda məntəqəsi, 196 tank, 38 BM-21 "Qrad", 1 "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu – onlardan 8-i 2S3 "Akasiya", 2-si "Qvozdika", 36 PDM, 24 artilleriya batareyası, 2 "REM" və ya hava hücumundan müdafiə vasitəsi, 2 ədəd S-300 kompleksinin buraxıcı qurğusu, 25 "Osa" zenit-raket kompeksi, 2 "Kub" zenit-raket kompleksi, 4 "Repelent" radio-texniki manea vasitəsi, 136 top, 56 minaatan, 1 ədəd "TOS 1a" odsaçan sursatı, 2 ədəd radiolokasiya stansiyası, 1 "Kolçuqa" anteni məhv edilmişdir. Həmçinin 18 tank, 4 top, 22 PDM, 12 minaatan, 4 "UAZ" maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 "Zil" maşını, 9 "QAZ" maşını hərbi qənimət kimi ələ keçirilmişdir. Saat 18 radələrində Goranboy rayonunun Tap Qaraqoyunlu kəndinə Ermənistan silahlı qüvvələri tərəfindən 22 top mərmisinin atılması nəticəsində həmin kənd sakini müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Bundan başqa, Tərtər rayonunun inzibati mərkəzinin də eyni zamanda top atəşinə tutulması nəticəsində rayon sakini müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Axşam saatlarında düşmənin atəş mövqeyinə çıxardığı zirehli texnikalar Azərbaycan Ordusu tərəfindən məhv edilmişdir. Həmçinin Azərbaycan Müdafiə Nazirliyi işğaldan azad olunmuş Suqovuşan və Talış kəndlərindən yeni videogörüntülər yayımlamışdır. Saat 14 radələrində Ermənistan silahlı qüvvələrinin Ağdam rayonunun Quzanlı qəsəbəsini müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutması nəticəsində qəsəbə sakinləri mərmi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər.

***10 oktyabr 2020-ci il***

10 oktyabr gecə saatlarında, Rusiya Xarici İşlər Naziri Sergey Lavrov, Azərbaycan və Ermənistanın Moskvada baş tutan 10 saatlıq danışıqlardan sonra iki ölkənin Dağlıq Qarabağda atəşkəs barədə razılığa gəldiklərini və tərəflərin bundan sonra "maddi" danışıqlara başlayacaqlarını bildirdi. Saat 08:00-dan etibarən isə hərbi əməliyyatlar dayandırılacaq, əsir və ölülərin mübadiləsi təmin ediləcək. Azərbaycan Müdafiə Nazirliyi gecə boyu cəbhənin bütün istiqamətlərində şiddətli döyüşlərin getdiyini açıqlamışdır. Ermənistan tərəfi də vəziyyətin gərgin olaraq qaldığını bildirmişdir. Səhər saatlarınadək Azərbaycan Ordusunun davam etdirdiyi hücum əməliyyatı nəticəsində bu müddətdə düşmənin xeyli sayda canlı qüvvəsi, 13 ədəd tankı, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd (D-20, D-30) topu, 3 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 "Zastava" zenit qurğusu, 2 radiolokasiya stansiyaları və radioelektron mübarizə vasitələri dəqiq atəşlə məhv edilmiş və sıradan çıxarılmışdır.

Saat 9:30 radələrində Ermənistan ordusu Xocalı istiqamətindən Hadrutu yaylım atəşli reaktiv sistemlərdən intensiv atəşə tutmuşdur. Ermənistan tərəfi isə bu məlumatın yalan olduğunu bildirmişdir. Saat 10 radələrində Ermənistan tərəfi Azərbaycanı "hərbi əməliyyatlar dayandırılana qədər vəziyyəti dəyişdirmək" cəhdində günahlandıraraq, Xankəndi şəhərində həyəcan siqnalının verildiyini açıqlamışdır. Saat 10:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi düşmənin daha bir zirehli tank bölməsinin darmadağın edildiyini göstərən videogörüntülər yayımlamışdır. Həmin radələrdə Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcəbədi və Füzuli rayonlarının yaşayış məntəqələrini intensiv atəşə məruz qoymuşdur. Ermənistan tərəfi isə bu məlumatın yalan olduğunu bildirmişdir. Həmçinin Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə məxsus S-300 zenit raket sistemini məhv etmişdir. Ermənistan ordusunun bütün havadan müdafiə sistemini yönəldən, Xocalıda yerləşən ən bahalı 19J6 (ST-68U) radilokasiya stansiyası məhv edilmişdir.

Saat 12 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun növbəti artilleriya qurğularının məhv edildiyini göstərən videogörüntülər yayımlamışdır. Saat 12:30 radələrində Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının ərazisini

atəşə tutmuşdur. Saat 12:00-da atəşkəs elan olunması barədə razılıq əldə edilməsinə baxmayaraq, Ermənistan ordusu cəbhənin Ağdərə-Tərtər və Füzuli-Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərmişdir. Ermənistan tərəfi Azərbaycan Ordusunun Kaşataq mərzinin Birinci Alıbəyli kəndini və Sünik mərzinin Artsvanik kəndini bombardman etdiyini açıqlamışdır. Hər iki tərəf saat 12:00-dən etibarən bir-birini atəşkəsi pozmaqda ittiham etmişdir. Saat 13:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi atəşkəs rejimini pozan düşmənin zirehli texnikasının məhv edildiyini göstərən videogörüntülər yayımlamışdır. Saat 18:30 radələrində atəşkəs rejimini pozmaq məqsədi ilə düşmənin atəş nöqtələrinə çıxarılan ağır artilleriyası Azərbaycan Ordusu tərəfindən dəqiq zərbələrlə məhv edilmişdir. Hikmət Hacıyev özünün "Twitter" səhifəsində Ermənistan ordusunun Füzuli və Goranboy rayonlarının kəndlərini raket hücumuna məruz qoyduğunu açıqlamışdır. Saat 19 radələrində Azərbaycan Müdafiə Nazirliyi düşmənin döyüşə hazır vəziyyətə gətirilən zenit-raket komplekslərinin məhv edildiyini göstərən videogörüntülər yayımlamışdır. Ermənistan ordusu günorta saatlarında atəşkəs rejimini pozaraq, Tuğ kəndi istiqamətindən Hadrut istiqamətində, Aragül və Banazur istiqamətlərindən isə Cəbrayıl istiqamətində hücum etməyə cəhd göstərmişdir. Cəhdlərin qarşısı alınarkən baş vermiş döyüş toqquşması nəticədə düşmənin 38 nəfər canlı qüvvəsi, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 7 ədəd topu və sursatla dolu 2 yük maşını məhv edilmişdir. Saat 20 radələrində atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri Ağdam rayonu ərazisini atəşə tutmuşdur. Həmin radələrdə Ermənistan ordusunun artilleriya batareyasının məhv edildiyini göstərən videogörüntülər yayımlanmışdır. Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri saat 22:30-dan başlayaraq Tərtər şəhərini artilleriya atəşinə tutmuşdur. Ermənistan tərəfi isə Azərbaycan Ordusunun yenidən Xankəndi şəhərini bombardman etdiyini açıqlamışdır. Azərbaycan tərəfi isə bu məlumatı təkzib etmişdir.





Saat 02:00 radələrində Gəncə şəhərinin mərkəzində bir yaşayış binası raket atəşinə məruz qalmışdır. Nəticədə Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, düşmənin Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binasını raket atəşinə tutması nəticəsində 5 nəfər həlak olmuş, 28 nəfər yaralanmış, çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəymişdir. Saat 4 radələrində Ermənistan ordusunun Mingəçevir su-elektrik stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləşən, Mingəçevir şəhərinə raket atmışdır. Raketlər Azərbaycan Ordusunun hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilmişdir. Gecə ərzində Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 5 ədəd T-72 tankı, 6 ədəd haubitsa, 5 ədəd sursatla dolu yük maşını, 11 ədəd digər avtomobil texnikası, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 5 ədəd 2S1 "Qvozdika" özüyeriyən haubitsası, 8 ədəd hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası məhv edilmiş və sıradan çıxarılmışdır. Məlumata əsasən canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 1-ci motoatıcı alayın komandirinin müavini polkovnik-leytenant Artak Vanyan da var. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Ermənistan Silahlı Qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə canlı qüvvə və döyüş texnikasını cəmləşdirərək yenidən kiçik qruplarla cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərmişdir. Hikmət Hacıyev özünün "Twitter" səhifəsində Gəncə şəhərində 3 yaşayış binasının dağıdılması nəticəsində qadınlar da daxil olmaqla 7-dən çox mülki şəxsin öldürüldüyünü, uşaqlar da daxil olmaqla 33 mülki şəxsin ağır yaralandığını açıqlamışdır. Səhər saat 08:00 radələrində Mingəçevir istiqamətində uçuşlar həyata keçirməyə cəhd edən Ermənistana məxsus pilotsuz uçuş aparatı Azərbaycan Ordusunun Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir. Xarici İşlər Nazirliyi-

nin verdiyi məlumata əsasən, Suqovuşan ərazisində erməni əsgərlərinin cəsədlərini yığan və üzərinə aydın şəkildə ağ bayraq sancılan sanitar maşının Ermənistan Silahlı Qüvvələri tərəfindən atəşə tutulması nəticəsində bir tibbi xidmət qulluqçusu ağır yaralanmışdır. Saat 13 radələrində Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 4 qadın olmaqla 9 nəfər həlak olmuşdur.

***Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Gəncə şəhərinə raket hücumunun Ermənistanın Basarkeçər rayonundan həyata keçirildiyini bildirmişdir.*** Azərbaycan Hərbi Hava Qüvvələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci əlahiddə artilleriya alayı bölmələrinə havadan endirilən zərbələr nəticəsində düşmən ağır itkilər verərək döyüş meydanınından qaçmağa məcbur edilmişdir. Saat 16:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan yenicə azad olunan Daşkəsən kəndinin videogörüntüsünü yayımlamışdır. Saat 17:30 radələrində Ermənistan silahlı qüvvələri Ağdam, Tərtər, Ağcabədi və Füzuli rayonlarının kəndlərini atəşə tutmuşdur. Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun "Kub" zenit-raket kompleksinin məhv edildiyini göstərən videogörüntü yayımlamışdır. Saat 17 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Ağcabədi rayonunun Haramı düzü adlanan ərazisi və Yuxarı Qiyaməddinli kəndi ağır artilleriyadan intensiv atəşə tutulmuş, top mərmilərinin partlaması nəticəsində mülki infrastruktura ciddi ziyan dəymişdir.

***12 oktyabr 2020-ci il***

Səhər saatlarında Ağdam rayonu ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. Gecə boyu həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd T-72 tankı, bir neçə avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Qırmızı Bazar məntəqəsi istiqamətinə endirilən artilleriya zərbəsi nəticəsində 1-ci alayın daimi dislokasiya məntəqəsində yeraltı sığınacaq və düşmənin geri çəkilən bölməsinin 2 texnikası məhv edilmişdir. Məlumata əsasən, canlı qüvvə sarıdan xeyli itki verən Ermənistan ordusunda ölənlər arasında 246-cı alayın tabor komandiri polkovnik-leytenant Artur Qriqoryan da var. Saat 10 radələrində Goranboy, Tərtər və Ağdam rayonlarının ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. Nəticədə Tərtər rayon Kəngərli kəndində top mərmilərinin partlaması nəticəsində mülki şəxslər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir.

12 oktyabr tarixinə keçən gecə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin 2 PUA-sı, bu gün saat 10:00 radələrində isə Ağdam rayonu istiqamətində 1 PUA-sı hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilmişdir. Azərbaycanın ikinci ən böyük şəhəri Gəncədə yaşayış binasına Ermənistan silahlı qüvvələri tərəfindən törədilən raket hücumu "Elbrus" ballistik raketi (SCUD) ilə həyata keçirilmişdir. Raketin üzərində onun növünü müəyyənləşdirməyə imkan verən "8K14" yazısı aşkarlanmışdır.

***13 oktyabr 2020-ci il***

Saat 8 radələrində Ermənistan silahlı qüvvələri Tərtər rayonunun ərazisini atəşə tutmuşdur. Həmçinin humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistən silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə məruz qoymuşdur. Saat 09:30 radələrində Ermənistan silahlı qüvvələri Ağcabədi rayonunun ərazisini atəşə tutmuşdur. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Tor-M2KM" ZRK, 1 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır.

Döyüş əməliyyatları zamanı Ermənistan Silahlı Qüvvələrinin

5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti məhv edilmiş, 1-ci motoatıcı alayın bir bölüyə qədər canlı qüvvəsi pusquya salınmış, hərəkətdə olan avtomobil texnikası sıradan çıxarılmışdır. Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Sisian yaşayış məntəqəsi istiqamətindən işğal olunmuş ərazilərə doğru hərəkət edən könüllülərdən ibarət bir qrup atəş zərbəsi ilə məhv edilmişdir. Döyüş əməliyyatları zamanı tanınmış erməni terrorçu, "Körpə" ləqəbli Mqer Arutyunyan da zərərsizləşdirilmişdir. Azərbaycan Müdafiə Nazirliyi işğaldan azad olunan Hadrut qəsəbəsinin görüntüsünü yayımlamışdır.

***14 oktyabr 2020-ci il***

Saat 03: 23-də Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan Silahlı Qüvvələrinin Kəlbəcər rayonu ilə sərhəd zonasında yerləşdirilmiş Ermənistanın bir neçə ballistik raket kompleksini məhv etdiyini bildirdi. Müdafiə Nazirliyinin məlumatına görə, raket sistemləri Gəncə, Mingəçevir və Azərbaycanın digər şəhərlərindəki mülki əhaliyə və infrastruktura yönəlmişdi. Həmçinin həmin gün Tərtərin Şıxarx qəsəbəsində olan "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin cəbhəboyu zonaya ezam olunmuş əməkdaşlarının olduğu avtomobilin yaxınlığına Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşi açılmışdır, televiziyanın avtomobili tamamilə yararsız hala düşməyi ilə yanaşı sürücü bədənin müxtəlif nahiyələrindən yüngül qəlpə yaraları almışdır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Füzuli rayonunun Qaradağlı, Xatınbulaq, Qarakollu və Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Qırmızıqaya, Təkə, Tağaser kəndlərinin Azərbaycan qoşunları tərəfindən azad olunduğunu elan etdi.



***15 oktyabr 2020-ci il***

Ermənistan silahlı qüvvələrinin Tərtər şəhər qəbiristanlığına ağır artilleriyadan intensiv atəş açması nəticəsində 4 mülki şəxs həlak olmuş, 4 nəfər isə ağır yaralanmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Ciraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" başlıqlı paylaşım edib.

***16 oktyabr 2020-ci il***

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata görə, səhər saatlarında Ermənistan silahlı qüvvələri Azərbaycanın Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarınının ərazilərini intensiv atəşə məruz qoymuşdur. Atəş günortadan sonra da davam etmişdir. Müdafiə Nazirliyi həmçinin bir gün əvvəl Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal olunan Qubadlı rayonu ərazisindən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisinə raket zərbəsi endirildiyini, lakin xoşbəxtlikdən sakinlərə və mülki obyektlərə zərər dəymədiyini bildirir. 16 oktyabr tarixində Azərbaycan Silahlı Qüvvələri Xocavənd rayonunun Ağbulaq, Axullu və Xırmancıq kəndlərini işğaldan azad etmişdir. 27 il dən sonra azad edilmiş Cəbrayıl rayonunun Çaxırlı və Mahmudlu sərhəd zastavalarında Dövlət Sərhəd Xidmətinin Qoşunları tərəfindən xidməti-döyüş fəaliyyətinə başlanılıb. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 "Qrad" YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 Şilka özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 ədəd avtomobil texnikası məhv edilib və ya sıradan çıxarılıb. Azərbaycan Müdafiə Nazirliyinin saat 20:03 olan məlumatına görə Ermənistanın silahlı qüvvələri Gəncə şəhərini növbəti dəfə atəşə məruz qoyub.

*17 oktyabr 2020-ci il*

Oktyabrın 16-dan 17-nə keçən gecə Gəncənin yaşayış sahələri yenidən iki dəfə raket hücumuna məruz qalıb. Jurnalistlərin verdiyi məlumata görə, şəhərdə üç güclü partlayış eşidilib. Ermənistan ordusu saat 01 radələrində növbəti dəfə Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Mingəçevir Su Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləşən, iri sənaye şəhəri Mingəçevirə raketlər atmışdır. Lakin raketlər Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən havadaca zərərsizləşdirilmişdir. Azərbaycan tərəfi atəşin Ermənistan ərazisindən həyata keçirildiyini bildirir. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin sözlərinə görə, Gəncə şəhərinin atəşə tutulması zamanı 20 ev dağıdılmış, 12 mülki şəxs (o cümlədən 2 uşaq) ölmüş və 40-dan çox dinc sakin yaralanmışdır. Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi Agentliyinin verdiyi məlumata görə, raketin düşdüyü yerdən tapılan hissələr onun "Elbrus" əməliyyat-taktiki raket sisteminin ballistik raketlərinin olduğunu göstərir. Fövqəladə Hallar Nazirliyinin yaydığı məlumata görə, bu vaxta qədər dağıntılar altından 52 nəfər xəsarət almış və 13 nəfərin cəsədi çıxarılmışdır. Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri səhər saatlarından başlayaraq Tərtər, Ağdam, Bərdə və Ağcabədi rayonlarının ərazilərini atəşə tutmuşdur.

***Prezident İlham Əliyev xalqa müraciətində Füzuli rayonunun Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhərinin işğaldan tam azad edildiyini açıqlamışdır.*** Əməliyyatlar nəticəsində Ermənistan ordusunun mühəndis xidməti rəisi polkovnik Aşot Qazaryan məhv edilmişdir. 16 oktyabr tarixində gün ərzində və 17 oktyabr tarixinə keçən gecə Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi vəzifəli döyüş mövqelərini özbaşına tərk edərək geri çəkilmişdir. Azərbaycan Ordusu tərəfindən sutka ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. 27 sentyabr tarixindən bu günə qədər Ermənistan ordusuna məxsus 234 tank, 49 ədəd piyadanın döyüş maşını, 16 ədəd özüyeriyən artilleriya qurğusu, 190 ədəd müxtəlif çaplı toplar, 2 ədəd "Uraqan" sistemi, 1 ədəd "TOS 1a" odsaçan sursatı, 2 ədəd "Elbrus" əməliyyat-taktiki raket kompeksi, 1 ədəd "Toçka-U", 2 ədəd "S-300" kompleksi, 35 ədəd "Osa" zenit raket kompeksi, 3 ədəd "Tor" zenit-raket kompleksi, 5 ədəd "Kruq" və "Kub" zenit raket kompleksləri, 9 ədəd radioelektron mübarizə sistemləri, 196 ədəd yük avtobili məhv edilmişdir. 36 tank, 24 ədəd piyadanın döyüş maşını, 98 ədəd yük avtomobili isə qənimət kimi ələ keçirilmişdir. Saat 12 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun S-300 zenit-raket kompleksinin məhv edildiyini göstərən videogörüntü yayımlamışdır.

Saat 11:11 radələrində Cəbrayıl rayonu istiqamətində Azərbaycan Ordusu mövqelərinə hava zərbələri endirməyə cəhd edən Ermənistana məxsus 1 ədəd Su-25 təyyarəsi Hava Hücumundan Müdafiə bölmələrinin dəqiq atəşi ilə məhv edilmişdir. Ermənistan tərəfi bunu inkar edib. Gündüz saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki Azərbaycan Ordusu mövqeləri üzərində uçuşlar keçirməyə cəhd göstərərkən Hava Hücumundan Müdafiə bölmələri tərəfindən dərhal aşkar olunaraq məhv edilmişdir. Saat 16 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun yanacaq-sürtkü materialları və döyüş sursatı anbarlarının aviasiya zərbələri ilə darmadağın edildiyini göstərən videogörüntü yayımlamışdır. Həmin radələrdə Ermənistan silahlı birləşmələri tərəfindən Ağcabədi rayonunun müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulması nəticəsində Arazbar kəndinin 1 sakini yaralanmışdır.[462]




Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı son iki gündə dəqiq zərbə ilə Ermənistan silahlı qüvvələrinə məxsus 3 ədəd "Tor-M2KM" zenit-raket kompleksi məhv edilmişdir. Cəbhənin Ağdərə-Ağdam istiqamətində gedən döyüşlər zamanı Azərbaycan Ordusunun mövqelərini atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilmişdir. Saat 19:40 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin "S-125" zenit-raket kompleksi sıradan çıxarıldığı açıqlamışdır. Ermənistan ordusunun "Qara Qaplan" könüllü dəstəsinin komandiri Rüstəm Qasparyan ağır qəlpə yarası aldıqdan sonra Xankəndi şəhərindən İrəvana aparılsa da, bu gün müalicə aldığı xəstəxanada ölmüşdür. Saat 21 radələrində Ermənistan silahlı birləşmələri tərəfindən Ağdam rayonunun müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulması səbəbindən Mahrızlı kənd sakini yaşadığı evin



həyatına top mərmisinin düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri almış, yaşayış evinə isə külli miqdarda ziyan dəymişdir. Azərbaycan Respublikası və Ermənistan Respublikası 18 oktyabr, yerli vaxtla saat 00.00 dan etibarən müvəqqəti humanitar atəşkəsə razılıq veriblər.

***18 oktyabr 2020-ci il***

Saat 7 radələrində Ermənistan silahlı qüvvələri növbəti dəfə humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq Cəbrayıl şəhərinin ətraf ərazilərini, eləcə də bu rayonun Araz çayı boyu yerləşən və işğaldan azad olunmuş kəndlərini gecə ərzində minaatan və artilleriya qurğularından atəşə tutmuşdur. Azərbaycan Ordusu tərəfindən dünən gün ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd S-300 zenit-raket kompleksinin rakettuşlama stansiyası, 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 2 ədəd "Smerç", 1 ədəd D-20 topu və 1 ədəd KS-19 zenit topları, 6 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Ermənistan silahlı qüvvələri saat 07:00-dan başlayaraq cəbhənin Ağdərə, Füzuli, Hadrut və Cəbrayıl istiqamətlərində düşmən hücuma keçməyə cəhd göstərmişdir. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, saat 00:05-dən 04:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonu istiqamətindən Gədəbəy rayonu, Berd rayonu istiqamətindən isə Tovuz rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini iriçaplı silahlardan atəşə tutmuşdur.

Saat 12 radələrində Azərbaycan Ordusunun Füzuli istiqamətində uğurlu döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilmişdir. Saat 12:30 radələrində cəbhənin Cəbrayıl istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin növbəti Su-25 hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir. Saat 14 radələrində Ağdam rayonu ərazisi Ermə-

nistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. Saat 13:00 radələrində Horadiz istiqamətində uçuşlar keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilmişdir.

Ermənistan silahlı qüvvələri tərəfindən Xızı rayonuna raket atılsa da, raket Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən zərərsizləşdirilmişdir. Azərbaycan Ordusu işğaldan azad edilmiş Cəbrayıl rayonunda yerləşən Xudafərin körpülərinə Azərbaycan bayrağı sancmışdır. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, ağır döyüşlərdə xeyli canlı qüvvə və döyüş texnikası itirən Ermənistan Silahlı Qüvvələrinin 527-ci motoatıcı alayının atıcı taboru praktiki olaraq iflic vəziyyətinə düşmüşdür.

***19 oktyabr 2020-ci il***

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Hasanlı, Alıkeyxalı, Qumlaq, Hacılı, Göyərçin Veysəlli, Niyazqulular, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Ermənistan Silahlı Qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən taborun komandiri şəxsi heyətlə birlikdə döyüş mövqelərini ataraq geri çəkilmişdir. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilmiş, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanmışdır. Həmçinin 5-ci dağatıcı alayın müdafiə sahəsindəki taborun şəxsi heyətinin bir qismi məhv edilmiş, digərləri isə döyüş mövqelərini özbaşına tərk edərək qaçmışdır. Ölənlər arasında tabor komandirinin müavini mayor Hayk Stepanyan da var. Ermənistan silahlı qüvvələri gecə ərzində Goranboy, Tərtər və Ağdam rayonlarının ərazisini minaatanlar və toplardan atəşə tutmuşdur.



Hikmət Hacıyev özünün "Twitter" səhifəsində Ermənistan ordusunun humanitar atəşkəsin birinci günü saat 12-dən etibarən 5 rayona toplamda 229 mərmi atdığını açıqlamışdır. Bunlardan 160-ı Tərtər, 63-ü Ağdam, 6-sı Goranboy ərazisinə düşmüşdür. Həmçinin düşmən tərəf 1-i Xızı rayonu, 2-si Ağcabədi rayonunun Poladlı kəndinə olmaqla, 3 raket hücumu həyata keçirmişdir. Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq Tərtəri atəşə tutmağa davam etməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri almış, yaşayış evinə isə külli miqdarda ziyan dəymişdir. İşğalçı Ermənistanın Könüllülər Birliyinin sədri, parlamentin "Mənim Addımım" fraksiyasının deputatı Sasun Mikaelyan Qarabağda davam edən döyüşlər zamanı belindən və ayağından qəlpə yaraları almışdır. Saat 11:10-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini iriçaplı silahlardan atəşə tutmuşdur. Ermənistan silahlı qüvvələrinin bölmələri saat 12:00-dan başlayaraq işğal olunmuş Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini 82 və 120 millimetrlik minaatanlar və iriçaplı atıcı silahlardan atəşə məruz qoymuşdur.

Ermənistan silahlı qüvvələri hərbi əməliyyatlar aparılan ərazidən təxminən 300 kilometrdən artıq məsafədə yerləşən Xızı rayonu istiqamətində raket zərbələri endirməyə cəhd göstərərkən Azərbaycan Ordusunun hava hücumundan müdafiə qüvvələri tərəfindən havada zərərsizləşdirilməsi nəticəsində raketin içərisində olan partlayıcı hissəciklərin bir hissəsi Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığında strateji əhəmiyyətli Bakı-Novorossiysk neft kəmərinin Xızı rayonunun Sitalçay kəndindən keçən hissəsindən 250 metr məsafəyə səpələnmişdir. Ermənistan tərəfi isə bu məlumatı təkzib etmişdir. Saat 15 radələrində düşmən tərəfin silahlı birləş-

mələrinin Ağdam rayonunu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutması nəticəsində rayonun Bənövşələr qəsəbəsinə top mərmisi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alan mülki şəxslər xəstəxanaya yerləşdirilmişdir. Bundan başqa, rayonun Paşabəyli kəndi ərazisinə top mərmisi düşməsi nəticəsində kənd sakini müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Saat 17 radələrində Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının yaşayış məntəqələrini artilleriya atəşinə tutmuşdur.

*20 oktyabr 2020-ci il*

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata görə Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində Ermənistan silahlı birləşmələri Azərbaycan Ordusunun mövqelərini atıcı silahlar, minaatanlar və toplardan atəşə tutmuşdur. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Füzuli rayonu istiqamətində əks-hücuma keçən Ermənistan Ordusunun bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində məhv edilmişdir. Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan Silahlı Qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olmuşdur. 5-ci motoatıcı alayın müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. 18-ci motoatıcı diviziyasının müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət "Legion" dəstəsi və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina etmişdir. 246-cı alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Qazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilmişdir.






Saat 13 radələrində Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə tutmuşdur. Prezident İlham Əliyev xalqa müraciətində Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndlərini, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı kəndləri, Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Birinci Muğanlı və Zəngilan şəhərinin işğaldan tam azad edildiyini açıqlamışdır. 27 sentyabr tarixindən bu günə qədər Ermənistan ordusuna məxsus 241 tank, 50 ədəd piyadanın döyüş maşını, 17 ədəd özüyeriyən artilleriya qurğusu, 198 ədəd müxtəlif çaplı toplar, 58 minaatan, 2 ədəd "Uraqan" sistemi, 1 ədəd "TOS 1a"odsaçan sursatı, 53 ədəd tank əleyhinə raket sistemləri, 2 ədəd "Elbrus" əməliyyat-taktiki raket kompeksi, 1 ədəd "Toçka-U", 4

ədəd “S-300” kompleksi, 40 ədəd "Osa" zenit raket kompeksi, 3 ədəd “Tor” zenit-raket kompleksi, 5 ədəd “Kruq” və “Kub” zenit raket kompleksləri, 8 ədəd radioelektron mübarizə sistemləri, 198 ədəd yük avtobili məhv edilmişdir. 39 tank, 24 ədəd piyadanın döyüş maşını, 12 minaatan, 25 qumbaraatan, 102 ədəd yük avtomobili isə qənimət kimi ələ keçirilmişdir.

Saat 15 radələrində Ermənistan silahlı birləşmələrinin Tərtər rayonunu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutması nəticəsində rayonun Cəmilli kəndində fərdi yaşayış evinə top mərmisinin düşməsi nəticəsində kənd sakinləri həlak olmuş və müxtəlif dərəcəli bədən xəsarətləri almış, yaşayış evinə isə külli miqdarda ziyan dəymişdir. Saat 17 radələrində Ermənistan ordusu tərəfindən Goranboy və Tərtər rayonlarının ərazisi raket-artilleriya atəşinə tutulmuşdur. Axşam saatlarında Gəncə istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir. Həmçinin saat 19:30 radələrində Goranboy rayonunun Tap Qaraqoyunlu kəndi üzərində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir. ***Saat 16 radələrində işğaldan azad edilmiş Zəngilan şəhərində Azərbaycan bayrağının dalğalandığını göstərən videogörüntü yayımlanmışdır.*** Ermənistan tərəfi Azərbaycan Ordusunun Araz çayı boyunca geri çəkildiyini açıqlasa da, Azərbaycan tərəfi bu məlumatın yalan olduğunu bildirmişdir. Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində ordumuzun əks-hücum əməliyyatları nəticəsində Ermənistan Silahlı Qüvvələrinin daha iki polkovniki - hərbi hissə komandirinin müavini olan Aşot Kazaryan və qərargah rəisinin müavini Geqam Qabrielyan məhv edilmişdir. Saat 20 radələrində Azərbaycan Müdafiə Nazirliyi Qubadlı istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun artilleriya bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin bölmələrinin məhv edildiyini göstərən videogörüntü yayımlamışdır.



### *21 oktyabr 2020-ci il*

Gecə ərzində cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam etmişdir. Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək geri çəkilməyə məcbur edilmişdir. 5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirilmiş, çoxlu sayda silah və sursat qənimət götürülmüşdür. Alayın artilleriya rəisi, artilleriya divizion komandiri və 4-cü taborunun komandiri taborunun şəxsi heyəti ilə birlikdə məhv edilmişdir. 6-cı və 7-ci dağatıcı alayların müdafiə sahələrində düşmən bölmələrinin şəxsi heyəti arasında ölən və yaralananlar var. Məhv edilənlər arasında alay komandirinin müavini Vahan Sarkisyan da var. Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Tərtər şəhəri və rayonun ərazisini artilleriya qurğularından atəşə tutmuşdur. Cəbrayıl istiqamətində gedən döyüş zamanı Azərbaycan Ordusu tərəfindən görülən tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələrinin 556-cı alayının taboru məhv edilmişdir.

Azərbaycan Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan Çərəkən kəndinin yeni görüntülərini yayımlamışdır. Gün ərzində Ermənistan silahlı qüvvələrinə məxsus 6 taktiki pilotsuz uçuş aparatı Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilmişdir. Onlardan 2-si cəbhənin Füzuli istiqamətində, 1-i isə Tərtər istiqamətində vurulmuşdur. Ermənistan tərəfi Azərbaycan Ordusunun Ağdərə şəhərini bombardman etdiyini açıqlamışdır.

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri, Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qıraq Müşlan, Üdgün, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Turabad, Baharlı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

*22 oktyabr 2020-ci il*

Gecə ərzində cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam etmişdir. Ermənistan Silahlı Qüvvələrinin cəbhənin Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasının şəxsi heyəti arasında çoxlu sayda yaralanan var. Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayın müdafiə sahəsinə endirilən artilleriya zərbələri nəticəsində düşmən ölən və yaralanan olmaqla çoxlu sayda itki vermişdir. Alayın 3-cü taborunun komandiri Robert Hambartsumyan itkin düşmüş, taborun qərargah rəisi isə məhv edilmişdir. 543-cü alayın müdafiə sahəsinə vurulan atəş zərbələri nəticəsində şəxsi heyət arasında xeyli itki var. Alay komandiri yaralanmış, onun müavini, tabor komandiri Araik Hovakimyan, onun müavinləri, minaatan batareyası və bölüyünün komandirləri məhv edilmişdir. Saat 09:15-dən başlayaraq Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərdən Füzuli rayonu ərazisindəki mövqeləri reaktiv artilleriya sistemlərindən atəşə tutmuşdur. Səhər saatlarından başlayaraq Ermənistan ərazisindən Azərbaycan ərazisi əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutulmuşdur. Saat 07:00 radələrində Siyəzən rayonu istiqamətində 3 raket, saat 09:00 radələrində isə Qəbələ rayonu istiqamətində 2 raket və Kürdəmir rayonu istiqamətində 1 raket buraxılmışdır. Raket zərbələri nəticəsində Qəbələ rayon sakini müxtəlif dərəcəli bədən xəsarətləri almış, kənd ərazisində yerləşən 5 yaşayış evinə ciddi ziyan dəymişdir. Həmçinin Ermənistan silahlı qüvvələri Abşeron yarımadasını içməli su ilə təchiz edən və ölkə üçün xüsusi strateji əhəmiyyətə malik Oğuz-Qəbələ-Bakı su kəmərini hədəfə alaraq raket atmış, lakin Azərbaycan Ordusunun hava hücumundan müdafiə qüvvələrinin zərərsizləşdirməsi nəticəsində raketin hissələri su kəmərinin yaxınlığına düşmüşdür.



**Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Ağbənd qəsəbəsi, Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.**

*23 oktyabr 2020-ci il*

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin verdiyi məlumata görə oktyabrın 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam etmişdir.

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Xocavənd rayonunun Dolanlar, Bünyadlı; Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli; Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli və Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı, Alaqurşaq kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

*24 oktyabr 2020-ci il*

Azərbaycan Silahlı Qüvvələrinin məlumatına görə Ermənistanın Sünik mərzinin Gorus və Qafan çəhərlərinin inzibati ərazisindən, dövlət sərhədinə yaxın yerdə döyüş mövqeyi tutan düşmən raket və artilleriya qurğuları ilə Laçın və Qubadlı rayonları ərazilərini güclü atəşə tutur. Üstəlik günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Sünik-Zəngilan yolu istiqamətindən Azərbaycan Ordusuna hücum etməyə cəhd edib. Müdafiə Nazirliyinin digər məlumatında isə cəbhənin Qubadlı istiqamətində Ermənistan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarəsinin Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edildiyi qeyd edilir. Azərbaycan Müdafiə Nazirliyi cəbhənin Ağdərə və Ağdam bölgələrində Ermənistan Silahlı Qüvvələrinin hərbi infrastrukturuna Hava Qüvvələrindən istifadə etməklə hava zərbələri endirdiyini bildirir.

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Qubadlı rayonu istiqamətinə gətirilən Ermənistan Silahlı Qüvvələri 543-cü alayının 1-ci taborunun bölmələri canlı qüvvə və hərbi texnikada itkilər verərək geri çəkilib. Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 2 tank, 2 PDM, 4 D-30 haubitsa topu, 1 2A36 "Qiasint-B" topu, 7 ədəd avtomobil texnikası məhv edilib və ya sıradan çıxarılıb.




***Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının bəzi kəndlərinin, həmçinin Qubadlı şəhərinin işğaldan tam azad edildiyini açıqlamışdır.***





ABŞ Dövlət Departamenti məlumat yayaraq Dağlıq Qarabağda humanitar atəşkəs elan olunduğunu bəyan edir. Humanitar atəşkəs Bakı vaxtı ilə saat 08:00-da başlayır. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə Ermənistan Silahlı Qüvvələri bu elan edilmiş atəşkəs rejimini kobudcasına pozaraq Laçın rayonunun Səfiyan kəndində yerləşən Azərbaycan Ordusunun mövqelərini artilleriya atəşinə tutur. Üstəlik Tərtər şəhəri və onun kəndləri artilleriya atəşinə tutulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində Azərbaycan Ordusu tərəfindən dünən Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd; Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər; Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərinin və Qubadlı şəhərinin azad olunduğunu bəyan etmişdir.

*27 oktyabr 2020-ci il*

Yeni humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub. Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Hücum etmək cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturdulub. Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilmişdir. Ölənlər arasında diviziyanın qərargah rəisi polkovnik Sergey Şakaryan da var. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd T-72 tankı, 4 ədəd D-30 və 3 ədəd D-20 topu, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd radiolokasiya stansiyası və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Azərbaycan Müdafiə Nazirliyinin ölkənin xüsusi xidmət orqanları ilə birlikdə həyata keçirdiyi parlaq əməliyyat nəticəsində Qarabağdakı qondarma rejimin "müdafiə ordusunun komandanı" general Cəlal Arutyunyan məhv edilib. Belə ki, C.Arutyunyanın getdiyi UAZ avtomobili raket zərbəsindən sonra tamamilə yanaraq hərbi cani ilə birlikdə məhv olub. Zərbə nəticəsində daha iki erməni zabiti də məhv edilmişdir.

Günorta saatlarından başlayaraq düşmənin silahlı birləşmələri tərəfindən Goranboy və Bərdə rayonları müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub. Erməni silahlı qüvvələri tərəfindən saat 16:00 radələrində Bərdə rayonunun Qarayusifli kəndinin müxtəlif istiqamətlərdən "Smerç" raketindən atəşə tutulması nəticəsində dinc sakinlər həlak olub, 14 nəfər isə xəsarət alıb.

***28 oktyabr 2020-ci il***

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata görə döyüşlər cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı rayonları istiqamətlərində davam etmişdir. Düşmənin hücum cəhdlərinin qarşısı alınıb. Düşmən itki verərək geri çəkilib. Gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd "Osa" ZRK. 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 "Qiasint-B" topu. 1 ədəd 120-mm minaatanı, 1 ədəd "Konkurs" tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Saat 07:30 radələrində Ermənistan silahlı qüvvələri Tərtər rayonunun ərazisini artilleriya atəşinə tutmuşdur. Saat 07:35-dən 09:00-dək Ağcabədi rayonu ərazisi düşmən tərəfindən atəşə məruz qalmışdır.

Saat 10 radələrində Ermənistanın Berd, Çəmbərək, Vardenis və Gorus rayonları ərazisindən Azərbaycanın Tovuz, Gədəbəy, Daşkəsən və Qubadlı rayonlarının əraziləri Ermənistan ordusu tərəfindən atəşə tutulmuşdur. Saat 10:15-də Ermənistan ordusu "Smerç" yaylım atəşli reaktiv sistemindən Tərtər şəhərini və rayonunun ərazisini atəşə tutmuşdur. Günorta saatlarında Ermənistan tərəfi Azərbaycan Ordusunun Şuşa şəhərini bombardman etdiyini və Çanaqçı kəndi ətrafında döyüşlərin getdiyini açıqlamışdır. Azərbaycan Müdafiə Nazirliyi Ermənistan tərəfinin Şuşa və Xankəndi şəhərlərinin Azərbaycan Ordusu tərəfindən raket atəşinə tutulması barədə yaydıqları məlumatın yalan olduğunu açıqlamışdır.



Saat 13 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərinə qarşı yenidən "Smerç" raketlərindən istifadə edilərək zərbələr endirilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun yaydığı məlumata görə, hadisə nəticəsində 21 nəfər həlak olmuş, 70-dən artıq şəxs isə yaralanmış, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Mülki əhali arasında xidmət aparan Fövqəladə Hallar Nazirliyinin bir əməkdaşı raket atəşi nəticəsində həlak olmuş, bir əməkdaşı isə ağır yaralanmışdır. Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri saat 14:40-dan etibarən Goranboy və Tərtər rayonlarının ərazisini atəşə tutmuşdur. Azərbaycan Müdafiə Nazirliyi Ermənistan mətbuatının Azərbaycan Ordusu tərəfindən Xankəndidə yerləşən doğum evinin atəşə tutulması barədə yayılan xəbərin məqsədyönlü dezinformasiya olduğunu açıqlamışdır. Saat 15:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən Tərtər rayonunun ərazisini atəşə tutmuşdur.

Saat 16 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun ərazisini BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemlərdən və toplardan atəşə tutmuşdur.

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri, Füzuli rayonunun Mandılı kəndi, Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çüllü, Quşçular, Qaraağac kəndləri, Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qilican kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

*29 oktyabr 2020-ci il*

Gecə ərzində döyüş əməliyyatları cəbhənin əsasən Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam etmişdir. Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 14 ədəd müxtəlif tipli topu, bir neçə dayaq məntəqəsi və 6 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Həmçinin görülən cavab tədbirləri nəticəsində düşmənin 1-ci ümumqoşun ordu komandanının müavini polkovnik Artur Sarqisyan və 18-ci motoatıcı diviziyanın rabitə rəisi mayor Aram Qazaryan məhv edilmişdir. Bundan əlavə, 1-ci ümumqoşun ordunun artilleriya idarəsinin zabiti polkovnik-leytenant B.Aseryan, 2-ci motoatıcı alayın komandiri Hunan Hayrumyan yaralanmış və 5-ci dağatıcı alayın 3-cü taborunun komandir müavini Roman Tunyan isə itkin düşmüşdür.

Ermənistan silahlı qüvvələri saat 09:25 radələrində Goranboy və Tərtər rayonlarının ərazisini artilleriya atəşinə tutmuşdur. Azərbaycan Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Qiyaslı və Sarıyataq kəndlərinin videogörüntüsünü yayımlamışdır. Saat 12:30 radələrində Bərdə və Goranboy rayonlarının ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. Günorta saatlarında Azərbaycan tərəfi Qazax-Tovuz istiqamətində humanitar koridor açaraq 30-a yaxın hərbçinin meyitini və iki mülki şəxsi Ermənistana təhvil vermişdir. Həmçinin Ermənistan tərəfi Şuşa şəhərindən bir neçə kilometr cənubda yerləşən Çanaqçı kəndi ətrafında gərgin döyüşlərin getdiyini açıqlamışdır.

Saat 13:20 radələrində cəbhənin Qubadlı istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin iki "Su-25" hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir. Saat 15 radələrində Göygöl rayonunun ərazisi Ermənistan silahlı qüvvələrinin ağır artilleriya qurğularından atəşə məruz qalmışdır. Azərbaycan Müdafiə Nazirliyi Ermənistan mətbuatının Azərbaycan Ordusunun Ermənistan ərazisində İranla



həmsərhəd bölgələrdə yerləşən Rusiya sərhəd zastavasını minaatanlardan atəşə tutması ilə bağlı yaydığı məlumatın tamamilə dezinformasiya olduğunu və təxribat xarakteri daşıdığını açıqlamışdır. Saat 17 radələrində Ermənistan silahlı qüvvələrinin Goranboy rayonunu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutması nəticəsində rayonun Tap Qaraqoyunlu kəndində fərdi yaşayış evinə mərmi düşməsi nəticəsində evin sakini həlak olmuş, yaşayış evinə isə ciddi ziyan dəymişdir.

Saat 18 radələrində humanitar atəşkəs rejimini kobudcasına pozmağa davam edən Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Bərdə rayonlarının ərazisini artilleriya atəşinə tutmuşdur. 29 oktyabrda Azərbaycan Prezidenti "İşğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərman verir. Fərmana əsasən, bu ərazilərdə yerləşən hər bir bölgə üçün müvəqqəti komendant təyin edilir.

*30 oktyabr 2020-ci il*

Gecə ərzində döyüş əməliyyatları cəbhənin əsasən Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam etmişdir. Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd Su-25 təyyarəsi, 3 ədəd T-72 tankı, 1 ədəd PDM, 2 ədəd "Smerç" və 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemləri, 10 ədəd müxtəlif tipli topu, 2 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 1 ədəd "Osa" ZRK, 1 ədəd P-18 radiolokasiya stansiyası, 4 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında avtomobil kolonunun atəşə tutulması nəticəsində 1-ci ümumqoşun ordu komandanının silahlanma üzrə müavini polkovnik Viktor Arustamyan məhv edilmişdir.

Saat 07:35-dən başlayaraq Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisini artilleriya atəşinə tutmuşdur. Səhər saatlarında Göygöl rayonunun ərazisi Ermənistan silahlı qüvvələrinin ağır artilleriya qurğularından atəşə

məruz qalmışdır. Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri, Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

Saat 12 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonu tərəfdən Qubadlı rayonunun ərazisini artilleriya atəşinə tutmuşdur. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi məlumata görə, Ermənistan silahlı qüvvələrinin Ağcabədi və Göygöl rayonlarını mütəmadi artilleriya atəşinə tutması nəticəsində Ağgöl və Göygöl milli parklarının ərazilərinə bir neçə dəfə raket mərmiləri düşmüşdür.

***31 oktyabr 2020-ci il***

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə döyüş əməliyyatları cəbhənin əsasən Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam etmişdir. Digər məlumatda isə Tərtər şəhəri, rayonun Şıxarx qəsəbəsi, Əskipara kəndi, eləcə də Ağcabədi rayonunun Qiyaməddinli kəndi düşmən tərəfindən artilleriya atəşinə tutulması deyilir.

***01 noyabr 2020-ci il***

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, Zəngilan rayonunun sərhəd ərazisində Ermənistan Ordusuna məxsus 2 ədəd BM-21 "Qrad" qurğusu məhv edilmişdir. Üstəlik düşmənə məxsus iki artileriya bateriyası və çoxlu sayda canlı qüvvəsinin məhvedilmə kadrları nümayiş etdirilmişdir. Digər məlumatda isə oktyabrın 31-də saat 17:00 radələrində ərazinin havadan müşahidəsi zamanı cəbhənin Xocavənd istiqamətində hərbi avtomobil karvanının hərəkəti qeydə alındığı, istiqamətlənmiş və kombinəedilmiş havadan və artilleriyanın dəqiq atəş zərbələri ilə karvanın tərkibində olan bir neçə avtomobil, şəxsi heyət məhv edilmişdir.



***02 noyabr 2020-ci il***

**Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri, Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.** Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə cəbhənin müxtəlif istiqamətlərində Ermənistana Ordusuna məxsus 4 ədəd BM-21 "Qrad" qurğusu və Tərtərin Çardaqlı kəndi istiqamətində isə 1 ədəd "KUB" zenit-raket kompleksi məhv edilmişdir. Elə həmin gün Qondarma Dağlıq Qarabağ Respublikasının Müdafiə nazirinin və Ordu Komandanının müavini Artur Sarkisyanın ölməsi ilə bağlı məlumat yayılır.

***03 noyabr 2020-ci il***

Noyabrın 3-də Ermənistan silahlı qüvvələri cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətində hücuma keçməyə cəhd göstərib. Bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən hücumunun qarşısı alınıb, itkilərə məruz qalaraq geri çəkilməyə məcbur edilib.

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, Xankəndi yaxınlığında düşmənin iki sursat anbarı, Zəngilan istiqamətində isə kəşfiyyat-diversiya qrupu məhv edilib. Digər məlumatda Ermənistan silahlı qüvvələrinin Füzuli şəhərini və ətraf kəndlərini "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutduğu deyilir.

***04 noyabr 2020-ci il***

Azərbaycan Müdafiə Nazirliyi cəbhənin cənub və cənub-şərq hissələrində – Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edən döyüşlər barədə məlumat verir. Erməni tərəfi də öz növbəsində Şuşa, daha sonra Laçın yaxınlığındakı döyüşlər barədə məlumat verir. Qonadarma Dağlıq Qarabağ rəhbərliyi bu

istiqamətdə gedən döyüşlərin intensivliyi səbəbindən Ermənistandan Dağlıq Qarabağa gedən Şuşa-Laçın yolunun mülki vətəndaşlar üçün müvəqqəti bağlandığını elan edir.

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri, Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

***05 noyabr 2020-ci il***

Səhər saat 07:50-də Ağcabədi rayonunun Qiyaməddinli kəndinə düşmən tərəfindən 4 mərmi atılıb. Saat 14:40-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Səhlabad kəndini, eləcə də Ağdam rayonunun Hacıturallı və Əfətli kəndlərini artilleriya atəşinə tutub.

Düşmənə endirilən artilleriya zərbələri ilə Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dağıdılmışdır.

***06 noyabr 2020-ci il***

Səhər saat 05:00-dan Ermənistanın Berd, Cəmbərək və Basarkeçər rayonları istiqamətindən Azərbaycanın Tovuz, Gədəbəy və Daşkəsən rayonlarında yerləşən bölmələrimizin mövqeləri fasilələrlə atəşə tutulub.

Saat 08:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Qazyan və Hüsənli kəndlərini atəşə tutub. Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülüb.

Azərbaycan Ordusunun xüsusi təyinatlıları Şuşa şəhəri və ətraf ərazilərdə yerləşən düşmən bölmələrinə qarşı fəaliyyətlərini davam etdirir və şəhəri tamamilə düşməndən azad edilməsinə hazırlaşırdı.



***07 noyabr 2020-ci il***

Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qacar, Divanlılar, Qorqan, Üçüncü Mahmudlu, Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac, Xocavənd rayonunu Ataqut, Tsakuri, Xocalı rayonunun Moşxmaat, Qarabulaq, Qubadlı rayonununn Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilan rayonunun Beşdəli kəndi işğaldan azad edilib. Bunu Prezident İlham Əliyev öz "Twitter" səhifəsində paylaşıb.

***08 noyabr 2020-ci il***

***Azərbaycan Ordusunun keçirdiyi uğurlu əməliyyatlar nəticəsində Şuşa şəhəri işğaldan azad olunub. Bunu Prezident İlham Əliyev xalqa müraciətində paylaşıb.***

***09 noyabr 2020-ci il***

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilan rayonunun Keçikli, Ördəkli kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.




Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Xocavənd rayonunun Böyük Tağlar, Salakətin, Zoğalbulaq, Arakül, Tağaverd, Böyük Tağaverd, Zərdanaşen, Şexer, Xocalı rayonunun Şuşakənd, Muxtar, Daşaltı, Füzuli rayonunun Aşağı Güzdək, Govşatlı, Mirzəcamallı, Şəkərcik, Merdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilan rayonunun Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 m), Sığırt yüksəkliyini (1370 m), Şükürataz yüksəkliyini (2000 m) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayıl rayonunun Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlı rayonunun Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçın rayonunun Güləbird, Səfiyan, Türklər kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

***10 noyabr 2020-ci il***

10 noyabr 2020-ci il tarixində üç ölkənin (Azərbaycan, Rusiya Federasiyası və Ermənistan) dövlət başçıları tərəfindən bəyanat imzalanır. Bəyanatda 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı



ilə 00:00-dan etibarən tam bir atəşkəs və Dağlıq Qarabağ münaqişəsi bölgəsindəki bütün hərbi əməliyyatların dayandırılması elan edilir. Bu bəyanatın müddəalarına əsasən, Azərbaycan Ordusu bölgədə tam qalib elan edilir.




Dağlıq Qarabağ münaqişəsi zonasında tam atəşkəsdən və bütün hərbi əməliyyatlar dayandırıldıqdan sonra, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00-dan etibarən Azərbaycan və Ermənistan öz mövqelərində dayanırlar.

***Ağdam rayonu və Ermənistan tərəfinin Azərbaycanın Qazax rayonu istiqamətdə saxladığı ərazilər 20 noyabr 2020-ci il tarixinədək Azərbaycana qaytarılır.***

Rusiya sülhməramlı kontingenti Dağlıq Qarabağdakı təmas xətti və Laçın dəhlizi boyunca yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingenti Ermənistan silahlı qüvvələrinin geri çəkilməsinə paralel olaraq yerləşdirilir. Atəşkəsi izləmək üçün bir sülhməramlı mərkəz yaradılır.




***Ermənistan 15 noyabr 2020-ci ilədək, Kəlbəcər rayonunu, (lakin sonradan 10 sutka əlavə vaxt istəmişlər və 25 noyabr tarixində) 1 dekabr 2020-ci ilədək Laçın rayonunu Azərbaycana qaytaracaq.*** Dağlıq Qarabağın Ermənistanla əlaqəsini təmin edən Laçın dəhlizi (5 km enində) yaranır və eyni zamanda bu dəhliz Şuşa şəhərinə təsir göstərməyəcək. Üç il ərzində Laçın dəhlizi boyunca Xankəndi ilə Ermənistan arasında əlaqəni təmin edən yeni bir nəqliyyat marşrutunun inşası üçün bir plan müəyyən ediləcək və bu marşrutu qorumaq üçün sonra burada Rusiya sülhməramlı kontingenti yenidən yerləşdiriləcək. Azərbaycan hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və malların Laçın dəhlizi boyunca hərəkətinin təhlükəsizliyinə zəmanət verir.

Məcburi köçkünlər və qaçqınlar Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı İdarəsinin nəzarəti altında Dağlıq Qarabağ ərazisinə və bitişik ərazilərə qayıdırlar.

Hərbi əsirlərin və digər saxlanılan şəxslərin və ölülərin cəsədlərinin mübadiləsi aparılır.

Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılır. Ermənistan Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar



Respublikası arasında nəqliyyat əlaqələrini təmin edir. Nəqliyyat nəzarəti Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilir.




**Zəfər günü və zəfər paradı**

Hər xalqın tarixində unudulmaz, yaddaşlara əbədi olaraq həkk olan, tarixi günlər var. Azərbaycan Silahlı Qüvvələri 44 gün davam edən Vətən müharibəsində Şuşanı işğaldan azad etdiyi gün 8 noyabr 2020-ci ildə tarix yazdı və məhz həmin gün şanlı tariximizə "Zəfər" günü kimi daxil oldu. Çox keçmədi ki, dekabrın əvvəlində, 10 dekabr tarixində Azərbaycanın paytaxtı Bakının Azadlıq Meydanında "Zəfər" paradının keçiriləcəyi məlum oldu. Belə ki, İkinci Qarabağ müharibəsi bitdikdən sonra Prezident İlham Əliyev Bakıda Qələbə Paradının keçirilməsi haqda tapşırıq vermişdir. Bu məqsədlə Müdafiə Nazirliyi hərbi paradın hazırlıqlarına başlamışdır. Hərbi paradla əlaqəli texnikanın təhlükəsizliyini təmin etmək üçün bəzi küçə və prospektlərdə nəqliyyatın hərəkəti məhdudlaşdırılmışdı. Dekabrın 5-də Azərbaycan Silahlı Qüvvələri

parad üçün təlim məşqlərinə başladığını təsdiq etdi. Həmən günü Müdafiə Nazirliyi paradda iştirak edəcək hərbçilərin və hərbi texnikanın sayını açıqladı. Həmçinin Müdafiə Nazirliyi paradın məşqlərindən ilk videogörüntüləri də yayımladı.

Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.

"Dəmir yumruq" əməliyyatında – Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına Müdafiə nazirinin müavini, "Zəfər" ordenli general-leytenant Kərim Vəliyev komandanlıq edib. Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış etdi. İlham Əliyev çıxışı zamanı indiki Ermənistanda yaşamış yüz minlərlə azərbaycanlının "ata-baba yurdlarından qovulduğunu" dedi və Zəngəzur, Göyçə və İrəvanın "Azərbaycanın tarixi torpaqları" olduğunu bildirdi. Prezident müharibə başlamazdan üç gün əvvəl BMT Baş Assambleyasında "Ermənistanın yeni bir müharibəyə hazırlaşdığını və bunların qarşısı alınmalı" çıxışını etdiyini söylədi. 2020-ci ildə Ermənistanın iyul, avqust və sentyabr aylarında Azərbaycana qarşı üç hücuma başladığını qeyd etdi. Bütün bunlara cavab olaraq "Azərbaycan əsgərlərinə hücum" əmri verdiyini bildirdi. Daha sonra Əliyev Şuşa döyüşünü xatırladı və bunu "tarixi hadisə" adlandırdı. Sonda Əliyev, Azərbaycan Ordusunun Ermənistanı məğlub etdiyini və Ermənistan Ordusunun demək olar ki, "yox olduğunu və məhv edildiyini" bildirdi və "Erməni faşizmi yenidən



ayağa qalxarsa, nəticə eyni olacaq" bildirdi. Çıxışını isə "Qarabağ Azərbaycandır və nida" sözləri ilə bitirdi.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi. Türkiyə Prezidenti çıxışında əvvəlcə müharibə zamanı öldürülən və ya yaralanan Azərbaycan əsgərlərinə Allahdan rəhmət dilədi, sonra Azərbaycan-Türkiyə münasibətlərindən danışdı. Daha sonra "Qarabağa qətliam və göz yaşından başqa heç bir şey gətirməyənlər ağıllarını başlarına yığmalıdırlar" və erməni siyasətçilərin "sülh və sabitliyə doğru cəsarətli addımlar" atmaları lazım olduğunu da əlavə etdi. Ərdoğan daha sonra "Əhməd Cavadın, Nuru Paşanın və Mübariz İbrahimovun ruhları sevinirdi" deyə bildirdi. O, "siyasi və hərbi sahədə mübarizənin fərqli cəbhələrdə davam edəcəyini" də vurğuladı. Çıxışının sonunda Ərdoğan Azərbaycan şairi Əhməd Cavadın "Arazı ayırdılar..." şeirindən parçalar oxudu.

***Arazı ayırdılar,***
***Lil ilə doyurdular.***
***Mən səndən ayrılmazdım***
***Zülm ilə ayırdılar.***
***Ay Laçın, can Laçın,***
***Mən sənə qurban, Laçın.***

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başladı. Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi.

Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Məmmədovun başçılıq etdiyi döyüş bayraqdarları qrupu Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanına gətirdi.

Sonra Vətən müharibəsində müqəddəs döyüşlərdə əsl qəhrəmanlıq, şücaət, rəşadət və yüksək peşəkarlıq nümunələri göstərərək xalqımıza Böyük Qələbənin sevincini yaşadan Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları tribunanın önündən keçdilər. Üç kolondan ibarət parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edir.

Ardınca Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları birinci dərəcəli kapitan Zaur Quliyevin başçılığı ilə tribuna önündən keçdilər.

Sonra Xarici Kəşfiyyat Xidmətinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət parad heyətləri tribunanın önündən addımladılar. Dövlət Təhlükəsizliyi Xidmətinin parad heyətinə general-mayor Rövşən Muxtarov başçılıq edirdi.

Daha sonra polkovnik Səid İsayevin başçılığı ilə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, polkovnik Taleh Məşədiyevin rəhbərliyi ilə Birinci Ordu Korpusunun döyüşçüləri, polkovnik Nemət Müseyibovun başçılığı ilə İkinci Ordu Korpusunun, polkovnik-leytenant Kamran Ağabalayevin rəhbərliyi ilə Üçüncü Ordu Korpusunun, polkovnik İlham Məmmədovun başçılığı ilə Dördüncü Ordu Korpusunun və polkovnik-leytenant Dəyanət Müslümovun rəhbərliyi ilə Altıncı Ordu Korpusunun hərbi qulluqçuları tribuna önündən keçdilər.

Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları da tribuna önündən mətin addımlarla irəlilədilər. Parad heyətinə polkovnik İsmixan Məmmədov başçılıq edirdi.

Zəfər paradında qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçdilər.

Dövlət Sərhəd Xidmətinin parad heyətləri general-mayor Rəsul Tağıyevin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının parad heyəti general-mayor İnqilab Muradovun, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti isə mayor Eldar Quliyevin rəhbərliyi ilə mətin addımlarla Azadlıq meydanına daxil oldular.



Sonra general-mayor Füzuli Salahovun rəhbərliyi ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti, general-mayor Bəkir Orucovun başçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant və zabitlərinin keçidi oldu.

Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları ilk dəfə olaraq Azadlıq meydanında keçirilən paradda iştirak edirdilər. Parad heyəti general-mayor Məhəmməd Həsənovun başçılığı ilə tribuna önündən keçdilər.

Vətən müharibəsində Böyük Qələbəyə həsr olunmuş Zəfər paradını Əməkdar incəsənət xadimi polkovnik-leytenant Rüfət Axundzadənin dirijorluğu ilə birləşmiş hərbi orkestr müşayiət edirdi.

***Daha sonra hərbi texnikaların keçidi başladı.***

Vətən müharibəsində Qələbəyə həsr olunan Zəfər paradına Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri dənizdən dəstək verdi. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz yüksək döyüş hazırlığı nümayiş etdirdi.

"Dəmir yumruq" əməliyyatının – Vətən müharibəsinin qazilərinin Zəfər paradında tribuna önündən keçidi oldu.

Azadlıq meydanına 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Vətən müharibəsi zamanı Azərbaycan Silahlı üvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradançıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Dağlıq Qarabağ ərazisinin əzəli Azərbaycan torpağı olduğu kompozisiyanın üzərinə həkk olunan "Qarabağ Azərbaycandır!" şüarı ilə bir daha bəyan edilib.














QARABAĞ
AZƏRBAYCANDIR!











Döyüşlərdə qənimət götürülmüş istifadəyə yararlı texnikalar "KamAZ" markalı avtomobilin qoşqusunda D-30, "Ural" markalı avtomobilin qoşqusunda D-20 topları, qoşqu üzərində zenit qurğuları, "ŞİLKA", "OSA-1T", "KUB" zenit-raket kompleksləri, piyadaların döyüş maşınları (PDM), "T-72" tankları, eləcə də istifadəyə yararsız texnikalar - zirehli "UAZ Patriot", "UAZ Hunter" minik, "ZİL-131", "Ural", "KamAZ" markalı yük avtomobilləri, 122 millimetrlik "Qvozdika" özüyeriyən artilleriya qurğusu, BM-21 "Qrad" qurğuları, PDM-1 və PDM-2 texnikaları, T-72 tankları qəhrəman Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunun əyani təsdiqidir.

Bundan sonra xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu. Kolona "Qarabağ" ordenli general-leytenant Nizam Osmanov başçılıq edirdi.

Azadlıq meydanında keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tank əleyhinə idarə olunan "SPIKE-ER", "NLOS", "LAHAT" raketləri, 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət maşınları, piyada daşıyan zirehli maşınlar, "Kobra" və



"BTR-82A" zirehli transportyorları, PDM-2 və PDM-3 texnikaları, "T-72", "T-90S" tankları Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi.

Daha sonra Azadlıq meydanında Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi oldu. Kolona müdafiə nazirinin müavini – Hərbi Hava Qüvvələrinin komandanı, "Zəfər" ordenli general-leytenant Ramiz Tahirov başçılıq edirdi. Tribuna önündən modernləşdirilmiş "OSA-1T", "S-125 TM", "BUK-MB", "İldırım" zenit-raket komplekslərinin, "S-300 Favorit" sistemlərinin keçidi oldu. Ardınca Vətən müharibəsində Qələbənin əldə edilməsində çox mühüm rol oynayan "Orbiter-1KM" - "İti qovan", "Orbiter-2B", "Orbiter-3B", "Orbiter-4", "Aerostar–BP", "Heron" pilotsuz uçuş aparatları, eləcə də ən müasir PUA-lar - "Bayraktar-TB2", habelə "Hermes-450", "Hermes-900", "Quzğun" və "Harop" PUA-ları nümayiş olundu.

Ardınca Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu daxil oldu. Kolona "Zəfər" ordenli general-mayor Ağamir Sultanov başçılıq edirdi. Meydanda özüyeriyən haubitsa və artilleriya qurğuları – 152 millimetrlik "Akasiya", 152 millimetrlik "MSTA-S", 203 millimetrlik "Pion", eləcə də 220 millimetrlik "TOS-1A" ağır odsaçan, tank əleyhinə "Xrizantema-S" kompleksləri, "DANA" özüyeriyən top-haubitsaları, "Qrad", "RM-70/85", "BM-21", "Smerç" yaylım atəşli reaktiv sistemləri, "TR-300 Qasırğa", "Ekstra" taktiki, "Polonez" və "LORA" əməliyyat-taktiki raket sistemlərinin keçidi oldu.

Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başladı. "Qarabağ" ordenli polkovnik Həsən Əlövsətovun rəhbərlik etdiyi "Mİ-17" hərbi nəqliyyat-desant helikopterləri cütlüyü Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları ilə Bakı buxtasının üzərindən uçaraq Zəfər paradının iştirakçılarını salamladı. Bunun ardınca Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Rəşad Nadirovun başçılığı ilə "Mİ-35" hücum helikopterləri qrupunun uçuşu oldu. Polkovnik-leytenant Rəhim Qulu-

zadənin başçılığı ilə "LAHAT" və "SPIKE" uzunmənzilli raketləri ilə silahlanmış "Mİ-17" helikopterlərinin və "Qarabağ" ordenli polkovnik Zaur Rüstəmovun rəhbərliyi ilə "MİQ-29" çoxməqsədli qırıcı təyyarələr qruplarının uçuşları da maraqla qarşılandı. Zəfər paradında döyüş təyyarə və helikopterlərinin çıxışını müasir silahlarla təchiz olunmuş "Su-25" hücum və hava dəstək təyyarələr qrupu tamamladı. Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin başçılıq etdiyi qrupun səmada Azərbaycan Respublikasının dövlət bayrağının təsvirini yaratması üçrəngli şanlı bayrağımızın daim yüksəklərdə dalğalanacağını təcəssüm etdirdi.

Zəfər paradı 44 günlük müharibədə Azərbaycan Ordusunun Böyük Qələbəsini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi. "Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən müharibəsində Rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Böyük Qələbə müasir müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin də əyani təsdiqidir.

Yaşasın, müstəqil Azərbaycan Respublikası! Yaşasın, müzəffər Azərbaycan Ordusu! Yaşasın, sarsılmaz və əbədi Azərbaycan-Türkiyə qardaşlığı!

### Hərbi qənimətlər parkı

Bakının mərkəzində, Azadlıq meydanından çox da uzaq olmayan məsafədə Xəzər dənizinin sahilində Qarabağ zəfərindən sonra düşməndən ələ keçirilən qənimətlərin, döyüş texnikalarının, silahların və illərdi cəbhə xəttində yaratdıqları istehkamların, keçilməz sayılan maneələr sisteminin, eləcə də düşmənin 44 gün davam edən Vətən müharibəsində üzləşdikləri çətinliklər, əsgərlərimizin mərdliyi, cəsarəti, qəhrəmanlığı qarşısında aciz qaldıqları, müasir döyüş texnikalarının tətbiqindən, xüsusilə PUA-lardan qorxduqları, döyüş texnikalarını meydanda atıb qaçdıqları məqamlar, ən



dəhşətlisi isə erməni vəhşiliyinin bariz nümunəsi öz əsgərlərini döyüş postunda zəncirlə bağladığı və s. kimi məqamların sərgiləndiyi "Hərbi qənimətlər parkı" yerləşir. Bu park Vətən müharibəsinin gedişini, qəhrəmanlıqlar ilə dolu "Zəfər" tarixini gələcək nəsillərə çatdıracaq.

Parkda Ermənistan Silahlı Qüvvələrinə məxsus olduğu bildirilən, Rusiya istehsalı olan tank, "Qrad" qurğuları, top və digər döyüş texnikaları nümayiş etdirilir. Azərbaycan prezidenti İlham Əliyevin "Qələbə" tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr Parkın ərazisindəki videozalda nümayiş etdirilir. Parkın mühəndis-maneələr sistemini ehtiva edən ərazisində 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Silahlı Qüvvələri bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi. Parkda döyüş postu və əsgər yataqxanası yerləşir. Yataqxananın yanında şəxsi heyətin artilleriya atəşlərindən və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir. Parkda müharibədə həlak olan yüzlərlə erməni əsgərinin dəbilqələri və Ermənistan Silahlı Qüvvələri qoşunlarının mum manikenləri nümayiş etdirilir. Qoy onlara baxıb ibrət götürsünlər, görsünlər ki. başqasının torpaqlarına göz dikənin, saxta, mif uydurma tarixin, faşist milliyətçi ideologiyanın sonu çox açı və kədərli olur.

### Vətən müharibəsindən xatirələr

Xalqımız Vətən müharibəsinin başlamasına çox sevindi. Çünki müharibə dağıdıcı olsa da bizim başqa yolumuz qalmamışdı.

Torpaqlarımızın uzun illər işğalda qalması, ermənilərin Qarabağdakı qudurğanlığı, özlərini bölgənin sahibi kimi təqdim etməsi və s. dözülməz hal yaratmışdı. 2018-ci ildən etibarən danışıqların dalana dirənməsi və münaqişənin həllində yaranan gərginlik artan xəttlə davam edirdi. 2020-ci ilin iyulunda Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz döyüş bölgəsində baş verənlər artıq müharibəni qaçılmaz etdi. Peşəkar hərbçi kimi, müharibənin başlaması mənim üçün gözlənilməz olmadı. Hələ bir neçə il bundan əvvəl bölgədə yaranmış vəziyyəti təhlil edən zaman böyük münaribənin başlayacağını və hər kəsin bu ölüm-dirim savaşına hazır olmasını özüm üçün proqnozlaşdırmışdım.

O zaman çoxları razılaşmır və müharibənin başlaması üçün hələ şərait yaranmadığını, bölgədə maraqları olan böyük dövlətlərin və ermənilərin havadarlarının buna icazə verməyəcəyini bildirirdilər. Sual edəndə ki, məyər torpaqları azad etmək üçün kimdənsə icazə almaq lazımdır? Çox təəccüblüdür, onda həmin adamlar susurdular. Həmin kateqiriyadan olan insanlar, lider xüsusiyyəti olmayan qorxaqlar, daha çox başqalarının işinə yarayan yaltaqlardır.

Nəhayət o gözəl an gəldi, 27 sentyabr 2020-ci il tarixdə Ermənistanın cəzalandırılması üçün əks-hücum əməliyyatı başladı və sonradan Vətən müharibəsi kimi tarixə keçdi. Əməliyyat bazar günü səhər tezdən başladı, mən həmin gün evdə idim. Lakin mətbuatdan aldığım məlumatlardan bilirdim ki, cəbhədə döyüşlər gedir, əslində ürəyim cəbhədə döyüşən Ordunun, dualarımız isə əsgərlərin yanında idi. 28 sentyabr tarixdə səhər tezdən xidmət yerinə Silahlı Qüvvələrin Hərbi Akademiyasına gəldim, artıq bu zaman ölkədə qismən səfərbərlik elan olunmuşdu. Mən səfərbərliklə formalaşan birliyin tərkibində öz komandam ilə əvvəlcədən təyin olunmuş məntəqəyə gedəcəyimi bilirdim. Çox keçmədi ki, həmin göstəriş oldu və bir azdan isə yollanacağımız istiqamət məlum oldu. Ailə üzvlərimlə əlaqə saxlayıb məlumat verdim, elə o andan da bizim üçün Vətən müharibəsi, haqq savaşı başlamış oldu. Ancaq uyğun olan vaxtlarda ailəmlə telefonla əlaqə saxlaya bilirdim. Qısa zamanda yeni birlik səfərbərliklə formalaşdı və tabelikdə olan birləşmələrin müxtəlif təlim mərkəzlərində döyüş uzlaşması başladı. Ordumuz cəbhədə savaşır, ermənilər isə cəbhədən uzaqda yerləşən yaşayış məntəqələrini raketlər ilə vurur və mülki əhalini hədəfə alırdı. Ermənilər Gəncə şəhərinə bir neçə dəfə balistik raket atdılar və mülki şəxslər həlak oldu. Oktyabrın ilk günlərində müharibənin dağıdıcı təsirilə Gəncədə üzləşdik. Günahsız insanların, uşaqların qatilləri insanlıq əleyhinə cinayətləri törətməkdə davam edirdilər. Gördüklərimdən çox hiddətlənmişdim, hamı cəbhəyə getməyə can atır, düşməni cəzalandırmaq hissi ilə yaşayırdı. Bizim heyət oktyabrın 5-də iki qrupa bölündü, mənim rəhbərlik etdiyim heyət oktyabrın 6-da Füzuli rayonu Yağlıvənd yaşayış məntəqəsinə gəldi. Cəbrayıl şəhəri artıq oktyabrın 4-də işğaldan azad edilmişdi. Oktyabrın 8-də Cəbrayıl rayonunun işğaldan azad olunan ərazisinə daxil olan zaman orada şiddətli döyüşlərin getdiyini, müharibənin izlərini görmək olurdu. Çünki yol boyu düşmənin vurulmuş tankları, meyitlər, mərmi partlayışlarının çuxurları və "Smerç" raketlərinin partlamamış başlıqları, gücləndirilmiş istehkamlar, o biri yandan isə dağıdılmış, talanmış yaşayış məntəqələri və s. görünürdü. Çox dəhşətli epizodlardır, həmin görüntülər erməni vandallığının isbatıdır və əbədi olaraq hafizələrə həkk olundu.

Düşmənlə ilk təmas Cəbrayılın Soltanlı kəndi istiqamətində yarandı. Düşmən qarşıda Göyərçin Veysəlli yaşayış məntəqəsində yerləşən mövqelərindən minaatanlardan atəşə tutur, müqavimət göstərir və bölmələrimizin irəliləməsini ləngidirdi. Düşmən güclü müqavimət göstərirdi, bu istiqamətdə onun hazırladığı son müdafiə eşelonu idi. Həmçinin Araz çayı boyu geniş sahədə heyva, nar və üzüm bağları salınmışdı və bol məhsul yetişmişdi. Nəzarətsiz qalan sərhədlərimizdən istifadə edən İran separatçıları dəstəkləmiş və bizim ərazilərdən qeyri-qanuni bəhrələnmişlər, yoxsa ermənilər bunu təkbaşına edə bilməzdi. Növbəti gün artilleriya qərargahının bir qrup zabiti ilə digər istiqamətə Xocavənd rayonu-

nun Arakül yaşayış məntəqəsində yerləşən bölmələrin köməyinə getdik. Minaatan batareyası Ağcakənddə atəş mövqeyində yerləşirdi və oradan Ziyarət dağı uğrunda gedən döyüşlərdə kəşfiyyat qruplarının və motoatıcıların fəaliyyətini dəstəkləyirdi. Ermənilər Ziyarət dağının strateji əhəmiyyətini nəzərə alaraq əvvəlcədən müdafiəyə hazırlamış, kamera müşahidə sistemilə təchiz etmiş və oraya kifayət qədər silah, sursat və ərzaq yığmışdı. Bir neçə gün mövqe döyüşləri davam etdi və düşmənin bu istiqamətdə olan bölmələri təsir altında saxlanıldı. Düşmən qüvvələrini parçalayaraq sonradan məhv edilməsi üçün şərait yaradıldı.

Cəbhədə ağır döyüşlər davam edir, düşmən məğlubiyyətə uğrayaraq geri çəkilir, bir çox halda isə döyüş meydanından qaçırdı. Zəngilan və Qubadlının kəndləri, strateji yüksəkliklər azad olunur, Azərbaycan əsgəri tarix yazmaqda davam edirdi. Biz artıq Ermənistan ərazisindən atəş açan düşmən artilleriyasını susdurma məsafəsinə qədər irəliləmiş, tarixi və əzəli torpaqlarımız olan Zəngəzuru müşahidə edirdik.

Oktyabrın son günlərində mənfur düşmən öz çirkin əməllərindən əl çəkmir, yenə də mülki əhalini hədəf almağa davam edirdi. Növbəti dəfə Bərdə şəhər mərkəzinə raket zərbəsi endirdi. Bu zaman cəbhədə qızğın döyüşlər davam edirdi. Qubadlı rayonunun Qiyaslı kəndinin yaxınlığında yerləşən bölmələrimizin mövqelərini Ermənistan ərazisindən Aqarak, Ujanes, Yevqart və Xançik yaşayış məntəqələrinin yaxınlığında yerləşən artilleriya və reaktiv vasitələrdən atəşə tuturdu. Düşmənin fəaliyyətini müşahidə edib, artilleriya vasitələrinin mövqelərinin yeri dəqiqləşdirildi və həmin hədəflər məhv edildi, düşmən o andan etibarən susdu. Çünki düşmən harada yerləşməsindən asılı olmayaraq bizim üçün artıq hədəfə çevrilmişdi.

Qubadlı rayonunun ərazisində yerləşən Hartiz dağından Ermənistana baxanda, bir anlığa 2009-cu ildə Naxçıvanda xidmət edəndə Şahbuzun Biçənək aşırımından işğalda olan Laçının və Qubadlının dağlarını seyr etdiyim günləri xatırladım, nə qədər duyğulu anlar olsa da, bir o qədər də sevindirici idi. İndi Zəngəzur dağlarından Naxçıvanı seyr edir və düşmənə öz yerini göstərirdik.



Əlbəttə, düşmən geri çəkilən zaman öz çirkin əməllərindən əl çəkmir yolları, körpüləri minalayır, cəbhədən uzaqda yerləşən yaşayış məntəqələrini atəşə tutur və mülki əhalini hədəf almaqda davam edirdi. Sanki cəbhədəki uğursuzluğunun qisasını günahsız insanlardan alırdı. Belə yanaşma ancaq terrorçulara aiddir və Ermənistan 1992-ci il fevralın 26-da Xocalıda törətdiyi soyqrımı əməllərini Vətən müharibəsində də Gəncəyə, Bərdəyə, Ağcabədiyə və Tərtərə atdığı raketlər və mərmilər ilə bir daha sübut etmişdir. Qubadlı, Zəngilan və Laçın rayonları ərazisində yerləşən körpülərin bir çoxunu partlatmış, digərlərini isə partlayışa hazırlamışdı. Zəngilanın Ağalı, Racdərə, Qubadlının Xanlıq kəndlərində yerləşən körpülərə baxış zamanı çoxlu miqdarda partladıcı maddə aşkarlandı və zərərsizləşdirildi.

Döyüş meydanında düşmənin hazırladığı səngərlər, dağıtdığı və taladığı yaşayış məntəqələrimiz onu göstərir ki, danışıqlar yolu ilə ərazilərimizdən çıxmaq düşüncəsi olmayıb, hazırlanmış səngərlər, istehkamlar bunu açıq şəkildə göstərirdi. Dağıtmaqla mədəni və dini irsi silmək istəmişlər, özününküləşdirməyə çalışmış, alınmayanda isə dağıtmışdır.

Biz cəbhədə düşməni əzdikcə, o azğınlaşır, yaşayış məntəqələrini və mülki əhalini hədəf alırdı. Oktyabrın sonları idi. Zəngilanda yerləşən bölmələrin mövqelərinə hərəkət edirdik. Yol boyu düşünürdüm ki, biz Mincivandan keçəcəyik və həmin yoldan dəmir yolu vağzalı və stansiyasını görmək mümkün olacaq. Təəssüf ki, ancaq bir tikili qalmışdı, o da üçmərtəbəli mehmanxananın binası, ermənilər də onu hərbçilərin yataqxanası kimi istifadə etmişlər. Tikililər dağıdılıb, evlərin qalıqlarını kolkos basıb, heç nə görünmürdü. Yoldan baxanda bilmək olmur ki, burada böyük qəsəbə olub. Bir az irəlilədikdə yolun solunda ikimərtəbəli bir ev diqqətimizi çəkdi. Sürücüyə o, evin girişində saxlamağı tapşırdım. O evdə vaxtı ilə azərbaycanlı yaşayıb, lakin ermənilər onu dağıtmayıb, orada yaşayış olduğu görünürdü. Evin həyətində nar, armud, xırnik ağacları, bostanda isə badımcan,

bibər və göy-göyərti əkilmişdi. Armud ağacına yaxınlaşıb iki armud dərdim, armudlar çox böyük idi, hər birinin çəkisi təxmini 700 qr olardı. Xirnik ağacından bir neçə meyvə dərib özümlə götürdüm. Bostanda olan badımcanın böyüklüyünə, formasına görə ilk dəfə görürdüm, o, adətən uzunsov olur. Badımcanlar isə ölçüsünə və formasına görə futbol topuna oxşayırdı. Xarici görünüşü diqqət çəkir və çox sağlam görünürdü. Yolumuza davam etdik və hərəkətdə olan zaman topladığımız meyvələrin dadına baxdıq. Armud sulu və şipşirin, xurmada ondan heç geri qalmırdı. Əlimiz və dodaqlarımız şirninin təsirindən artıq yapışqan olmuşdu, bu məqamda ancaq yuyunmaq istəyirdik. Araz çayının sahili münbit torpaq, bol su və günəş, niyə də belə məhsul olmasın. İşğaldan azad olunmuş torpaqlar çox bərəkətli və məhsuldardır. Mən şəxsən gözlərimlə gördüyüm xatirələrimi qələmə alıram. Qoy gələcək nəsillər bilsin ki, əbədi olaraq bu bərəkətli torpaqların sahibi bizik, mənfurlara şans verməк olmaz, xülyalar və revanş hisslərilə yaşayanlar bilməlidirlər ki, biz tərəfə baş çevirsələr, "Dəmir yumruq" həmişə var və o daima yerindədir.

Qubadlı istiqamətində gedən döyüşlər nəticəsində Hartiz dagını ələ keçirən tabor dövlət sərhədinə çıxışı təmin etdi. Bizim bir bölmə həmin istiqamətdə yerləşir, mövqeyini möhkəmləndirir və səngərlər hazırlayırdı. Həmin bölməyə tez-tez baş çəkir və onların fəaliyyətini koordinasiya edirdim. Bu zaman Laçın istiqamətində irəliləyən qoşun qruplaşması "Laçın dəhlizinin" cənubunda yerləşən yüksəklikləri ələ keçirib, dəhlizi vizual müşahidəyə götürmüşdü. Cəbhənin digər istiqamətində isə xüsusi təyinatlılar gizli olaraq irəliləyərək Şuşanın ətrafında yerləşən Şuşakəndə, Daşaltıya və Laçın-Xankəndi avtomobil yolunun ətrafında yerləşən yüksəkliklərə çıxmışdı. Şuşanın azad edilməsi çox da uzaqda deyildi. Noyabrın 7-də birliyin qərargahında keçirilən müşavirədə şöbələrə və xidmətlərə, düşmənlə bilavasitə döyüşən birləşmələrə cəbhə xəttinə gedib vəziyyəti yerində görmək üzrə tapşırıqlar verildi. Mən və artilleriya qərargahının baş zabiti polkovnik-leytenant Məmmədov Həbib növbəti gün Hartizda yerləşən tank əleyhinə



batareyanın mövеyinə gəldik. Biz Pikap tipli xidməti avtomobil ilə hərəkət edirdik və avtomobildə radio var idi və həmin radio vasitəsilə daha çox informasiya əldə etmək olurdu. Açığı deyim ki, işğaldan azad olunmuş ərazilərdə İranın və Ermənistanın radio dalğalarının yayımı daha güclü idi, Azərbaycan dilində yayımlanan dalğalara köklənmək olmurdu. Ancaq "Azadlıq" radiosunun yayımını yüksəkliklərdə yerləşəndə dinləmək olurdu. Öndə yerləşən bölmələrin mövqelərindən ərazini, düşmənin fəaliyyətini izləyir, zəruri tapşırıqlar verir və şəxsi heyətlə söhbət edirdik. Noyabrın 8-i saat 11.00 radələri olardı. Avtomobilin sürücüsü yaxınlaşıb bildirdi ki, Müzəffər Ali Baş Komandan xalqa müraciət edir. Biz düşməni müşahidə etməyi zəiflətmədən avtomobilə yaxınlaşdıq və yaxında olan şəxsi heyətin bir hissəsi də artıq orada idi, Ali Baş Komandanın çıxışını dinləyirdi. O zaman biz bilmirdik Ali Baş Komandan haradan xalqa müraciət edir, çünki biz çıxışı "Azadlıq" radiosundan dinləyirdik. Ali Baş Komandanın çıxışı o qədər təsirli idi ki, demək olar ki, hamı duyğulanmışdı. Mən bir anlığa başımı qaldırıb ətrafa baxdım, hiss etdirməyəcək şəkildə orada mənimlə birgə olan şəxsi heyəti süzməyə başladım. Onların üzündə qürur, sevinc hiss edilirdi. Müzəffər Ali Baş Komandan bildirəndə ki, mən bu gün özümü xoşbəxt hiss edirəm, ona görə ki, mən ata vəsiyyətini yerinə yetirdim. Ulu öndərin məzarını ziyarət etdim, qarşısında raport verdim. Ondan sonra isə xalqımız üçün müqəddəs yerə Şəhidlər xiyabanına gəldim. Bu gözəl anları buradan xalqımıza çatdırmağı özümə borc bildim. Bizə onda məlum oldu ki, Ali Baş Komandan Şəhidlər xiyabanından xalqa müraciət edir. Çıxışının sonuna doğru vaxt irəlilədikcə həyəcan da artırdı. Sanki hamının daxilində bir hiss var idi ki, xalqa müraciətin seçildiyi yer, hansısa müjdənin xəbərçisidir. Çox keçmədi ki, Ali Baş Komandan qeyd etdi: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" Elə o andan bütün dünya bildi ki, Şuşa azaddır. Bunu eşidəndə hamı qəhərlənmişdi, duyğulu anlar yaşanırdı, hətta bir çoxu özünü saxlaya bilmirdi, gözündən yaş gəlirdi. Əlbəttə, bu, uzun və çətin yolun

sonu demək idi. Mümkün olmayanı mümkün edən xalqın mübarizəsi, geriyə dönüşü, iradəsinin təcəssümü və müzəffər xalqın, müzəffər ordunun şanlı zəfəri idi. Bu zaman 1988-ci il iyulun 5-də tərk etdiyim doğulub, boya-başa çatdığım, uşaqlıq illərimin keçdiyi doğma elim Ulu Göyçənin Ardanış kəndi gözümün önündə canlandı. Otuz dörd il keçməsinə baxmayaraq mən hələ də kəndimizə gedə bilmirəm. Babamın, nənəmin, doğmalarımızın və əcdadlarımızın qəbirləri oradadır. Bu möhtəşəm qələbədən sonra növbədə niyə də hədəf Göyçə və Zəngəzur olmasın deyə sizləri zamanla baş-başa buraxıram. Çünki Qarabağdan Göyçəyə uzanan yol görürəm. O yol çox da uzaqda deyil. Qarabağ, Azərbaycandır! Zəngəzur və Göyçə bizim tarixi torpaqlarımızdır, səbirsizliklə yolumuzu gözləyir.

Birliyin artilleriya qərargahının heyəti olaraq düşmənə qarşı qətiyyətlə vuruşduq. Mərd və cəsur döyüşçü yoldaşlarım: polkovnik-leytenant Həbib Məmmədov, polkovnik-leytenant Zaur Abuzərov, polkovnik-leytenant Avnil Avnilov və mayor Pərviz Qocayev ilə Vətən müharibəsi günlərində yaşanan hər an yaddaşlara həkk olundu.

Qubadlının və Zəngilanın işğaldan azad olunmasında birləşmənin artilleriya rəisi polkovnik Vəli Oruc oğlu Ələskərovun fəaliyyətini xüsusi qeyd etmək olar. Cəbrayılın və Qubadlının yaşayış məntəqələrinin işğaldan azad olunmasında Orxan Arif oğlu Kərimov, Füzulinin və Xocavəndin yaşayış məntəqələrinin işğaldan azad olunmasında isə Etibar Telman oğlu Məhərrəmov iştirak etmişlər. Bu gənclər vətənpərvər ruhda böyümüş və gənc yaşlarından böyük sınaqdan uğurla keçmişlər. İndi hamı haqlı olaraq onlarla fəxr edir.

## Göyçə həsrəti

Azərbaycan topaqlarının bir hissəsi xalqımızın xəbəri, razılığı olmadan zorla keçmiş SSRİ-i dövründə mərkəzi komitənin siyasi



büro qərarları ilə zaman-zaman Ermənistana verilib. Belə acı taleyin qurbanlarından biri də Göyçə mahalıdır və orada yaşayan azərbaycanlılardır. Eyni dövlətin tərkibində yaşayanda o qədər də hiss olunmayan, zaman keçdikcə haqsızlıqlar ilə üzləşən, Ermənistanda yaşayan azərbaycanlılar bunu daha tez hiss etdilər. Ermənistan ərazisində azərbaycan televiziya kanallarının yayımlanmaması, eləcə də Ermənistanda kənd təsərüffatı texnikumundan başqa ali təhsil ocağının olmaması gəncləri təhsil almaq üçün Bakıya və digər şəhərlərə üz tutmağa məcbur edirdi. Bu yolla Ermənistanda yaşayan Azərbaycanlılar Ermənistanı tərk etməyə məcbur olur, təhsilini bitirdikdən sonra iş yeri tapa bilmədiyinə görə Ermənistana qayıtıda bilmirdilər. Bununla da savadlı və ziyalı əhali öz dədə-baba yurdunu tərk etməli olurdu. Bu, azərbaycanlılara qarşı qurulmuş hiylə idi. Buna baxmayaraq elinə obasına bağlı yurdsevər xalqımız mübarizə aparır və qurub yaradır, özünə yurd etdiyi vətən torpaqlarını müdafiə edirdi.



Lakin zorla qurulan SSRİ-nin ömrü çox ola bilməzdi. Bütün imperiyaların sonu olduğu kimi SSRİ-də süqut etdi. Onun süqutuna qədər ölkəmizə, xalqımıza qarşı aparılan məkrli siyasət və atılan ədalətsiz addımlar öz nəticəsini artıq vermişdi. 1988-ci ilin payızından etibarən Ermənistanda yaşayan azərbaycanlılar zorla qovuldu. Ermənistan etnik təmizləmə həyata keçirdi və mono dövlətə çevrildi. Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların haqları və hüquqları pozuldu. Öz evini, malını, mülkünü, illərdi qurub yaratdığı isti ocağını buraxıb, Azərbaycana pənah gətirməli oldular. Hər şeyə yenidən başlamalı oldular, ancaq bir şeyi dəyişmək mümkün olmadı, illərdi davam edən Vətən həsrətini. İndi də o tarixi yurd yerləri, Göyçə, Zəngəzur bizi, doğmalarını səsləyir, həsrətlə yolumuzu gözləyir. Məktəb və gənclik illərinin xatirələrlə dolu anlarını, o xoşbəxt günləri, doğma Ardanış kəndini unutmaq olmur. Nə qədər çətin olsa da bu gün belədir, gözəlliyi, təmiz suyu və havası ilə qəlbləri oxşayan, hər fəsildə özünəməxsus gözəlliyi ilə seçilən doğma vətən, ana yurdum Ardanış, hamı sənin görüşünə tələsir.

Əlbəttə, Göyçə gölü, sənsiz yaşamaq, nəfəs almaq çox çətindir. Gölün ətrafında yerləşən Ardanışa xüsusi gözəllik verirsən. Xatirələrdə yaşayan yurd yerləri Adatəpə, Şişqaya, Böyükmeşə, Keçili, Qatarqayası, Pəribulağı, Nazlıbulağı, Puş yeri, Sarıyal və s. səninlə vəhdət təşkil edir. Görünür, siz də yurd yerlərinin əsl sahibləri, oğuz türkləri üçün darıxmısınız. Sizdən nə qədər uzaq düşsək də, nə qədər çətin olsada, umidimiz, gələcəyimiz Göyçəyə, doğma Ardanışa bağlıdır. Ən azı 600 ev və 3000 əhalisi olan böyük bir kənddə indi 20-yə yaxın erməni ailəsi yaşayır, onların da çoxu yaşlı insanlardı. Sökülüb dağılmış, boş qalmış evləri, qaranlıq zülmətə qərq olmuş kəndi, ancaq əsl sahibləri dirçəldə bilər. Bu həsrətə son verməyin vaxtıdır. Xalqımız işğalda olan əraziləri, düşməni döyüş meydanında məğlub edərək qürurunu özünə qaytardı. Yolunu gözləyən yurd yerlərinin əsl sahibləri gələcək, inkişaf səninlədi. Ardanışın mərd oğulları, Ardanışa qayıtmaq bizim müqəddəs vəzifəmizdir. Unutmayın, tarix onu yazanların tərəfindədir, haqq-ədaləti bərpa etmək sənin üzərindədir. Sən Ulu Göyçənin övladısan, əzəli torpaqların həsrətinə sən son qoymalısan, çünki bu sənin haqqındır. Əziz həmvətənlər, inanın, Göyçədə ocaqları yandırmağa, obaları şənləndirməyə, uzun illərin həsrətinə son qoymağa çox az qalıb.



### Vətən müharibəsi ermənilərin gözü ilə

Vətən müharibəsi göstərdi ki, silahlı qarşıdurmada qalib gəlmək üçün cəsarət yetərli deyil, rəqibin imkanlarını qiymətləndirmək, ciddi nizam-intizam və müasir texnika lazımdır. Yüzlərlə tankı və əsgəri "Ura" deyərək döyüş meydanına gətirmək sistemi artıq işləmir.

Ermənistan ordusunun **kapitanı Suren Ter-Qukasyan** qeyd edir: "Biz axmaq idik. Biz birinci Qarabağ müharibəsində Azərbaycanın məğlub olmasının eyforiyasında idik. Lağ edirdik: "Bu azərbaycanlılar doğrudan döyüşməyi bacarır? Gözləsinlər biz Bakıya çatacağıq.

Ermənilər illərdi Azərbaycanın müasir silah aldığına baxır və düşünürdülər ki, məqsəd onları qorxutmaqdır. Azərbaycanlılara gülürdülər. Qorxaqlar buna cəsarət edə bilməzlər.

Müharibənin ilk günlərindən etibarən azərbaycanlılar hava üstünlüyünə nail oldular. Tanklar və zirehli texnikanın faydasız olduğu üzə çıxdı. Pilotsuz uçuş aparatları raket yağdırırdı. Raketlər komandirlərin iclas üçün toplandığı yerləri məhv edirdi. Sursat gətirə bilmirdilər, çünki pilotsuz uçuş aparatları yük maşınlarını axtarır, tapır və məhv edirdi. Könüllü olaraq cəbhəyə getmək istəyənlər on günlərlə toplanma məntəqələrində gözləməli oldu. Onların cəbhə xəttinə aparılması çox çətin idi, bütün təminat yolları nəzarət altında idi".

**Digər bir erməni döyüşçüsü** qeyd edir ki, iki gün idi ki, cəbhə xəttinə döyüş postuna gəlmişdim. Gündüz saatlarında, postda konyak içirdik, birdən fısıltı eşidildi və partlayış oldu. Bu, PUA-nın buraxdığı raketin partlayışı idi. Yanımda iki dostum parça-parça

oldu, mən isə möcüzə nəticəsində sağ qaldım. Yaralandım, iki əl barmağım qopub. Günün sonuna kimi dözmək olmurdu, ona görə postlarda olan zabitlər səhərdən spirtli içki qəbul edirdi. Onlar yuxarı komandanlıqdan verilən göstərişləri öz bildikləri kimi yerinə yetirirdilər, nizam-intizam yox idi.

Ermənilər qeyd edir ki, Qarabağ müharibəsindən Rusiya da dərs çıxarmalıdır. Çünki Türkiyənin pilotsuz uçuş aparatları indiki dövrdə müharibə metodlarının sürətlə dəyişdiyini göstərir.

**Döyüşlərə könüllü olaraq qatılan Ermənistan vətəndaşı Tiqran** qeyd edir ki, müharibənin ilk günlərindən döyüşənlərə ərzaq, su, siqaret və başqa ilkin tələbat malları çatdırmaqla məşğul olub. Döyüş bölgəsinə bir neçə dəfə gəlib gedib və 17 oktyabrdan sonra isə əsgər kimi gəlib. "Bizi hərbi sursat və geyimlə təmin olunmaq üçün iki gün gözlədikdən sonra dərhal ön xəttə, əvvəlcə Azıx, sonra isə Tuğ kəndinə apardılar. Orada vəziyyət yaxşı deyildi, toplardan atəşə tuturdular. Qərar verildi ki, Susanlığa gedək. Susanlığa gələndə, artıq ön xətt oradan keçirdi, səngər yox idi, azərbaycanlılar üzərimizə gəlirdi, biz isə geri çəkilirdik. Həmin gün elə bilirdik ki, ordumuz var, könüllü dəstələr yaratmağa ehtiyac yoxdu. Biz hələ də elə bilirdik ki, hər şey əlaqələndirilib. Sonradan bizə göstəriş oldu ki, könüllü dəstələr yaradın və özünüzdən komandir seçin və s. Otuz iki nəfər bir-birini ilk dəfə görürürdü, heç kim bir-birini tanımırdı, birbaşa döyüş meydanına aparıb, öz aranızdan komandir seçib, hansısa mövqeyi qoruyun deyirdilər". Onun sözlərinə görə hamı onu bilirdi ki, kənd istiqamətində hücum gözlənilir, müdafiə təşkil etmək lazımdır. "Lakin əlverişli mövqe tutmaq məsələsində fikir birliyi yox idi. Biri deyir bura qalxmayaq, o biri deyir bura qalxaq, dəstəmiz uzun müzakirədən sonra iki yerə bölündü. Bir yarısı dedi ki, gedirik, o biri yarısı dedi ki, getmirik, yanımızda bir zabit də yox idi ki, desin nə etmək lazımdır. Nəhayət, qərara gəldik ki, iki kənd arasında ucalan dağın zirvəzində mövqe tutaq. Sonradan məlum oldu ki, bu yol Füzulidən Şuşaya gedən yoldur. Hər yandan atəş səsləri gəlirdi. İkinci gecə yaxınlıqdakı mövqedə telefonu olan birinə zəng gəldi ki, on dəqiqə müddətində mövqeləri qoyub geri çəkilmək lazımdır. Tez-tələsik müdafiə olunmaq üçün apardığımız silah və sursatın böyük hissəsini qoyub getdik. Gecə ilə apara bilməzdik, bilmirdik hara və niyə gedirik. Təkcə onu eşidirdik ki, başqa postlardan türk girib, türklər gəlir, Tuğu tutublar deyə qışqırırdılar. Susanlıqda səkkiz nəfərlik qruplara bölünüb gecə mühafizəni təşkil edirdik. Səhər açılanda vəziyyətə bələd olduğunu iddia edən və bu kənddən olan bir zabit məlumat yaydı ki, Tuğ geri alınıb. Axşam bizimkilərdən bir neçə nəfər kəndin aşağı hissəsinə endi və gördülər ki, Türklər gəlir, atışma başladı. Zabit generala zəng edib ki, nə edək, cəmi otuz nəfərik kəndi necə saxlayaq. Oradan isə deyirlər ki, tez Binə istiqamətinə çıxın. Bu kənd də artıq boşaldılmışdı, cəmi üç-dörd sakin var idi. Yüksəklikdən Böyük Tağlar kəndinin necə raket atəşinə tutulduğunu görürdük. Hər zərbədən sonra evlər dağılırdı, yəqin Smerçlə vururdular. Kənd yanırdı, düşünürdük ki, növbəti zərbə Binə üzərin də olacaq. Geri çəkilməyə davam etdik və Köhnəkənd kəndinə çatdıq. Bizdə artıq məlumat var idi ki, Ziyarət dağının qarşı tərəfində yerləşən kəndlər də, Çaylaqqala, Köhnə Tağlar da onların əlindədir. Tiqran söyləyir ki, onun dəstəsi kimi sahibsiz qalmış bir çox könüllülər silahlarını təhvil verib Yerevana qayıdırdılar. Onun dəstəsini və bir neçə eyni vəziyyətdə olan başqa dəstələri silahlarını təhvil verib Ermənistana qayıtmaq üçün Əskərana aparırdılar. Lakin Əskəranda hərbi komandanlıq ehtiyat və könüllü döyüşçülərə təlim keçmək qərarına gəldi. Ancaq dörd beş gün sonra onlar heç kimin yadına düşmürdü, ondan sonra bir polkovnik gəlib, otuz nəfərdən doqquz nəfəri seçib, özü ilə Laçın meşələrini düşməndən təmizləməyə apardı. Başqa bir hərbi hissəyə getdik, bu polkovniki bir daha orada görmədik, heç bir döyüş hazırlığı keçmədik, dörd günü işsiz, gücsüz və bekar keçirdik. Laçında başqa döyüşçülərdən də tərtib edilmiş dəstələr ilə oktyabrın 31-də Şuşanın müdafiəsi üçün Daşaltı kəndinə gəldik. Həmin vaxt Azərbaycan qoşunları artıq Şuşanın bir neçə kilometrliyində yerləşən Sığnaq kəndinə daxil olmuşdular. Daşaltı kəndində şiddətli atəş altında mövqe tutmağa çalı-

şırdıq, on metr o yana, on metr bu yana hərəkət etmək təhlükəli idi. Bundan başqa şayiələr dolaşırdı ki, düşmən əsgərləri erməni hərbi paltarlarını geyinib və təmiz erməni dilində danışırlar. Belə olan halda bir-birini tanımıyan erməni əsgərlərinin özlərinə atəş açmaq təhlükəsi var idi. Artıq noyabrın 3-də Azərbaycan qoşunları tərəfindən Laçından Şuşaya və Xankəndinə gedən yol bağlanmışdı. Biz düşməni Sığnaq tərəfdən Daşaltı istiqamətində gözləyirdik, lakin onlar isə Şuşaya Turşsu tərəfdən yaxınlaşmışdı. Avtomat səsləri Şuşanın Laçın tərfindən girəcəyindən gəlirdi. Baş nazirimiz Nikol Paşinyan isə noyabrın 9-da feysbukda Şuşa uğrunda döyüşlərin davam etdiyini yazmışdı, lakin Şuşa noyabrın 6-dan Azərbaycan qüvvələrinin nəzarətində olub".

**Ermənistan ordusunun ehtiyatda olan polkovnik-leytenantı Vartan Vartanyan qeyd edir:** "Ordu belə bir zərbəyə hazır deyildi. Çünki heç kim muzdlu əsgərlərin, türklərin döyüş təyyarələrinin və bu qədər PUA-ların olacağını xəyal etmirdi. 2016-cı ildə də təyyarələr var idi. O zaman ancaq azərbaycanlılar var idi və biz bunu etdik, bunu indi də edə bilərdik. 45 ildi demək olar ki, elə tək vuruşuruq. Əgər Qərb ilə olsaydıq, bunların heç biri olmazdı. Bəlkə də bilmirəm, ancaq bunu bitəhər yoxlamalıyıq, elə deyilmi? Çünki Rusiya həmişə bizi aldatdı, qoy amerikalılar da bizi bir dəfə aldatsın, niyə də olmasın?. Rusiya 300 ildi bizi aldadır, niyə amerikanın bizi bir dəfə aldatmasına icazə verməyək, bunun nəyi pisdi? Baş nazirin bununla nə əlaqəsi var? O, iki ildi baş nazirdi, iki il yarım. Sən bilirsən silah necə alırlar? Mağazaya getmək kimi deyil, sənə pul verirəm, sən də mənə qəbz verirsən, mən də ərzaqla gedirəm. Xeyir, silah sifariş vermək lazımdır. Çatdırılmasına illər lazımdı. Bu silahdan istifadə etmək üçün mütəxəsislərin hazırlanmasına illər gərəkdir. Sən nə danışırsan, əzizim. 30 ildi oğurluq edirlər, düz otuz il, buna görə də Rusiyaya kinim var. Rusiya Ermənistanın soyulmasına icazə verib".

**Müharibədə könüllü iştirak edən Qor Ohanesyan qeyd edir:** "Siyasətçilərimizin nə düşündüyünü bilmirəm. Amma bir Ermənistan vətəndaşı kimi Rusiyanın köməyinə ümid bəsləmə-



dim. Başqasının köməyinə arxalanmaq səhvdir, heç kimin Ermənistana heç bir borcu yoxdur. PUA-ların necə işlədiyini və onlara qarşı heç bir qorunmamızın olmadığını görəndə bu müharibənin dayandırılmalı olduğunu başa düşdüm. Arxadakı vətənpərvərlər qalib gələcəyik, irəli və s. qışqırırdılar. Çünki, bilirsiz, başınızı divara çırpdığınız zaman başınız ağrıyır, divar zərər görmür. Belə olanda geri çəkilmək daha yaxşıdır. Özünüzə bir toxmaq tapıb bu divara toxmaq ilə hücum etmək lazım idi. Təəssüf ki, o an əlimizdə tutacaq bir toxmaq yox idi".

İkinci Qarabağ müharibəsində qeyri-qanuni olaraq könüllü iştirak edən Ermənistan vətəndaşı Yerevan şəhər sakini **Vladimir Vardanyan** "Bi-bi-si" televiziya kanalına müsahibəsində qeyd edir: "Hələ aprel döyüşləri zamanı da müraciət etmişdim, lakin alınmadı, aparmadılar. İndi iştirak etməsəydim özümü çox pis hiss edərdim. Müharibəyə könüllü getdiyimi ailəmə deməmişəm, valideynlərimin xəbəri olmayıb. Könüllü getdiyimi bilsəydilər əminəm ki, qoymazdılar. Qarabağa döyüşlərə getmə səbəbini belə izah edir, ömründə bir dəfə də olsun Qarabağda olmayan, bu gözəlliyi görməyən bunu başa düşə bilməz. Mənim hərbi xidmətim Xankəndində keçib, bu gözəlliyi görmüşəm. Müharibə vaxtı biz Xankəndinə girəndə artıq ağacların başı yanırdı, çünki bizim hava hücumundan müdafiə sistemi sıradan çıxarılmışdı. O mənzərəni görəndə mən düşündüm ki, nə baş verir, bu heç də hamının düşündüyü kimi deyil, daha ciddi, daha təhlükəli idi. Elə ilk andan düşündüm ki, mən buradan qayıdacağıma dair ümidimi tamam itirməmişdim, amma anladım ki, buradan sağ çıxmaya da bilərəm. Əlbəttə, son nəfəsə qədər döyüşərdik, lakin o vəziyyəti görəndə artıq anlayırsan ki, başqa imkan yoxdur, ya onlar, ya da biz vəziyyəti dəyişirik.

Mən bu müharibənin gec-tez başlamasına inanırdım, mənim üçün müharibənin başlaması gözlənilməz deyildi, amma gözləmirdim belə tez və belə böyük miqyasda başlasın. Mənim üçün fərqi yoxdur hansı miqyasda başlayıb. Mən müharibədə qorxu hissinin olmasını normal sayıram. Qorxu, bəli qorxu hissi var idi. Hamıda

var idi, bu normal haldı. Gərək heç nə başa düşməyəsən ki, heç qorxmayasan. O çaxnaşmada gözünün önün də insanlar həlak olur. Əlbəttə, qorxu hissi mövcuddur. Digər tərəfdən də könüllünün gedib əsgərlər ilə səngərdə çiyin-çiyinə dayanması onları ruhlandırır və sən özündə bundan ruhlanırsan. Bəli, anlayırdıq ki, vəziyyət çətindir, lakin hər necə olsa da ümidimizi itirmirdik, sona qədər vuruşmağa çalışmışıq, vəziyyəti düzəltmək üçün mümkün olan bütün imkanlara əl atmışıq.

Mən müharibənin başlamasından bir neçə gün sonra - oktyabrın 2-də gündüz saat 15.00 radələrində Suqovuşanda yaralanmışam. Bizə geri çəkilmək əmri verdilər ki, böyük sayda azərbaycanlılar Suqovuşana yaxınlaşır. Bizim döyüşçülər maşınlara minib Yeniliklər adlanan mövqelərə yollandılar. Onların maşınlarını mövqelərə çatmamış vurdular. Dəstəmizlə Suqovuşanda qalmışdıq, 8-9 nəfərlə ərazini saxlamaq mümkün olmadı. Maşınların yanına getmək qərarına gəldik, çünki yaralılar, yardıma ehtiyacı olanlar ola bilərdi. Biz oraya çatanda nəzarət atəşi açdılar, mən o zaman yaralandım. Huşumu itirməmişəm, xəstəxanaya çatana kimi huşumu itirməmişəm. Düşündük ki, burada qalsaq ya ölərik, ya da əsir düşə bilərik. Ağdərə tərəfə getmək qərarına gəldik, gedəndə yenə arxamızca mərmilər atırdılar, gizlənə-gizlənə yolumuza davam etdik. Mən artıq hiss edirdim ki, yola davam edə bilməyəcəm. çoxlu qan itirmişdim. Yoldaşlarım qolumu sarımışdılar, lakin qan dayanmırdı, belə vəziyyətdə uzun yol getmək mümkün deyildi. Bir an gücdən düşüb yıxıldım, amma huşumu itirməmişdim. Sona qədər ümidim var idi ki, qolumu saxlaya bilərlər. Əməliyyat masasında həkimdən soruşdum ki, qolumu saxlaya bilərsinizmi, o dedi "yox". Mən onun niyə belə dediyini anladım. Məncə qolumu xilas edə bilərdilər, lakin o uzun müddət vaxt tələb edirdi. Bu müddətdə digər 2-3 yaralının ömrünü xilas etmək olar. Belə olan halda ən düzgün qərar amputasiya etmək və bir neçə yaralının həyatını xilas etmək istəyiblər. Qoy belə olsun, zərər yoxdu, mən indi protezləyəm, amma əvəzində bir neçə gəncin həyatı xilas olunub. Həkim "yox" deyəndə soruşdum heç olmasa məni xilas



etmək mümkündümü, "nə deyim, aparın" dedi.

44 gün davam edən İkinci Qarabağ müharibəsi haqqında razılaşmanı dostum zəng edib demişdi. Həmin anda həm yaxşı, həm də pis tərəflərini nəzərdən keçirdim. Orada olmuş adamlar anlayır ki, müharibə bir müddət də davam etsəydi o qalanlar da qalmayacaqdı. Müharibədən sonra Qarabağdan qayıdanlarda qayıda bilməzdi, çünki arxa sınmışdı, imkan yox idi, azərbaycanlıların qarşısını almaq mümkün deyildi. Hamı çox yaxşı bilirdi ki, Şuşanı almaq o qədər də asan deyil, lakin bir halda ki, onlar Şuşaya çatmışdılar, Xankəndinə çatmaq üçün onlara dəqiqələr tələb olunurdu. Biz qalib gələ bilməzdik, bu birmənalıdır. Kimsə elə bilir ki, biz bu müharibədən qalib çıxa bilərdik, o, nağıl janrı həvəskarıdır. Amma hər necə olsa da biz qalibik, çünki 44 gün o qədər qoşuna qarşı vuruşmuşuq.

O, bir daha azərbaycanlılar ilə birgə yaşaya bilməyəcəyini bildirir, hesab edir ki, bu iki xalq arasında sülh mümkün deyil. Sovet dövründə iki xalq bir yerdə yaşayıb, bəli, bu olub, mən şəxsən onlar ilə bir yerdə yaşaya bilmərəm, çünki mənim üçün onlar həmişə düşmən ölkə olub. Sülh ola bilər, ancaq ya onlar olmalıdı, ya da biz. Sülh bu təqdirdə mümkündür, çünki həmişə fikir ayrılığı, ziddiyyət olacaq, torpaqlar, ərazilər ilə bağlı, hər tərəfin öz mövqeyi var. Azərbaycanlılar bizə xəritələr göstərir ki, bu bizim ərazilərdi, biz razı deyilik və bu əsrlərlə davam edə bilər, ya da güzəştlər olmalıdır. Lakin bizim güzəşt etməyə yerimiz yoxdur, bizim bu müharibədən sonra güzəştlərimiz də olmamalı idi, lakin bu məcburən oldu".

Qarabağ müharibəsində düşmən ordusunda xarici muzluların, diaspora ermənilərinin iştirakı sirr deyil. Artıq bunu ermənilərin özləri də etiraf edirlər. **Amerikada doğulan, şərti adı Ceyms** olan qırx yaşlı erməni ötən il Tağıverdilər və Qırmızıbazar kəndləri istiqamətində gedən döyüşlərdə iştirak edib. O, terrorçu VOMA hərbi birləşmələrinin sıralarında Azərbaycan Ordusuna qarşı vuruşub.

O, qeyd edir ki, nə vaxtsa Qarabağda yenidən müharibənin başlayacağını təxmin edirdim, amma cibimdə ABŞ pasportu ilə döyüş

meydanında olmaq problem yarada bilərdi. VOMA-nın on günlük təlimlərinə qatılaraq ordunun strukturunu öyrənmək istəyirdim. Amerikada avtomobilimi, digər mülklərimi satandan sonra Ermənistana bilet aldım. Bura gələndə Ermənistan pasportum artıq hazır idi. Həmin gün müharibə başladı. Amerikalı muzdlu cəbhəyə sanitar kimi yollansa da ilk gündən əlinə silah aldığını deyir. O, bildirir ki, PUA "Bayraqdar TB2"-lər onların yerini təyin edə bilməsin deyə smartfon telefondan istifadə etməyiblər. Amma buna baxmayaraq Ermənistan ordusunda ölənlərin sayı günü-gündən çoxalır, müharibənin bitəcəyi barədə şayiələr yayılırdı. Müharibə daha çox davam etsəydi, hərbçilərimiz bir o qədər təcrübə toplayardı. İndi isə belimiz qırılıb, biz bununla barışa bilmərik. Əlavə olaraq qeyd edir ki, müharibənin bitməsindən bir il vaxt keçməsinə baxmayaraq, hələ də Ermənistandadır, orada yaşayır və müharibədə aldığı xəsarətlərə görə müalicə olunur.

### Vətən müharibəsinin nəticələri

XX əsrin sonlarında Sovetlər birliyinin çökməsi ilə müstəqilliyini bərpa edən Azərbaycan xalqı böyük problemlər ilə üzləşdi. SSRİ dağılsa da müstəqillik əldə edən respublikaları təsir altında saxlamaq məqsədilə Kreml tərəfindən millətlərarası zəmində münaqişələr yaradılır və onlar sünii şəkildə alovlandırılmaqla həmin ölkələrə problemlər yaradılırdı. Belə hal demək olar ki, Baltikyanı ölkələrdə, Moldovanın Dnestryanı, Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrində, Orta Asiya respublikalarında, Qazaxıstanın Almaatı şəhərində, Özbəkistanın Fərqanə, Qırğızıstanın Oş vilayətlərində, Krımın ilhaqı, eləcə də Ukraynanın şərqində Donetsk və Luqansk bölgəsində baş verən silahlı münaqişələr və onların bir çoxunun hələ də öz həllini tapmaması bir mərkəzdən idarə olunan oyunların həlqələridir.

Azərbaycan həmin problem ilə 1988-ci ilin fevralından üzləşib. Qarabağda yaşayan ermənilər əsassız tələblər irəli sürərək Ermənistana birləşmək şüarları ilə çıxış edərək Xankəndində mitinq



keçirmişlər. Sovetlər birliyinin o zaman hakimiyyətdə olan rəhbərlərinin məsələyə loyal yanaşması, ikiüzlü siyasəti və Azərbaycana qarşı ədalətsiz yanaşması səbəbindən erməni faşizmi, riyakarlığı, beynəlxalq terror təşkilatlarının "asala" və "daşnak"ların tör-töküntüləri, eləcə də dünyanın inkişaf etmiş ölkələrində ABŞ və Fransanın siyasi dairələrinə təsir imkanlarına malik olan erməni diaspora təşkilatları Cənubi Qafqazın baş bəlasına çevrildilər. Bu regionda maraqları olan ölkələr ermənilərin əli ilə regiona təsiretmə imkanı əldə edir və ermənilər isə həmin ölkələrin və beynəlxalq təşkilatların vasitəsilə uydurma və cəfəng ideyalarının gerçəkləşməsinə çalışırdılar. Əlbəttə, Kremlin dəstəyi olmadan bu mümkün olmazdı. Ermənilər havadarlarının dəstəyilə XX əsrdə müxtəlif vaxtlarda ən azı üç, son dəfə isə 1988-ci ildə Ermənistan ərazisində yaşayan azərbaycanlıları tarixi torpaqlarımızdan İrəvan xanlığının, Göyçə və Zəngəzurun ərazisindən zorla qovdular. Bununla da ermənilər etnik təmizləmə siyasəti həyata keçirdilər, 400 min azərbaycanlını soyuq qış günlərində məcburi Azərbaycana üz tutdu, çünki başqa gedəcək yerləri yox idi. Proseslər get-gedə dərinləşir və dönməz xarakter alırdı. Baş verən haqsızlığa və ədalətsizliyə dözməyən, bütün dünyaya haqq səsini ucaldan xalqımıza qarşı 1990-cı ilin 20 yanvarında qanlı faciə törədildi. Əli yalın dinc əhaliyə qarşı Bakı və digər şəhərlərə tanklar, silahlı qoşun birləşmələri yeridildi. Dinc insanlar qətlə yetirildi, lakin xalqımızın azadlıq eşqini boğa, onun mübarizlik əzmini qıra bilmədilər. Nəticədə, 146 nəfər həlak oldu və 744 nəfər yaralandı. Bu illərdə azadlıq yolunda çox şəhidlər verdik, onlar bizim and yerimizə çevrildi. Çox keçmədi ki, 1991-ci ilin sonlarında Sovetlər birliyi çökdü. Azərbaycana qarşı Qarabağda erməni seperatizmi genişləndi və daha da azğınlaşdı. Ermənistandan azərbaycanlıları zorla qovan ermənilər etnik təmizləmə siyasəti həyata keçirir və həmin taktikanı Qarabağda da tətbiq edirdilər.

Vəziyyət dözülməz idi, hələ Sovetlər birliyi dönəmində azərbaycanlılardan ov tüfəngləri yığılır, ermənilər isə əl altından gizli silahlandırılırdı. Qarabağın ərazisində yerləşən 366-cı motoatıcı

alayın silahlarını ələ keçirən və orada vaxtı ilə xidmət edən ermənilər onu dinc əhaliyə qarşı istifadə etdi və 1992-ci il fevralın 26-da Xocalı faciəsi törədildi. Dinc əhaliyə, günahsız insanlara divan tutuldu, 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla 613 Xocalı sakini qətlə yetirildi. Xocalı faciəsi xalqımızın qan yaddaşına əbədi olaraq yazıldı, düşmənlər və onu törədənlər bilsin ki, biz Xocalını heç bir zaman unutmayacağıq, bizə Xocalını heç kim və heç bir qüvvə unutdura bilməyəcək. Xocalıda da bütün ərazilərimizdə olduğu kimi Azərbaycan bayrağı dalğalanacaq.

Hələ ötən əsrin 90-cı illərin əvvəllərində cəbhədə döyüşlər şiddətlənir, taktiki üstünlük gah Azərbaycanın, gah da Ermənistanın tərəfinə keçirdi. Belə vəziyyətdə daxildə hakimiyyət uğrunda mübarizə gedir, xarici qüvvələr isə bundan məharətlə istifadə edirdilər. Nəticədə, yaranmış boşluqdan istifadə edən ermənilər Qarabağ və ona bitişik yeddi rayonu işğal etdilər. Rusiyanın vasitəçiliyilə Bişkekdə 1994-cü ilin mayında müvəqqəti olaraq cəbhədə atəşkəs razılığına gəlindi, lakin bu, problemi həll etmədi və münaqişə donduruldu. BMT dörd məlum qətnamə qəbul etdi, Ermənistan qeyri-şərtsiz silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmalı və işğala son qoymalı idi. Lakin ermənilər dünyanın gözü önündə bunu icra etmədilər. Həmçinin Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinin həlli üçün üç ölkənin: ABŞ, Fransa və Rusiya Federasiyasının həmsədrliyi ilə ATƏT Minsk qrupu yaradıldı. Minsk qrupu götürdüyü öhdəçiliyi yerinə yetirmədi, münaqişənin həllini nə qədər uzatmaq mümkün oldusa, o qədər də uzatdı, eləcə də işğalçı ilə işğala məruz qalana eyni yanaşdı. Azərbaycan Ordusu 1994-cü il yanvarın əvvəllərində Horadiz istiqamətində əks-hücum əməliyyatı keçirərək qısa müddətdə Horadiz şəhəri də daxil olmaqla bir neçə yaşayış məntəqəsini işğaldan azad etdi. Ermənilər döyüş meydanından qaçır, radiostansiya ilə açıq şəkildə efirdə kömək istəyir və yalvarırdılar. Ermənilərin havadarları artıq anlamışdılar ki, tezliklə atəşkəsə getmək və münaqişənin həllini dondurmaq lazımdır, əks-halda Azərbaycanın qarşısını almaq mümkün olmayacaq. Məsələnin dinc yolla həllinə üstünlük verən



Azərbaycan tərəfi də 1994-cü ilin mayında cəbhə xəttində atəşkəsin əldə olunması üçün Bişkek protokolunu imzaladı. Müxtəlif vaxtlarda təmas xəttində gərginliklər və döyüş toqquşmaları baş verdi. Münaqişənin həllinin uzunması ermənilərə imkan verdi ki, işğal olunan ərazilərdə mühəndis-istehkam işləri görsün və Xocalı soyqırımının cəlladlarından biri olan Ermənistan ordusunun sabiq müdafiə naziri Seyran Ohanyanın adı ilə bağlı "keçilməz Ohanyan" səddi və s. yaratsınlar. Ermənistanda daxili gərginliyin qarşısını almaq məqsədilə, havadarlarının da dəstəyini alan ermənilər zaman-zaman cəbhədə atəşkəsi pozur, "qalib ordu" imici altında ermənilər Azərbaycana psixoloji təsir göstərməyə çalışırdılar. Hər iki tərəf də ordu quruculuğuna diqqət yetirir, ordunu müasir silahlar ilə təchiz edirdi. Erməni tərəfi düşünürdü ki, münaqişənin həllini nə qədər uzatsa, o qədər onun üçün faydalı olacaq. Qərb dairələri və ermənilər münaqişənin hərb yolu ilə həllinin olmadığını dilə gətirir və hesab edirdilər ki, Qarabağ münaqişəsinin müharibə yolu ilə həllinə gənc nəsil laqeyd yanaşacaq. Danışıqlar uzun müddət davam etdi, lakin konkret həll yolu tapılmadı, beynəlxalq təşkilatlar və xüsusilə Minsk qrupu bu illərdə vəzifəsinin öhdəsindən gəlmədi və ya gəlmək istəmədi.

Uzun illərdən sonra 2016-cı ilin aprelində cəbhə xəttində iki istiqamətdə böyük döyüş toqquşması baş verdi və ermənilərin "qalib ordu" imicinə və "keçilməz Ohanyan" səddinə zərbə vuruldu. "Ohanyan səddi" 24 dəqiqə ərzində yarıldı, düşmənin döyüş mövqeləri, cəbhənin cənub istiqamətində Lələtəpə, şimal istiqamətində Goranboy rayonunun ərazisində bir neçə adsız yüksəklik ələ keçirildi. Ermənistan ordusu və cəmiyyəti Aprel döyüşləri zamanı aldığı zərbələrdən şok yaşadı, Rusiyanın vasitəçiliyilə döyüşlər dayandırıldı. Lakin Ermənistan ordusunun bir çox vəzifəli şəxsləri kəşfiyyat, arxa cəbhə və hərbi polis idarələrinin rəisləri vəzifələrini itirməli oldular. İllərdi ifrat millətçilik və yalan üzərində qurulmuş saxta dövlətçilik dayaqları laxladı və Ermənistanda inqilab baş verdi. İnqilabın nəticəsində 2018-ci ildə Paşinyan hakimiyyətə gəldi. Hamı ondan münaqişənin həllinə konstruktiv yanaşma göz-

ləyirdi halda o, hakimiyyətini möhkəmləndirəndən sonra cəfəng bəyanatlar verir, hələ bu azmış kimi, xalqımızın heysiyatı ilə oynayırdı. Şuşada spirtli içki qəbul edib Cıdır düzündə rəqs etməsi, eləcə də "Qarabağ Ermənistandır, nöqtə" deməsi səbir kəsasını daşdırdı. Danışıqlar dalana dirəndi və cəbhədə təmas xəttində atəşkəsin pozulma halları intensivləşdi. Artıq yaranmış vəziyyətdə müharibənin başlama ehtimalını bütün aparıcı ölkələrin politoloqları dilə gətirir, amma nəticələri barədə fikir söyləməkdə çətinlik çəkir və ya bilərəkdən yayınırdılar.

Gözlənilən oldu! Vətən müharibəsi 44 gün davam etdi və onun nəticələri artıq məlumdur. Açıq şəkildə qeyd etmək lazımdır ki, 30 ilə yaxın dünya birliyinin, xüsusilə Minsk qrupunun etmədiyini Azərbaycan özü etdi və işğala son qoyuldu. Azərbaycan dövləti bütün dünyaya öz gücünü nümayiş etdirdi və Cənubi Qafqazın lider dövləti olduğunu bilavasitə döyüş meydanında isbat etdi. İllərdi müdafiə xərclərinə ayrılan maliyyə vəsaitinin əbəs olmadığını, "güclü ordu güclü dövlət" anlayışını bir daha dünyaya isbat etdi. "Qarabağ münaqişəsinin hərb yolu ilə həlli yoxdu" deyən dairələrin arzularını və istəklərini alt-üst etdi. Beynəlxalq aləmdə Azərbaycanın nüfuzu artdı, Vətən müharibəsi günlərində dünyanın diqqəti Azərbaycana yönəldi. Azərbaycan hökuməti bir daha dünyaya haqsızlığa və ədalətsizliyə, dövlət maraqlarına cavab verməyən ikiüzlü siyasətə, eləcə də dünyanın güclü dövlətlərinin təhdidlərilə barışmayacağını göstərmiş oldu.

Azərbaycan Ordusu uzun illər işğalda qalan əraziləri azad etməklə Azərbaycan xalqının gücünü və birliyini hamıya nümayiş etdirdi. Dünya azərbaycanlılarının şanını və şöhrətini artırdı, yaşadığı ölkələrdə başını uca etdi. Xalqımızın dünya tarixinə, mədəniyyətinə və hərb tarixinə töhfələr verdiyini göstərdi. Qədim tarixə və dövlətçilik ənənələrinə malik olan ölkəmizin səbri, iradəsi qarşısında erməni təcavüzü, faşist ideologiyası tamamilə çökdü. Uydurma, saxta erməni ideologiyası ilə yanaşı, Ermənistanın iqtisadiyyatı iflasa uğradı. Diaspora təşkilatlarının ianələri və Rusiyanın



verdiyi sözdə kredit, əslində isə hədiyyə etdiyi silahlar hesabına formalaşan, faşist Nijde və dövlət terroru ideologiyasının daşıyıcısı olan erməni ordusu ağır zərbə aldı. Aparıcı mütəxəssislərin düşüncələrinə görə, işğalçı ordunun yenidən bərpası üçün bir neçə il və maliyyə vəsaiti tələb olunur ki, bu da ermənistanda yoxdur. Vətən müharibəsi Ermənistanın bütün dayaqlarını sarsıtdı, onun işğalçılıq siyasətinin mahiyyətini bütün dünyaya göstərdi. İşğaldan azad olunan ərazilərin görüntüləri əsasında erməni vandalizminin mahiyyəti üzə çıxdı və onu sözlə ifadə etmək mümkün deyil. Ancaq işğal müddətində yaşayış məntəqələrini dağıtmaq, təbii sərvətlərini qeyri-qanuni mənimsəmək, mədəni və maddi irsi talamaqla məşğul olan işğalçı ölkə hansı üzlə dünyanın bərabərhüquqlu üzvü ola bilər və dünya da buna səssiz qalır. Məhz elə budur inkişaf etmiş mədəni dünya və onun ikiüzlü yanaşması. Qalib Azərbaycan əsgəri kimin kim olduğunu üzə çıxardı, biz dostu və düşməni bir daha yaxından tanıdıq.

Vətən müharibəsi zamanı özünü bizə mehriban qonşu kimi göstərən İran ermənilərə dəstək nümayiş etdirdi. Döyüş texnikası, silah və sursat Rusiyadan İrana, oradan da Qarabağa daşınırdı. İranda yaşayan soydaşlarımız buna etiraz edərək döyüş texnikalarını yandırıb həmin görüntüləri Vətən müharibəsi günlərində sosial şəbəkələrə yerləşdirdilər. İran məkirli və riyakar siyasətini gizlədə bilmədi, Azərbaycana qarşı mehriban qonşuluq münasibətlərinin əsl mahiyyəti üzə çıxdı. Əlbəttə, biz bunu bilirdik, İranda yaşayan vətənsevər soydaşlarımız həyatını təhlükəyə ataraq Azərbaycan xalqına, əsgərinə birlik nümayiş etdirdi və səssiz qalmadılar. Onlar da bilir ki, azadlıqları fars rejiminə qarşı mübarizədən keçir və biz də daima onların yanındayıq.

Münaqişənin həlli ilə bağlı aparılan danışıqlar prosesində ermənilərin əsassız olaraq müstəqillik tələb etməsi və azərbaycanlılar ilə bundan sonra birgə yaşayışın mümkün olmadığını şərt olaraq irəli sürmüşlər. Bu, danışıqların nəticəsiz qalmasına və bilərəkdən vaxtın uzadılmasına hesablanmış fəaliyyət idi. İndi işğaldan azad olunmuş ərazilərin görüntüsü hər şeyi açıq nümayiş

etdirir. Ermənilər bizimlə birgə yaşaya bilməzlər deyirlər, məgər azərbaycanlılara məxsus olan hər şeyi dağıdan, talayan, məhv edən, vəhşilik və barbarlıqla məşğul olan bir millətlə biz birgə yaşaya bilərik? Əlbəttə ki, yox! Onlar bütün bu etdiklərinə görə cavab verməlidir, havadarları Vətən müharibəsində necə dəstəkləyə bilmədilər, gücsüz qaldılar, bundan sonra da elə olacaq.

Vətən müharibəsi XXI əsrin müasir döyüşlərin nümunəsini nümayiş etdirdi. İndi bütün dünyanın inkişaf etmiş ölkələrində həmin döyüş taktikası öyrənilir. NATO üzvü olan ölkələrdə ABŞ, İngiltərə, Fransa, Almaniya, Kanada, İtaliya və Polşa ordularında, KTMT üzvü olan ölkələr, xüsusilə Rusiya və Belarusiyada, eləcə də uzaq Şərqdə - Çin və Yaponiya da Azərbaycanın təcrübəsini öyrənirlər. Oxşar münaqişə ilə üzləşən Ukrayna, Gürcüstan və Moldova həmin təcrübədən yararlanmaq və əməkdaşlıq etmək istəyir. Həmin təcrübənin öyrənilməsi dünyanın nüfuzlu mətbuat orqanlarında, televiziya kanallarında, jurnallarda və hesabatlarda öz əksini tapır. Vətən müharibəsindən bir il keçməsinə baxmayaraq, ona maraq hələ də yüksək səviyyədədir. Çünki tanınmış politoloqların və hərbi ekspertlərin Vətən müharibəsi haqqında verdikləri məlumatlar hələ uzun illər həmin təcrübənin öyrənilməsini nümayiş etdirir.

Hərb tarixində bəlli təməl əsaslar var ki, hamı onunla razılaşır. Məsələn, hücum edən tərəfin itkiləri müdafiə olunan tərəfin itkilərindən çox olmalıdır və s. Lakin Vətən müharibəsi həmin prinsipi alt-üst etdi. Ermənistan 3800 yaxın itkisinin olduğunu rəsmən açıqlasa da, realıqda bu rəqəm 10 mindən çoxdur. Ermənistan tərəfi Qarabağ ermənilərinin itkilərini və xarici ölkələrdən gəlib vuruşan terrorçuları həmin siyahıya daxil etmir və gizlədir. İtkilərimiz hazırda 2908 nəfər şəhid və 6 nəfər itkin düşmüş hesab olunur. Azərbaycan Ordusu müasir yüksək texnologiya ilə hazırlanmış silahları tətbiq etməklə, çətin keçilən mürəkkəb relyefə malik olan, eləcə də uzun müddət müdafiəyə hazırlanmış ərazidə əməliyyat keçirdi. Əks-hücum keçirən tərəf olsa da itkilərin az olmasının əsas səbəbi düşmənlə daha çox təmas olmadan zərərvurma



vasitələrinin tətbiqinə üstünlük verməsi olmuşdu. Təmas xəttinin yarılması, əməliyyatın dərinliyə inkişaf etdirilməsi, strateji yüksəkliklərin ələ keçirilməsi və ehtiyatların döyüş tətbiqindən əvvəl məhv edilməsi, əməliyyatın havadan və qurudan uğurlu icra edilməsi üçün havada üstünlüyün ələ keçirilməsi, düşmənə atəşlə zərərvurmanın kompleks şəkildə bütün zərərvurma vasitələrinin imkanlarını nəzərə almaqla icra edə bilmə, əməliyyatın güclü radioelektron mübarizə şəraitində planlanması və keçirilməsi, təbii və süni maneələr sistemini rəf edə bilmə, düşmənə qarşı qəfil zərbələri endirə bilmə idarəetmə orqanlarının və komandanlığın qarşısında duran əsas məsələlər olmuşdu. Bu gün həmin sualların cavabı artıq məlumdur. Həmin elementlərin hər biri ayrıca araşdırma mövzusudur, Vətən müharibəsinin hərb elminə verdiyi töhfələrdə hələ sirr olaraq qalmaqdadır. Müasir silahların və yüksək texnologiyanın olması hələ üstünlük demək deyil. Texnoloji amil döyüşlərin nəticəsinə nə qədər müsbət təsir göstərsə də insan amili hələ də öz rolunu qorumaqdadır. İlk dəfə hərb tarixində geniş tətbiq olunan Qarabağın fatehlərindən hesab olunan PUA "Bayraqdar TB2"nin yaradıcısı Səlçuk Bayraqdar qeyd edir ki, PUA-ları tətbiq və idarəedən qardaş ölkənin operatorları idi. Biz onlara və şəhidlərimizə minnətdar olmalıyıq. O da göründüyü kimi, insan amilini önə çəkir. Həmin düşüncələri daha da genişləndirmək üçün döyüş meydanında gördüklərimdən və PUA-ları tətbiq edən operatorların necə hazırlıqlı və bacarıqlı olduqlarını nümunədə nəzərdən keçirək. Cəbrayıldan Qubadlının Xanlıq kəndinə gedən uzunluğu hardasa 35 km təşkil edən yol var. Həmin yoldan düşmən ehtiyatlarını təmas xəttinə yaxınlaşdırmaq və təminat məqsədilə istifadə edirdi. PUA operatorları həmin yolu əvvəlcədən öyrənib yolun hansı hissəsində düşmənə effektiv zərbənin endirilməsini nəzərdən keçirmişdi. Yolun bəzi hissəsində endirilən belə zərbənin izlərini şəxsən müşahidə etmişəm. Birinci zərbə dərinlikdən irəliləyən ehtiyata, həmin yolda hərəkət zamanı görmək olur ki, KamAZ tipli avtobusla şəxsi heyət daşıyan düşmənin avtomobili yolun hamar hissəsi başa çatıb yoxuşa doğru olan hissəsində, yəni avtomobilin sürəti azalanda

endirilib. İkinci zərbə isə 4 ədəd avtomobildən ibarət olan sursat kolonuna yolun elə bir hissəsində endirilib ki, yolun hər iki tərəfində təpə silsilə şəklində uzanır. Zərbəyə məruz qalan avtomobil kolonu sağ və ya sol tərəfə yoldan çıxa bilməz, ancaq önə və ya geriyə doğru hərəkət edə bilərdi. Zərbədən sonra orada ancaq yanmış avtomobillərin qalıqları və ətrafa səpələnmiş 122 mm yaylım atəşli reaktiv sistemlərin mərmiləri qalmışdı. Həmin zərbənin endirildiyi yerlər PUA operatorları tərəfindən xüsusi olaraq seçilmişdi. Belə halları Vətən müharibəsinin "Dəmir yumruq" əməliyyatına cəlb olunan qoşun növlərinin hər birinə aid etmək olar.

Çətin keçilən mürəkkəb ərazi şəraitlərində, başlanğıcda düzənlik, sonra isə dağlıq və meşəlik ərazidə bütün qoşun növlərinin birgə tətbiqilə icra olunan əməliyyatın təşkili və aparılması nümunəsini, eləcə də müasir silahların tətbiqilə zəfərin əldə olunması nümayiş olundu. Düşmən üçün böyük əhəmiyyət kəsb edən Hadrutun və Şuşanın azad edilməsi onun belini qırdı, mənəvi gücünü sarsıtdı. Əməliyyatın sürəti, atəşin intensivliyi və dəqiqliyi düşməni təşvişə saldı, sağ qalması üçün meydanda silahını atıb qaçmağa məcbur oldu. Ermənistan tərəfi 10 min fərarinin olmasını etiraf etdi. Hərbi komandanlıq tərəfindən əməliyyatın planlaşdırılması zamanı düşmənə psixoloji təsir amilləri nəzərə alınıb, az itkilər ilə və qısa zamanda uğurlu nəticənin əldə olunmasına xüsusi diqqət yetirilib. Peşəkar və vahid komandanlıqdan idarəolunan ordunun apardığı əməliyyat nümayiş olunub, bununla yanaşı, döyüş meydanında tapşırıq icra edən komandirlərə sərbəstlik verilib.

Azərbaycan Ordusu Ermənistan ordusunu darmadağın etdi və iqtisadiyatını çökdürdü. Düşmənin illərdir yaratdığı ordunun döyüş texnikasının, tanklarının, artilleriya və HHM vasitələrinin böyük hissəsini məhv etdi. Təxmini hesablamalara görə Ermənistan ordusuna 4,2 milyard ABŞ dolları həcmində ziyan vurdu.

Uğurun əldə olunmasında əsas şərtlərdən biri də sutkanın istənilən vaxtı və hava şəraitlərində döyüş tapşırığını yerinə yetirə bilmə imkanı oldu. Məhdudgörmə şəraitində və gecə vaxtı icra olunan döyüş tapşırıqları düşmən üçün bir çox halda gözlənilməz oldu və



onun fəaliyyətlərini qabaqladı. Əlavə olaraq, düşmən ənənəvi klassik döyüş taktikasını gözlədiyi halda, tam əksinə, kiçik qruplar şəklində fəaliyyət göstərən və güclü atəşlə dəstəklənən qrupların fəaliyyətilə üzləşdi və o, praktiki olaraq buna hazır deyildi. Həmçinin düşmən uzun illərdi nəzərdən keçirdiyi və döyüşlərin gedə biləcəyi mümkün əraziləri uzunmüddətli müdafiəyə hazırladığı yerlərdən kənarda, hücumu başqa istiqamətlərdən icra etməsi düşmənin planlarını tamamilə çökdürdü. Ağdam və Füzuli istiqamətlərində aşkarlanan yeraltı bunkerlər və istehkam qurğuları buna bariz nümunədir.

Müasir döyüş taktikası ilə XXI əsr müharibələrinin modelinin təməlini və gələcək inkişaf istiqamətlərini qoydu. Dünyanın inkişaf etmiş ölkələrini hərbi doktrinalarını yenidən nəzərdən keçirməyə məcbur etdi. Müdafiə sənayesinin və ordunun müasir silahlar ilə təminatı sahələrini müəyyən etdi. Tankların və zirehli döyüş texnikalarının dominantlıq etdiyi eranın bitdiyini göstərdi. Azərbaycan Ordusu şəhidlər versə də döyüş təcrübəsi qazandı. Müasir döyüşlərin bilavasitə planlayıcısı və təşkilatçısı olan ölkəmizin qazandığı təcrübə ona böyük nüfus qazandırdı. Artıq onunla bir çox ölkələr barışır, xüsusilə Vətən müharibəsindən sonra qonşumuz İran qələbəni hələ də həzm edə bilmir. Müxtəlif bəhanələrlə özlərini qeyri-adekvat aparır və layiqli cavablarını da alırlar.

Torpaqlarımızı işğaldan azad etməklə iqtisadi gücümüzü artırdıq. Kənd təsərrüfatının və turizmin inkişafı üçün yararlı əraziləri, su mənbələrini, meşələri, qızıl və filiz yataqlarını azad etdik. Ən əsası isə uzun illərdi vətən həsrəti çəkən qaçqınların doğma elinə, obasına qayıtmasınana şərait yaradıldı. Vətən müharibəsində əldə etdiyimiz uğur Türk dünyasının son əsrdə qazandığı ən parlaq zəfərdir. Vətən müharibəsi Türk birliyinin güclənməsinə, hərbi və iqtisadi əlaqələrin genişlənməsinə təkan verdi. Azərbaycanın dostlarını və düşmənlərini həm daxildə, həm də xaricdə üzə çıxardı. Ermənistanın uğursuz dövlət olmasını sübut etdi.

Hərb tarixinin yeni mərhələsinin başlanğıcını qoydu. Müasir döyüş modelinə keçid edildi. Hibrid müharibələrinin tərkib hissəsi olan "yumşaq güc" amilinin, güc mərkəzlərinin hərbi doktrinalarının

əsasını təşkil edən ölkələri "daxildən fəthetmə" prinsiplərinin özünü doğrultmadığını əksinə, döyüş meydanında böyük hərbi gücün tətbiqi, xalqımızın birliyi və döyüşən orduya verdiyi dəstək həmin prinsiplərin artıq arxada qaldığını isbat etdi. Zülmlə üzləşən, torpaqları işğalda olan ölkələrə ümid oldu.

Azərbaycan əsgərinin zəhməti yerdə qalmadı. "Sən bacarmırsan, hərbi sənlik deyil, səndən döyüşən olmaz" deyənlərə o, əsl dərs keçdi. Vətən müharibəsinin şanlı zəfər tarixini yazdı. Azərbaycan əsgərinin əsl gücünü, Vətənə, xalqa bağlılığını bir daha bütün dünyaya göstərdi. Bədxahların, manеə olanların arzularını gözündə qoydu, Azərbaycan əsgərinin özünə inamını gücləndirdi, Türk dünyasının lokomotivinə çevrildi. Azərbaycan, Türkiyə və Pakistan xalqlarının qardaşlığını əbədiləşdirdi. Cənubi Qafqaz regionunda yeni sülh və əməkdaşlıq dövrünün başlamasına şərait yaratdı. Qonşumuz İranın məkrli, ikiüzlü olmasını bir daha aşkara çıxardı. Dünyaya mən də varam mənimlə hesablaşmalısan dedi. Türkiyə-Azərbaycan mərkəzli yeni Türk Dövlətlər təşkilatının yaranmasını sürətləndirdi.

Xalq-ordu birliyini gücləndirdi. Azərbaycan ordusunun şəxsi heyəti döyüş təcrübəsi qazandı. Işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsini təmin etdi.

Dünyanın tanınmış informasiya agentliklərinin nümayəndələrinin və blogerlərinin işğaldan azad olunmuş ərazilərə səfərini təşkil edib erməni barbarlığını öz gözlərilə görməsini və dünyaya tanıdılmasını təşkil etdi.

Qardaş və dost ölkələrin şirkətlərini Qarabağın quruculuğuna dəvət etməklə xarici sərmayənin ölkəmizə qoyuluşunu və işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasını, yaşayış binalarının, sosial obyektlərin eləcə də komunikasiya xətlərinin və infrastruktur obyektlərin tikintisini təşkil etdi.

Bütün dünyaya öz gücü ilə ədalətin bərpasını nümayiş etdirdi və bir daha sübut etdi ki, "Dünya beşdən böyükdür". Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan xalqı! Eşq olsun rəşadətli Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!



# MÜNDƏRİCAT


Ön söz ... 3
Vətən müharibəsi – Zəfər tariximiz ... 4
Xalqımızın ziyarətgahına çevrilən Ziyarət dağı ... 8
Xudafərin körpüləri işğaldan azad olundu ... 12
Hədəf Zəngilanı azad etməkdir ... 16
Vətən müharibəsi günlərinin poetik məqamları ... 21
Ey vətən oğlu ... 21
Topçu Yaşar ... 21
Uğurlu Hadrut əməliyyatı ... 23
Şuşa həsrətinə son qoyuldu ... 25
Tərtər Vətən müharibəsinin mübarizlik simvoludur ... 42
Strateji əhəmiyyətli Murovdağ silsiləsinin Vətən müharibəsində rolu ... 47
Vətən müharibəsində düşmənin başına raket və mərmi yağdı ... 50
Xüsusi təyinatlıların tarixi missiyası ... 56
Məzlumların xilaskarı, zalımların düşməni "Bayraqdar TB2" ... 60
Silahlı Qüvvələrin Hərbi Akademiyası Vətən müharibəsi günlərində ... 69
Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Vətən müharibəsində rolu ... 83
Vətən müharibəsinə qardaş dəstəyi ... 86
Vətən müharibəsinin xronologiyası ... 88
Zəfər günü və zəfər paradı ... 146
Hərbi qənimətlər parkı ... 154
Vətən müharibəsindən xatirələr ... 155
Göyçə həsrəti ... 162
Vətən müharibəsi ermənilərin gözü ilə ... 165
Vətən müharibəsinin nəticələri ... 172

Çapa imzalanmışdır: 01.03.2022.
Formatı: 60x84 1/16. Fiziki çap vərəqi 11.5.
Ofset çap üsulu. Sifariş 237. Tiraj: 300.

**Hazır materiallar əsasında**

ŞƏRQ QƏRB

**mətbəəsində çap edilmişdir.**
AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 370 68 03, 374 83 43
Faks: (+99412) 370 68 03, 370 18 49
www.eastwest.az